# «BİR ŞER BULAĞIYDIM…»

***(Şair Hüseyn Kürdoğlu haqqında məqalələr, xatirələr, şerlər)***

**Bakı – «Sabah» – 2005**

Redaktoru: **Şirindil Alışanlı**
Tərtib edəni: **İlham Alışanlı**

**«Bir şer bulağıydım…».**
Bakı, «Sabah», 2005, 364 s.

ISBN 5-86106-086-X

Kitaba görkəmli şair, şərqşünas alim və tərcüməçi Hüseyn Kürdoğlu haqqında elmi-publisist məqalələr, xatirələr və ona həsr edilmiş şerlər daxil edilmişdir.

47020602002
029 – 2005

© «Sabah» nəşriyyatı, 2005

# MƏQALƏLƏR

***Bəxtiyar Vahabzadə***
*Xalq şairi*

## YARADICILIQ YOLLARINDA

Universitetimizdəki ədəbiyyat dərnəyi öz işinə 1940-cı ildən başlamışdır… Hazırda bu dərnəyin 40 nəfərdən çox üzvü vardır. Gənclərdən Ağacavad Əlizadə, Kərim Quliyev, Hüseyn Kürdoğlu, Yaşar Qarayev, Famil Mehdiyev, Arif Cəfərov, Teyyub Qurbanov və başqaları dərnəkdə fəallıq göstərir və öz yeni şerləri ilə tez-tez çıxış edirlər. Onların yaradıcılığında ən mühüm cəhət, aktual mövzular seçmələrində və bu mövzuları duyub yaşamaq, sənətkarlıq nöqteyi-nəzərindən axtarışlar aparmaq meyllərindən ibarətdir.

… Hüseyn Kürdoğlu da ümid verən gənclərdəndir. Onun şerləri təbii, səmimi və axıcıdır. Gənc şair qələmə aldığı mövzunu dərindən duyub, yaşamadan yazmır. Bu cəhətdən onun «Yol üstündə tək qovaq», «Görüş xatirəsi», «İnanmıram», «Torağayım» və s. şerləri çox maraqlıdır.

Şair yazır:

*Bir gözəldən ilham aldım,*
*Dağ döşündə fikrə daldım,*
*Öz qəlbimi tutub çaldım,*
*Şair elər bu saz məni.*

Hüseyn Kürdoğlu «Görüş xatirəsi» şerində bizim ölkədə şerin, sənətin nə qədər yüksək qiymətləndirildiyini bədii lövhələrlə əks etdirmişdir…

«Lenin tərbiyəsi uğrunda»
(Azərbaycan Dövlət
Universitetinin orqanı) qəzeti,
1955, 22 oktyabr

## GƏNC POEZİYA

… Gənclərin yaradıcılığında məhəbbət mövzusu geniş yer tutur.

Xəlil Xəlilovun «Qopmuş düymə», Hüseyn Kürdoğlunun «Ünvanım olsun», Əli Kərimovun «İki məhəbbət», Şükür Xanlarovun «Sürücü», Rüfət Axundovun «Baxış» şerləri bu köhnə və həmişəyaşar mövzuya həsr olunub.

Mənim fikrimcə onların içində ən uğurlusu Hüseyn Kürdoğlunun «Ünvanım olsun» şeridir. Lirik şerin məzmunundan söz açmaq və onun bütün cazibəsini, poetik tapıntılarının gözəlliyini təsvir etmək çox çətindir. Bütün bunlar isə adı çəkilən və təəssüf ki, hələ rus dilinə tərcümə olunmayan şerdə var.

«Ünvanım olsun» böyük incəliklə, ölçü hissi ilə yazılıb. Əfsus ki, bu cəhətə bir çox lirik şerlərdə rast gəlmirik. Onlarda «bülbül cəh-cəh»i və digər trafaret sentimentallıq var, lakin əsl lirikaya xas olan zövq və duyum yoxdur…

«Literaturnıy Azerbaydjan» jurnalı,
1956, №1, s. 82.

*Qasım Qasımzadə*
*Şair, filologiya elmləri doktoru, professor*

# MƏTANƏT VƏ ZƏRİFLİK

*(H.Kürdoğlunun «Qaya çiçəkləri» kitabına ön söz)*

Şərq poeziyasında geniş yayılıb şöhrət tapmış rübai-dördlük forması zamanın minillik sınağından keçmiş şer şəkillərindən biridir. Bu forma öz təravətini, təsir gücünü ləyaqətlə qoruyub hifz etməkdədir. Xəyyam, Məhsəti poeziyası bu sahədə elə siqlətli, aydın və qocalmaz ənənə – irs qoymuşdur ki, hər şair rübaiyat aləminə yaxınlaşmağa cürət etməmişdir. Çünki rübai şairdən dərin zəka, sözə son dərəcə qənaət, fikrə son dərəcə genişlik vermək bacarığı tələb edir; müdriklik, fəlsəfi ümumiləşdirmə qabiliyyəti, klassik və folklor ənənələrindən yaradıcılıqla istifadə mədəniyyəti tələb edir. Təcnislə vəhdətdə yaranan rübaidə isə bu tələblər qat-qat artır.

Hüseyn Kürdoğlunun təcnisli dördlükləri dediyimiz şərtləri ahəngdar şəkildə əhatə edir. Mübaliğəsiz demək olar ki, klassik poeziya ənənəsinin yaşamağa qadir xüsusiyyətlərini də, Sarı Aşıq bayatılarının həmişə duzlu-təravətli gözəlliyini də burada tapırıq. Hüseyn Kürdoğlunun dördlükləri müasir poeziyamızda ənənəyə bağlılığın yaxşı nümunələrindəndir. Bu o demək deyildir ki, şair keçilmiş yolu bir daha qət etmək üçün geriyə qayıtmışdır. Onun təcnisli dördlükləri tamamilə yenidir. Bu yenilik həm mövzunun – məzmunun müasirliyində, genişliyində, həm də formaya fəal şair münasibətində, Azərbaycan dilinin poetik imkanlarının tükənməzliyini təravətli obrazlarla bir daha sübuta yetirməsindədir.

Burada, keçmiş poeziyamızdakı poetik leksikonun ərəb-fars tərkiblərinə məxsus mücərrədliyi danışıq dilimizin hərarətli, canlı ifadələri ilə əvəz edilmişdir. Bu

dördlüklərdən hər hansını bir dəfə oxumaqla üstündən keçə bilmirsən. Misraların, sözlərin üzərinə dönə-dönə qayıtmalı olursan. Eyni sözün, yaxud söz birləşmələrinin başqa-başqa məna çalarlarını araşdırırsan, heyrətamiz obrazlar, mübaliğəli həqiqətlər, zövqlər aləminə daxil olur, yeni və maraqlı bir fikirlə isinirsən.

Şair hər bir təcnisli dördlükdə ya müasir oxucunun səviyyəsincə əlvan lövhələr çəkir, ya xalqın nəcib adət-ənənəsindəki incəlikləri üzə çıxarır, yaxud günün aktual problemlərinə öz münasibətini bildirir.

H.Kürdoğlu yeni təcnislərini «Qaya çiçəkləri» adlandırmışdır. Şair təbliğ etdiyi ideyaları qaya çiçəyinə bənzətməkdə, bunları mətanət və zəriflik timsalı kimi ümumiləşdirməkdə haqlıdır. Mətanət və zəriflik – qaya çiçəyi! Buradakı obrazların, ifadələrin bakirliyi də, fikrin mərdanəliyi də qaya çiçəyinin təlqin etdiyi duyğularla həmahəngdir.

Təcnisli dördlüklər məzmun-mündəricə etibarı ilə üç qismə bölünmüşdür: 1. Qaya çiçəkləri. 2. Sevgi çələngi. 3. Bir az da qaratikan.

Birinci qism dördlüklərdə vətən torpağı, doğma təbiət və onun mühafizəsi, milli qəhrəmanlıq ənənələri, sənət və sənətkar dühası, zəhmətin romantikası, sülhə çağırış tərənnüm olunur. İkinci bölmədəki dördlüklərin predmeti ailə-məhəbbət problemi, qadın gözəlliyinin oyatdığı dərin estetik duyğular, üçüncü bölmədə isə insan həyatını zəhərləyən, yolumuz üstündə bitən «qaratikanlara», tüfeylilərə qarşı mübarizə zərurətidir. Şair təlqin etdiyi fikirləri əsaslandırmaq üçün xalqın ləyaqətli övladlarının ibrətamiz həyatlarını yada salır, Milin, Muğanın, Xəzərin, Dəlidağın, Kürün, Arazın hekayətlərini danışır. Xalqımızın nəcib adət-ənənəsindən, etnoqrafik xüsusiyyətlərindən söz açır. Bütün bunlarda məqsəd əsrin böyük ideyaları ilə nəfəs alan müasir gəncliyi həm də öz milli zəmini üzərində yüksəlməyə çağırışdır.

Şair, Azərbaycan təbiətinin poeziyasını xalqımızın tarixi keçmişi ilə, bugünkü quruculuq, yaradıcılıq mənzərələri ilə əlaqədə verir:

*Çoban tütəyini bu dağda çala,*
*Əks edə bu qaya, bu dağ da çala.*
*Koroğlu daş atıb qarı düşmənə,*
*Zərbindən qalıbdır bu dağda çala.*

Neft buruqlarının sərt realizminə romantik boya vermək, həm də belə bir fədakarlıq mənzərəsinin bütün mahiyyətini dördcə misrada cinaslarla ifadə etmək o qədər də asan deyildir:

*Günəşəm, saçılır o dağa zərim,*
*O Qara daşlarım, o da Xəzərim.*
*Alovla suvarır dəmir meşəni,*
*Kökünü basdırır oda Xəzərim.*

«Qaya çiçəkləri»ndəki ideyalar başdan-başa humanizm məfhumunun inikasıdır desək səhv etmərik. Bu humanizm geniş mənadadır. İnsanın xoşbəxtliyi naminə yer üzündəki təbii sərvətləri qorumaq bugünün ən aktual problemlərindəndir. Ona görə aktualdır ki, texniki tərəqqi bəzən canlı, təbii qüvvələrin normal inkişafına mane olur. İnsan üçün eyni dərəcədə zəruri sayılan hər iki amilin ahəngdarlığının pozulduğu halları gözümüzlə az görməmişik. Azərbaycan təbiətinin nadir bəzəyi turacın, qırqovulun, maralın, ceyranın yox olmaq təhlükəsi vətəndaş şairi hiddətləndirməyə bilməz.

*Yaman divan tutdu ceyrana yağı,*
*Demədik hayıfdır ceyran, a yağı!*
*Biryolluq kəsildi Mildən, Muğandan,*
*Qamçıya sap oldu ceyran ayağı.*

Cinaslı dördlüklərdə ümumxalq rəyini ifadə edən ictimai motiv güclüdür. Öz xeyrini güdənlər, üzdə yaltaqlanıb daldada baş kəsənlər, mənsəbpərəstlər, rüşvətxorlar, əliəyrilər, qeyrətsizlər, yalançılar cinaslarda öldürücü hədəf altındadırlar:

*Hər şeydən var gözlə, var um deyirsən,*
*Məndəmi bu yola varım deyirsən?*
*Rüşvətlə yığdığın iyrənc pullara*
*Utanıb ölmürsən, varım deyirsən?!*

H.Kürdoğlunun oxuculara təqdim olunan «Qaya çiçəkləri» kitabı rübai, bayatı, təcnis ənənəmizin müvəffəqiyyətli davamıdır. Biz inanırıq ki, məna siqləti cəhətdən aforizm təsiri bağışlayan, sadəliyi, ahəngdarlığı, şirinliyi, səmimiliyi ilə müasir poeziyamızın yaxşı nümunələri cərgəsində dayanan bu dördlüklər klassik və xalq ənənələrindən möhkəm yapışmağın zəruriliyini bir daha nümayiş etdirməkdədir.

1970
H.Kürdoğlu. «Qaya çiçəkləri»,
Bakı, Gənclik, 1970, s. 5.

*Yaşar Qarayev*
*AMEA-nın müxbir üzvü,*
*professor*

# TƏBİƏT: POEZİYA VƏ EKOLOGİYA*

*Sətirlərim həm şirindir, həm acı,*
*Həm dərdimdir, həm dərdimin əlacı.*
*Bir yuvanın balasıdır dördü də,*
*Sıra-sıra üç qardaşdır, bir bacı.*

Deyirlər peyğəmbər kimi şairə də dağlarda vergi verilir. Kürdoğlu Hüseynin nümunəsində bu əfsanə həqiqət cizgisi kəsb edir: o hələ dağlarda çocuq və çantalı-çomaqlı çoban ikən nəğmə oxumaq, torağay olub ötmək sirrini bulaqlara etiraf edib:

*Dağ döşündə fikrə daldım,*
*Gözəllikdən ilham aldım.*
*Öz qəlbimi tutub çaldım,*
*Şair eylər bu saz məni.*

Bəli, ilk gənclik, tələbəlik dostum Hüseyn auditoriyada, kabinetdə şair olmayıb. İlk mühazirəni ona meşə mürəbbisi oxuyub. Partası – qaya parçası, mürəkkəbi – çəmən şehi, qələmi çoban çomağı olub. Hələ körpə ikən Fizzə ananın alaçıq çubuğundan asıb yırğaladığı poeziya beşiyinə üç meh eyni vaxtda əsib: İşıqlı dağından, Ələsgər sazından, Füzuli sözündən! Təbiət, folklor və klassik şer – üç zirvədən tökülən üç şəlalə kimi bu gün də bu şerin su içdiyi üç dirilik çeşməsi olaraq qalır.

Mən dördüncü şəlaləni – Araz çeşməsini də əlavə etmək istəyirəm:

* Məqalə ilk variantda H.Kürdoğlunun «Durna səsi» (1985) kitabına ön söz kimi yazılıb.

*Sinəsindən yaralanmış Savalan,*
*Mən olmuşam süd yerinə qan əmən!*

Dördlük – bu dörd çeşmənin dördünə də yaxınlıq axtarışlarında Hüseynin və ümümən müasir şerin artıq tez-tez müraciət etdiyi maraqlı formalardan biridir. O, klassik rübai, bayatı, təcnis, qoşma və gəraylı ənənələri zəminində yaransa da, bugünkü şer təcrübəmizin hadisəsi kimi müasir çalar kəsb edir.

Qədim, ağsaçlı dördlük – həm kamala çatmış fəlsəfi fikir, həm də mükəmməl bədii fiqurdur. Burada az qala hər sətir mənalı sualdır, sentensiyadır, hikmət, məcaz və metafora ilə yüklüdür. Bəsit tərənnüm əsl dördlüyə ruhən yaddır, o, həmişə dərinə enəndə, həyatın içinə, həqiqətin nüvəsinə boylananda heyrətləndirib, zəka işığı ilə qəflət pərdəsini söküb, yox edib.

Müasir dördlük öz ən yaxşı nümunələrində bayatı və rübainin bu ənənəsinə sadiq qalır; buradan boylanan müdrikin və aşiqin də simasında klassik lirik «mən»in varisini tanımaq çətin deyil. O da mənalı yaşamağın, ilhamla sevməyin və müdrik olmağın bugünkü dərslərini təlim və təbliğ edir.

Hüseynin dördlüklərində xalis xəyyamvarı ruh yoxdur. Taleyin yox, təbiətin müdrikliyinə heyranlıq və pərəstiş var. Burada müdrik nəsihəti, hikmətli və ibrətli qənaətləri təbiətdən lövhələr – bədii peyzaj əvəz edir. Poe-tik təzad və fəlsəfi paradoks fikir və hökmlərdən çox rənglər, duyğular arasındadır. Dördlüklər – gözəlliyin və təbiətin doğurduğu hisslərdən çəkilən bədii rəsmlərdən, möhtərəm və müdrik adamın dediyi nəsihət dərsliyindən çox, dağlardan toplanan vəhşi ot və çiçək çələnginə bənzəyir. Qartal qiyyəsi, çiçək təbəssümü, durna qatarı, çay nəğməsi, bulud karvanı olan dördlüklər formaca da, dil-ifadəcə də folklora, təbiətə doğmalığı ifadə edir. Sanki şair çayın axarına, meşənin sükutuna, çiçəyin boy atımına qulaq kəsilərək musiqi və vəzn biçimi, ritm və bəhr

ölçüsü, vüsal və həsrət, giley və küsü, sevgi və qəm çaları üçün detal və təfsilat seçir. Bəzən də təbiətin səsindən çox ətri bu şerə hopur. Bu səsin və ətrin yay, bahar, payız, qış, səhər və axşam çaları açılır və bunlarda ömrün mövsümü və fəsil ovqatı öz əksini tapır. Belə hallarda dördlüklər rəsmdən çox musiqiyə, lövhədən, portretdən çox partituraya yaxınlaşır: onlarda daxili və zahiri cizgilər bir-birini tamamlayır.

Doğma təbiətin ləhcəsi və dili ilə yanaşı, doğma ana dilinin də bədii hüsnünü rübainin, bayatı və təcnisin guşə daşı üstündə yenidən sınağa çəkən şair şerdə sintaksisin, poetik leksikonun yeni imkanlarını üzə çıxarır, canlı danışıq, peyman-and, şikayət, dua, alqış poetikasının ünsürlərini dördlüyə gətirir.

Hər dördlük – dörd çiçəkdən ibarət bir qomdur. Təbii gözəlliyə məhrəm və həmdəm bir şairin təbiilik və gözəllik qarşısında heyrətidir. Özünü ana təbiətin bir parçası, zərrəsi kimi duyan şairə təbiət öz sehrini etibar edir və dördlüklərdəki poeziya şairlə təbiət arasında etibardan yaranır. Elə buna görə də bu peyzajlar daxilsiz, sehrsiz foto-təsvirlər deyil. Onlarda hər bənövşənin, hər çinarın, bulağın, gölün… ya naməlum bir rəngi, ya ətri, ya da ibrətli bir sirri, tarixçəsi açılır. Dağ, dərə, duman, çən… - hamısı təbiətə səpələnən heroqliflərdir. Onlar arasında fikir, obraz əlaqəsini şair xəyalı yaradır və təbiətə həkk olunan poeziya əlifbasını oxuya bilməyi bizə də öyrədir…

*Səhər-səhər şeh düzümü boynunu əyən*
*Göy otların yarpağı da titrədir məni.*

Bu həssaslıq bu sətirlərə də titrək və kövrək bir həyəcan gətirir. Xüsusilə uşaqlıqla təbiət arasında birbaşa ünsiyyətdən yaranan xatirə-dördlüklərdə bu kövrəklik artır. Uşaqlığın dumansız və mavi səmasında şair uşaq kimi sürünən və iməkləyən bulud topası da görür və bu buluddan o uzaq xatirələrə qəm çiskini ələnir.

«Torağay nəğməsi»ndə isə başqa leytmotiv hakimdir. Dan üzü göylərə qalxıb günəşi qarşılarkən şaqraq nəğmələrlə ötüşən torağaylar bərəkət və bolluq, bahar və səhər müğənniləridir. Odur ki, Hüseyn də təbiətin baharını, barını vəsf etmək üçün əvvəlcə torağayı axtarır:

*Bahar nəğməsinə susamış könül,*
*Doğdu dan ulduzu, torağay hanı?*

O, təbiətlə insan arasında hər cür çətiri, çəpəri qırıb-atmaq, torpaqla torağay kimi qaynayıb qarışmaq, şehi və şəbnəmi də, leysanı, boranı, çiskini də köynəkçək, ayaqyalın və başaçıq qarşılamaq istəyir:

*Bu qara torpağın bahar eşqiyəm,*
*Qar-boran önündə köynəkçək mənəm!*

yaxud:

*Telini çən öpsün, ayağını gül,*
*Bir gəz ayaqyalın, bir gəz başaçıq!*

Elə buna görə də şairin təbiətə tutduğu aynadan bədii qövsi-qüzehin, poeziya ilğımının xəlvətdə saxladığı bütün rənglər görünür. Sanki bu dağlar kimi sətirlər də çiskinlidir: hərəsində bir xəyal, bir xatirə çəni sürünür. Burada yalnız çiçək yox, xəyal da ağ, sarı, qızılı ola bilir:

*Məgər sarıdırmı rəngi xəyalın,*
*Saraldı yarımın xəyaldan üzü!..*

Bu, nə söz oyunu və nə də rəng oyunudur, təbiətdəki rənglərin poeziya çaları və ovqat fərqləridir. Ağ rəngin həm fərəh, həm də matəm çalarını görmüsünüzmü? Buyurun, dağ şəlaləsini və dağ viranəsini müqayisə edin:

*Şəlalə zirvənin ağ gülüşüdür…*
*Qızıl qayaların çiynindən uçan*
*Bir bəyaz qanadlı dağ gülüşüdür.*

*Qışda yolum düşdü uca dağlara,*
*Baxdım ki, yaylaqlar ağ viranədir.*

Bəs mavinin poeziya çaları? Dənizə qovuşmaq üçün dağlardan baş alıb qaçan suların həsrəti dəniz rəngində olmaya bilərmi?

*Mavi bir həsrətlə dəniz arzular*
*Dağların baş alıb qaçan suları…*

Şair tək mavinin, bəyazın yox, hətta qara rəngin (qaranlığın) də ovqat çeşidini və poetik təsnifini verir:

*Saçından rəng alsın gərək qaranlıq,*
*Gözündə bir gilə kövrək qaranlıq,*
*Dünyaya göstərir ay camalını*
*Əyninə geydiyin ipək qaranlıq.*

«İpək qaranlıq» və «kövrək qaranlıq» – yalnız ipək lirika və kövrək lirika ilə duyulan və görünən qaranlığın belə təsnifi orijinal və yenidir, təkcə Hüseynə, təkcə bu dördlüyə məxsus bədii tapıntıdır.

Kitabdakı başlıqlardan biri «Ay işığının nağılı» adlanır. Ay işığı – xatirə işığıdır, yaddaşın rəngidir. Bu hissədəki çənli dağlardan üstəlik həm də xatirə çiskini, xəyalın dumanı sürünür. Bu ikiqat çiskin – ikiqat bədii təsiri şərtləndirir.

Dördlüklərdə bulaq səsi, saz havası, çiçək təravəti əks-səda tapır, torağay nəğməsi, bahar və səhər nəfəsi, təbiətin rayihə və səs palitrası əks olunur. Lakin çiçək də, çəmən də, bulaq da bu kontekstə ilk eşqin, gözələ və təbiətə məhəbbətin şahidi kimi daxil olur, məhz mənəvi

sərvətlərin mənşəyi və mənbəyi kimi maraq və ilham doğurur. Lakin ilk eşqin xatirəsi də Vətən təbiətinin füsunkar hüsnü, dilbər guşələri, müqəddəs əxlaqı ilə bağlı olduğu üçün gözəldir; bulaq başı, çinar kölgəsi, çəmən şehi, məcnun söyüd və şəffaf göl – hamısı ilk eşqin saflığına etibarın detalları kimi əzizdir:

*Aparın ilk eşqin görüş yerinə*
*O bulaq başında köçüm dünyadan.*

Səmimilik və şəffaflıq, təbiiliyin təravəti, əyanilik və müəyyənlik – hamısı bu poetik şahidləri və sənədləri doğma diyarla bağlılığın dəlillərinə çevirir. Elə ona görə də təbiətlə vəhdət təşnəliyi nəticə etibarilə xalqla, ellə qaynayıb-qarışmağa hüdudsuz bir ehtirasın ifadəsi və təzahürü kimi mənalanır. Şair ana təbiətin doğma qoynunda, ana Azərbaycanın doğma dilində yazıb-yaratmaqdan doymur:

*Dörd divar içinə salma şairi*
*Burax el içinə, el onunkudur.*

yaxud:

*Anamın bal kimi şirin dilində*
*Yarandı şerimin şəkəri, qəndi.*

Digər tərəfdən, bunlarda təbiətlə tarix və folklor birləşir, milli əxlaqın, adət-ənənələrin və xalqın qəhrəmanlıq keçmişinin səhifələri vərəqlənir. Onlardan təkcə çiçəklərin yox, xalq üçün, sənət üçün müqəddəs olan adların da siyahısını çıxarmaq olar: Kərəm, Əsli, Aşıq, Yaxşı, Şirin, Fərhad, Füzuli, Məcnun, Vaqif, Nəbi, Koroğlu, Babək… Lirik qəhrəman təbiətə, Vətənə və məhəbbətə sədaqətdə öz «mən»ini də bu adların cərgəsində görür. Bu isə çox mənalıdır: deməli, ETİ dövründə də təbiətdə tər

bənövşə, məcnun söyüd nəsilsiz, sonsuz qalmadığı kimi, gözəlliyə, kövrəkliyə Məcnun vəfası, Kərəm həssaslığı da izsiz və varissiz qalmır!

Müasir dördlükdə əbədi motivlər də ənənə ilə həm birləşir, həm də ondan aydın şəkildə fərqlənir. Qədim dördlüklərdən birində bulağa səf çəkən zərif və ətirli ot barədə deyilir: onu tapdama ki, ölən pərinin vücududur, çürüyən gözəlliyin cismindən göyərib, ot olub. Müasir dördlükdə isə mərdliyin və gözəlliyin faniliyi yox, əbədiliyi ideyası belə ifadə edilir:

*Babək bayrağının yadigarımı*
*Al günəş rəngində nar çiçəkləri?!*

yaxud:

*Baxın, həlak olmuş igid deyilmi,*
*Daşqın çay üstündə sel yıxan ağac?*

Aşağıdakı beytdə isə gözəlliyin müvəqqətiliyi üçün həyəcan motivi əsl ETİ problemi və qayğısı səviyyəsinə qaldırılır:

*Bir yolluq kəsildi Mildən, Muğandan,*
*Qamçıya sap oldu ceyran ayağı.*

Beləliklə, müasir dördlük ənənəvi bədii vüsəti, fəlsəfi qloballığı daha konkret, həyati təsnifat və detallarla da zənginləşdirir.

Yerdəki bütün naqislik üçün göylərə ittiham da konkret ictimai məzmun kəsb edir. Şair parçalanan, bölünən Vətən üçün qəzanı yox, konkret sosial ünvanı ittiham edir:

*Yıxsın qarşısından Araz barını,*
*Dərək Kür barı tək, Araz barını,*
*Araz körpüsündə qoy bir tar çalım,*
*Sahillər dinləsin Arazbarını.*

Tarixi nisgilin və ictimai kədərin mübarizə ehtirası ilə vəhdəti Cənubla bağlı mövzulara münasibətdə özünü xüsusilə qabarıq göstərir; ittihamla giley, faciə ilə lirika, şir nərəsi ilə durna səsi Arazdan yayılan qıjıltıda birləşir və ayrılır. Belə poetik bölgünü – Arazın səsinə verilən Durna və Şir təsnifini bu qədər aydınlıqla biz ilk dəfədir ki, görürük:

*Arazın damlasında coşğun dərya səsi var,*
*Arazın dalğasında iki dünya səsi var.*
*Arazın laylaları həm şirindir, həm acı,*
*Arazın şir nərəsi, bir də durna səsi var.*

Şair böyük ustadlarını (Məhsətini, Qurbanini, Xəstə Qasımı, Qul Abbası) Arazla bağlı detallar taparaq xatırlayır və Qurbaniyə qibtə edir ki:

*Qolu bağlı keçdin Xudafərindən*
*Mən qolu bağlı da keçə bilmirəm…*

Gördüyümüz kimi, ən qabarıq sosial motivləri də Vətən və təbiət mövzusunun materialında aça və mənalandıra bilir. Ümumiyyətlə, bu şerlər, artıq qeyd etdiyimiz kimi, təbiət və təbiətə səyahət şerləridir. Onları təbiətdən təcriddə axıra qədər hiss etmək, duymaq mümkün deyildir. Odur ki, gəlin biz də xəyalən bir anlığa təbiət səyahətinə çıxaq və şairin dördlüklər əlifbasını indi də meşənin, dağların özünün poeziya kitabı ilə birlikdə, qoşa vərəqləyək.

Budur, yeddi dağ, yeddi qardaş olub sübh yuxusuna gedib. Bulud naxışlı göyləri – ulduzlu asimanı yorğan kimi əyninə geyib:

*Dağlar yatır asimanın altında,*
*Yeddi qardaş bir tavanın altında,*
*Şirin-şirin kövşək çalar quzular,*
*Daş ağılda, boz dumanın altında.*

Bəs orada, o dumanda ağaran bəyaz tül nədir? Son qar topasıdırmı? Yox, torpağa bahar təzəcə qədəm qoymuş, yazla ilk əlbəyaxada qışın ağ köynəyi cırılmış və onun bir parçası qüzey talada qalmışdır:

*Qışın köynəyindən cırılıb qalıb,*
*Yaz günü ağarır o qar talada.*

Qoca İşıqlı niyə ağ təpələri başına yığıb? Bəlkə onlar vaxtilə vulkan olmuş İşıqlıdan püskürən zərrələrdir? Yox:

*Qoca İşıqlının saçı dümağdır,*
*Gecələr sinəsi çıraq-çıraqdır.*
*Bəlkə yun əyirir bu qarı nənə*
*Təpələr yanında yumaq-yumaqdır?!*

İşıqlı dağı saçı dümağ qarı nənəyə bənzədilir. Ətrafdakı təpələr onun yundan əyirdiyi yumaqdır. Ağlıq, işıqlıq, çıraq, çıraqlıq – hamısı müqəddəs dağlar və müqəddəs nənələr arasında ahəngə yaxşı işarədir.

Odur, çənli meşə baharının və səhərinin yaşıla və ağa çalan üfüqündə ilk yaz çiyələyi qızarır. Lakin şairin dağ çiyələyinə də bədii şübhəsi və poetik etirazı var:

*Meşədə qızaran çiyələkmidir,*
*Yoxsa bir ocağın közü dağılmış?!*

yaxud, bu nədir birdən-birə göymü guruldadı, ildırımmı çaxdı? Yox:

*Çaldı sinəsindən qızıl bir ilan*
*Qışqırıb hönkürdü, ağladı bulud!*

Başqa bir dördlükdə şair yenə bütöv bir dastan süjetini asimanda oxuya və dördlükdə təcəssüm etdirə bilir:

*Od düşdü bağrına mələdi bulud,*
*Gözünün yaşını ələdi bulud.*
*Gəzir Günəş Kərəm Ay Əslisini*
*Tək qalıb ağlayan Lələdi bulud.*

Bəs dağ döşündə çala, qaya sinəsində yara hansı tarixdən və dastandan bir soraqdır? Bəlkə səmadan axan meteor qayada iz qoyub? Yox:

*Koroğlu daş atıb qarı düşmənə*
*Zərbindən qalıbdır bu dağda çala.*

Və

*Fərhad Şirin dedi dağ yara-yara,*
*Dərdli sinəsində dağ yara-yara.*
*Onun külüngündən qalmış hələ də*
*Qaya çapıq-çapıq, dağ yara-yara.*

Şairin «təbiət» anlayışı varlıqla bərabərləşir, bütünlükdə kainatı ehtiva edə bilir. Hətta kosmos və ulduz da burada təbiətdən qalan bir yarpaqdır:

*Neçin titrəyirsən, ey dan ulduzu,*
*Xan çinardan uçan bir yarpaqmısan?*

yaxud:

*Gəncə çörəyidir, günəş, ay ellər,*
*Anamın əliylə təndirdən çıxır.*

Yenə də poetik tilsim, möcüzə baş vermişdir: xəzri nə zamansa qüvvətlə əsmiş və bizim Xan Çinarın qızılı rəngli yarpağını asimana tullamışdır. Lakin xəzri ana torpağa və təbiətə borclu qalmamış, dan ulduzunun və «təndirdən çıxan» günəşin əvəzinə «kəhkəşan Bakının» özünü səmadan sahilə endirmişdir:

*Kəhkəşan Bakını göydən qoparıb,*
*Xəzər sahilinə endirən külək!*

Yaxud, iki digər əzəmətli «kosmik» obraz:

*Ay işığı sarı baldır süzülür*
*Zülmət dərə ağız açıb ayı tək!*

*Buludların dodağından süzülür*
*Çiçəklərin dodağına Ay balı.*

Bu beytlərdə ayı, Ay, bal, çiçək və dərə arasında bağlılıqdan yaranan poetik assosiasiya həm möhtəşəm, həm predmetlidir.

Ayla bağlı dördlükdə də detal yaxşı tapılmışdır:

*Balıqlarla, ləpələrlə oynayır,*
*Sübhə kimi eyləməyir Ay çimir.*

Bəs bu poetik təfsirləri, «təbiət əlifbasını» şairə öyrədən müəllim kimdir? Məhəbbət! Çünki:

*Kim sevirsə göz yaşını od bilər*
*Sevməyənlər duzluca bir su sayar.*

Bu dördlüklərdə də təzadı yaradan aşiqin gözündə təbiəti, buradakı nizamı, sahmanı dəyişən bir gözəlin işvəsidir: o, bəyaz geyəndə gecələr ağ olur, bulağa gəlməyəndə çeşmələr soyuyur:

*O qıza neylədin, a yağı bulaq,*
*Kəsilmiş üstündən ayağı, bulaq.*
*Bir zaman dirilik şərbətim oldun,*
*İndi ay zəhrimar, a yağı bulaq.*

yaxud:

*Öldü deməsinlər ölsəm qoynunda*
*Desinlər bu imiş gözəl ayrılıq!*

«Yağı bulaq» və «Gözəl ayrılıq» bədii vəzn və mənaca yeniləşən, ağırlaşan obraz və ifadə vahididir.

*Qara bir buludam, yanar dilimdən*
*Sönməz ildırımlar çaxasıyam mən!*

Bu beytdə və həmçinin bölmələrin birinə başlıq kimi seçilən «Qara bulud» ifadəsində də məna təzadı göz qabağındadır. «Qara bulud» – burda artıq mənfi assosiasiya doğurmur. Şair onu işıq və od doğuran və daşıyan varlıq kimi mənalandırır.

Əlbəttə, dördlüklər hamısı eyni səviyyədə, eyni bədii təravətdə deyil. Lakin onlar hamısı Vətənə eyni bir oğul məhəbbətinin ifadəsidir. Şair Vətən təbiətini sevir, atasız yox, dağlarsız qalanda özünü kövrək və yetim sayır. Lakin zaman dəyişir və ana təbiətə, ana dağlara şairi bağlayan tellər də yeni çalar kəsb edir. Belə ki, bir zamanlar Hüseyn dağlara əhd etməyə, peyman bağlamağa gedirdi: indi isə o, dağlara gəncliyini axtarmaq və tapmaq üçün gedir:

*Gəzdim gəncliyimi tapa bilmədim,*
*Qaçıb qocalıqdan dağda gizlənib!*

Lakin şair məhz təbiətə qayıtdığı, «dağda gizləndiyi» üçün yox olan, itən gəncliyin «fərariliyinə» bəraət verir və əslində bundan qəlbən razı qalır. Çünki dağlar gəncliyi də, poeziyanı da, könlünü gəncliyə və poeziyaya vermiş şairi də həmişə salamat, həmişə təzə-tər saxlayır…

1985
«Meyar şəxsiyyətdir» –
Bakı, Yazıçı, 1988, s. 199-208.

## KARVAN LAÇINDAN KEÇƏCƏK

***Şair dostuma məktub***

Sənin altıncı on ilin, altıncı karvanın nə tez gəlib çatdı, Hüseyn? Uzaq səfərlərdən gələcək bütün karvanları intizarla, həsrətlə gözləyirlər, bəs zamandan, tərcümeyihaldan gələn qatarı – sərnişini nəslimiz olan payız və xəzan, tale və ömür karvanını necə?

Dünən deyildimi universitetə qəbula hazırlaşdığımız ilk gənclik baharı?! Harda qaldı dənizkənarı köşk, Xəzərin mavi mehindən xumarlanıb yellənən salxım söyüdlər, dərslikləri az qala gözümüzlə yediyimiz, gecəyarıya qədər sual-cavabdan yorulmadığımız o çağlar?

Yaxşı yadımdadır, ilk dəfə tələbə ədəbiyyat dərnəyində kövrək və titrək bir səslə, elə indi də gözlərində gülümsəyən uşaq məsumluğu ilə ilk qoşmanı, ilk gəraylını oxumağın. Təzə-tər misralar o vaxtdan yaddaşıma həkk oldu: «Mən sənə canımı qurban demişdim, Kəsdilər başını quzu baxtımın», «Bir gözəl ovcunda su verib mənə, Alışıb yanmışam bulaqlar üstə», «Torpaq üstə gül bitirsə göz yaşım,, Sən onu da qoxlamazsan, eləmi?», «Dağlardan uçurub düzdə də vursan, Daşlara tökülər qanı kəkliyin», «Yurdumun eşqini gözündən içdim, Gördü bu dünyanı gözüm, ay bulaq!», «Öz qəlbimi tutub çaldım, Şair eylər bu saz məni».

Sən neçə min yaşlı el ədəbiyyatımızın müqəddəs dirilik bulağından içib şerə gəlirdin, bənövşə, çeşmə, zirvə və məhəbbət şairi kimi ilk addımlar atırdın, utana-utana, çəkinə-çəkinə, düşünə-düşünə, həm də özünə inana-inana!..

Qartal yuvası Laçının, füsunkar Qarabağın qüdrətdən qənirsiz təbiətini düz beş il tələbə auditoriyosında Füzuli və Xətai, Vaqif və Sabir, Cavid və Vurğun dünyasının mənəvi ab-havası – bədii ekologiya əvəz etdi. Müdrik, ustad alimlərdən bilik və hikmət dərslərini öyrəndik.

İndi daşnak faşistlərinin viranəyə döndərdiyi əfsanəvi Qarabağı, Laçını, Qubadlını ilk tətil vaxtı iki tələbə – səyyah kimi qoşa gəzdik, ilhamının dağlarda, təbiətdə qaynayan çeşməsini gözümlə gördüm. Yaddan çıxarmı köhlən atlar belində Canqurtaran və İşıqlı dağlarının zirvəsinə necə qalxdığımız? Dağlar həmayili Qaragölün qaşındakı Dəmirdaşdan İran səmtə çevrilib Qaradağ silsiləsini göstərib deyirdin: «Bax, mənim ulu babalarım oradan gəliblər – Babəkin Bəzz qalasının yanından, Əhər mahalının qədim Şıxəhmədli kəndindən, mən əslində qaradağlıyam, qardaş, qaradağlı!»

İranı görmədən yazdığın gözəl «Qaradağ nəğmələri» şer silsiləsi də yurd eşqinin sənin ürəyində necə hərarətlə çırpındığını bəyan edir.

Dünən deyildimi Beşbulaq yaylağında Həsən əminin gəlişimizə qurban kəsdiyi, Fizzə ananın alaçıq çubuğundan tuluq asıb yağ çalxadığı? Dünən deyildimi Ağoğlan çayının sahilində, telli söyüdlərin kölgəsində saz məclisi qurduğumuz, Aşıq Umbayın, Aşıq Ədalətin qayaları da kövrəldən yanıqlı səsinə heyran kəsildiyimiz? Dünən deyildimi «Villis»lə Çalbayırdan, Sərt dərədən, Qul Alıdan, Əyri Qardan, Pəri Çınqılından, Sultan Heydərdən enib Kəlbəcərdə Dədə Şəmşirin, Şamil Əsgərovun görüşünə getməyimiz? Dəlidağın çiynindən aşıb, sanki kosmosdan möcüzəli Tərtər vadisinə enirdik. Maşının sürücüsü (minkəndli Əjdər) yol boyu Borçalı aşıqlarının havalarını oxudurdu. Səməd Vurğunun dağlara həsr etdiyi iki gəraylısını böyük saz ustadı Aşıq Əmrah və Aşıq Kamandar «Dübeyti» üstündə pərdə-pərdə dilə gətirir, elə bil gəlişimizdən bulaqlara, qayalara, çiçəklərə, şahinlərə, qartallara müjdə verirdilər.

İndi artıq gör neçənci ildir ki, Dəlidağa, Cıdır düzünə, Ağoğlana dəyib-sınan günəş şüası ancaq xatirədən – ürək qanı ilə yazdığın sətirdən, yaralı, didərgin, şəhid misralardan qayıdıb ruhunu isidə və ovundura bilir:

*Dağlarında naxış-naxış qara bax,*
*Gül soldurmaz nə yay, nə qış Qarabağ.*
*Odlar yurdu bir sehrkar xalıdır,*
*Üstündəki gözəl naxış Qarabağ!*

***

*Yenə də baş çəkim Ağdama gərək,*
*Qarqarın suları Ağdama gərək.*
*Bu yerin qədrini bilməyənlərin,*
*Qara gözlərinə ağ dama gərək!*

***

*Sən də bir yadına sal qayaları,*
*Gəmi qayaları, sal qayaları.*
*Toy xonçası kimi başında tutub*
*Şuşanı, dağların sal qayaları.*

Göy qurşağının ilahi boyaları ilə vəsf etdiyin bu fitri gözəlliyi yağıların ayaqları altına atanların xain gözlərinə tez-gec ağ damacaq, qardaş!

Hələ tələbəlikdən miniatür janrda – dördlük və bayatı şəklində nəğmələr yazıb el-obaya yaymaq, rübabını durna səfinə çevirib hər yerə uçurmaq arzusu ilə yaşayırdın. Yaşlandın, fəqət sinəndə qoruduğun həmin sazı kökdən düşməyə qoymadın. Uzaq, tilsimli bir dağdakı ağacdan sehrli alma dərib gətirən nağıl qəhrəmanı kimi həmişə arzulu, həmişə həsrətli yaşadın. «Yurdumu gəzə-gəzə», «Ata yurdum», «Qaya çiçəkləri», «Çiçək təbəssümü», «Durna səsi», «Bu dünya bir karvan yolu», «Toy karvanı», «Min bir bayatı» kitabların «tilsimli ağacdan» dərdiyin ilk sehrli almalar oldu, bizə təbii, fitri bir ilhamdan, istedaddan müjdə və ərməğan gətirdi.

Dördlüklərinin əksəriyyəti toplanmış «Durna səsi»ndə sən, məncə daha geniş üfüqlərə qanad çaldın, daha çətin yollar keçdin, daha çıxılmaz qayalardan, ağ qarlı zirvələrdən «ağ bənövşələr» dərdin. Təbiət, folklor və klassik şer üç zirvədən tökülən üç dirilik çeşməsi tək bu gün

də ilhamlı qəlbinə eşqin və gözəlliyin gənclik təravətini axıdır.

Son illər xalqımızın, yurdumuzun düçar olduğu görünməmiş müsibətlər sənin də rübabını kövrəldib, inlədib sızlatdı, ruhunu qəzəb və nifrətlə kükrətdi, qəlbin yenə bayatıya kökləndi. Adını «Min bir bayatı» qoyduğun kitabı oxucuların məhəbbətlə qarşıladı:

*Ruhum, canım dağların.*
*Adım-sanım dağların.*
*Qanıqmış qurduna da*
*Qaynar qanım dağların.*

***

*Yandım dağ arasında,*
*Yüz bulaq arasında.*
*Tülkü gizlənqaç oynar*
*Pələng mağarasında.*

***

*Dənəvər gilə yağış,*
*Can verir gülə yağış.*
*Sonalar acmı qalmış,*
*Dən səpir gölə yağış.*

«Ağ sürüdən əmlik quzu qopardım, Yeyib qurdlarınla ulaşım, dağlar» – deyən cəngavərlik timsalı qoç Koroğlunun vətən eşqi şairin də qəlbini «dağların qanıqmış qurduna da belə munis etmiş», «pələng mağaralarında tülkülərin gizlənqaç oynadığını» gördükcə, yüz yerdən paqqıldayıb çıxan gur bulaqların arasında bağrın od tutub yanmışdır. Bütün xalqımızın ürəyini bürümüş bu iblis yanğılarının söndürüləcəyi günə inam artdıqca «ağ dənəvər yağışlar ürəyimizə bahar sərinliyi gətirir», «Sonalar acmı qalmış, Dən səpir gölə yağış?!» – misraları ilə yaratdığın təkrarsız, qənirsiz lövhə və onun doğurduğu şəffaf

duyğular poeziya məlhəmi kimi qanı kəsilməz yaralarımızın ağrısını səngidir.

Sənin hələ minlərcə çap olunmamış dördlüklərin, bayatıların var və ürəkdən inanıram ki, bu xəzinə hələ bundan belə daha da zənginləşəcəkdir.

Əziz Hüseyn! Yurdumuzun neçə-neçə bölgəsini, həmçinin sənə şair qəlbi verən Laçın dağlarının yağılar tapdağına döndərilməsi şerini nə qədər kövrəltsə də, sən dərdə yaxa verən şair deyilsən. İllər boyu təbib – dərman axtardığın, ağır xəstəlik əzabları çəkdiyin vaxtlarda da dərdə yaxa vermədin, dağların suyu, havası, gül-çiçəyi, balı, sazı-sözü səni həyata qaytardı, başına pərvanə kimi dolanan ömür-gün yoldaşının, şirin-şəkər balalarının arzularını gözündə qoymadı. Səninlə birlikdə dağlar qoynunda yeni məclis quracağımız günə az qalır. Axı, özün demişkən: «Ulu tanrı bizim dağları öz ilahi romantikası ilə süsləndirib. Bu gözəlliyi, bu tanrı qismətini heç kəs bizdən ala bilməz. Bu yaralı romantika mənim nəfəsimdir, əzablarımla, sevgilərimlə şerimdə çarpan ürəyimdir».

*Yenə çadır quraq o dağlar üstə,*
*Şair, sazını çal bulaqlar üstə.*

«Ədəbiyyat qəzeti»,
22 iyul, 1994

***Bəkir Nəbiyev***
*AMEA-nın həqiqi üzvü, professor*

# MEYDAN KİÇİK OLSA DA...

Tarix boyu bəlkə heç kəs istədiyi janr və ya şəkildə yazmaq məsələsində şairlər qədər azad və sərbəst olmamışdır. Yaxın keçmişlərdə bizdə nədən və hansı mövqelərdən yazmaq məsələsi yuxarıdan "tənzim" edilirdisə də, hətta kommunist partiyalılığının tüğyan etdiyi vaxtlarda belə qəzələ kəmetinalığı çıxmaq şərtilə, şairlərə "o şəkildə yox, bu şəkildə yaz!", yaxud "o ölçüdə yox, bu ölçüdə işlə!" deyən olmamış, sənətkarlarımız da bu cəhətdən məhz ürəklərinin hökmü ilə hərəkət etmişlər. Bununla belə hər şairin yaradıcılığında Azərbaycan şerinin zəngin formalarından birinə üstünlük vermək bir növ norma halını almışdır. S.Vurğun, S.Rüstəm və M.Rahim də, sonralar B.Vahabzadə və N.Xəzri də hərdən qəzəl yazmışlar, lakin bu janrın yeni dövr ədəbiyyatımızda böyük təmsilçisi, xalqımızın gözəllik vurğunu, məhəbbət və qəzəl şairi kimi tanınmış Ə.Vahid olmuşdur. Bu ölçü ilə yanaşdıqda bir qədər şərti də görünsə, ədəbiyyatımızda süjetli lirika Ə.Cəmilin, sonet B.Adilin, səkkizlik T.Bayramın, rübai Qabilin, mənzum təmsil H.Ziyanın, bayatı isə H.Kürdoğlunun adı və yaradıcılığı ilə qırılmaz tellərlə bağlıdır. Bu şairlərin hər biri sənətin başqa sahələrində də uğurla işlədiklərindən asılı olmayaraq, adları çəkilən şer formalarında daha çox, daha səmərəli və daha ardıcıl yazmış, keçmişlərdə divan bağlamaq dəb olduğu kimi, onlar da özlərinin "Qəzəllər", "Sonetlər", "Səkkizliklər", "Rübailər", "Təmsillər" və s. adlar altında xüsusi kitablarını nəşr etdirmişlər.

H.Kürdoğlu da digər şair dostları kimi başqa janr və formalarda qələm çalıb, süjetli şer də, qəzəl də, dördlük

də yazıb, müstəzad formasında bəzi parçaları da var. Amma qırx ildən bəri ünsiyyətdə olduğu bayatıdan heç vaxt doymamış, usanmamış, imkan düşdükcə öz bayatılarından bəzi nümunələri "Ata yurdum", "Dörd telli durnam", "Toy karvanı" və s. kitablarında buraxdırmışdır. Nəhayət, o, indiyədək qoşmuş olduğu minlərcə bayatıdan min bir ədədini seçib keçən il ayrıca kitab bağlamışdır ("Gənclik", 1992, redaktoru Musa Ələkbərli).

Hüseyn Kürdoğlu (Alışanov) Laçının Mollaəhmədli kəndində anadan olub. Sinədəftər saz və söz ustalarının tanınmış nümayəndələrini yetirmiş bu kəndə çox vaxt el arasında "Aşıq ocağı" da deyilir. Azərbaycanın görkəmli folklorçu alimləri Ə.Axundov və M.Təhmasibin toplayıb nəşr etdikləri xalq deyimlərinin mühüm bir qismi bu kənddə yazıya alınmış, onları alimlərimizə Hüseynin yaxın qohumlarından aşıq Məşədi Dadaş söyləmişdir. Bu aşığın toy məclisləri, ağsaqqallardan və ağbirçəklərdən "arandayaylaqda"heyran-heyran dinlədiyi el sözləri, kiçik yaşlarından mehr saldığı saz, məktəbə də gedəndə ayrılmayıb kəmərinə keçirdiyi qarğı tütək Hüseyn üçün həyatda ilk xalq sənəti universiteti rolunu oynamışdır.

Azərbaycan torpağının bəzi guşələri kimi Hüseynin doğma obasını da erməni işğalçıları xarabazara çevirmişlər. Gündə bir saxta xəritə uydurub Qarabağ qarışıq bir çox torpaqlarımızı bədnam "Böyük Ermənistan"ın tərkib hissəsi elan edən düşmənə qarşı bizim ən böyük dəstəvuzumuz Çalbayır, İşıqlı dağlarının qoynundakı obalarda xalqımızın əsrlər boyu yaradıb qol-qanad verdiyi dastanlarımız, bayatı, təcnis və gəraylılarımız, bütün növlərdən olan el sözümüzdür. Bu zəngin xəzinə zəminində bir sənətkar kimi həmin torpaqlarda yetişən, orada da dəfn edilən Sarı Aşığın (XVII əsr) bənzərsiz kəlamları yüz illərdir ki, nənələrimizin, babalarımızın zehnində, ürəyində məskən salıb qiymətli estafet kimi nəsilbənəsil boy verməkdədir.

Gözünü açıb gördüyü köçəri həyatı, köçəriliyin özünəməxsus rəng və ahəng əlvanlığı ilə səciyyələnən aran-yaylaq növbələşməsi gənc, bir qədər də xəyalpərvər Hüseynin aşıb-daşan duyğularına romantik bir çalar aşılamışdır. O, hələ orta məktəbin son siniflərində oxuyarkən xalq ədəbiyyatı nümunələrini, xüsusən də bayatıları öyrənməyə, toplamağa başlamış, Bakı universitetində isə bu işin elmi prinsiplərini mənimsəmişdir. Şair, indi də bu nəcib işi davam etdirməkdədir. İllər boyu sərf etdiyi şair-araşdırıcı zəhmətinin barı – Sarı Aşığın «Bayatılar» kitabı çap üçün qəbul edilmişdir və yaxın vaxtlarda «Sabah» nəşriyyatında buraxılacaqdır. Sarı Aşığın bu kitabında onun bir çox əsərləri təhriflərdən təmizlənmiş halda, ustadın öz üslubi xüsusiyyətlərini və ifadə vasitələrini saxlamaq şərtilə bərpa olunmuşdur[1]

«Min bir bayatı» kitabının ilk səhifəsindəcə dərc olunmuş şerin «Sarı Aşığa öyüncüm» adlanması səmimi təsir bağışladı. Bu şer öz şair babasının nurani obrazı qarşısında Hüseynin bir növ yaradıcılıq hesabatı, həm də bundan sonrakı fəaliyyəti haqqında poetik təqdimatıdır. «Bağbansan bağında boy atam gərək», «Verdiyin qələmlə mən də yazıram» misraları Hüseynin bayatı şairi kimi məhz Sarı Aşıq məktəbinin yetirməsi olduğunun etirafıdır. Lakin o, ustadını təkrar etmək niyyətində deyil; zərif kəlamlar meydanında öz sözünü demək əzmindədir.

*Bir dağam, başımın qarı təzədir,*
*Şerimə bal çəkən arı təzədir.*
*Kökləri uludur, barı təzədir,*
*Olmasın bir dənə boyatım gərək.*

Bayatı xalq ədəbiyyatının uzun əsrlərin sınaqlarından çıxmış kiçik həcmli, böyük tutumlu şəkillərindən biridir.

---

[1] Kitab 1993-cü ildə nəşr edilmişdir (Red.).

Bu dörd misralıq (bəzən 3 misra yarımlıq) poeziya miniatürü bayatı, türkü, mani, xoyrat və s. adlar altında türk dilində danışan demək olar ki, bütün ellərin mənəviyyat xəzinəsində mövcuddur. İctimai qayələrdən, zülmə, əsarətə qarşı azadlıq ideallarından tutmuş zərif məhəbbət duyğularına, rəngarəng insan münasibətlərinə, həyat haqqında müdrik düşüncələrə qədər xalqın çoxcəhətli qənaətləri bayatılarda özünün ecazkar əksini tapmışdır. Yeddicə hecalıq misralardan hörülmüş bir bəndin dar-daracaq meydanında ilhamın köhlənini istedadla səyirdib geniş mənalar, dərin mətləblər ifadə etmək, bəzən hətta obraz yaratmaq imkanları ilə bayatı folklorun və klassik poeziyanın ən kamil, eyni zamanda mürəkkəb bədii qurumlarından biridir. Bayatıdakı yaşarılıq, uzunömürlülük həm də onun incə duyğular və dərin fəlsəfi qənaətlər əks etdirmək imkanları ilə bağlıdır. Məhz bu mənada bayatı bəzi ifratçıların düşündüyü kimi köhnəlib artıq ömrünü başa vurmuş forma deyil. Qoşmaları, gəraylıları, dördlükləri kimi bayatıları da H. Kürdoğlunun folklor və klassik şer ənənələrimizə bağlılığının aşkar təzahürlərindən biridir. Bunu şairin yaradıcılığında gerilik, mühafizəkarlıq kimi qiymətləndirmək böyük yanlışlıq olardı. O, klassik formanın çox ciddi tələblərinə əməl etmək şərtilə bayatıda yeni məzmun verməyin ürəyəyatan nümunələrini yaradır və bu zaman son əsrdə dilimizin əldə etdiyi üslubi, xüsusən semantik zənginliklərdən, obrazlılıq keyfiyyətlərindən incəliklə faydalanır. Beləliklə də H.Kürdoğlu ənənəçiliyin əsiri deyil. Ümumiyyətlə, sənətkar ruhən, mənən dünyanı yenilikçi kimi qavraya bilirsə, hansı formada yazdığından asılı olmayaraq onun əsərləri həmişə təzə və təravətlidir.

«Min bir bayatı» bir növ müxtəsər Azərbaycan ensiklopediyası təsirini bağışlayır. Yəni onda ölkəmizin tarixi yerləri və məşhur qəhrəmanları, saz və söz ustaları, folklor obrazları, əməlpərvər çağdaşlarımız təbii surətdə növbələşirlər. Qartallı, xınalı, sərt qayalar həm də tariximizin

daş kitabələri kimi mənalandırılır, xalqımızın tarixilə yurdumuzun təbiəti uğurlu bədii vəhdətdə cilvələnir. Barmaq naziklikdə bu kitabda ölkəmizin bütün iqlim qurşaqları, xəritəmizin demək olar ki, bütün əlvanlığı özünün yığcam bayatı təsbitini tapmışdır. Onun səhifələrindən başlayıb uzanan vətən məhəbbəti cığırları ilə oxucu müəllifin doğulub, boya-başa çatdığı Laçın, Kəlbəcər, Qubadlı yaylaqlarına, Sarı baba, Dəli dağ, Ağbaba dağlarına çıxır, digər obaları, elləri, düzləri, dərələri, şəhər və kəndləri seyr edir. Şirvanın, Muğanın, Milin qora bişirən istisindən keçib, Göy gölün, Maral gölün, Ala gölün mavi sularına baş vurur. Yollar boyu düzülmüş buz bulaqların dirilik suyundan nuş edir, Kürlə Arazın qovuşduğu yerdə təbiətin möcüzəsi önündə heyran qalır, Xəzərin ənginliyindən sinəsi dolu nəfəs alır, Bakıda Qız qalasına, Naxçıvanda Möminə xatun məqbərəsinə tamaşa edir. Bu bayatılarda hər bir azərbaycanlıya Bakı qədər əziz olan Təbriz, Marağa, Maku, Zəncan, Gilan xatırladılır, xalqın mənəvi dəyərləri qədirşünaslıqla yad edilir, Zərdüşt, Nəsimi, Füzuli, Qurbani, Vaqif, Aşıq Ələsgər, Natəvan, Hadi, Cavid, Müşfiq, Bülbül, Dədə Şəmşir dərin səmimiyyət duyğusu ilə tərənnüm olunur. Şair xalqın qəhrəmanlıq ənənələrinə müraciət edir, bu gün elimizə-obamıza həmişəkindən qat-qat artıq gərək olan fədakar oğulları haraylayır, onları vətən uğrunda, torpağımız uğrunda ədalətli mübarizəyə çağırır:

*Ağzımda dadsan, oğul,*
*Gözümdə odsan, oğul,*
*Qorxsan yad gülləsindən*
*Mənə də yadsan, oğul!*

Hüseyn bayatılarının hər birində bacarıqla çəkilmiş kiçik, lakin səciyyəvi bir cizgi, adi bir detal onun nə zaman və hansı münasibətlə qələmə alındığını açıqlamaqda oxucuya kömək edir:

*Bu ürəyi daşa bax,*
*Necə çıxdı başa, bax!*
*İçi boş, üstü dolu –*
*Parıldayan döşə bax!*

Bu uzun illər Sovet imperiyasını idarə etmiş bir zəvzək çənə sahibinin hamını bezdirən portreti deyilmi? Aşağıdakı misralarda isə Qarabağ münaqişəsinin başlanğıcında namərd qonşularımıza havadarlıq etməklə, 1990-cı ilin yanvarında isə imperiya ordusunu üstümüzə göndərib günahsız qanımızı Bakı küçələrinə axıtmaqla Azərbaycan xalqının başına böyük fəlakətlər açmış Qorbaçovun mənfur obrazını tanımaq olur:

*Sükan əyyaş əlində,*
*Tərəzi çaş əlində.*
*Dünya təpəl iblisin*
*Qalıb çaşbaş əlində.*

Hər şeydən əvvəl müəllifin vətəndaş cəsarətindən xəbər verən bu bayatılara onun mənəviyyatımızın çox vacib problemlərindən birinə işıq salan bu misralarını da əlavə etmək istərdim:

*… Lal olsun belə dili!*
*Yeyər ac qurdlar kimi*
*Ağa dil kölə dili!*

Bu misralar Azərbaycanın öz müstəqilliyini əldə etdiyi günə qədər cəmiyyətimizin mənəvi həyatında davam etmiş çox anormal bir vəziyyətin ifşasıdır. Hamının yadında olduğu kimi, hətta keçən ilə qədər rəsmi dairələrdə və ictimai tədbirlərdə Azərbaycan dilinin işləklik dairəsi o qədər daralmış və elə acınacaqlı bir vəziyyətə düşmüşdü ki, rus dilinin ağır təzyiq şəraitinin bir müddət də belə davam edəcəyi təqdirdə ana dilimiz çox böyük bir fəlakətə məruz qala bilərdi…

Bayatıdan bəhs edən alimlərin də, bayatı sevənlərin də bir çoxu bu fikirdədir ki, onun ilk iki misrası o biri iki misrası üçün formal zəmin hazırlayır və əsl mətləb sonuncu beytdə ifadə olunur. H.Kürdoğlunun bayatıları içərisində də bu prinsip əsasında qurulmuşları az deyil. Lakin onun elə bayatıları da var ki, ilk beyt son beyti təkcə formal cəhətdən, ölçü, qafiyə və ya ahəng baxımından yox, məzmunca da hazırlayır və strukturun eyni hüquqlu tərkib hissəsi kimi onun fikri-bədii vəhdətini təmin edir.

*İstərdim bir söz açam,*
*Bir yol salam,iz açam,*
*Bu namərd gözüm yaşı*
*Heç qoydu ki, göz açam?!*

***

*Bağladım tara simlər,*
*Dil açsın yara simlər.*
*Bu simləri çalmasam*
*Qəlbimdə yara simlər.*

Aydın məsələdir ki, bu bayatıların birinci beytindəki hərtərəfli hazırlıq (o cümlədən də məzmun hazırlığı) olmadan ikinci beytindəki müəllif qənaəti bir növ havadan asılı qalmış olardı.

Heç bayatı kitabı tapmaq mümkündür ki, orada təmənnasız, cəfakeş məhəbbətin rəmzi kimi gül-bülbül münasibətlərindən bəhs olunmasın? Əlbəttə yox! Əlimizdəki kitab da belədir. Hətta onu vərəqlərkən əvvəlcə bir qədər nigaran oldum ki, görəsən şair təkrarçılığa uymayıb?.. Lakin oxuduqca inandım ki, bu təlaşım əbəsdir. Tək bizim yox, bəlkə də torpağında gül bitən, gül kollarında isə bülbüllər cəh-cəh vuran bütün xalqların poeziyası üçün mövzu olan gül-bülbül münasibətlərində də sən demə hələ bayatının predmeti, mövzusu olmamış neçə-neçə incə məqamlar işlənməmiş qalırmış. Bircə nümunə verirəm:

*Qönçədən dil açdı gül,*
*Bir qızıl tül açdı gül.*
*Gecikmisən, a bülbül,*
*Sənsiz də gül açdı gül!*

Aşağıdakı bayatını oxuyanda isə bir böyük şairimizin öz gənc həmkarı və onun ilk uğurlu əsərlərindən biri haqqında dediyi məşhur misranı xatırladım.

*Güldən bir yarpaq uçdu,*
*Görün nə sayaq uçdu!*
*Ömrümün kitabından*
*Sanki bir varaq uçdu…*

Bu misralardakı mənanın xalq bayatısındakı «gündə bir kərpic qopur ömrümün sarayından» fəlsəfəsilə səsləşdiyi göz qabağındadır. H.Kürdoğlu isə təbiət hadisəsi ilə insan həyatının əlaqəsini daha konkret bir ünvanda, hər bir savadlı adamın hər gün təmasda olduğu kitab-varaq müstəvisində əks etdirmiş, həm də bayatının hazırlıq hissəsində güldən bircə ləçəyin düşməsi hadisəsini həssaslıqla duyub incəliklə rəsm etmişdir:

görün nə sayaq uçdu…

Etiraf edək ki, bir çoxlarını heç mövsümün axırına yaxın güllərin kütləvi surətdə həşəm olması da tərpətmir. Şairi isə tək bircə gül yarpağının öz çətirindən qopması, özü də nə isə bir başqa sayaq uçması həyəcana gətirib ona bu bayatını yazdırmışdır. Yəqin ki, S.Vurğunun B.Adil barədə məşhur misrası burada da çox yerində səslənərdi:

Şair, nə incədir rübabın sənin!

Ümumiyyətlə, rübabın incəliyini təmin edən atributlardan birincisi şairin demək istədiyi bədii mətləbdir, poetik fikirdir, tapıntıdır. Bu tapıntını canlandırmağın, ifadə etməyin vasitələri isə şerin ilk baxışda bəzilərinə asan görünən, əslində isə şairdən böyük sənət mədəniyyəti, zəngin poetik bilik və səriştə tələb edən ahəngdir, vəzn-

dir, bölgüdür, məcazdır, alliterasiyadır… Bayatıların ənənəvi olaraq aaba üsulu ilə qafiyələndiyi məlumdur. Mükəmməl bayatılarda qafiyə sadəcə olaraq uyarlı səslərin misraların sonunda nizamlı düzülüşü ilə məhdudlaşmayıb fikrin daha sərrast, daha anlaşıqlı və daha təsirli deyilməsində həlledici rol oynayır. Başın-qaşın-daşın, ətirli-çətirli-xətirli, ellər-tellər-sellər, aylı-çaylı-paylı qəbilindən olan yüzlərcə sarsılmaz qafiyə Hüseynin bayatılarında izlənən məna və məqsədə yaxşı xidmət edir. İstər folklorda, istərsə də klassik şerimizdə cinaslardan istifadə yolu ilə yaradılmış bayatılar haqlı olaraq bu sənətin çox yüksək nailiyyəti kimi qiymətləndirilir.

*Qobustan – daş adamlar,*
*Göz yaşım daşa damlar.*
*Duymaz daş adamları*
*Ürəyi daş adamlar!*

***

*Söz varmış demə səndə,*
*Demirsən, demə sən də.*
*Sirrin gözdən oxunur,*
*Nə fərqi deməsən də?*

***

*Dil açıb nəvəm indi,*
*Sevincim nəvəmindir.*
*Gör nə xoşbəxt babayam,*
*Boynuma nəvə mindi!*

Hər cür təhlildən vaz keçərək bunu deməklə kifayətlənirəm ki, yalnız xalq dilinin məna zənginliklərinə bələd olan püxtə qələm və incə zövq sahibi kitabın bir çox səhifələrinə səpələnmiş bu cür incə təcnis-bayatılar yarada bilər.

Bəzən H. Kürdoğlu bayatının ikicə misrasında öz rənglərilə göz oxşayan təbiət mənzərəsi, yaxud insan portreti cızmağı, hadisə – vəziyyət təsvir etməyi, ya da müdrik bir fikri mükəmməl ifadə etməyi bacarır.

*Yelkəndir ağ çadırlar,*
*Yaşıl ümman içində.*

*Üzü qaya kimi sərt,*
*Qəlbi ipək Koroğlu.*

*Şuşada xarı bülbül,*
*Yarı gül, yarı bülbül.*

*İtirdim gəncliyimi*
*Yel dağıtmış un kimi*. və i.a.

Kitabdakı bayatılar arasında sayca lap az da olsa, onun ümumi səviyyəsi ilə uyuşmayanları da, bəzi məqamları ilə biri digərini yada salanları da tapılır. Elə bayatıya da rast gəldim ki, onun birinci beyti ilə ikinci beyti arasında uyarsızlıq, bəlkə də hətta ziddiyyət mövcuddur:

*Ağ üzdən xal umursan,*
*Baxırsan lal, umursan.*
*Sancırsan arı kimi,*
*Dilimdən bal umursan?*

İkinci misrada lal-dinməz dayanan obrazın üçüncü misrada arı kimi sancması (yəni dilini dinc qoymaması, tənəli atmacalarla qarşısındakını zara gətirməsi) onun səciyyəsinin tamlığına xələl gətirir.

«Füzuli çiçək açdı dünyanın dərd əlində», «Sənsiz bu göz yaşımın olmadı dayaz günü», «Ürf-adət hara qaçdı?» kimi misralar üzərində kifayət qədər işlənmədiyi göz qabağındadır. 125-ci səhifədəki dördüncü, 130-cu səhifədəki ikinci, 206-cı səhifədəki beşinci bayatılarda dərin məna cövhəri, yaxud məna cövhərinin səhmanlı ifadəsini görmədim.

***

Xüsusi diqqətlə oxuduğuma baxmayaraq min bir ədəd bayatıda nəzərimə çarpan cüzi qüsurlar elə bunacıqdan ibarətdir. H.Kürdoğlu bir şair kimi bircə anını da boş keçirmir. Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunda böyük elmi işçi kimi tədqiqatlarını davam etdirir, dilini yaxşı bildiyi fars mənbələrindən, o cümlədən də xüsusən M.Şəhriyarın qəzəllərindən tərcümələr edir, folklor qaynaqlarımızı araşdırır, toplayıb çapa hazırlayır, vaxtaşırı yeni şerlərini yazır. Yaşının 60-a yaxınlaşdığı bir vaxtda o, axtarışsız, araşdırmasız, səmərəsiz keçən anını ömründən saymır:

*Vətən köksü taxtımız,*
*Açılsın gül baxtımız.*
*Vaxtın saatı yatar*
*Barsız keçsə vaxtımız.*

İnanıram ki, on beş kitabın müəllifi olan H.Kürdoğlu bundan sonra da öz ilhamı ilə əl-ələ verib barlı-bəhərli fəaliyyətinin yeni nümunələrilə oxucularını sevindirəcəkdir.

1993

«Ədəbiyyat qəzeti», 12 mart, 1993;
«Ölümsüzlüyün sirri» –
Bakı. «Sabah», 1994, s. 156.

## YURDUMA QURBANDIR SÖZÜM

50-ci illərdə ədəbi prosesə yeni bir nəsil gəlirdi. Yaşlı və orta nəslin ən qüvvətli poetik ənənələrindən bəhrələnən bu nəslin özü ilə gətirdiyi poetik təravət dərhal duyulurdu. Cəmiyyətdəki demokratik ab-hava bədii sözün canına hopmuşdu. Poeziya öz əzəli, əbədi mövzu-

larına daha inamla və cəsarətlə qayıdır, klassik və folklor ənənələri yeni biçimdə ortaya gəlirdi. 50-ci illərin ikinci yarısında poeziyaya gələn şairlər içərisində Hüseyn Kürdoğlu poetik təsvir sistemi, dərin lirizmi ilə ədəbi ictimaiyyətin diqqətini dərhal cəlb etdi.

*Yurdumun eşqini gözündən içdim,*
*Gördü bu dünyanı gözüm, ey bulaq!*
*Büküb dizlərimi əyildim sənə,*
*Bir də bükülmədi dizim, ey bulaq.*

Bu və digər bir şerinin aşağıdakı misralarında Hüseyn Kürdoğlu poeziyasının bədii-estetik məramnaməsi ifadə olunmuşdu.

*Yadımdan çıxarmı yaşıl güneylər,*
*Ayağım yer tutmuş o dağlar üstə.*
*Bir gözəl ovcunda su vermiş mənə,*
*Alışıb yanmışam bulaqlar üstə.*

Hüseyn düz yarım əsr yazıb yaratdı. Lakin bu misralarda böyük istedadla ifadə olunmuş poetik məramına xilaf çıxmadı. İyirmiyə yaxın şer kitabı, elmi monoqrafiya və məqalələri, bədii tərcümələri bu təvazökar şair və alimin zəngin yaradıcılıq yolu haqqında gen-bol təsəvvür yaradır.

Hüseyn ilk növbədə gözəl bir Azərbaycan ziyalısı, zərif ruhlu şair-vətəndaş idi. Ömrünün son illərində yazdığı bir dördlüyündə bunu çox sərrast ifadə etmişdir:

*Mən vətənin qayğısından hələ paysız vətəndaşam,*
*Gözütoxlar sırasında yəqin taysız vətəndaşam.*
*Təltif eylər vətən məni son mənzildə bir daş ilə,*
*Umacaqsız, qışqırıqsız, hay-haraysız vətəndaşam.*

Hüseyn Kürdoğlu orijinal əsərlər yazan bir sənətkar idi. Yenilik, təravət onun əsərləri üçün səciyyəvi idi. Bir

insan kimi çox təvazökar olduğuna baxmayaraq, şerlərinin qədrini-qiymətini özü də etiraf etmişdi.

Şairlərimiz lap uzaq əsrlərdən üzü bəri özləri haqqında fəxriyyə yazmağı sevmişlər. Lakin yalnız o fəxriyyələr yaşayır və özünü doğruldur ki, həqiqəti əks etdirmiş olsun.

Hüseynin fəxriyyəsi kimi:

*Bir dağam, başımın qarı təzədir,*
*Şerimə bal çəkən arı təzədir,*
*Kökləri uludur, barı təzədir,*
*Olmasın bir dənə boyatım gərək!*

Doğrudan da boyat fikir, nimdaş ifadə tərzi Hüseynin yaradıcılığına həmişə yad olmuşdur.

Bütün qələm yoldaşları kimi, o da sevgi şerləri yazmışdır. Aşağıdakı bir bəndlik şer bəlkə də ədəbiyyatımızda sevgiyə dair mininci əsərdir. Amma məhz H.Kürdoğlunun qəlbindən süzülüb gəlmiş orijinal bir kəlamdır:

*Qayalarda açan gülü çıxıb, sənə dərmişəm,*
*Aylı gecə bulaq üstə saçlarını hörmüşəm.*
*Dağdan aşıb, orman keçib gəlməyəndə görüşə,*
*Yarpaq üstə şer yazıb küləklərə vermişəm.*

Bu, hərəkətdə olan, davam edən bir gözəllik aləmidir, əsl estetik dəyər nümunəsidir.

Hüseynin poetik leksikonu, gözlənilməz obrazları, adi həyati detallara verdiyi bədii-fəlsəfi məna çalarları adamı heyrətləndirir:

*Çəliyimi külək salır əlimdən,*
*Yaxmacımı toyuq çalır əlimdən.*
*Möhləti var, hesabı var dünyanın,*
*Nə vermişsə bir-bir alır əlimdən.*

Hüseynin lirizmi bənzərsizdir, zərif və kövrəkdir, qəlbi riqqətə gətirən hisslərin ifadəsidir:

*Ay camalın ayaz deyil,*
*Sər-səhmanın taraz deyil.*
*Nazın da həmən naz deyil,*
*Nazında yalan yeri var.*

H.Kürdoğlu müasir Azərbaycan poeziyasının bütün şəkillərində yazıb-yaratmışdır: hecada da, əruzda da. Yüzlərlə şer, poema, qəzəl, qoşma nəşr etdirmişdir. Hamısı da uğurludur.

Amma o, dördlüyün, bayatının, təcnisin əsl böyük ustadı və bu sahədə müasiri olan şairlərin çoxundan üstün idi.

Buna inanmaq üçün «Sabah» nəşriyyatında çapa hazırlanan «Yurduma qurbandır sözüm» kitabının mətbəə qrankalarını, «Qaya çiçəkləri», «Durna səsi», «Yaralı torpağım, yaralı sevgim», «Bu dünya bir karvan yolu» kitablarını vərəqləmək kifayətdir.

O, klassik formanın çox ciddi tələblərinə əməl etmək şərtilə bayatıda yeni məzmun ifadə etməyin ürəyə yatan nümunələrini yaradır və bu zaman son əsrdə dilimizin əldə etdiyi üslubi, xüsusən semantik zənginliklərdən, obrazlılıqdan incəliklə faydalanır. Onun bayatılarında xalqın, dilin yaddaşı ilə bu günü böyük poetik ustalıqla birləşir:

*Soyunu bada verməz,*
*Şöhrətə, ada verməz.*
*Başını verər Kərkük,*
*Dilini yada verməz.*

Təcnis – Azərbaycan şerinin xüsusi ustalıq, bilik, zəngin söz ehtiyatı tələb edən, cinaslar ütündə qurulan ecazkar bir şəklidir. Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Ələsgər, Molla Cümə kimi böyük sənətkarların bu sahədə parlaq uğurları məlumdur.

Təcnis az-az yaranan bir formadır. Məsələn, Aşıq Ələsgərin nəvəsi, tədqiqatçı İslam Ələsgər babasının 175 illiyi münasibətilə nəşr etdirdiyi mükəmməl kitabda aşığın cəmi 22 təcnisini toplayıb təqdim etmişdir.

Hüseyn bu ustadların irsini dərindən öyrənib tədqiq etmiş, hətta Sarı Aşığın bayatılarını (təcnisləri qarışıq) ayrıca bir kitab kimi nəşr etdirmişdi. Beləliklə o özü də təcnisin bənzərsiz ustadı kimi yetişmiş, 100-lərlə gözəl təcnislər yazıb nəşr etdirmişdir.

*Çoban tütəyini bu dağda çala,*
*Əks edə bu qaya, bu dağ da çala.*
*Koroğlu daş atıb qarı düşmənə –*
*Zərbindən qalıbdır bu dağda çala.*

Çala sözünün məna çalarlarının əlvanlığına diqqət yetirdinizmi?

Bu dörd misrada meydan çox dardır. Lakin əsl şairlər öz söz ecazı ilə bu dar meydanı genişləndirir, vüsətləndirir, necə deyərlər, öz atını dördnala çapır.

Ekologiya mövzusunda bir təcnisi var Hüseynin:

*Yaman divan tutdu ceyrana yağı,*
*Demədik hayıfdır ceyran, a yağı!*
*Bir yolluq kəsildi Mildən, Muğandan*
*Qamçıya sap oldu ceyran ayağı!*

Bu cür təcnislərin hər birinin məna və bədii gözəlliyi ayrıca şərhin, söhbətin mövzusudur.

Hüseyn Kürdoğlunun ədəbi irsi bir növ müxtəsər poetik Azərbaycan ensiklopediyası təsiri bağışlayır. Yəni onun əsərlərində ölkəmizin gözəl mənzərələri, tarixi abidələri, məşhur qəhrəmanları, saz və söz ustaları, folklor obrazları, əməlpərvər çağdaşlarımız təbii surətdə növbələşirlər. Qartallı zirvələr, sərt qayalar həm də taleyimizin daş kitabələri kimi mənalandırılır, xalqımızın tarixilə yur-

dumuzun təbiəti uğurlu bədii vəhdətdə çevrələnir. Bir-birindən gözəl olan bu şerlərdə ölkəmizin bütün iqlim qurşaqları, xəritəmizin demək olar ki, bütün əlvanlığı özünün yığcam bədii təsbitini tapmışdır.

Onun şerlərindən başlayıb uzanan vətən məhəbbəti cığırları ilə oxucu şairin boya-başa çatdığı Laçın, Kəlbəcər, Qubadlı yaylaqlarına, Sarıbaba, Dəli dağ, İşıqlı dağlarına çıxır, digər obaları, elləri, şəhər və kəndləri seyr edir, Şirvanın, Muğanın, Milin qora bişirən istisindən keçib, Göy gölün, Maral gölün, Ala gölün mavi sularına baş vurur. Yollar boyu düzülmüş buz bulaqların dirilik suyundan nuş edir, Kürlə Arazın qovuşduğu yerdə təbiətin möcüzəsi önündə heyran qalır, Xəzərin ənginliyindən sinəsi dolu nəfəs alır. Bakıda Qız qalasına, Naxçıvanda Möminə xatun məqbərəsinə tamaşa edir.

Hüseynin əsərlərində hər bir azərbaycanlıya Bakı qədər əziz olan Təbriz, Marağa, Maku, Zəncan, Gilan xatırladılır, xalqın mənəvi dəyərləri qədirşünaslıqla yad edilir, Zərdüşt, Nəsimi, Füzuli, Qurbani, Vaqif, Aşıq Ələsgər, Natəvan, Hadi, Cavid, Müşfiq, Bülbül, Dədə Şəmşir dərin səmimiyyət duyğusu ilə tərənnüm olunurlar.

Hüseynin son zamanlar qələmə aldığı dördlüklərində dərin bəşəri bir kədər var. Canı, varlığı qədər sevdiyi Laçın dağlarının yağı düşmənin tapdağında qalması onu dərin mənəvi sarsıntılara düçar etmişdi.

*Əzab görməmişdim hələ bunca mən,*
*Ayıldım tanrıdan mehr umduqca mən.*
*Qeyri daş qoymayın məzarım üstə,*
*Laçın alınmasa göz yumunca mən.*

Belə deyənlər tapılır ki. guya şerimiz Qarabağ hadisələrinə biganədir. Əlbəttə, belə deyil!

B.Vahabzadənin, Nəbi Xəzrinin, Qabilin, S.Rüstəmxanlının, Cabir Novruzun, Hüseyn Kürdoğlunun bu mövzuda əla poema və şerləri var! Görün Hüseyn «Ər qeyrəti» adlı, çağırış ruhlu şerində nə deyib; özü də necə deyib:

*Aldatdı bizi qırmızı kirşanlı yalanlar,*
*Sayrışdı mələklər kimi ilğımda ilanlar.*
*Ey dad, bizik zülm ilə zülmətdə qalanlar,*
*Od qalmadı, nur qalmadı, yadlar barınır sərvətimizdən,*
*Od yurdumuz ər qeyrəti gözlər qocaman millətimizdən!*

*Birlik gərək ancaq, bizə birlik, bizə birlik,*
*Qüvvət verəcəkdir qola birlik, dizə birlik!*
*Daşqın Kürə dönsün daha, qoy dönməsin aciz*
*sözə birlik,*
*Tilsim qırılar, dağ yarılar hiddətimizdən,*
*Çağlar dirilik çeşməsi orman təki sıx*
*vəhdətimizdən,*
*Od yurdumuz ər qeyrəti gözlər qocaman*
*millətimizdən!*

Son misralar heca vəzninin ən nadir ölçüsündə – 18-liklə yazılmış, bu da əsərə xüsusi sanbal, siqlət vermişdir.

Qarı düşmənə şiddətli nifrət duyğusu, həyəcan və çağırış ruhu H.Kürdoğlunun «Bizə» rədifli şerində də hakimdir. Lakin tamam başqa ölçülərdə, tamam yeni biçimdə:

*Əzəldən Araz boyu paralanmış vətənin,*
*İndi də parasının parası qalmış bizə.*

*Yeddi rəngin altısı yağmalanıb nə vaxtdan,*
*Dönüb yas paltarına, qarası qalmış bizə.*

*Qarabağ cənnətini röyamızda görürük,*
*O möcüzə dağların harası qalmış bizə?*

*Dağların ağ suları axır xınzır oğluna,*
*Lilli aran arxında qara su qalmış bizə.*

*Ay haray, nə durmuşuq, gör nələr gedib əldən?!*
*Şəhidlər məzarınca yarası qalmış bizə.*

*Hanı qeyrət qılıncı Koroğlunun, Nəbinin,*
*Onların korşalmayan mirası qalmış bizə.*

*Qisasa-qisas deyib, qana-qan deyib ellər,*
*Dərdli vətən bizimdir, çarəsi qalmış bizə!*

Mən inanıram ki, ürəkdən gəldiyi üçün və ustalıqla yazıldığı üçün bu əla şerlər Qarabağ uğrunda, Vətən uğrunda döyüşlərdə mütləq xalqımızın karına gələcək, öz nəcib vətənpərvərlik missiyasını tam ləyaqəti ilə yerinə yetirəcəkdir!

3/VI/2004

«Ədəbiyyat qəzeti»,
11 iyun, 2004

***Camal Mustafayev***
*Fəlsəfə elmləri doktoru,*
*professor*

## DAĞLAR DURULUQ BAĞIŞLAR

Şairliyi ilk öncə insana təbiətin füsunkar gözəllikləri öyrədib, - deyirlər. Bu fikri müşahidə əsasında yenidən təsdiqləmək, mənalandırmaq olar. Təbiət kimin könlünü erkən sehrləyirsə, onu şair böyüdür. Şair isə ömürlük ona ürəkdən bağlanır, ona tapınır. Təbiətdə onu ovsunlayan rəngləri, ahəngləri duyğuların dilinə çevirir.

Şairi təbiətlə bağlayan hansı mənadır, hansı istək, idealdır? Əlbəttə, yalnız onun gözəlliklərindən estetik zövq almaq deyil. Belə olsaydı şairin təbiətə münasibəti təmənnalı niyyət daşıyardı. Əslində isə şair təbiətin varlığında tükənməz, təmənnasız səxavətə heyrandır. Təbiətin bütövlüyündə, süniliyin ona yad olmasında mənalar axtarır. Təbiətə qovuşmağı, onunla birliyi arzulayır, poetik şəkildə ideallaşdırır.

Belə düşüncələr burada Hüseyn Kürdoğlu şerləri ilə bağlı söylənilir. Görünür, oxucular onu hərə bir cür kəşf edir. Bu sətirlərin müəllifi onu təbiət şairi kimi sevir. Hüseyn Kürdoğlunun şerlərinə Laçın dağlarının təmiz havası hopub. Bu dağların buz bulaqlarının duruluğu duyulur onun şerlərində. Çəmən-çiçəklərin ətri, qaya bülbüllərinin avazı var burada. Dağ çayının iti axışını, təpəsi qarlı dağları mənalandırır şair. At belində dağlarda gənclik şövqü ilə neçə yerləri gəzib dolanır. Yaylaqları seyrə dalmağa aparır oxucusunu, - gözünü, könlünü oxşayır:

*Çəmənlər qoynunda yatmaq istərəm,*
*Saçımı çiçəyə qatmaq istərəm.*
*Körpə yuxusuna batmaq istərəm,*
*Bulaqlar öyrədib laylaya məni.*

Hüseyn Kürdoğlu təbiəti sevdiyindən həmişə onun taleyini düşünür. Dağ başında ildırımın vurduğu tənha ağacın halına acıyır. Nəhəng palıdın yanmağını həm təbiətin, həm insanların faciəsi sayır. Ovçuları dönə-dönə qınayır, onları insaflı olmağa çağırır. Təbiətin gözəlliyini qorumağı – mənəvi varisliyi qorumaq kimi qiymətləndirir:

*Deməyin çinarda nə bəhrə, nə bar,*
*Çinar bu torpağın əzəmətidir.*
*Çinarın bəhrəsi gözəllik, vüqar,*
*Bir də babaların məhəbbətidir.*

Şair öz varlığını təbiətdən ayrı təsəvvürə gətirə bilmir. Xüsusən körpəlikdən ona həmdəm olan Laçın dağlarından ayrı. Burada Hüseyn Kürdoğlunun təbiətə sevgisi ilk eşqilə qoşalaşmışdır. Neçə başqa şairlər kimi, ilk eşqindən hərdən gileylənir. Ancaq şair yubileyində belə gileylərdən söz açmaq olmaz.

Hüseyn Kürdoğlu Azərbaycan təbiətinə, Azərbaycan torpağına vurğundur. Bu böyük sevginin təməli füsunkar Laçın dağlarına vurğunluqdan başlanıb. Vətən sevgisi hissinin ata yurduna sevgidən başlanması təbiidir.

Bu qısa qeydlərdə şairin təbiətə münasibətindən söhbət getdi. Ancaq onun şeri mövzu əhatəsi baxımından geniş, rəngarəngdir. Müasir kəndin problemlərindən yazılmış şerləri diqqəti cəlb edir. Kənddən şəhərə axışan, yuvasını unudan gənclərə iradını bildirir. Kənddə «şəhərləşən»ləri, kənd qayğılarına qalmayanları sərt tənqidə tutur. Bir sözlə, şerlərində vətəndaşlıq ruhu aydın duyulur, aktual məsələlərdən danışılır.

«Ədəbiyyat
və incəsənət» qəzeti,
6 iyul, 1984

***Tofiq Hacıyev***
*AMEA-nın müxbir üzvü,*
*Filologiya elmləri doktoru,*
*professor*

## YENİ ƏDƏBİYYAT YARANIR

*«Yaralı torpağım, yaralı sevgim»*

Bu günün ədəbiyyatı bu günün ağrısı-acısı ilə nəfəs almalıdır. Əgər bu gün Azərbaycanın uzaq keçmişindən bir şer, ya roman yazılırsa, bilinməlidir ki, o əsər XX əsrin 90-cı illərində yazılıb, Azərbaycanın gələcəyi haqqında bir romantik əsər yaranırsa, bilinməlidir ki, onun ərişarğacında bu günün toxunuşu əks olunub. Təsadüfi deyil ki, Sarı Aşıq (XVII əsr) haqqında indi poema yazan Hüseyn Kürdoğlu süjetdə belə səhnə verir ki, XVII əsrdə azərbaycanlılar öz torpaqlarını erməni basqınlarından qoruyurdu.

Əlbəttə, maraqlıdır: ifrat sosiologiya ilə doldurulmuş ədəbiyyatın hakim olduğu zaman, şerin əsas etibarilə Lenini, partiyanı, komsomolu, kolxoz quruculuğunu, Sovet ordusunu tərənnüm etdiyi bir dövrdə, sərbəst vəznin uğurla addımladığı vaxt Hüseyn folklor üslubunda yazır, Molla Pənah, Aşıq Ələsgər poeziyasının havası ilə nəfəs alır, sosializm realizminin acığına şirin qoşmalar, gəraylılar, bayatılar yazırdı. O vaxtın təbirilə, onun yaradıcılığı intim lirikadan ibarət idi. İndiki sərbəstlikdə, ədəbiyyatın çərçivəsiz fəaliyyəti, hətta necə deyərlər, kim necə istəyir, elə yazdığı zaman Hüseyndə ictimai motiv güclənib. Bütün məsuliyyəti ilə deyirəm ki, millətimizin bugünkü böyük dərdindən, Qarabağ faciəsindən heç kəs Hüseyn qədər çox və onunku qədər nüfuzedici yazmayıb. Çünki şair olanlardan heç kəs Laçın və Əhmədli (onun kəndi) yoxluğunu onun kimi əyani yaşamır. Nəslinin ağsaqqalı Bakıda dünyasını dəyişərkən son vəsiyyətini söyləyir:

«Bir ovuc Əhmədli torpağı gətir, Nisgilli qəbrimin torpağına qat. Yoxsa bu məzarda yata bilmərəm, Həsrəti çiynimdən ata bilmərəm». Bu, bir laçınlı ağsaqqalın sözüdür, ancaq şer Hüseynindir – ağsaqqal sözünü bütün göynərtisi və nisgili ilə şerə Hüseyn gətirib. Misraların içindən nisgil dumanı qalxır. Ancaq bu dumanın zülmətində bir ümid işartısı var, yoxsa bu şer – ağının kədərinə insan boğulardı: «Diz çöküb, ayağa düşəndə yağı… Əkin qəbrim üstə bir Laçın gülü, Tökün dibinə də Laçın torpağı. Yel vursun üstümə ləçək tökülsün, Qızılgül içində məzarım gülsün». Şerin gücü, şəksiz, içindəki yanğıdadır, məhz o yanğıya görə bu ağı bir təntənəli döyüş marşından daha çox səfərbəredicidir. Hüseyn sənət övladı olduğu Səməd Vurğunun dilinə məxsus siqlətli, dolğun ləngərli intonasiya ilə deyir: «Babalardan miras qaldı bizə Vətən namusu, Gözəllərin pak isməti tapdanırsa, neynirik bu canı biz!?» Hüseyn də bu böyük həqiqəti car çəkir ki, «Torpaq, əgər uğrunda ölən varsa, Vətəndir», yoxsa mal otlağıdır, vəhşi biyabandır. Bu torpağın 20 faizi yox, heç bir faizin yüzdə biri də düşmənə qalarsa, biz bu canı nəyə bəsləyirik. Və şairin nəzərində Vətən öz bütövlüyü ilə müqəddəsdir, hər cığırı, hər otlağı, hər kəndi, hər qarışı ilə bütöv olmalıdır: «İşıqlısız, Dəlidağsız, Kəlbəcərsiz nə Vətən, Qırxqız hanı, Turşsu hanı, Ağbulaqsız nə Vətən? Qaradağsız ah çəkirdik, Qarabağsız nə Vətən?!» (Bu şerlər niyə vaxtaşırı radio-televiziyada oxunmur? Siyasi-publisist intonasiya ilə səfərbərlik hara, bu şerin təlqini ilə döyüşçü yetişdirmək hara!) Bu dərd, bu nisgil, bu yanğı Hüseyn şerinə ictimai məzmun diktə edir – sosializmdən sonrakı realizm buna deyərlər. Bir zamanlar guya sosializm realizmi də belə vətənpərvərlik istəyirdi. Ancaq bu «böyük» sovet ölkəsi vətənpərvərliyinin mahiyyətini görən şair sosializm realizminin səmimiyyətinə inanmır və şirnikləşdirici ideoloji çağırışa qarşı deyirdi: «Mən susa bilmərəm, susa bilmərəm, İldırım səsimi qısa bilmərəm. Xalqı yeyənlərə alqışlar yazıb, yaxamdan medallar asa

bilmərəm», Bu «böyük vətənin» dostluq və qardaşlığının iç üzü yetmiş il sonra açıldı: «Mənə yetmiş ildir qardaş deyirsən, Arxadaş deyirsən, sirdaş deyirsən, Tökürsən qanımı, sərxoş qurumsaq, Qayıdıb sonra da qardaş deyirsən». Buna görə Hüseyn sosializm realizmindən qaçırdı, onun ulu folklor realizmi vardı. Həmin üsulla öz bədii sözünü haqq səsi kimi yayırdı. Və beləcə Hüseyn «lənətə gəlmiş» intim lirikadan uzaqlaşdı. Əslində ona damğa kimi aid edilən intim lirikanın içərisində öz sözünü bala-bala deyirdi, folklor müdrikliyi ilə pərdələnmiş ictimai motivlərini oxucunun qulağına pıçıldayırdı. Hüseynin şeri heç vaxt ideyasız olmayıb.

Bu gün Hüseynin öz kitabını «Yaralı torpağım, yaralı sevgim» («Sabah», 1997) adlandırması təsadüfi deyil. Kitabın içi adına tam uyğundur. Bu gün bu kitab Vətən şerimizdir. Bu kitab hər döyüşçünün çantasında daşınmalı, heç bir köçkünün-didərginin əlindən düşməməli, hər bir azərbaycanlının stolüstü kitabı olmalıdır (Görəsən bu kitab bütün laçınlılarda varmı?) Hüseynin bütün söz-obrazları, təşbehləri, kəlamları torpaq yaramızın ağrısını-müqəddəsliyini gərəyincə təlqin etməyə səfərbərdir. Yetkin dil ustalığı, folklordan gələn sadəlik, həzinlik, nüfuzedicilik şairin bədii motivlərini dəyərləndirir. Xalq yaradıcılığından dərs almış Hüseyn bədii dilin sirlərinə yaxşı bələddir. Mən bilmirəm Hüseyn lazım olan sözü tez, ya gec tapır. Ancaq görürəm: sözü, ifadəni elə tapır, elə seçir ki, ondan coşdurucu, ondan sarsıdıcı, ondan göynədici, ondan haraylı nida yoxdur. Hüseyn heyrətli səsi ilə ürəkləri əfsunlayan sızıltılı zəngulə dahisi Qədir haqqında belə yazır: «Elə bil qayaların sinəsindən qopursan, bir tanrı şöləsisən ürəklərə hopursan… Zulumsan, zulum, Qədir!» Qədir sənəti dürüst təhlil olunur – təhlildə güclü təyin-atribut «zulumsan» təşbehidir, bu təyinin içində sözlə xırdalana bilməyən çox hisslər – anlayışlar var. Əvvəlan, Qədiri bu kamillikdə səciyyələndirməyin özü sənət ustalığıdır; ikincisi, yandırıcılığına, hissə yiyələnməyinə görə

Hüseynin sözü Qədirin səsinə çox yaxındır. Hüseyn öz ana dili – azəri türkcəsi haqqında deyir: «Dədə Qorqud torpağı sinəsindən bitirmiş, Dirilik şərbəti var bulağında bu dilin, Misri qılınc hökmü var yarağında bu dilin…» Hüseynin şerində bu dilin bütün əzəməti və zərifliyi, sərtliyi və yumşaqlığı, marş-cəngi qürurluğu və bayatı-oxşama həzinliyi üzə çıxır – mən şairi bu arzusuna çatmış hesab edirəm. Hüseynin dili bu gün ustad dilidir: hər şerdə, hər bənddə, hər misrada, hər ifadədə bu ustalıq görünür. Hüseyn nəyi necə deməyi bilir. «Çağırır Qarabağ, çağırır Laçın» şerində «ay camaat, gəlin döyüşə gedək» deyilmir və ümumiyyətlə çağırış yoxdur. Qəfil xəyanətdən boşalmış Qarabağın, Laçının hüznlü mənzərəsindən bir-iki detal səhnə verir: «Bağ-bağat doğranıb, evlər talanıb, Yerində kötüyü, özülü qalmış; Tutublar atəşə toy mağarını, Şərab qədəhlərdə süzülü qalmış…» Əlbəttə, bunlar yandırıcı lövhələrdir, insanı silaha, qisasa çağırır. Ancaq bu hüznlü səhnələrin də ən dəhşətlisi budur: «Vurublar çobanı, aşıb qayadan, Yal-yamac qoyunlu-quzulu qalmış» – bu misralar bir romanın, bir siyasi-publisist əsərin əvəzidir: bu, Qədirin bir qəfil zənguləsidir. Bu misralar dillə deyilməsi mümkün olmayan dərdlərin müqabili bir ahdır, tarixi faciələrlə mübahisəyə girişməyə qabil bir faciə-beytdir.

Oxucunun hisslərini ələ alan bir ifadə belə oxunur: Vətəndə vətən gəzirəm – Öz doğma vətənində bir milyon didərgini olan insanı bu misra silkələməyə bilməz. Namiq Kamalın belə misraları var: «Sərhəddimizə qələ bizim xaki-bədəndir, Osmanlılarız, ziynətimiz qanlı kəfəndir, Qovğadə şəhadətlə bütün kam alırız biz, Turanlılarız can veririz, nam alırız biz». Hüseynin bu misraları türkün tarixi anketi sayılan həmin misraların yeni bədii-emosional-etnik yaşanışıdır: «Ərənlərin budur sözü: qana-qan, Yurd eşqinə ölmək bizə şərəf-şan!» Şair örnək babaları vətən övladının yadına salır: Oğuz elli Beyrək, Babək, Qoç Koroğlu… Ancaq bunların hamısından tutarlısı Qoç Nəbi,

Həcər xanımdır. Çünki onlar məhz bu günkü düşmənlərlə vuruşublar; çar hərbçiləri Qaçaq Nəbini məhz Gorus qazamatında buxovlayırdılar. Ona görə də Hüseynin bu misraları təkcə bədii tapıntı deyil, həm də tarixi həqiqətdir: Quduzdur qarı düşmən, Dayağı sarı düşmən – onda da erməni «sarı düşmənə» arxalanırdı, yenə vətənimizi parçalayan yağıların dayağı həmin «sarı düşməndir». Hüseynin Nəbini, Həcəri tez-tez xatırlaması oxucunun qulağında tarixi marş sədası canlandırır. Şairin «Şəhid olan dağlar qızı» şerinin qəhrəmanı Həcərin nəvəsidir, öz Nəbisinin qisasını almaq üçün əlinə silah götürüb – şairin misraları xalqın Həcər haqqındakı şerləri kimi nüfuzludur: «Yarın da vətən qurbanı, Qoymamısan batsın qanı. Yurdumun dişi qaplanı, Könüllər mənzilin sənin».

Ustadlarımız qəddarı, zalımı, hiyləgəri qurdla, ilanla, tülkü-çaqqalla müqayisə ediblər. Bu gün sevginin məşhur Hicran-Ayrılıq obrazını qınamaq, gözdən salmaq üçün şair ona görünməmiş bir təşbeh işlədir: «Şəlləyində qırxlı çağa, döşündə tüfəng, Həcər soylu qəhrəmanım Laçın gözəli… Sevgilinlə qoşa görüm səni hər zaman, Düşmən olan qonşu kimi gəlməsin hicran». Yaxud: başqa məqamda: «Haraylı, ünlü dünya, Toylu, düyünlü dünya. Daşnaq gözləri kimi həmişə kinli dünya» – yəni düşmənə nifrət qazandırmaq üçün Hüseyn uzun-uzadı təsvir vermir, həm çox müxtəsər, həm də daha təsirli bir üsul seçir: nifrət məqamına ermənini təşbeh gətirir. Torpaq niskili bundan zərif, bundan iti necə deyilər – Laçına: «Nə qaranquş gəlir daha, nə leylək, Durna keçmir, göydən düşmür ağ lələk, Qorxa-qorxa qönçələnir gül-çiçək (Allah, bu hissi şair sözə necə çevirib, qulağına mələklərmi pıçıldayıb), Çəmənzarım, laləzarım yaralı!..» Bu, yanıqlı bir oxşamadır. Bu: vətəndə qəribliyin zilidir, bu vətən üçün burun göynətməyin örnəyidir – təbliğatla, şüarla, əmrlə yox, vətəni azad etməyə bu misralarla səfərbər edirlər. Bu gün nisgilli, talesiz didərgini marşla yox, kövrək, dərdli sözlə, halına uyğun dillə ələ almaq, dirçəltmək olar – kövrək emo-

siya ilə döyüşçünü hazırlamaq, oyatmaq, marşla hücuma aparmaq gərəkdir. Hüseyn bu hissə yiyələnmək üslubunu folklordan öyrənib.

Hüseynin bu günü səciyyələndirən aforizm – misraları saysızdır: «Yad fitnə salıb, öz içimizlə yağıyıq biz; Qoltuqdakı kiçik şeytanı saxlar iri şeytan; Daş körpüdə otlar göyərir həsrətimizdən; Ev sahibiyik, bəs niyə buyruqçu sayıldıq; Gözlərdə qisas gülləsi var nifrətimizdən; Qaynayacaq məhkəmənin qır qazanı; Yaxşılar yerə batdı, Yamanlar üzə çıxdı; Qoç Nəbinin nəsilləri qan töksün, qan ağlamasın; Qaçma, bala, qaçma, torpaq sənindir; Arxa boşsa, igid olan neyləsin» -bunlar cəmisi 2-3 şerdəndir, bu kitab belə aforizmlərin çəmənzarıdır. «Od yurdumuz ər qeyrəti gözlər qocaman millətimizdən» ümidilə yaşayan şair birdən «Belə başıpozuq millət görmədim» deyəndə, əlbəttə, iradəsinin cilovunu əsəbiliyin yedəyinə verir; bunu daha düz deyir ki: «Şəhidlərin ulduzlarcan sayı var». Bəs axı «Gözəl adın başımızda qeyrət tacı» dediyi, özünü qumbarayla düşmən tankının altına atan Etibar bu millətin oğludur! Millət camaatdır, kütlədir, o, təşkil olunmalı, idarə olunmalıdır. Hətta Lenin deyərdi ki, ideya kütləyə kənardan gətirilməlidir – bu «kənar» anlayışında millətin öz elitası nəzərdə tutulur. Ancaq millətə sərkərdəlik edən Rəhimlər, Surətlər «kənarı» Moskva, Yerevan mənasında aldılar – millət buna neyləsin?

Vətənin acı taleyi «intim şer» sahibi Hüseyni 90-cı illərin ən ideyalı şairinə çevirdi. Bu onillikdə şairin yaradıcılıq üslubunda ikinci inqilab oldu. Bu illərdə Hüseyn Füzuli üslubundan imtahan verir. Bu, sənətin kamal imtahanıdır. Dövrünün ədəbiyyatında yerini tutmağın sınağıdır. Vaqif, Ələsgər universitetində fərqlənmə diplomu ilə təhsilini bitirən Hüseyn özündə inam hiss etdi ki, fərdi hazırlıqla (eksterinat yolu ilə) Füzuli universitetinin imtahanlarına girişsin. Sarı Aşığın, Vaqifin, Ələsgərin, Vurğunun sənət çeşməsindən ilk poeziya qədəhini dolduran Hüseyn Füzuli, Qövsi sənətilə kamala doldu. Füzuliyə

bənzətmələr yazdı. Və yenə ürəkaçandır ki, Füzuli motivlərində bu yetkin qəzəllər 90-cı illərin ictimai məzmunu ilə zəngindir. Ustadlarından Sarı Aşıq mövzusunda «Aşıq və Yaxşı» poemasını ikinci ixtisas təhsili zamanı – Füzuli universitetində ikən yazır. Sanki şair nümayiş etdirir ki, hər iki üslubu – divan şeri və folklor yolunu müvazi davam etdirir. «Aşıq və Yaxşı» günümüzün poeziya uğurlarındandır, müasir «Leyli-Məcnun»dur. Quruluşca «Dəhnamə» kimi məktublardan ibarətdir, mahiyyətcə Füzulinin «Leyli və Məcnun»unu xatırladır: yalnız ona görə yox ki, Aşıq-Məcnun, Yaxşı isə Leyli kimi göynədici, nakamlıq rəmzi aşiqlərdir. Maraqlı bir texniki uyğunluq da var: Füzuli məsnəvi şəklində verdiyi hadisələri fəlsəfi qəzəllə ümumiləşdirir. Burada isə süjet qoşma formasında məktublarla davam edir və hər məktubun sonunda bayatılarla fəlsəfi ümumiləşmə verilir. Ümumiyyətlə, bu şəkildə poema yazmaq orijinal olmaqla, həm də mürəkkəb yaradıcılıq işidir – ədəbiyyatşünaslığımız onun təhlilini verməlidir.

Əsrin ortalarında lirik qoşma və gəraylılarla yaradıcılığa başlayan Kürdoğlu Hüseyn zəngin, dolğun bir yaradıcılıqla, kamil üslubla yüzilliyi başa vurur.

«Xalq» qəzeti,
27 sentyabr, 1997

***Şamil Salmanov***
*Filologiya elmləri doktoru,*
*professor*

## NƏSLİN BİR YARPAĞI DA DÜŞDÜ...

Mən hər dəfə ədəbiyyata gəldiyimiz illərdən tanıdığım, ədəbi nəslimizə mənsub kimi isə itirəndə, məşum ölüm xəbəri mənə çatanda qeyri-ixtiyari böyük Nazim Hikmətin məşhur, təkrarsız «Başladı nəslimin yarpaq tökümü» misrasını xatırlayır, dərin bir kədər keçirirəm, Gözəl şair dostum Hüseyn Kürdoğlunun dünyanı tərk etdiyini eşidəndə sarsıldım, kövrəldim, içimi göz yaşları yandırdı. Doğrudan da, sən son ucu ölümlü dünyasan, - dedim öz-özümə.

Hüseyni son illərdə az-az görürdüm, hətta bəzən aylarla görüşmürdük. Onu axırıncı dəfə bir-iki ay bundan əvvəl gördüm, qucaqlaşıb-öpüşdük, ötən tələbəlik illərini həsrətlə xatırladıq. Halını soruşdum, «canım ağrıyır» – dedi. Mən də zarafatla ona: «Fikir vermə, qocalıqdandır» – dedim. İndi isə dostumun ölüm xəbəri. Amansız, sərt həqiqət: Hüseyn yoxdur. Çox ağırdır, tələbəlik illərinin dostunu, üstəlik gözəl, səmimi bir şairi, ziyalını itirmək ağırdır, dözülməzdir.

Mən belə məqamlarda özümü bitib-tükənməz bir tənhalığın içində hiss edirəm. Bu dəfə də belə oldu və ağır kədər yükü altında mən istər-istəməz Hüseyn haqqında, onun yaratdığı zərif, kövrək, səmimi, həm də mənən güclü, mərdanə poeziyası haqqında düşündüm, bu poeziyanın çağdaş ədəbiyyatımızdakı təkrarsız rolunu düşündüm. Və bir daha ötən əsrdən yeni əsrə, yeni minilliyə keçib gəldiyimiz illəri xatırladım. Bu xatirələr içində bir daha sanki dostumun ilk gənclik görkəmini, obrazını özüm üçün yenidən kəşf etdim; elə bildim ki, biz yenidən görüşürük, 1953-cü ildə, qəbul imtahanı vaxtında.

Bəli, Hüseyn Kürdoğlunu mən tələbəlik illərindən universitetdə (indi universitetlər çoxdur, amma o vaxt universitet ancaq indiki Bakı Dövlət Universiteti idi) qəbul imtahanları verdiyimiz vaxtdan tanıyıram. Biz bir qrupun tələbələri olduq. Bir yerdə beş il oxuduq, sevincli, kədərli, sevgi dolu, şer dolu, şer həsrətli günlər keçirdik. Bizim qrupda əksərimiz şer yazırdıq, çoxumuz bir-birimizi Yazıçılar İttifaqında keçirilən «Gənclər günü»ndən tanıyırdıq. Hüseyn də belə gənclərdən biri idi. Amma mən bir həqiqəti deməliyəm. Mən indi o illərdəki söhbətlərimizi, şerlərimizi xatırlayıram, gənclik almanaxlarında çıxan şerlərimizi oxuyuram və etiraf edim ki, Hüseyn Kürdoğlu mənə daha yetkin şair kimi təsir bağışlayır.

O illərdə universitet ədəbi gəncliyin demək olar ki, mərkəzi idi. Sonradan 60-cı illər deyilən ədəbi nəslin, şairlər nəslinin böyük əksəriyyəti universitetdə tələbə idi; başqa ali məktəblərdə təhsil alan şairlər də buraya gəlirdi. Bizim ədəbiyyat dərnəyimiz vardı. Poeziya dərnəyinə böyük şairimiz və müəllimimiz Bəxtiyar Vahabzadə rəhbərlik edirdi. Bəxtiyar müəllim bizə poeziya sənətinin sirlərini təlqin edirdi və bu halda isə ən çox Füzuli misralarını, beytlərini bizim üçün açır, incələyir, bu poeziyanın fikir və obrazları qarşısında keçirdiyi heyrətini bizə aşılayırdı. Biz şer oxuyurduq, şerlərimiz tələbkarlıqla müzakirə və təhlil olunurdu. Mən indi də yaxşı xatırlayıram ki, aramızda şerləri ən çox təqdir olunan, bəyənilən şair Hüseyn Kürdoğlu idi. Bəxtiyar müəllim onun şerlərini bəyənir, bunlardan iftixarla danışırdı. O illərdə universitet şairlərinin və nasirlərinin əsərlərindən ibarət gənclik almanaxı nəşr olundu. Buraya Hüseynin də şerləri daxil edilmişdi və bu şerlər bizə çox gözəl, səmimi təsir bağışlayırdı. Hüseyn «Kürdoğlu» ədəbi təxəllüsünü də elə o vaxt qəbul etmişdi. Mən bu sətirləri yazanda onun əlimin altında olan ilk şerlərindən birini – «Yol üstündə tək qovaq» şerini bir daha oxudum. Tək qovaq Hüseynin şerinə

xas həzin və kövrək bir lirizmdən xəbər verirdi. Ümumiyyətlə, Hüseyn böyüyüb-başa çatdığı dağlar, çəmənlər, bulaqlar, qovaqlar yurdunu – Laçını və Laçının timsalında isə Azərbaycan təbiətini şair səmimiyyəti, şair təfəkkür və qəlbi ilə tərənnüm, vəsf edirdi. Bu vəsfdə həmişə bir fikir, müdrik, işıqlı, dərin, sanki indicə tapılmış bir poetik fikir olurdu.

H.Kürdoğlunun ilk şer kitabı 1963-cü ildə çıxmış «Səhər nəğmələri» kitabıdır. Ondan sonra onun onlarla şer kitabı çıxmışdır: «Yurdumu gəzə-gəzə», «Qaya çiçəkləri», «Doğma diyarım», «Çiçək təbəssümü», «Ata yurdum», «Dördtelli durnam», «Toy karvanı», «Durna səsi», «Quzular dağa çıxdı», «Bu dünya bir karvan yolu», «Min bir bayatı» və s. Lap son illərdə isə onun «Yaralı torpağım, yaralı sevgim» (1997), «İmana-dinə gəldim» (1999) kitablarını oxumuşam. Bütün bu kitablar, ümumiyyətlə Hüseynin yarım əsrdən çox bir vaxt, zaman ərzində yazdığı şerlərindən, nəşr olunan kitablarından mən belə bir qənaətə gəlirəm ki, bizim son dövr ədəbiyyatımızda «Hüseyn Kürdoğlu poeziyası» anlayışı ilə ifadə edilə bilən orijinal, özünəməxsus bir poeziya vardır, mövcuddur və bu mənada H.Kürdoğlu ötən əsrin 50-ci illərinin ortalarından yeniləşən yeni bir poeziyanın ən görkəmli bir şəxsiyyətidir.

H.Kürdoğlu poeziyası zahirən bəlkə də ənənəvi poeziyadır. Çünki onun poeziyasında əsas poetik formalar xalq şeri formalarıdır; bu qoşmadır, gəraylıdır, bayatıdır; son kitablarında, şerlərində isə klassik formalardır, məsələn, qəzəldir. Öz poetik sistemi etibarilə H.Kürdoğlu xalq və klassik poeziya məktəbinə mənsub şairdir. Lakin, hətta bu qədim, möhkəm, sarsılmaz ənənələri olan poetika sistemində belə H.Kürdoğlu yeni və özünəməxsus şairdir. Bax, bu mühüm amildir.

Mən unudulmaz, böyük şair dostumun yaradıcılığının, poeziyasının bu məziyyəti ilə həmişə fəxr etmişəm; onu müasir, yeni poeziyamızın mənəvi dəyəri hesab etmişəm

və qiymətləndirmişəm. H.Kürdoğlunun qoşmalarında dərin, yaşanmış bir şair fikri, şair mənəvi aləmi vardır və bu aləmin ifadəsi ilə onun qoşmaları hər dəfə yeni olurdu, qeyri-adi təsir bağışlayırdı, oxucuda təzə, bakirə bir poetik təəssürat doğururdu. Poeziyanı ənənəsiz təsəvvür etmək qeyri-mümkündür. Poeziya hətta ən yeni formada, ən müasir biçimdə də ənənə ilə əlaqəsini, bağlarını qoruyub saxlayır. H.Kürdoğlu şerlərində də qoşma bütünlüklə ənənəvi deyildi; yeni idi, çünki bu qoşmada şairin fikir və hissi, sevgisi, məhəbbəti, həsrət və ümidləri əsas idi, aparıcı idi. Ənənəvi forma, obraz, təbiət, dağlar və çəmənlər onun poeziyasında yüksək bəşəri və mənəvi dəyərlərin ifadə sistemi və vasitəsi idi. Öz şeri haqqında ən dəqiq və yaxşı sözü də elə Hüseyn deyibdir:

*Gözəllik eşqinin çırağı şerim,*
*Yaralı yurdumun yarağı şerim.*
*Təşnə könüllərə şərbət olacaq*
*Mənim bu dirilik bulağı şerim.*

Tale elə gətirdi ki, Hüseyn boya-başa çatdığı, vəsf etdiyi, havasını və çiçəklərinin ətrini misralarına hopdurduğu torpağın, yurdun həsrətini yaşadı. O, Laçının həsrətilə dünyanı tərk etdi. Bəlkə inanmırdı itirdiyimiz torpaqlarımızın qaytarılmasına? Yox, inanırdı. Ancaq torpaq, yurd itkisi onun 90-cı illər, hətta yeni əsrin ilk illərində yazdığı şerlərinin dərin daxili qüvvəsi idi, həsrət və yanğısı idi. Mən «Yaralı torpağım, yaralı sevgim» şerlər kitabını həyəcansız xatırlaya bilmirəm. Mən burada «İmana-dinə gəldim» kitabını da xüsusi qeyd edirəm.

Hüseynin son dövr poeziyasında klassik poeziyaya dərin daxili bir meyl duyulurdu; ürfani poeziya poetikası və mövzusuna bir qayıdış özünü göstərirdi. Hüseynin dördlükləri Tanrı dəyərləri qarşısında insanın keçirdiyi hisslərin, ilahi fikirlərin ifadəsidir – desəm, yəqin səhv etmərəm. Onun Qarabağ itkisindən duyduğu həsrət və

kədər də poeziyasının bu hisslər aləminin bir hissəsidir. Nəhayət, Füzuli motivləri əsasında yazdığı şerlərini mən xüsusi qeyd etməyə bilmərəm. Mən bu şerləri də şairin tənhalıqda keçirdiyi böyük faciəvi hisslərin təsiri kimi başa düşürəm və bunu da Kürdoğlu poeziyasının güclü, özünəməxsus bir tərəfi kimi hesab edirəm. Bütövlükdə mənim üçün H.Kürdoğlu poeziyası neoklassik poeziyanın yeni, orijinal hadisəsidir və bu cəhəti ilə də o, XX əsr poeziyamızın böyük poeziya məktəbinin yetirməsi və təzahürüdür.

Bax, mən Hüseyn haqqında bu vida yazımı bu fikirlə başa çatdırıram. Dəfnin üçüncü günü qəbri üstünə getdik. Hüseyn Laçından, yaralı torpaqdan xeyli uzaq bir kənddə – Xırdalan kəndinin qəbristanlığında dəfn olunub. Eşitdim ki, özü vəsiyyət edib ki, orada, özü də yüksəklikdə onu dəfn etsinlər. Bəli, yüksəklikdə. Mən onun qəbrinə baxırdım, dəfn günü qəbrinə səpilmiş qırmızı qərənfillər qızmar günün işığında pəjmürdə görünürdü. Bəlkə günəş istisindən yox, şair həsrətindən, şair kədərindən? Bəli, ancaq içimdən başqa bir hiss də keçirdi. Düşünürdüm: bax bu yüksəklikdə Hüseyn – bizim gözəl dostumuz, şair qardaşımız Hüseyn Kürdoğlu uyuyur, o, buradan qoyub gəldiyi dağlara, çəmənlərə, Laçının şair həsrətini, möhnətini yaşayan çiçəklərinə baxır. Gün olacaq, torpaqlarımızı qurtaracağıq əsarətdən və Hüseyn o azad torpağa bu şəhər yüksəkliyindən baxacaqdır. Bu, olacaqdır. Mütləq olacaqdır! Hüseyn Kürdoğlu buna inanırdı, onun şeri buna inanırdı.

Əlvida dostum, əlvida şair Hüseyn Kürdoğlu. Əlvida, sənin yoxluğun hər nə qədər ağır olsa da, səndən dünyamıza poeziya qalır. Poeziya isə, sən çox gözəl bilirdin, ölümsüzdür… Sən də ölümsüzsən, dostum! Əlvida!

«Ədəbiyyat qəzeti»,
18 iyul, 2003-cü il

***Nadir Cabbarlı***
*Ədəbiyyatşünas-tənqidçi*

## YARALI TORPAQ AĞRISIYLA...

*(Hüseyn Kürdoğlu. «Yaralı torpağım, yaralı sevgim», «Sabah» nəşriyyatı, 1997)*

Qəddarlıqla, zorakılıqla, sadizm və nəfslə – min illərin bu heyvani instinktlərilə qlobal miqyaslarda çox əcaib bir şəkildə çulğaşan çevik praqmatik ağıl, dovtələb natural məntiq əbədi rəqibini – poeziyanı öz ulu mərtəbəsindən endirməyə, onu soyuq beyinlərin əyləncəsinə, vaxt öldürən məşğələ və hobbisinə çevirməyə indi daha israrla can atır.

İşıqlı romantika, parlaq xəyal, humanizm, şəfqət və mərhəmət kimi anlayışlar bu gün zamanın çöhrəsində ancaq istehzalı bir təbəssüm doğurur. Və dünyəvi şər öz iblis oyunlarına meydan axtaranda, qurban gəzəndə ilk öncə «şair xalqı» hədəf və ünvan seçir; nə qədər acı olsa da, heyrət doğursa da, beləcə

*Zalım dünya xeyirxahın çiynini*
*Bədxah üçün nərdivana döndərir.*

Məlum olur ki, həqiqətən də bu zalım dünyada

*Hələ yazılmamışdır kamil insan kitabı,*
*Dünyanın dərsliyidir bəlkə şeytan kitabı.*
*Daş kimi qalaqlasan, dağdan uca görünər*
*Qılınclarla yazılan günahsız qan kitabı.*
*Xəstədir zəmanəmiz, qan qusur laxta-laxta,*
*Hanı təbib çarəsi, hanı loğman kitabı?..*

Şair xalqın şair oğlu bəşər qarşısında sualı belə qoyur və təbii ki, insanlığın nicatını və xilasını yenə şerin qadir

nəcibliyində, poetik sözün ecazında və sehrində arayıb-axtarır:

*... Mövlanə Füzulidir incilər xəzinəsi,*
*Bircə beytinə dəyməz bütün cahan kitabı...*

Şer xalqımız üçün ta əyyami-qədimdən həmişə intibah, özünümüdafiə və özünü təsdiq amili olmuşdur. Milli şərəf və heysiyyətimizə, azadlıq və istiqlal ehtiraslarımıza, nahaqqa dözümsüzlüyümüzə tərcümanlıq və tribunluq haqqını biz ona etibar və həvalə etdik.

Fikir tariximizdə vaxta və zamana etiraz, cahana və dövrana müxaliflik, həyatın gedişatından giley və şikayət fəlsəfi-ideoloji, siyasi-publisistik sənədə çevrilməzdən öncə, poetik sənədə çevriləndə, ona şerin möhürü basılanda, şair imzası atılanda tarixin gərdişindən ən doğru, ən dürüst «Şikayətnamə» kimi yaşamaq haqqı qazanıb. Varlığımızın, gerçəkliyimizin qəlb atışları, ürək döyüntüləri və qan təzyiqi qissə və «təvarixlərdən» daha dolğun və daha doğru məhz şerin poetik kamertonunda əks-sədasını tapıb. Dünən də – Nizami, Nəsimi, Füzuli və Sabir çağında da beləydi, bu gün də belədir. Və güman edirəm elə sabah da belə olacaqdır.

Bəlkə də bu səbəbdəndir ki, bizim təsəvvürümüzdə xalqın şairliyi həmişə xalqın qadirliyindən xəbər verib. Tarixi çaşqınlığın, hövlün və vahimənin önündə özünü ümumxalq təpərinin və iradəsinin mühüm mənəvi qaynaqlarından biri kimi həmişə ləyaqətlə doğrulda bilib.

Məgər burası bir təsadüfdürmü ki, dərin məhrumiyyətlərə, ağır sınaqlara məruz qaldığımız yüzminlərimizin doğma vətəndə didərginə döndüyü bu çağımızda, güzəranın, zindəganlığın əlində girinc olub qaldığımız bu müşkül məqamda da, aman və güman yeri kimi, yenə poeziyanın şəfqətinə tapınırıq, onun ali və nəcib gücü ilə silahlanmağa can atırıq.

Müasir şerimiz bu ümidi, bu inamı doğrulda bilirmi? Bu, başqa bir söhbətin mövzusudur. Əsas məsələ budur

ki, bu ümid, bu inam yaşayır və var. Onu göz bəbəyi kimi qorumaq namuslu şerin vicdan borcu olmalıdır. «Yaralı torpağım, yaralı sevgim» kitabı, hər şeydən əvvəl, həmin namuslu şerin ən səciyyəvi və əlavə edim ki, həm də az-saylı timsal və örnəyi kimi nəzəri cəlb edir.

Mən bilirəm ki, ədəbi terminologiyada namuslu şer deyilən bir anlayış yoxdur. Amma nə edəsən ki, ulu Vətən torpağı xəyanətkarcasına tikə-tikə doğranaraq düşmənlərə satılarkən ondan heç də kiçik olmayan başqa bir xəyanətin – ayrı-ayrı ciblərə, qrup, tayfa və zümrələrə poetik söz satqınlığının şərəfsiz təcrübəsi fonunda həqiqi şerin həqiqi təyini elə namus ola bilir.

Bu günlərdə Hüseyn müəllimin qoynunda doğulub boya-başa çatdığı, qürur və güvənc yeri kimi həmişə öyüb-alqışladığı Laçının işğalından beşinci il də keçdi. Həmin günlərdə ağsaqqal şair qardaşımın nələr düşünüb-daşındığını, hansı ağrılarla yaşadığını mən bilmirəm. Amma sözü gedən kitabın hər misrasında, hər sətrində həmin ayrılığın sancıları və möhnəti ilə qıvrılan bir qəlbin göynər çırpıntıları aydın eşidilməkdədir. Bu kitabdakı şerlərin, demək olar ki, hamısına yaralı bir torpağa yaralı bir sevginin məğrur kədəri hopub, xiffət dolu qüssə və pərişanlığı çöküb:

*... Yanmış yuvam, Kürdoğludur ağların,*
*Bir nağıldır indi əzəl çağların.*
*Ot bürümüş köç yoluyam dağların,*
*Öz elimin ayağına həsrətəm...*

Kitabın səhifələrində belə həsrət yolçuluğu, belə vüsal gəzərgənliyi ilə sıx-sıx qarşılaşırıq.

Şairin son şerlər toplusunun milli mündəricəsini, ictimai dəyərini və təbii ki, bədii aktuallığını da təmin edən əslində elə bu amildir: onun ümumxalq dərdilə yaşaması, tarixi taleyimizə köklənməsidir. Həmin şerlərin ana mövzusunu, aparıcı problemini, fikir-duyğu yönünü,

ideya leytmotivini ilk öncə elə toplunun öz adı nişan verir: «Yaralı torpağım, yaralı sevgim». Sinəsindən əbədi pasibanı olan ağır ellərin didərgin düşdüyü, qoynunda ulular uyudan yaralı bir torpağa, yaralı bir sevginin kişi qəhəri ilə dolub-daşır bu şerlər. Bu yaralı torpaq dilbər Qarabağdır, əsrlərin qeyrət qalası Laçındır, Şuşadır, Kəlbəcərdir…

Bu yaralı torpaq həmin o laçın kimi oğulları, su sonası gözəlləri üçün göyüm-göyüm göynəyən dağlardır. Həmin o

*Daşlı-qayalı dağlar,*
*Saylı, sayalı dağlar.*
*Düşüb iblis toruna,*
*Qana boyalı dağlar…*

*Bir üzü bəri dağlar,*
*Qızları pəri dağlar.*
*Yolları yağı kəsmiş,*
*Ahımdan əri, dağlar…*

Kitaba toplanmış şerlərdə ideya leytmotivi konkret və üzdə olduğu kimi poetik pafos və tendensiya da, şairin vətəndaşlıq mövqeyi də açıq və birmənalıdır.

*… Söz eşitməz qan hərisi öz qanına yalanmasa,*
*Ağlı gəlməz qafasına başında od qalanmasa;*
*Talan düşər məmləkətə qurd yuvası talanmasa,*
*Bəsdir daha səksəkəmiz, harayımız, təlaşımız,*
*Ağlamayın, məlhəm deyil yaramıza göz yaşımız…*

*… Koroğlu yurduna nə deyir bu yas,*
*Məzar daşlarına dayan qulaq as.*
*Ruhu nərə çəkir şəhidlərimin:*
*Qisas al, qisas al, qisas al, qisas!..*

Müasir ədəbi hərəkatda, xüsusilə poeziya prosesində dekadent əhval-ruhiyyənin, mənəvi-psixoloji çaşqınlığın və zəlilliyin sürəkli olaraq dərinləşdiyi, virtual qavrayışların, irrasional yozumların xeyli əl-qol açdığı, düçar olduğumuz milli müsibətlər önündə poetik şok və sayıqlamalara qapılmanın rəvac tapdığı indiki məqamda, açığını deyim ki, oxucu belə sakit, təmkinli, dəyanətli və mətin qəhrəmanlar üçün az qala darıxmağa başlayıb.

Şerimizdə son zamanlar dəbə çevrilən sürrealist əda və dəsti-xətt, bir xeyli gecikmiş olsa da, özlüyündə məqbul və mümkün görünən bu yaradıcılıq hadisəsi, gizlin deyildir ki, həmin şerin qəhrəmanlar qalereyasında ağciyər, ödü ağzında olan çığırqan obıvatel tiplərin də sırasını xeyli genişləndirmişdir.

«Yaralı torpağım, yaralı sevgim»də şəxsən mənim üçün seçimli və əhəmiyyətli poetik məziyyətlərdən biri də elə onun öz mənəvi-əxlaqi səciyyəsi, bədii-estetik kredosu ilə bu şirnikləndirici-sürüşkən meyli qəti olaraq inkar etməsidir.

Əlavə edim ki, milli ağrılarımızla möhtəkirlik edən, ümumxalq müsibətindən, elin göz yaşlarından rövzəxan qazancı uman peşəkar «şer bazarçılarına», psevdopatriot qafiyə dəllallarına da kitabda dərs və ibrət verən çox şey vardır.

Şerlər toplusunun sosial-milli dəyərlərindən biri də poetik mühakimənin o taylı-bu taylı vahid, bütöv Azərbaycan ideyası ətrafında təmərküzləşməsində ifadə olunur. Qarabağ, Göyçə, Zəngəzur dərdi Cənub dərdi ilə qovuşanda, Təbriz, Ərdəbil, Qaradağ həsrəti ilə çalkeçid olanda – məhz belə bir dərd bütövlüyündə və tamlığında Vətən də bütövləşir, milli-tarixi taleyin faciəvi əzəməti bütün möhtəşəmliyi ilə dərk oluna bilir. Şairin «Qaradağa xəyali səfər»ində, bu səfər təəssüratının bəhrəsi olan silsilə şerlərdə zorakı ayrılığın, məcburi həsrətin doğurduğu hüzn dolu xiffəti, göynər sızıltıları görməmək mümkün deyil:

*... Nəsillərim qaçqın düşüb dağılmış,*
*Şərbətimə ilan dişi sağılmış;*
*Gizli-gizli neçə şeytan doğulmuş,*
*Yaxşıları yaman almış əlimdən...*

*Qaradağım – Babəklərin babası,*
*Nələr çəkdi bu od eli, obası,*
*Oğul gərək – itənləri tapası,*
*Gözəlləri hicran almış əlimdən...*

Ümumiyyətlə, Hüseyn Kürdoğlu şeri müəllif mövqeyindən, mövzu seçimindən tutmuş, üslub müəyyənliyinə, bədii-texniki göstəricilərinə qədər özünün bütün poetik qatlarında ənənəyə arxalanan, kökə və bünövrəyə söykənən şerdir. Şairin yaradıcılığından danışarkən məsələnin bu cəhətini xüsusi vurğulamaq lazım gəlir. Çünki burada söhbət, sadəcə olaraq hər hansı bəhrələnmə və təsirlənmədən yox, bütövlükdə və ümumilikdə onun poeziyasına xas olan dərin xəlqiliyin fərqləndirici – mühüm stimulundan gedir. Vaxta və zamana imtahan vermiş, xalq sınağından çıxmış mənəvi-estetik dəyərlərə, bədii-poetik mirasa Hüseyn Kürdoğlu yaradıcılığında etiqad və sədaqət duyğusu çox güclüdür. Sazlı-sözlü sinədəftər bir mahalın oğlu kimi Hüseyn Kürdoğlunun şair stixiyası əslində elə bu təməl üzərində təşəkkül tapıb və formalaşıb. Buna görə də onun məxsusi lirik mühakimə vadisində, poetik duyum məcrasında Vidadidən, Vaqifdən Səməd Vurğuna, Şəhriyara, Aşıq Qurbanidən, Sarı Aşıqdan Dədə Şəmşirə qədər uzanan poeziya paraleli – yazılı və şifahi şerimizin xalq dühası deyilən eyni nütfəsindən mayalanıb, eyni bir qandan gəmiklənən bu iki möhtəşəm qolu çox asanlıqla və rahatlıqla qovuşur. Şairin fikir və hiss dünyasında fərdiləşərək orijinal və bənzərsiz bir şəkildə yenidən biçimlənə bilir. Səciyyəvi haldır ki, keçdiyi sənət məktəbinə, aldığı ustad ibrətlərinə hörmət və ehtiramını ifadə etməyi hər fürsətdə o da özünə borc bilir. Şairin kitaba daxil et-

diyi «Füzuliyə bənzətmələr» adlı şerlərini, «Aşıq və Yaxşı» poeması məhz bu hörmət və ehtiramın ifadəsi kimi qəbul etmək lazımdır.

Hüseyn Kürdoğlunun şerlərindəki xəlqiliyin bir mühüm əlaməti də onların janr təsnifatında, forma çeşidlərində, model biçimlərində üzə çıxır. Poetik plastika imkan verir ki, o, xalq şerinin qoşma, gəraylı, dördlük-rübai, bayatı, dübeyti-ikilikdən tutmuş müxəmməs və qəzələ qədər bütün janrlarında qələmini uğurla işlədə bilsin. Amma bununla belə, bütün bu janr-forma əlvanlığı fonunda onun bayatı yaradıcılığı, xalq şerinin bu kiçik və miniatür janrında yazdığı şerlər diqqəti xüsusilə cəlb edir.

Şerlər toplusundakı fikir aydınlığı, hissi, səmimiyyəti, mənəvi istiqanlılıq, deyim-təhkiyə təmizliyi və rəvanlığı, bütün bunları özündə qovuşdurub, əridib bütöv poetik xəlitəyə çevirən zərif, kövrək lirizm də, nəticə etibarilə, Hüseyn Kürdoğlu poeziyasının xəlqi-demokratik mahiyyətinin əsası və təzahürləridir.

«Ədəbiyyat qəzeti»,
6 iyun, 1997

*Nəriman Həsənzadə*
*Əməkdar incəsənət xadimi*

# RUHLAR YAŞAYIR

Hüseyn Kürdoğlu görkəmli və milli Azərbaycan şairiydi. Qədim tariximizi gözəl bilən, tədqiqatla məşğul olan və öz taleyini yazan şair idi. İpək təbiətli Azərbaycan ziyalılarından idi.

Ulu Nizami "peyğəmbərdən sonra şairlər gəlir", - deyirdi, bax, Hüseyn o şairlərin sırasında gələn və gözə görünməyə çalışmayan zehnli, zəkalı qələm dostlarımızdan idi. Lakin arxaya daradığı çal saçlarını, iri mənalı gözlərini, uca boyunu onu istəyənlər həmişə görürdülər, sevirdilər. Hüseynlə bir dəfə əl tutmaq kifayət idi ki, "stres" dediyimiz sinir ağrısı adamın canından çıxaydı. Yerdə yerin işığıydı. Dostunu, tanışını görəndə, bu müdrik insan uşaq kimi sevinir, bu sevincdən qarşısında dayanana da pay düşürdü. Tanrının şair bəndəsiydi. Bir də Nizami adına Ədəbiyyat İnstitutunun sıravi, öz hörmət-izzətini saxlamağı bacaran əməkdaşıydı.

Göz önündə gözə "az göründüyündən" ədəbi, ictimai titullardan, rütbələrdən uzaq qalmışdı.

Hüseyn kresloya keçsəydi, səmimiyyət gətirər, inzibati-amiranəlik yoxa çıxar, insanın şəxsiyyətinə, ləyaqətinə xüsusi hörmət qoyulardı. Məsuliyyət hissinin böyük mədəniyyət olduğunu öz timsalında göstərərdi.

Heyif, Sovet dövrü adət etdiyimiz streotiplər hələ canımızdan çıxmayıb. Sabir elə-belə deməyib ki: "Çıxmaz, çıxa bilməz də bu adət başımızdan".

Yəqin ki, əməkdaşı olduğu Ədəbiyyat İnstitutu da yeni "Ədəbiyyat tarixi"ni yazanda, Hüseynə ayrıca portret oçerki həsr etməyəcək. Adət etdiyimiz "tarazlıq" pozular axı, ümumi icmallarda adı getsə, kifayət etməzmi?!

Hüseynin poetik nəfəsi istiydi, dediyi söz ürəyimizi qızdırırdı.

"Dördlüklər"ə bir ədəbi janr kimi poetik məna verən və ayrıca bir kitab həsr edən şairin tapıntıları "təbiətdəki rənglərin poeziya çaları", "poetik tilsim", "möcüzə", "dördlükdə bütöv bir dastan süjeti" (Y.Qarayev) kimi qiymətləndirilmiş, şairin əslində təbiətlə qaynayıb-qarışdığını, insani hisslərin ifadə tərzinə olduqca həssas yanaşdığını vurğulamışlar.

Rəssamlarsayağı rəngləri bir-birinə qatıb yeni rəng alan mərhum şairimiz də "dördlüklər"də sanki rübai ilə bayatının epik-estetik çalarlarını axtarıb tapmış və bu yeni ədəbi janrda İnsan, Zaman, Təbiət və cəmiyyət haqqında (əsərin baş qəhrəmanı müəllif özü olmaqla) gözəl fəlsəfi poemalar yazmışdır. Sanki bütöv poema bir "dördlük"də qərar tutub, yaxud əksinə, yuxarıda misal gətirdiyim kimi, bir "dördlükdə bütöv dastan süjeti" danışılır. Şairin bu üslubu şerimizdə təzəydi. Bunu özü belə mənalandırır:

*Saz tutub, dərdimi saza deyirəm,*
*Sözü şax deyirəm, üzə deyirəm.*
*Şerimin əynində öz donumuz var,*
*Bu donda hər şeyi təzə deyirəm.*

Yaxud:

*Ömrümüz bir şirin sevda qonağı,*
*Əzəl sevdiyimiz röya qonağı.*
*Əlliyə çatınca - dünya sahibi,*
*Əllidən keçəli - dünya qonağı.*

Cavanlıqla ahıl yaşın mənəvi-psixoloji duyumunu şair necə də həssaslıqla açmışdır! Sanki günəşlə kölgənin sərhəddini müəyyən edir. Təbiidir ki, bu fərqləri riyazi hesablamalar kimi qəbul etmək lazım deyil.

Maraqlıdır ki, böyük Nizami də "İsgəndərnamə"də əlli yaşdan sonra, dünyadan köç eyləməyə hazırlıq görmək lazımdır, - deyir.

H.Kürdoğlu yaşadığı hissləri sənətkarlıqla ifadə etmiş və “şerimin əynində öz donumuz var”, - deməklə ululların varisi olduğunu eyhamla xatırlatmışdır.

Hüseyn Kürdoğlu təkcə şairliyilə yox, həm də daxili mədəniyyətilə də gözəl ziyalılarımızdan idi. O, işlətdiyi hər bir ifadənin məna tutumunu bilirdi və beləliklə də, öz qədir-qiymətini artırır, sözün nüfuzunu saxlayırdı.

O, şer kitablarının birini “Ziyalımız-ziyamız” adlandırmışdı. Burada ayrı-ayrı ziyalılarımıza həsr etdiyi şerlərini toplamışdır.

Şair ithafları barədə görün necə səmimiyyətlə söhbət açır: “İthaf anlayışı çox genişdir. Bədii əsərlərin bütün janrlarında ithaflar mövcuddur”.

Bu “... poetik örnəklər xalqımızın məşhur çağdaş ziyalılarının yaradıcılığından və həyatından aldığım dərin təəssüratın ifadəsidir”.

“...sovet dövründə bədii sənət ən çox fəhlə və kəndli nümayəndələrinin ad-san çıxaranlarını vəsf edirdi, ziyalılar sanki kölgədə qalırdı”.

“İdeologiya və emblem arada müəyyən hədd yaranmasına səbəb olurdu”.

Hüseyn insanları sevirdi. İnsanpərvər idi. O, hansı yaşda dünyasını dəyişsəydi belə, taleyin haqsız oyunu sayılmalıydı. Bəlkə də buna görə hələ qədim Misirdə belə insanların ölümünə etiraz, üsyan edirdilər. Mumiyalar kəşf edir, ehramlar tikir, tabutları mumiya ilə saxlayırdılar ki, ruh qayıdanda sahibini tapsın.

Hüseynin ruhu yaşayır.

Onu xatırladıqca, bizim ruhlarımız danışırdı. Mən onu görürdüm - kitablarındakı şer misralarına səpələnmişdi.

13.06.2004.
«Ədəbiyyat qəzeti»,
31 dekabr, 2004.

# QAYA ÇİÇƏKLƏRİNDƏN BİRİ

Qayadan dünyaya boylanan çiçək görmüsünüzmü? Dağlara yönü düşən hər kəs görüb yəqin.

Sirrüllahdır bu çiçəyin işi! Kökündə torpaq yox, dibində su! Allah ümidinə bir heyrətli varlıq! Varlıq dedim, xor görməyin çiçəyi, doğrudan varlıq! Yenə təkrarına dəyər ki, həyat şərtlərindən uzaq düşmüş zərif bir varlıq; Allah ümidinə! Amma... Yəqin ki, bu yerdə sadəlövh cümləmə heç deyilsə qımışdınız. Allah ümidinə olana ayrı ümid nə lazım?! Allahın sayəsi yaratdığı nəyin üstündədirsə, dünyanın bəxtəvəri elə odur.

Əslində, qaya çiçəyi, sözün həqiqi mənasında təslimiyyət bayrağını qaldırıb. Yəni, Rəbbinə sığınıb. Zamanın və məkanın bütün təzahürləri Onun kölgəsidirsə, bu kölgədə təslimiyyət bayrağı qaldıran hər kəsə, hər nəsnəyə alqış!

HÜSEYN KÜRDOĞLU «Qaya çiçəkləri» kitabını yazanda bəlkə də bu kövrək varlığın fəlsəfəsinə varmamışdı. Amma o imkansız şəraitdə, o sərp məkanda, o «Allah ümidinə» yerdə üzə gülən çiçəklərin onda doğurduğu ürək çırpıntılarını dilə gətirmişdi. Amma hər qitədən-qitəyə bu qaya gülzarının fəlsəfəsi açılır, ona şair heyranlığı getdikcə əlçatmazlıqlara aparır. Bir zamanlar yeri-göyü ölməz cinaslarında görən Sarı Aşığın gəzdiyi o cənnətməkanda çağımızda da Hüseyn Kürdoğlu sözdən qaya mühiti yaradıb oraya çiçəklər əkməyi bacardı. Şairin cinaslı dördlüklərinin sözün həqiqi mənasında, Sarı Aşığın təkrarsız saydığımız rüzgarını yenidən məhrəmanə bir şəkildə dalğalandırmağa gücü çatdı. Oxucunun, ümumiyyətlə, insanın ummadığı bir yerdə söz çiçəkləri bir-birləri ilə cinaslaşır, doğrusu ki, heyrətdən bu «Qaya çiçəkləri»nə doya-doya baxırsan. 70-ci illərdə bədii sözümüzdə boy göstərib ləçəkləyən «Qaya çiçəkləri»nin

ilk nəşrinə böyük vətəndaş, mənəvi dünyamızın kamil tərənnümçülərindən olan Qasım Qasımzadə eynən indi mənim heyrətimə bənzər (bağışlayın, «heyrətimdən daha artıq bir heyrətlə» demək istəyirdim) bir heyrətlə Hüseyn Kürdoğlunun dilimizin çox müstəsna cinas xəzinəsinə yiyələnməyə çatan qüdrətini dilə gətirmişdi.

Bu yerdə çox da incələmə təfərrüatına varmadan şairin öz nəfəsinə güzgü tutmaq keçdi ürəyimdən. Gəlin təkcə Odlar diyarı kəlməsini Hüseyn Kürdoğlunun cinas üstündə dalğalandırmasına yenidən bir nəzər salaq:

*Pərvanə könlümün odlardı yarı,*
*Ağlasam, göz yaşım odlardı yarı.*
*Oddan yaransa da bütün bu dünya,*
*Tək mənim ölkəmdir Odlar diyarı.*

Sözün təbiətini gərək nə qədər dərindən biləsən ki, sözün ətrini gərək bütün gözəlliyi ilə udmağı və duymağı bacarasan ki, cinasla bu qədər həsbi-halda olasan ki, onun «imkansız» yardımıyla bu cür imkanlı şer yarada biləsən!

Misal gətirdiyimiz ifadənin cinas mühitində ləçəklənib tellənməsi təkcə yuxarıdakı bəndlə bitmir. Hələ bir fikir verin:

*Sən də Od yurdunun bir Vətəndaşı,*
*Ərzi gəz, qəlbində bir Vətən daşı!*
*Xoşbəxt deyilikmi; sinəmiz üstə*
*Öləndə qoyalar bir Vətən daşı?!*

Elə bu hissin davamı ilə istərdim oxucunu «Ağdama» doğru bir cinas tələsinə çəkib aparım. Təkcə bu kəlmənin doğurduğu duyğudan Hüseyn Kürdoğlu, hələ baxın, necə heyrətli bir dördlük yaratmışdır:

*Yenə də baş çəkim Ağdama gərək,*
*Qarqarın suları ağ dama gərək.*

*Bu yerin qədrini bilməyənlərin*
*Qara gözlərinə ağ dama gərək!!!*

Şair sözdən yapışa-yapışa, sözün çoxmənalılığında at səyirdərək vətəndaş qayəli bu dördlüyü hər halda Sarı Aşığın xəyalı ilə qanadlandığından, onun gülzarında sözün bu yönlü bilməcə dünyasına düşüb-çıxdığından və ondan böyük səriştə ilə bəhrələndiyindən yarada bilir.

Hüseyn Kürdoğlunun özünə ustad bilərək dəyərləndirdiyi çox şair var. Bunlardan üçünü qədirbilənlik naminə deməyim insafdandır: bədii sözümüzün Vurğununu; xalqımızın şəhdli-şirəli lirik dünyasının zərgər tacidarı Sarı Aşığı, Azərbaycan aşıq poeziyasının hələ ki, sonuncu mogikanı qəbul etdiyimiz Dədə Şəmşiri yaradıcılığı boyu örnək saymışdır. Ən əsası odur ki, onların dünyasına yaxınlaşıb başqaları kimi onlardan hazırca misra ilə fikir götürməmiş; onların söz gülşəninə uyğun öz dünyasını yarada bilmişdir.

İnsaf naminə deyim ki, ölümsüz cinaslı bayatıların ən həssas naşiri də məhz Hüseyn Kürdoğludur. Uzun zaman ərzində Sarı Aşığın təhrif olunmuş bir sıra cinaslı bayatısını bu şair, demək olar ki, memarlıq abidəsində olduğu kimi kərpic-kərpic, daş-daş və zərrə-zərrə əslinə uyğun şəkildə bərpa etmişdir. Və inanıram ki, ağlar sevgi şairi Sarı Aşığın onsuz da dünyadan incik ürəyini bir zərrə belə yenidən incitməmişdir.

Dövrümüz, yazıqlar olsun ki, bir çox mənəvi dəyərlərini itirdiyi kimi qədirbilənliyini də getdikcə yuxaltmaqda, qıtlaşdırmaqda davam edir. Hüseyn Kürdoğlu ayrı heç nə yazmamış olsaydı belə, təkcə «Qaya çiçəkləri» silsiləsinə görə uzun bir dövrün ən qabil şairidir, dilimizin heyrət ediləcək əzəmi böyüklükdə bilicisidir. Təbiətən təvazökar olan bu adam sağlığında nə yazdıqlarını lazımi gözlərə soxa bildi, nə başqaları kimi özünə «lələ» tapmağı bacardı. Onun «Qaya çiçəkləri»nin səsi karsala qulaqlara çatmadı.

Qayalarda Allah ümidinə gözəllik büsatı kimi gözlər və könüllər oxşayan o qaya çiçəklərinin birisi də Hüseyn Kürdoğlu idi. Paytaxtın gürrah yerində yaşasa da, gözdən iraq tənhalıqlara çəkilmişdi. Dövrümüzün ən geniş yayılmış salğın xəstəliklərindən Allahın yaltaqlığı da onun o çiçək ürəyinə yol tapa bilməmişdi; kimsənin bığının altından keçməmişdi; təhnizdi kölgələrdən gözü gördüyü, ayağı tutduğu qədər qaçıb canını qurtarmışdı. «Qaya çiçəkləri» qədər Rəbbinin təslimiyyətində insanlıq səltənətini təkbaşına öz dünyasında qurmuşdu. Onun çeçələ barmağı həddində olan, amma dünyaya sığışmaq istəməyən kimləri görmədik ki, bu gidi dünyada?!

*Ömür sevinc ilə, dərd ilə yarı,*
*Dünya ağlatmasın dərd ilə yarı!*
*Tale sevinc ilə yarıtmır məni,*
*Deyir: «Şair isən dərd ilə yarı!»*

Hüseyn Kürdoğlu talenin dediyini bütün incəliyi ilə yerinə yetirməyi bacardı. Taledən qaçıb hayana gedəcəkdi ki? O, özünü, sözünü və taleyin hökmünü gözəl bilən kişilərdən idi. Ömrümüzün, həm də öz ömrünün belə karlı kişiləri yamanca seyrəlməkdədir... «Daş düşsün başına, dağıl a dünya!» Dağıl ki, o təmkinli, o insan sərrafı, o ağır taxtalı kişilərlə sən bir dünya idin. Yoxsa, boş bir güzərgahdan başqa bir şey deyilsən.

*Zaman Qarabağdan uladı keçdi,*
*Qanlı yarasını yaladı keçdi.*
*O gecə yuxuma girdi Koroğlu:*
*Uzaqdan başını buladı keçdi.*

Neyləsin Koroğlu?! Torpağı əldən gedənin hay-harayına, özünün özünə minbir şəbədəsinə, arsız-gorsuz çal-çağırına necə dözsün, necə tablasın əlidışqarı gedən zavallı Koroğlu?!

Poeziyamızda cinasqurma hünərində misli az olan şairlərdəndir Hüseyn Kürdoğlu. O boyda ilhamıyla, sözə zərgər diqqəti ilə yanaşı şairin sözdən qorxub-çəkinməsi, onun zərbindən, qəhrindən qorxması da qəribədir, deyilmi? Həqiqi şair olanları belə gördük.

*Bizdən yaxşı yazır məgər özgələr?*
*Yad sözün sorağı bizə tez gələr.*
*Mən sözün üstündə can qoyuram ki:*
*Şerim kal görünər, Sözə söz gələr!*

Mübarək 70 yaşının gətirdiyi bir ovqat içində Hüseyn Kürdoğlu barədə yazımı şairin elə yuxarıdakı dördlüyü ilə nöqtələmək istəyirdim. Amma uzaqlardan, hardansa o yağı caynağında qalmış Laçın torpağında Həkəridən bir hönkürtü gəldi qulağıma. Sanki onu Hüseyn Kürdoğlu yazmamış, elə Həkərinin öz dodaqları fəryadla hönkürürdü:

*Bilmirəm, yanıram nəyə mən axır,*
*Nə Yaxşı qalmışdır, nə Yaman axır.*
*Aşıq o taydadır, Yaxşı bu tayda,*
*Ortadan Həkəri nə yaman axır?!*

Ömürlər əbədiyyət köçünə qoşulmuş bir karvanın zəvvarları. Yaxşımı, pismi yaşayırıq dünyanı. Qiymət sonda bəlli olur. Dünyanın tərəzisi ancaq bütün yolların birləşdiyi o mütləq nöqtədə qoyulub...

Bu da gələr, bu da keçər, ağlama! – deyib nisgilli dədələr. Amma inandığım bir şey də var ki, o köçənin arxasınca zaman, bu gün deyilsə, sabah göstərər öz hökmünü.

Allah vergili böyük şairlər unudulmur bu dünyada.

«Ekran-Efir» qəzeti,
12 iyun, 2004

*İlyas Tapdıq*

## TƏBİƏT NƏĞMƏKARI

*(H.Kürdoğlunun «Ata yurdum» kitabına ön söz)*

Yaşıdım olan qələm dostlarım arasında çox sevdiyim şairlərdən biri də Hüseyn Kürdoğludur. O, həyatda səmimi və zərif ürəkli olduğu kimi, şerləri də səmimi və ürəyəyatandır. Şairin poetik aləmi müasir dünyanın müxtəlif hadisələrini, təbiət gözəlliklərini, həyatın fərəh və sevincini, bəzən də müqəddəs, insani bir kədəri əks etdirir.

Hüseyn Kürdoğlu daha çox xalq şeri üslubunda qələm çalır; məzmunca aşıq şerlərindən fərqlənən, lakin aşıq şeri şəkillərində qoşma və gəraylılar, cinaslı bəndlər, bayatılar da yazır. Şair sevdiyi, qaynar axınında getdiyi həyatı, qoynunda boy atdığı təbiəti bütün çalarları ilə göstərməyə səy edir. Onun şerləri klassik poeziyadan və xalq şerindən bəhrələnsə də, öz yeni əlvan çeşidləri, aydınlığı və təzəliyi ilə seçilir. Şairin nəfəsi özü demiş «gül nəfəslidir», qəlbinin səsi isə sazla bağlıdır:

*Aşıq Ələsgərin məndə səsi var,*
*Sazının, sözünün gül nəfəsi var.*

İyirmi ildən artıq bizə tanış olan bu səs, nəfəs yaxşı ki, kitabdan-kitaba qüvvətlənir, genişlənir. Şair özünə inanır:

*Demə ki, çaldığım bir qəmli sazdır,*
*Qulaq as, avazım şirin avazdır, -*

deyir və get-gedə bu inamı daha çox doğruldur.

*Yaza bilməyəndə ürək sözümü*
*Tökülüb göz yaşım varaqlar üstə...*

*Pərvaza yetişən nəğməkar quşam,*
*Yuvamdan uçmuşam budaqlar üstə…*

Nəğməli quş təbiətin yaşıl qoynunda budaqdan-budağa qonub nəğməsini deyirsə, şair də yurddan-yurda, obadan-obaya gəlir, doğma torpağın aranını-dağını məhəbbətlə gəzir, sevir. Ayağı üstündə ilk dəfə yer tutan dağlar, ilk sevgisinin şahidi bulaqlar da onun şerinin mənzərəsində aydın seçilir:

*Yadımdan çıxarmı yaşıl güneylər,*
*Ayağım yer tutmuş o dağlar üstə.*
*Bir gözəl ovcunda su vermiş mənə,*
*Alışıb yanmışam bulaqlar üstə.*

«Bulaq» və «Ata yurdum» şerlərindən iki kiçik parçada bu bulaqların Hüseyn Kürdoğlu üçün daha nələr bəxş etdiyi gözəl verilmişdir:

*Büküb dizlərimi əyildim sənə,*
*Bir də bükülmədi dizim, ey bulaq!*

*Çəmənlər qoynunda yatmaq istərəm,*
*Saçımı çiçəyə qatmaq istərəm,*
*Körpə yuxusuna batmaq istərəm,*
*Bulaqlar öyrədib laylaya məni.*

Meşələr, bulaqlar, mavilik onun qəlbində öz duyğusunu elə həkk edir ki, şairin ürəyi də təbiətlə bir fərəhlənir!

*Bütün dünya bəzənəydi*
*Yaz vaxtı meşə rəngində.*
*Quzey ağdır, güney yaşıl,*
*Göylər bənövşə rəngində.*

Məhəbbət də Hüseyn Kürdoğlunun şerində səmimi ifadəsini tapır. Şair, ürəyini belə sevgi yolunda əsirgəmir:

*İstərəm ay nuru, gün işığı tək*
*Gəzdiyin yerlərə sərəm könlümü.*

Hüseyn Kürdoğlunun ictimai-siyasi mövzuda yazdığı şerlər əsasən axıcılığı, aydınlığı ilə seçilir. Bu şerlər müxtəlif səviyyədə olsa da, ümumi ahəngi, qayəsi müəllif qələminin kamilliyini sübut edir.

«Xanların məzarı» adlı şerində müəllif cəsur inqilabçı Xanların xatirəsini doğulduğu torpaqla mənalı bir tərzdə bağlayır.

*Sanıram, boy atıb qalxacaq göyə,*
*Burda bir Qarabağ çinarı yatır…*

Hüseyn Kürdoğlunun yaradıcılığı da belə bir çinar kimi günü-gündən boy atır, şaxələnir…

1978

H.Kürdoğlu. «Ata yurdum»,
Bakı, Yazıçı, 1978, s. 3.

***Teymur Kərimli***
*Filologiya elmləri doktoru*

# DAĞ ÇİÇƏYİNİN TƏBƏSSÜMÜ

Şair Hüseyn Kürdoğlunun yeni kitabı belə adlanır: «Çiçək təbəssümü». Kitabda toplanan şerlərin bir qismi Kəlbəcər təbiətinin gözəlliklərini, onun insanlarını vəsf edir. Bu da təsadüfi deyildir. Şairin poetik dünyagörüşünün formalaşmasında Kəlbəcər təbiəti özünəməxsus bir rol oynamışdır. Başqa cür ola da bilməzdi. Axı, bu dağların bulaqlarından şeriyyət axır, torpağa hopur. Bu torpaqda adi çiçək yox, poeziya bitir. Bir vaxt «Dəlidağın kəklikli daşları» ulu şair Səməd Vurğunun ürək tellərini dilləndirməmişdimi?

Kəlbəcər Hüseynin ikinci vətənidir, desək, səhv etmərik. Şair təsvir etdiyi poetik lövhələrə o qədər doğmalıqla, o qədər qəlbən yanaşır ki, onun bu yerlərdə doğulmadığına, bu dağlarda belədən-belə at çapmadığına, bu yurdun adamları ilə bir torpaqdan olmadığına şübhə edirsən. Düşünürsən ki, yəqin Tərtər onun beşiyi başında laylay çalıb, ilk heyrəti bu qayalar, ilk sevinci bu çiçəklər, ilk simfoniyası Dəlidağda çaxan ildırımlar olub, ilk solonu onun üçün bu dağlarda qıy vuran qartal oxuyub. İlk müdrikliyi bu yerin sözlü-nağıllı qocalarından götürüb. Belə olmasaydı, Tərtərin əsəb sakitləşdirən, könül oxşayan şırıltısı indiyə qədər şairin qulaqlarında səslənərdimi? Əgər bu yerlərin təbiəti şairdə bir təəssürat xarakteri daşısaydı, o, Dəlidağa bir oğul məhəbbətilə müraciət edərdimi? Yalnız anasından əsəblərini dəmirə döndərəcək təsəlli gözləyən oğul bu cür deyə bilər. Şair dünyanı gəzmiş, yenə Dəlidağa pənah gətirmişdir. Dağlar həmin dağdır, şairsə illərdən öz payını almışdır. İndi daşların üstündə quş kimi səkə bilmir, illər öz işini görmüşdür. İndi kiçik bir yoxuş belə onun nəfəsini təngidir. Şair dağa

baxır, dağ şairə. Şair kövrəlir. Elə bu zaman dağın səsini eşidir, göy gurultusuna bənzər səsini:

*Neçin addımların gödəlmiş belə,*
*Şax yeri, şax dayan, amandır, oğlum!*
*Dərdin hər nədirsə, aç mənə söylə,*
*Sənin ki, öz anan loğmandır, oğlum!*

*(«Loğman sözü»)*

Həzin bir lirizmlə başlayan şerdə sonradan dağ sevinci, dağ qüruru duyulur, Dəlidağın qüruru:

*Saçımı ağ görüb demə qocalır,*
*Sənin Dəlidağın təzə ucalır.*
*Dərdi dara çəkib dağlar bac alır,*
*Zaman mən dediyim zamandır, oğlum!*

Şair bu torpağa vurğunluğunu gizlətmir, bəlkə bu gözəlliyi duyub şirin bir dillə təsvir etməsi ilə fəxr edir. Hər şeydən əvvəl isə, o bu torpaqda bir parça Azərbaycan görür, bir parça Vətən görür. Şair niyə Tərtəri sevir? Ona görə ki, Tərtər dağlarla aran arasında atılmış, gecələr ay işığında gümüşə, gündüzlər gün işığında qızıla çalan bir körpüdür. Dəlidağdan isə Azərbaycanı görmək olar. Bunun üçün yalnız iti gözün və vətən məhəbbətilə çırpınan ürəyin olmalıdır!

*Odur, Dəlidağda ildırım çaxır,*
*Tərtərin suları sellənib axır.*
*Əlik səsə düşür, qanrılır baxır.*
*Dalğalar köç tutub arana sarı,*
*Selindən bilinər dağın vüqarı.*

*(«Çıxım Sarıdaşa»)*

Bu yerlərin insanları şair üçün daha əzizdir. Əgər dağların, qayaların, çəmənlərin, meşələrin təbii gözəlliyi, məğrurluğu onu sevindirirsə, heyrətləndirirsə, adamlarda

bütün bu sifətlərlə yanaşı müdrikliyi də görür. Aşıq Şəmşirə həsr etdiyi «Dədə Şəmşir» qoşmasında H.Kürdoğlu cavanın qoca ilə edə biləcəyi el zarafatı tonunda öz səmimi ürək sözlərini çatdıra bilmişdir.

*Qayalar başında qartal uçurmu?*
*Dərələr qoynundan duman keçirmi?*
*Səni ovçu sanıb əlik qaçırmı,*
*Daşlar hellənirmi, ay Dədə Şəmşir?!*

Şair göstərir ki, el məhəbbətini qazananlar qocalmırlar, onların yaşı bilinmir. Çünki belə adamlar elin gözünün içinə düz baxırlar, şax baxırlar. Ona zillənən məhəbbət dolu baxışlar arasında tənəlisi, ağırı yoxdur ki, vaxtsız qocaltsın, bu ağırlıq altında onun qəddini büksün.

*Əkənək-biçənək necədir bu il?*
*Aran tərəflərdə dolumu sünbül?*
*Elin dodağıyla cavan kimi gül,*
*Yaşın bəllənirmi, ay Dədə Şəmşir?!*

Bir vətəndaş kimi Vətən onun üçün müqəddəsdir. O qədər yüksəkdir ki, onun hər bir qayasından dünyanı görmək mümkündür.

*Mənim öz diyarım gördüyüm aləm,*
*Burda nə həsrət var, nə hicran, nə qəm.*
*Məndədir dünyanın dərdinə məlhəm,*
*Bu gözəl yurdumun hər qarışında*
*Bir dünya hüsnü var adi daşın da.*
*Daşda da gül açan mənaya baxım,*
*Çıxım Sarıdaşa, dünyaya baxım!*

*(«Çıxım Sarıdaşa»)*

«Çiçək təbəssümü» kitabını oxuyan hər bir oxucu yəqin ki, Hüseyn Kürdoğlu haqqında belə fikirləşər: «Dağ çiçəyinin təbəssümündən ilham alıb, Sarıdaşdan dünyanı görən şair…»

«Yenilik» (Azərb.KP Kəlbəcər RK və Rayon
Sovetinin orqanı) qəzeti, 5 dekabr, 1975

## DÖRDLÜKLƏR

*Hüseyn Kürdoğlu. «Durna səsi», «Yazıçı», 1985*

Tuyuğun əsas forma göstəricilərindən olan on bir hecalıq və cinaslı qafiyələr Hüseyn Kürdoğlunun kitabındakı dördlüklərin də mühüm xüsusiyyətini təşkil edir. Lakin istər tuyuqların, istərsə də müasir dördlüklərin folklordan – el bayatılarından əxz etdiyi bir ümumi cəhət var – poetik məna yükünün son iki misraya düşməsi.

«Durna səsi» kitabındakı dördlüklər də eyni xüsusiyyəti əks etdirir. Xüsusən cinaslı dördlüklərdə bayatılara bənzərlik daha aydın hiss olunur: cinaslı bayatılarda da birinci iki misranın sırf hazırlıq funksiyası vardır. Fərq bundadır ki, cinaslı bayatılarda əksərən iki qafiyə cinas təşkil edib biri mənaca təkrar olduğu halda, bu dördlüklərdə misraların üçü də tam cinasdır.

«Durna səsi» kitabındakı dördlüklər məzmun baxımından müəllifin özü tərəfindən beş yerə bölünsə də, əslində onların məna çalarları daha çoxdur. Buna baxmayaraq, kitabdakı dördlüklərin başlıca mövzusu Vətəndir. Təsadüfi deyil ki, kitaba ön söz yazmış Y.Qarayev məhz bu cəhəti, yəni onlarda «Vətənə eyni bir oğul məhəbbətinin ifadəsini» bu zərif poetik nümunələrin başlıca məziyyəti kimi təqdim etmişdir.

Vətən mövzusu Hüseyn Kürdoğlunun dördlüklərinə zərrə-zərrə, qətrə-qətrə, damcı-damcı hopub – ona görə də saxta görünmür. Şair üçün Vətən yalnız məhdud coğrafi ərazidə təzahür etmir, bədii dəyişikliyə uğrayaraq ən müxtəlif obyekt və predmetlərdə əks olunur. Lakin Vətənin ən ülvi cəhətləri şair üçün, onun fiziki, coğrafi yüksəkliklərində – dağlarda cəmləşmişdir. Azərbaycanın bütöv bir şairlər silsiləsinə ilham vermiş dağlar Hüseyn Kürdoğlunu da öz cazibə sahəsində saxlayır: bu azmış kimi çox vaxt ona doğma övladı tək havadarlıq da edir:

*Var olsun Koroğlum, Nigarım dağlar,*
*İşıqlım, Kəpəzim, Qoşqarım dağlar.*
*Baxdı qar saçıma, yandı-yaxıldı,*
*Dəydi bir-birinə simsarım dağlar.*

Dağa bağlılıq, yüksəkliyə məhəbbət ona gətirib çıxarmışdır ki, dağ lövhələri, epizodları kitabda çox canlı çıxmış, lirik bir dillə ifadə olunmuşdur. Elə bunun nəticəsidir ki, dağların bəzən haylı-küylü, bəzən də qulaqbatırıcı sakitlik həyatını təsvir edən adi məişət lövhələri də dördlüklərdə poetik məzmun kəsb etmişdir.

Özlüyündə təbiət mənzərələri və predmetləri nə qədər gözəl olsa da, yalnız insanla, onun yaradıcı və yaşadıcı fəaliyyəti ilə müqayisədə mənaya malik olur, lirik obrazlar silsiləsini zənginləşdirir. H.Kürdoğlu öz poeziyasında bu cəhətə həmişə fikir verir. Bəzən birbaşa, bəzən rəmzlər, güclə sezilən işarələr, çoxmənalı sözlərlə. Məsələn, bu dördlükdə olduğu kimi:

*Çırpınar, döyüşər yel yıxan ağac,*
*Sızlar balta ilə əl yıxan ağac.*
*Baxın, həlak olmuş igid deyilmi*
*Daşqın çay üstündə sel yıxan ağac?!*

H.Kürdoğlunun klassik irsə, klassik obrazlara, folklora, ustadlara söykəndiyini qeyd etməmək olmaz. Özlüyündə bu mövzu poetik assosiasiya doğurmaqla yanaşı, həm də şairi düşündürən, narahat edən bir sıra problemlərin həlli vasitəsinə çevrilir. Xüsusən Azərbaycan xalq ədəbiyyatına bağlı olan şair folklor obrazlarının təsirini həmişə öz yaradıcılığında hiss edir və hiss etdirir. Nümunə üçün H.Kürdoğlunun «Əsli və Kərəm» dastanından nə dərəcədə mütəəssir olduğunu aydın göstərən bu dördlüyə nəzər salmaq kifayətdir:

*Od düşdü bağrına, mələdi bulud,*
*Gözünün yaşını ələdi bulud.*

*Gəzir Günəş Kərəm Ay Əslisini*
*Tək qalıb ağlayan Lələdi bulud.*

Dörd misrada az qala «bütöv bir dastanın süjetini» əhatə edən bu dördlükdə çarpaz təşbehlərdən də uğurla istifadə edilmişdir. Bağrına od düşən bulud bir tərəfdən Kərəmə bənzədilir, bir tərəfdən Kərəmsiz mələr qalmış Lələyə, Kərəmin odu, yanmağı həm də onu Günəşlə müqayisə etməyə imkan verir. Lakin bir-birinə qovuşmayan sevgililər həm də əbədi ayrı düşmüş Günəşlə Aya bənzədilə bilər. Qeyd etmək lazımdır ki, poetik təsvir vasitələrindən bu cür istifadə kitabdakı ən yaxşı dördlüklər üçün xarakterikdir.

Kitabdakı mövzu rəngarəngliyi içərisində seçilən iki mövzu üzərində də dayanmamaq olmaz. Bunlardan biri – Azərbaycan xalqının şairləri üçün iyirminci əsrin son rübündə belə aktual olmaqda qalan Araz mövzusudur. Əsrlərlə zillətdə qalmış millətləri azadlığa çıxaran, ayrılıq və əzab mücəssəməsi Vyetnamı birləşdirən iyirminci əsrin təkcə Arazın məftillərini qırmağa gücü çatmadı:

*O dağ sən dediyin Sinə dağıdır,*
*Qəm coşub ürəkdə, sinə dağıdır.*
*Məftillər içində çırpınan Araz,*
*Anamız dünyanın sinə dağıdır.*

İkinci mövzuda birləşən dördlüklər şairin özü tərəfindən «Qara buludun şimşəyi» adlandırılmış ifşa və islahedici poetik nümunələrdir. Burada incə yumordan tutmuş kəskin satira və qəzəbli kinayəyə qədər müxtəlif gülüş növlərinə rast gəlmək mümkündür. Şair poetik sözlə cəmiyyətdə qarşılaşdığı mənfi halları aradan götürmək, işıqlı niyyətləri ilə həyatı daha da gözəlləşdirmək istəyir.

«Ədəbiyyat və incəsənət» qəzeti,
7 mart, 1986

*Əli Saləddin*
*Filologiya elmləri doktoru*

## AZƏRBAYCAN SOVET POEZİYASININ BƏZİ İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

... Şair Hüseyn Kürdoğlu ilk şerlərindən özünü xalq ədəbiyyatının bilicisi kimi tanıtmışdır. Onun dillər əzbəri olan «Bəyənmir məni», «Mənim» adlı qoşmaları el ədəbiyyatından yaxşı mənada istifadəyə misaldır. Dilinin obrazlılığı, sözlərin musiqililiyinə xüsusi fikir verməsi, silsilə surətlər qalereyası ilə Hüseyn xalqa əsaslanır. Onun «Qaya çiçəkləri» adlı kitabı bütünlüklə folklordan istifadə ilə yaradılmışdır. Bu şerlər Sarı Aşığın məşhur bayatılarını yada salır. Kitab rübailər formasında qoşulmuş, hər bənd misra-misra cinas qafiyələrlə bir-birinə bağlanmış, dördlüklərin sayı qədər təcnis nümunələri meydana gəlmişdir. Bunlarla yanaşı, xalq ədəbiyyatının təsvir vasitələri, obrazları da burada əsas yer tutur. Məsələn:

*Qar-boran sarıdan Qoşqar acıxmaz,*
*Qoçürək olmayan Qoşqara çıxmaz.*
*Məlikməmməd kimi quyuya düşsəm,*
*Mənim taleyimə qoç qara çıxmaz.*

Nümunəsini verdiyimiz həmin təcnislərin hamısı belədir. Burada olan şeriyyət, əlvan naxışlar, həzin musiqi gözləri, qulaqları oxşayır, qədim nağılları xatırladır. Sözlərin alliterasiyası «q» səslərinin yaratdığı ahəng, axır kəlmələrdən əmələ gələn ritm, şerin öz təqtisi, son misralardakı nağıl epizodu sənətkarlıqla əlaqələndirilmişdir.

... Hüseyn Kürdoğlu aşıqlar kimi qoşma deməyi xoşlayır, təbii-səmimi qoşmalar yarada bilir. Onda olan nikbinlik, hər şer üzərində dönə-dönə işləmək vərdişləri də buradan irəli gəlir. Hüseyndə xalq dilinin incəliklərinə

qədər getmək var, söz oynatmaqda, sözün müxtəlif çalarlarını tapmaqda o, yaşıdlarından xeyli fərqlənir. Məsələn:

*Sevir ustad kimi Vurğunu könül,*
*Vurğun tək ala göz vurğunu könül.*
*Yarın camalına şer qoşanda,*
*Qoyur göz üstünə vurğunu, könül.*

Onun dilinin sadəliyi, zənginliyi, təsvir vasitələrinin aydınlığı aşıq sənətindən gəlir:

*Simi yoxdur, gəl sazıma sim sarı,*
*Sədəf ağdır, taxta sarı, sim sarı.*
*Qurbanidən, Ələsgərdən qalıbdır,*
*Mənəm onun qədir bilən simsarı.*

Burada simi sarımaqdan, sarı simdən və simsar olmaqdan söhbət gedir. Bu xalq dilidir. Şair bilə-bilə onun müxtəlif mənalarından istifadə edir.

«Elm» nəş.,
Bakı, 1973, s. 33, 37.

***Cavanşir Yusifli***
*Filologiya elmləri namizədi*

## ÖMÜR YOLU, KARVAN YOLU

*Hüseyn Kürdoğlu. «Bu dünya bir karvan yolu», «Yazıçı», 1989*

Adətən Hüseyn Kürdoğlunun şerlərindən bəhs edən müəlliflər bu şerlərdə sözə qənaət, lakoniklik, folklora, xalq şerinə ruhən bağlılıq, ənənəvi poetik qəliblərdə geniş improvizasiya etmə və s. xüsusiyyətlər üzərində haqlı olaraq daha çox dayanırlar. Quru hökmlər, qabaqcadan nəzərdə tutulmuş müəyyən bir fikri oxucuya təlqin etmək istəyi, nəsihət və patetika bu şerlərin ruhuna yaddır. Mən daha çox bir cəhəti qeyd etmək istəyirəm: hər bir şeri diqqətlə oxuduqdan sonra ilk təəssürat bundan ibarət olur ki, sanki onlar «qələmə alma» aktının iştirakı olmadan doğulublar. Bu, hətta cinaslardan hörülmüş dördlüklərdə də belədir. Sanki oxuduğun şer ilhamın, fəhmin gücünə birnəfəsə, biroturuma yazılıb. Şerin əsas «materiyası» olan poetik obrazları əvvəlcədən beynində kərpic-kərpic üst-üstə qoyub quranlarla yanaşı, ancaq poetik ehtirasın gücünə şer yazanlar da var. Hüseyn Kürdoğlu ikincilərdəndir. Buna görə əsrarəngiz duyğular, düşüncələr aləmindən tutmuş gözlənilməz poetik obrazlara qədər hər şey oxucunu qəfildən yaxalayır və onu öz sirli, möcüzəli dünyasına çəkir… Ancaq bu o demək deyildir ki, biz «birnəfəsə» yazılan şerləri elə «nəfəsdərmədən» də oxuyuruq: ən yaxşı şerlərdə əl saxlayır, düşünür, bir anın içində düşdüyümüz möcüzəni bir də görmək istəyirik. Mən şair haqqında mübaliğəyə və ya şişirtməyə yol vermək istəmirəm, möcüzə sözünü də ona görə işlətmədim. H.Kürdoğlunun poetik təfəkkürünün təbiəti elədir ki, o, həddən ziyadə təfərrüata varma, uzunçuluq, bədii detalı təfsilatı ilə açmaq və s. xüsusiyyətlərə meyl göstərmir.

Hətta ən «uzun» şerlərində də poetik mətləbə kəsə gedən yollar var. Dördlüklərdə isə vəziyyət başqa cürdür: burada diqqəti təzə-tər, orijinal bənzətmələrdən daha çox, əgər belə demək yerinə düşərsə, fikir, mətləb icadı çəkir.

*Buynuzlaşır vəhşi, məğrur təkələr,*
*Şaqqıltısı qayaları silkələr.*
*Vəhmələnib yarpaq salır Tərtərə,*
*Başı arı yığıncaqlı cökələr.*

***

*Nə tez gəldi, getdi dürdanə dişlər,*
*Qoydu öz evini viranə dişlər.*
*Məni qoca görüb ac qurda dönər,*
*Tutar boğazımdan zəmanə, dişlər!*

Tənqidçilərdən biri qeyd eləyib ki, H.Kürdoğlunun şerlərində təbiətlə tarix və folklor birləşir, milli əxlaqın, adət-ənənələrin və xalqın qəhrəmanlıq keçmişinin səhifələri vərəqlənir. Bu dəqiq müşahidəyə biz yalnız bunu əlavə edə bilərik ki, bu üç komponentin hansı birinin aparıcı, qabarıq olmasının elə bir əhəmiyyəti yoxdur. Elə buna görə də kitabda təbiətin birbaşa, müstəqim tərənnümünə rast gəlmək çox çətindir. Fikrimizi bir az da dəqiqləşdirib deyə bilərik ki, şair canlı təbiətdən müəyyən bir cizgini, adi bir detalı (yalnız özünün gördüyü!) seçib ayırmaqla və onun fonunda, onun vasitəsilə poetik mətləbi açıqlamağa çalışır. Bu proses o qədər təbii gedişə malikdir ki, heç bir rasional əməliyyata zərurət və ehtiyac qalmır. Fikrimizi əyani şəkildə əsaslandırmaq üçün kitabdakı «Qurbanıyam Qarabağın» və «Köküm üstə» başlıqları altında toplanan bəzi nümunələri müqayisə edə bilərik. Birinci başlıqdakı şerlərdə başlıca məqsədlərdən biri Qarabağın bugünkü həqiqətindən söz açmaq, xalqın bu adla bağlı müqəddəs duyğularını bəyan etməkdir.

Ayrı-ayrı şerlərdə, xüsusən dördlüklərdə, peyzaj lirikasının orijinal nümunələrini yaratmasına baxmayaraq, burada şair konkret təsvirlərdən sərf-nəzər edir, bütün mənəvi dəyərlərin, əxlaqi-mənəvi qənaətlərin məhək daşına çəkildiyi bir məqamda özünün şair mövqeyini ifadə edir:

*Bir cənnət tapsa göydə, köçsə bütün yer üzü,*
*Tək-tənha qalaram mən, köçmərəm Qarabağdan.*
*Bir qarış torpağına min bir can istəsələr,*
*Min bir candan keçərəm, keçmərəm Qarabağdan.*

İkinci başlıqdakı şerlər yuxarıdakı fikri əsaslandırmaq üçün daha xarakterikdir. Bu şerlərdə nəyisə vəsf etmək, hansı bir duyğunu, istəyisə bəyan etməkdən çox, bədii sözün gücünə poetik mətləbi qabartmaq, göstərmək meyli güclüdür. Yeri gəlmişkən deyək ki, H.Kürdoğlunun ən yaxşı şerləri məhz bu prinsiplə yazılmışdır.

Hüseyn Kürdoğlunun şerlərində dağın da, daşın da…, bütövlükdə ulu təbiətin özünün pozulmaz yaddaşı var. Məhz belə olduğu üçün şair poetik vurğunu daha çox təbiət-insan münasibətləri üzərinə keçirir. Yeri gəlmişkən, deyək ki, bunun məhz belə olmasının özü də təbiidir. Dövrün, epoxanın səciyyəsi elədir ki, təbiətin nizamının, əzəli ahənginin pozulub dəyişməsi ilə yanaşı, mənəvi ekologiya problemlərinin də ön plana keçməsi müşahidə olunur. Bir tərəfdən meşələr qırılır, göllər, çaylar zəhərlənir, «karvanı soyulan şahzadə qız tək göylərin altında lüt-üryan qalır», digər tərəfdən, bu işin bilavasitə icraçıları – torpaq düşmənlərinin döşü par-par parıldayır. Ocağın başında oturmuş ocaq düşmənləri odu keçirib küllə oynayırlar… Kür qırağında Boz Qurdun üzünü göylərə tutub ulaması nə qədər dəhşətlidirsə, Mil düzünün qocalması da bir o qədər acı təəssüf doğurur…

*Bol olsa da bu dünyanın sərvəti,*
*Sayan varmı ədaləti, mürvəti?!*

*Halalların zəhər olub şərbəti,*
*Haramlara şəkər düşür, bal düşür.*

***

*Haqsızlara haqq divanı qurulmur,*
*Harınların buynuzları qırılmır,*
*Həyat nəhri ha çağlayır, durulmur,*
*Dünya boyu hər gün qeylü-qal düşür.*

H.Kürdoğlunun şerlərində təbiət anlamı, əslində, müəyyən mənada şərti və çox genişdir. Bu mənada ki, o, nədən yazırsa-yazsın, əvvəlcə onun «təbiətini» təbiətlə, əzəli və əbədi təbiət obrazları ilə açıqlamağa çalışır. Hüseyn Kürdoğlunun poeziyası ana təbiətdəki tarazlığı, harmoniyanı vəsf edir, ona çağırır. Bəs, bu poeziyanın özünün daxili harmoniyası necədir, nə yerdədir? Buna birbaşa cavab verməyək. Bir anlığa topludakı şerlərdən aldığımız qənaətin hesabına qoynunda yaşadığımız torpağın gözəlliyinin (dərdli gözəlliyinin!) «poetik xəritəsini» göz önünə gətirək. Biz nə qədər desək də, şairin Vətəni bütün yer üzüdür, - bu, gözəl, gəlişigözəl söz olaraq qalır. H.Kürdoğlunun şerə gətirdiyi Laçın, Xaçın, Qırxqız, Yeddi qardaş, İşıqlı, Kirs… - bu poetik obrazlar müəyyən bir yurdun, ulusun təkcə adları yox, bütövlükdə Azərbaycanın poetik rəmzidir. Bu tipli şerlərə hakim kəsilən folklor ruhu adlardan, folklor obrazlarından yox, folklor dünyasının qanun-qaydalarından başlayır. (Dədəm Qorqud Laçın demiş adına…).

Hər şey, hər poetik aləm özlüyündə bir səyahətdir. Yeri gəlmişkən deyək ki, son zamanlar, xüsusən resenziyaçılıqda belə bir qəribə tendensiya kök salıb: tutaq ki, iki şairin ilk kitablarını müqayisə edərkən yazırlar ki, bu, filan məkana səyahətdir, o birisi isə, bütövlükdə doğma Azərbaycan torpağına… Şairlər, kitablar dəyişir, «səyahət» isə bitmir, dəyişmir. Fikrimizcə, şerin əsl qiyməti səyahətin «marşrutu» ilə yox, daha çox şerin məğzindəki

poetik enerji ilə ölçülür. Bu mənada H.Kürdoğlunun şerləri təbiətə səyahətdir demək, hələ heç nə demək deyil. Onun hər bir mətləbi, predmeti təbiət obrazları ilə açmağa çalışması isə tamam başqa şeydir. H.Kürdoğlunun «Səhər nəğmələri» adlanan ilk şerlər kitabından tutmuş sözü gedən «Bu dünya bir karvan yolu» kitabınadək keçdiyi yol, təkamül ayrıca bir məqalə mövzusudur. Hələ ilk şerlərində ana təbiətin nizamındakı ən adi, xırda dəyişikliyi də qeyri-adi həssaslıqla qələmə alan şair, getdikcə bunları daha geniş, qlobal bəşəri motivlərlə əlaqələndirmiş, bunun hesabına da müstəqil poetik orbit formalaşmışdır. Əvvəlki qələm nümunələrində daha çox forma cəhətdən paradoksal, qeyri-adi görünən cəhətlərə müəyyən mənada bir aludəçilik də müşahidə olunurdu. Onun poetik təfəkküründə hər şey son dərəcə qeyri-adi təsir bağışlayan «kosmik obrazlar»la (Y.Qarayev) qaynayıb-qarışır, bu sonuncusu daha qabarıq görsənirdi. Bu, fikrimizcə, hər bir şairdə müəyyən mənada mərhələ, keçid səciyyəsi daşıyır. Şer daha çox əzəmətli poetik obrazın hesabına, onun doğurduğu güclü bədii effektə görə yadda qalır:

*Ay işığı sarı baldır süzülür,*
*Zülmət dərə ağız açıb ayı tək…*

Bu mənada «Bu dünya bir karvan yolu» toplusundakı «İlmə-ilmə toxuyuram şerimi» və «Ağlar qalan dağlarım» adlı iki şeri müqayisəli təhlilə çəkmək məqsədəuyğundur. Birinci şerin adı çox xarakterikdir. Bu şer H.Kürdoğlunun hazırkı inkişafı, təkamül vəziyyəti barədə çox şey deyir. Burada işlədilən cinaslar, başqa formal əlamətlər şerin poetik sistemində predmetin mahiyyətini aşılayan və açıqlayan əsas elementlərdir.

*Gizli-gizli xain baxan gözlərə,*
*Hər qafiyə misramda bir ox ucu…*
*Ürəyimi varaq-varaq açmışam,*
*Dünyam nədir: görsün, duysun oxucu…*

İkinci şerdə isə diqqət daha çox, bilavasitə şairin oxucuya təlqin etdiyi fikir, ideya üzərində cəmləşmişdir. Məlumat üçün deyək ki, şairin tez-tez müraciət etdiyi dağ obrazı əsas poetik fiqurlardan başlıcasıdır. Bu obraz hər dəfə bir boyda, bir biçimdə yox, müxtəlif aspektlərdə təqdim edilir. Bəs onda nəyə görə şairin bir vaxtlar mərd-lik, qəhrəmanlıq mücəssəməsi, alınmaz qala kimi təsvir etdiyi «neçə boy ucalan dağlar» bu gün ağlar qalıb?

*Döyüb dizlərinə göynəyəcəksən,*
*Şimşək cilovları çeynəyəcəksən.*
*Qoca kötüklərlə neyləyəcəksən,*
*Qaçır şəhərlərə zoğların sənin…*

Hüseyn Kürdoğlunun «Bu dünya bir karvan yolu» şerlər kitabında haqqında geniş söz aça bilmədiyimiz dördlüklər, bayatılar və satirik şerlər də var. Bu kitab bütövlükdə şairin yaradıcılıq axtarışlarında daha gərgin bir mərhələnin başlanmasından xəbər verir. Sözümüzü H.Kürdoğlunun şəxsiyyəti və yaradıcılığı üçün xarakterik saydığımız bir bayatı ilə bitirmək istəyirik:

*Dağ-dərə qışdan çıxar,*
*Qardan, yağışdan çıxar.*
*Sözün daşyonanıyam,*
*Çörəyim daşdan çıxar.*

«Ədəbiyyat və incəsənət» qəzeti,
16 noyabr, 1990

***Qurban Bayramov***
*Ədəbiyyatşünas-tənqidçi*

## AYDINLARIN AYDINLIĞI…

*(Hüseyn Kürdoğlunun «Ziyalımız – ziyamız» (Bakı, 1999) kitabı haqqında ədəbi düşüncə…)*

Hüseyn müəllimin «Ziyalımız – ziyamız» adlı yeni kitabı ədəbi həyatın poetik salnaməsi kimi diqqəti cəlb edir… Öz istedadı ilə həmişə diqqəti çəkən, Azərbaycan dilinin şəhdi-şəkərindən bacarıqla istifadə edib olduqca kövrək, həzin, həssas duyğularla zəngin, xalqdan qaynaqlanıb gələn və orijinal bir ülgüyə salınan poetik obrazların müəllifi olan şair bu dəfə də oxucularını qürur dolu bir heyrət qarşısında qoyur, XX əsrin dolaylarına, aşırımlarına şairanə bir baxışla nəzər salır, onun Azərbaycan mədəniyyətinə, ədəbiyyatına, cəmiyyətə, dünyaya bəxş etdiyi və öz həyat yolları ilə əbədiyyət pasportu qazanmış görkəmli şəxsiyyətlərin, əsrdaşlarımızın həyatına, xarakterinə poetik sözün sehri ilə nüfuz etməyə çalışır.

Son illər xüsusi bir yanğı ilə, olduqca məhsuldar işləyən, bir-birinin ardınca kitablar nəşr etdirən müəllifin bu məcmuəsində ayrı-ayrı vaxtlarda yazdığı, çap etdirdiyi ithafların poetik buketi təqdim edilmişdir. Kitabda toplanan şerlər xalqımızın XX əsrdə dünya mədəniyyətinə bəxş etdiyi tanınmış ziyalıların, sənət korifeylərinin, şəxsiyyətlərinin həyat və fəaliyyətlərinin ən səciyyəvi məqamlarını yüksək sənətkarlıqla əks etdirən gözəl əsərlərdir.

Şair sanki xalqımızın itmiş, unudulmuş, unutqanlığımızın dumanlığına bürünmüş məşhur çağdaş ziyalıları haqqında təəssüratlarımızı, duyğularımızı, qənaətlərimizi, sevgi və məhəbbətimizi bərpa etməyə çalışır, yaddaşımızın üstündən pəlməni, tozu götürür, çağdaş ziyalılarımızın poetik portretlərini bizə təqdim etməklə təkcə onların

şəxsiyyətlərinin dərkinə deyil, bizim özümüzün özümüzü dərkə də cığır açır.

Müəllifin özü «Oxucuya sözüm» müqəddiməsində yazır: «Sevdiyim, tərənnüm etdiyim, bədii portretini yaratmağa çalışdığım bu unudulmaz vətən övladlarının bəziləri ali məktəb müəllimlərim, bəziləri iş yoldaşlarım, bəziləri də əsərlərini sevə-sevə oxuduğum, şəxsiyyətinə pərəstiş etdiyim qocaman sənət bahadırlarıdır. Yaşayanlarına uzun ömür dilədiyim, dünyadan köçənlərinə rəhmət oxuduğum bu nadir insanların müqəddəs vətəndaşlıq qayələrini, yüksək əməllərini, mənəvi-əxlaqi məziyyətlərini poeziya dili, poeziya rəngləri ilə canlandırmaq mənim üçün şərəfli şair borcu, şair vəzifəsidir...» Müəllif bu yüksək mənəvi-əxlaqi, bədii-estetik, ictimai-psixoloji qayəsinin öhdəsindən bacarıqla gəlmiş, «şair borcunu» poetik sözün qüdrəti ilə ifadə etmişdir. «Şair borcu», «şair vəzifəsi»nin bir yönü xalqına xidmət isə, bir qanadı da, təmasda olduğu, çiyin-çiyinə yazıb-yaratdığı sənət dostlarını, ziyalı həmkarlarını yüksək şəxsiyyət tipi kimi görə bilmək, qiymətləndirməyi bacarmaq borcudur ki, bunu Hüseyn müəllim hamımızdan yaxşı – bir şair qəlbi ilə bacara bilmişdir:

*Qələm əhli dünya sənə göz dikir,*
*Sənsən əzəl şərəf-şanı dünyanın.*
*Sən olmasan sönər zülmət içində*
*Ayı, günü, kəhkəşanı dünyanın.*

*Sən qanad ver elin-günün sözünə,*
*İşıq gətir zəmanənin gözünə.*
*Mədhiyyələr oxutmasın özünə,*
*Hər kralı, hər sultanı dünyanın.*

Müəllif ziyalı şəxsiyyətini dünya hadisələri prosesində bu cür görür, bu təhər qəbul edir, bu dəyərdə qiymətləndirir və onu dünyanın kralları, sultanları ilə qar-

şılaşdıraraq əbədiyyət və şöhrət çələngini sənətə sığınan sənətkar şəxsiyyətinin ucadan-uca qədəmləri altına atır, hər bir şəxsiyyətin poetik obrazını yaratdıqca bütövlükdə XX əsrin azərbaycanlı ziyalısının vahid, monumental obrazını, nəhəng poetik portretini yaratmış olur.

Səməd Vurğun, Şəhriyar, Süleyman Rəhimov, Mikayıl Müşfiq, Rəsul Rza, Osman Sarıvəlli, İlyas Əfəndiyev, Bayam Bayramov, Qasım Qasımzadə, Hüseyn Arif, Məmməd Araz, Nəriman Həsənzadə, Yaşar Kamal, Cavad Heyət, İhsan Doğramaçı, Hökumə Billuri, Söhrab Tahir kimi sənət korifeylərinin, şair və yazıçıların, qələm əhlinin hər birinin ayrılıqda sözlə canlandırılan obrazlarında, poetik portretlərində müəllif elə cizgilərə, şəxsiyyətin elə psixoloji məqamlarına, xarakterin elə ştrixlərinə, yaradıcılıqlarının elə istiqamətlərinə toxunur ki, onlar bir tərəfdən elə ədəbi ictimaiyyətin tanıdığı, qəbul etdiyi səviyyəyə uyğun gəlir, digər tərəfdən də, təkcə şair Hüseynin öz görüm və duyum bucağından orijinal şəkildə, heç kimin görə bilmədiyi və ya görüb, duyub dilinə gətirə bilmədiyi bir tərzdə, tamam orijinal bir şəkildə təqdim edilir.

Səməd Vurğunun 90 illiyinə həsr etdiyi on bəndlik «Yenə sən» şerində zamanın və ictimai quruluşların burulğanından keçib gələn nəhəng poeziya bahadırının obrazı canlandırılır, «nihlistlərə» tutarlı cavab verilir:

*Zaman səni bulandıra bilmədi,*
*Büllur qaya bulağısan yenə sən.*
*Boz təpələr vüqarına ah çəkir,*
*Şerimizin Şahdağısan yenə sən.*

Və doğrudan da şerin sonuna doğru «söz eşqi ilə yaranan», «xəyalı ilə kainatı qucan», «məhəbbətə, ülviyyətə yana-yana qol açan», «sənət eşqi günəş boyda kitaba çevrilən», «ədavətə, xəyanətə od saçan», «könüllərdə heykəlləşən», «dünya boyu ucalardan uca» olan «şerimizin Şahdağına dönən» ağ saçlı Səməd Vurğunun yenilməz

obrazı şair Hüseynin təqdimatında gözlərimiz önündə bir daha canlanır və bu o vaxt olur ki, şerin, sənətin, sənətkarın paxılları, gözügötürməz qurdları «ideoloji əbaya» bürünərək ulu şairin kölgəsini qılınclayır, çoxlarımız da seyrçi bir mövqe tuturuq…

Və bu anda şair Hüseyn susmur, qələminə sığınaraq «səngərdə» öz mövqeyini tutur…

Akademik Həsən Əliyevə, Şəhriyara, Süleyman Rəhimova həsr etdiyi şerlərində də belədir. M.Müşfiqin, Rəsul Rzanın, İlyas Əfəndiyevin, Bayram Bayramovun, Osman Sarıvəllinin obrazlarını yaradanda da, adi adamlarda gördüyü qeyri-adilikdə də öz mövqeyindədir şair Hüseyn, öz şair, yaradıcı, ziyalı mövqeyində…

Hər bir ziyalı şəxsiyyəti müəyyən zaman və məkan daxilində ədəbi hadisədir və hər bir şəxsiyyətin siqlətində böyük bir ucalıq duyulur. Ədəbi şəxsiyyətin mənəvi aləminin kəşfi, bir şəxsiyyət tipi kimi onların məziyyətlərinin aşkarlanmasının şahidi oluruq «Ziyalımız – ziyamız» şerlər toplusunu vərəqlərkən. Hər ədibin xarakterinin poetik şərhinin şahidi oluruq. Ədəbi, ictimai, əxlaqi-mənəvi mühitdə hər bir ziyalı şəxsiyyətinin dəqiq yeri, mövqeyi poetik sözün gücü ilə müəyyənləşir. Şair Hüseyn böyük şəxsiyyətlərin makromühitinə nüfuz edir və hər bir sənətkarın portreti onun poetik düzümündə silsilə tapıntı kimi yenidən canlandırılır, fotoreportyor dəqiqliyi ilə sözlə aşkarlanır, pozitiv üzə çıxır. Lakin fotoportretdə və ya rəssam işində həyatın bir anı əksini tapırsa, burada, Hüseyn müəllimin yaratdığı poetik portretlərdə şəxsiyyətlərin mənəviyyatlarının dərinliyi, az qala bütün ömürlüyü bədii sözün gücü ilə əbədiyyət anına qovuşdurulur. Bu və ya digər şəxsiyyət tipində əbədiyyətin bu anını tutmaq müəllifdən böyük dəqiqliklə seçilən ustalıq, bacarıq, məharət tələb edir ki, şair Hüseynin qələmində bu cəhətləri asanlıqla müşahidə etmək olur.

Şair Hüseyn ədəbi janrları asanlıqla mənimsəyən, onlara orijinallıq gətirən, poetik janrın imkanlarını genişlən-

dirməyi bacaran ustad sənətkardır. Onun rübailəri, ikilikləri, bayatıları, təcnisləri buna misaldır. Məsələn, ilk dəfə o, bayatı janrında poema yazmağa müvəffəq olmuşdur ki, bu olduqca çətin, ağlagəlməz bir şeydir…

Bu kitabda toplanan şerlər də belədir. Onlar müxtəlif vaxtlarda müxtəlif xarakterli şəxsiyyətlərə ithaf olunub. Və klassik irsimizdə bu janrda mədhiyyələr, fəxriyyələr, mərsiyələr, epitafiyalar, öygülər, elegiya və s. mövcuddur. Şair Hüseyn burada da orijinal yolla getmiş, böyük cəsarətlə ithaf janrının məhdud çərçivəsini sındırmış, onu subyektiv, fərdi məzmundan uzaqlaşdırmış, bu janra böyük ictimai, milli-əxlaqi məzmun vermiş, ümumilikdə ziyalılığın milli mentalitet səviyyəsində bütöv, monumental obrazını yaratmışdır. Bu toplusunda müəllif yaddaşımızı və qənaətlərimizi təzələyir, xalqın ziyalılıq tarixini canlandırmış olur, bizi aydınların aydınlığa aparan yollarının müsafiri edir, xalqımızın ortaya çıxardığı həmişədiri dühalarının poetik abidələrini yaradır. Və burada təkcə ayrı-ayrı şəxsiyyətlərin mənəviyyatı yox, bütün xalq mənəviyyatı cilvələnir… Biz o taylı-bu taylı Azərbaycanın, dünyaya səpələnən türkün, itirdiyimiz torpaqların yanğısı, qayğısı, bütöv obrazı, görkəmli şəxsiyyətləri ilə qarşılaşırıq.

Şair Hüseyn öygüləri, elegiya-ağıları, monoloq-müraciətləri ilə bu kitabda 75 nəfər ziyalımızın poetik portretini yaradıb. Azərbaycan, türk ədəbi-bədii, elmi fikrinin böyük ustadlarının, adi adamların, iş yoldaşlarının qeyri-adi insani keyfiyyətləri poetik sözün güzgüsünə tutulub.

Akademiklərimizdən Həsən Əliyev, Həmid Araslı, Əlisöhbət Sumbatzadə, Bəkir Nəbiyev, professorlardan Əli Sultanlı, Mir Cəlal, Nurəddin Rzayev, Xudu Məmmədov, Həbib Şirinov, Rüstəm Əliyev, Camal Mustafayev, Hamlet İsaxanov, Muxtar Həmzəyev, Yaşar Qarayev, Tofiq Hacıyev, Azadə Rüstəmova, Sənubər Qasımova və onlarla bu qəbildən olan ziyalılarımıza həsr etdiyi şerlərdə

biz müəllifin yüksək qayəsi ilə qarşılaşırıq. Aşıq Şəmşirə, Aşıq Hüseyn Saraclıya, Aşıq Əmraha, Aşıq Kamandara həsr etdiyi şerlərdə el sənətinə, aşıq, saz-söz ululuğuna böyük məhəbbətin şahidi oluruq, zəmanəmizin böyük bəstəkarı Süleyman Ələsgərova, xalq rəssamı Maral Rəhmanzadəyə, Zeynəb Xanlarovaya, Məhəbbət Kazımova ünvanladığı əsərlərində həzin, kövrək, qürurlu notlar avazlanır.

Şair Hüseyn bu şerlərində də qəlbinə hakim kəsilən bir Qarabağ sevgisini, bir Qarabağ nisgilini təzadlı şəkildə qənşərə çəkir. Düz 30 il bundan qabaq yazıçı dostu, qeyri-adi bir məhsuldarlıqla işləyən, 30-dan çox roman yazan və qəlbində bir Qarabağ ocağı, tonqalı, yanğısı aparan mərhum xalq yazıçısı Bayram Bayramova həsr etdiyi «Yaz deyir mənə» şerində:

*Saralmaz çiçəyi bağça-bağımın,*
*Vətəndir çırağı can otağımın.*
*Ağ günə qovuşan Qarabağımın*
*Yanar şikəstəsi yaz deyir mənə. -*

misraları ilə elə həm Qarabağın, həm də yazıçı Bayram Bayramovun bəxtəvərli günlərini yada salırsa, bəstəkar Süleyman Ələsgərovun 75 illiyinə həsr etdiyi «Süleyman bulağı» şerində isə qəfəsdə çırpınan, yaralarından qan sızan Qarabağı Süleyman Ələsgərovun obrazında canlandırır:

*İlahi, gör nə vaxtdan qəfəsdədir Qarabağ,*
*Yaralı dağlarında min bir qan bulağı var.*
*Yaxşı ki, Qarabağın sinəsindən çağlayan,*
*Avazı bulanmayan Süleyman bulağı var,*
*Süleyman bulağı var!*

Bu misalları gətirməklə onu nəzərə çatdırmaq istəyirik ki, şair Hüseyn hər bir əsərində yüksək vətəndaş mövqeyindən çıxış edir, şer həsr etdiyi şəxsiyyətin poetik

cizgiləri ilə ictimai həyatın cizgiləri arasında uyarlıq yaradır, şerə yüksək ictimai-siyasi, bədii-estetik məzmun aşılayır. Azərbaycanlılıq, Azərbaycan dilinin gözəlliyi, lətafəti haqqında çox şerlər sərgisi var. Hüseyn Kürdoğlunun istedadlı dilçi-alim, prof. Tofiq Hacıyevə həsr etdiyi «Azərbaycan dili» şeri deyərdim ki, bu səpgidə yazılan ən yaxşı, kamil şerlərdən biridir və Tofiq Hacıyevin şəxsiyyəti imkan verib ki, Hüseyn müəllim Azərbaycan dilinə olan sonsuz məhəbbətini ifadə etsin:

*Adəm ilə Həvvanın ülfət qıldığı çağdan,*
*Bəlkə də türk diliymiş əzəl insanın dili.*
*Qurban olum Allaha, gör necə dil yaratmış,*
*Türk dili olmazmıdı bütün cahanın dili?!.*

Yeri gəlmişkən onu da qeyd edim ki, şair Hüseynin dil duyumu, dilin şəhdindən, şirinliyindən istifadə etmək imkanı olduqca genişdir. Onun şair qəlbi elə bil arı şanıdır, dilin balı-şəkəri oradan süzülüb axır…

Onun görkəmli dilçi Ağamusa Axundova həsr etdiyi «Keçib gəldin min illəri» şerində bunu ucadan söyləməyə haqqı var:

*Könlümün, gözümün nuru,*
*Şerimin fəxri, qüruru.*
*Çeşmə gözündən də duru,*
*Saz dilim, tar-kaman dilim,*
*Mənim Azərbaycan dilim!*

«Ziyalımız – ziyamız» şerlər toplusu elimizin-günümüzün işıqlı şəxsiyyətlərini əks etdirən poetik buketdir. Ziyalı xarakterinin, ziyalı şəxsiyyətinin poetik təhlilidir bu şerlər. Şair Hüseyn öz xarakterini, özünəməxsus insani keyfiyyətlərini də bu sənət dostlarının poetik portretlərinin aşkarlanan cizgilərində ifadə etmiş olur, bir növ öz avtoportretini də yaradır; şair Hüseynin öz poetik fər-

diyyəti də burada ucalır, ağsaçlı Ozan babaya dönür, zəmanəsinin görkəmli şəxsiyyətlərinin nuruna, işığına bələnir…

Əslində bu portret şerlər şair qəlbində yüksək vətəndaşlıq qüruru ilə bəstələnmiş qürur nəğmələridir…

Şair Hüseynin poeziyasının aydınlığında bərq vuran, nur selinə çevrilən aydınların aydınlığıdır…

28 sentyabr, 1999

## ŞAİR HÜSEYN KÜRDOĞLUYA AĞI

Azərbaycanın görkəmli şairi Hüseyn Kürdoğlu Allaha qovuşdu.

*Yenə də baş çəkim Ağdama gərək,*
*Qarqarın suları Ağdama gərək.*
*Bu yerin qədrini bilməyənlərin,*
*Qara gözlərinə ağ dama gərək.*

Bu, Hüseyn Kürdoğlunun şerindəndir. Allah sənə rəhmət eləsin, Hüseyn Kürdoğlu!

Hüseyn Kürdoğlu öldü. Laçında bulaqlar, çaylar ağlasın! Otlar, güllər, çiçəklər, dağlar ağlasın. Buludlar dağların başını qucaqlayıb hönkürsün. Qayalar dabanı üstə qalxıb lap çilik-çilik olsun, bənövşələr dizini qatlayıb otursun, çaylar ilan dili çıxartsın.

Öldü Hüseyn Kürdoğlu, Laçını görməmiş öldü. Gözlərini əbədi yumdu, bu dünyadan küsdü. Görəsən Laçının xəbəri oldumu?

Öldü, xəbər verin aşnaya, dosta,
Öldü Hüseyn Kürdoğlu, öldü, öldü, öldü.

Görəsən azacıq da olsa yerindən tərpəndimi Laçın, tərpəndimi dağ, qaya, çay, əvəlik, ot, çiçək, baldırğan, kəkotu?

Öldü Hüseyn Kürdoğlu, öldü…
Şerimizin bir misrası düşdü…

«Ədalət» qəzeti,
17 iyul, 2003

*Nazim Əhmədli*

## HÜSEYN KÜRDOĞLU HAQQINDA SÖZ

Tanınmış şair, filoloq Hüseyn Kürdoğlu artıq qırx gündür ki, aramızda yoxdur. Onun şair taleyinə yazılan xoş günlərin və xoş olmayan, özünün şerlərində yazdığı kimi, dərdli günlərinin bu dünyalı sorağından qırx gün ötdü. Hüseyn Kürdoğlunun şer yaradıcılığı qaynar bir bulağıydı, leysan yağışıydı. Yurdumuzun lap ucalıqlarında yerləşən Laçın dağlarından öz mənbəyini alan şer, söz yağışı onun sənət dünyasını göy qurşağı kimi rəngarəng boyayan bir təbii qalereyaya bənzədir. Hüseyn müəllimin son illər yaradıcılığındakı yurd həsrəti, vətənimizin düşmən tapdağında olan bölgələrinin dərdi şerlərində xüsusi yer tutur:

*Dağlar da xəyanət badına getdi,*
*Ağır aylar, illər sürünüb ötdü.*
*El didərgin düşdü, dağılıb itdi,*
*Kövrəlib gözləri dolan Kürdoğlu!*

*Tablaya bilmədin bu nisgilə sən,*
*Yandıqca əridin gilə-gilə sən.*
*Daha qismət deyil bir də güləsən,*
*Dörd divar içində qalan Kürdoğlu!*

Hüseyn müəllim hər il Laçına, doğma Əhmədli kəndinə gedərdi. Doğma Laçın dağlarının min bir adda, min bir dadda bulaqlarından içər, təmiz havasını udardı, doğmalarıyla hal-xoş edərdi. Lakin zalım fələyin dərd girdabına düşən yurdumuzun taleyi şairi dağlara həsrət qoydu. Və elə bu nisgil də onu qətrə-qətrə əritdi. Dərdi qələminə tac edən şair ürəyinin odunu-közünü misralara qatdı, gecəli-gündüzlü «Laçın!» deyib, «Qarabağ!» deyib qələmi ilə ərşə od püskürdü:

*Hanı ilk ocağım, hanı,*
*Selə döndü elin qanı.*
*Qarğa tutdu gülüstanı,*
*Həsrəti bülbülə qaldı.*

*Kürdoğlu dərdlə çağladı,*
*Köksünü özü dağladı.*
*Divanədir, həm ağladı,*
*Həm də gülə-gülə qaldı.*

Şair Hüseyn Kürdoğlu oxucularının, dostlarının, əzizlərinin yadında böyük şair, gözəl insan kimi qalacaq. Allah ona qəni-qəni rəhmət eləsin.

«525-ci qəzet»,
20 avqust, 2003

*Əbülfət Mədətoğlu*

# SÖZÜ TORPAĞINI ÖPƏN ŞAİR

Yaşasaydı bu gün bizimlə birlikdə 70 yaşını qeyd edəcəydi. Amma əcəl imkan vermədi. Özü də təkcə əcəl yox, həm də torpaq itkisi ömrünü baltaladı Hüseyn Kürdoğlunun. Doğulduğu Laçından əli çıxdı. Bağlandı yolları. Nə Kəlbəcərə gedə bildi, nə Ağdama, nə Şuşaya, nə Qubadlıya, nə Zəngilana... Torpaqlar işğal olunduqca ömrünün illəri pərən-pərən düşdü. Dağ vüqarlı, dağ təmkinli, sözünün, özünün yerini bilən, şəxsiyyətini, qələmini dəyərləndirən, ailəsini, dostlarını, doğulduğu eli-obanı canı qədər sevən Hüseyn Kürdoğlu... Fələk aldı səni bizim əlimizdən. Amma cismən aldı. Çünki Allahın zərrəsi olan söz adamı idin, şair idin. Ona görə də fələyin sənin sözünə gücü çatmadı. Sözün qaldı, xatirələrin qaldı. Və bir də hələlik Vətən nisgilin qalır biznən, Laçın göynərtin qalır. Səni qəbirdə narahat edən, ruhunu didərgin salan Laçın göynərtin.

Bu gün 70 yaşın tamam olur. Əslində şairlər ilk şerindən müqəddəsləşir, ilk kəlməsindən özünə doğum tarixi yazır. Bu mənada Hüseyn Kürdoğlunun onsuz qeyd olunan 70 illik yubileyində təkcə dostları, ailəsi deyil, bütün söz adamları mənən, ruhən iştirak edirlər. Ona görə də mən qəti əminəm ki, Hüseyn müəllimin yubileyi Tanrı dərgahında da qeyd olunur. Çünki Allahın ən çox sevdiyi bəndələr arasında şairlərin yeri birinci sıradadır. Deməli böyük yaradan Hüseyn Kürdoğlu adlı şairin doğum gününə öz mələklərini göndərəcək. Və bir də söz sevənlər olacaqlar o doğum günündə. Özü demişkən:

*Ürəklərə sözdür açar,*
*Ürək açıb şəfəq saçar.*
*Məzarda da çiçək açar,*
*Torpağından öpər sözüm.*

Sözü torpağını öpən şair, doğum günün mübarək! Ruhun şad olsun! Və Hüseyn Kürdoğlusuz ad gününü qeyd edən ailə üzvlərinə, dostlarına isə təbriklərimi ünvanlayıram.

«Ədalət» qəzeti,
15 iyun, 2004

*Adil Cəmil*

# XALQ RUHUNUN TƏRCÜMANI

Yaxın bir adam haqqında söhbətimə yaxın keçmişdən bir epizodla başlamaq istəyirəm.

... 1972-ci ilin payız günləri idi. Azərbaycan Dövlət Universiteti (indiki BDU) Jurnalistika fakültəsinin birinci kurs tələbəsi olduğum üçün sinəmdə sanki bir fateh ürəyi döyünürdü. Mir Cəlalın, Qulu Xəlilovun, Nurəddin Babayevin, Şirməmməd Hüseynovun, Tofiq Rüstəmovun, Nəriman Zeynalovun, Famil Mehdinin, Zinyət Əlizadənin tələbəsi olmaqdan hədsiz qürur duyurdum. Müasir Azərbaycan dilindən mühazirə oxuyan Zinyət xanım proqrama uyğun bədii misallar göstərərkən daha çox iki şairin – Bəxtiyar Vahabzadənin və Hüseyn Kürdoğlunun poeziyasına istinad edirdi. Yaxşı yadımdadır ki, qrammatikadan ommonim bəhsini keçərkən o, Hüseyn Kürdoğlunun cinaslı dördlüklərindən neçəsini əzbər söyləyir, bizi də xalq ruhundan «sıyrılan» belə şairlərin poetik aləminə yaxından bələd olmağa istiqamətləndirirdi. O illərdə şerin, ümumən bədii sözün acı olan biz universitet tələbələri ədəbi orqanları ardıcıl izləyirdik. Artıq Hüseyn Kürdoğlu imzası tələbə yoldaşlarımız arasında kifayət qədər tanınan və sevilən bir imzaya çevrilmişdi. Onun yeni şerlərini səbirsizliklə gözləyirdik. Bu şad xəbəri adətən o vaxtkı tələbə yoldaşım, indi şair kimi tanınan İslam Türkay gətirərdi...

İllər keçdi. Mən universiteti bitirib «Yazıçı» nəşriyyatına təyinat aldım. Şerlərini sevə-sevə oxuduğum, lakin özü ilə təmasda olmadığım şairlə günlərin birində şəxsən tanış oldum – elə «Yazıçı» nəşriyyatında. Hüseyn müəllim olduqca sadə, səmimi və qayğıkeş bir insan təsiri bağışladı mənə. İş elə gətirdi ki, onun «Durna səsi» adlı şerlər kitabının («Yazıçı», 1985) redaktoru oldum. Bu kitabda toplanan şerlər də əsl poeziya nümunələri idi. Lakin

kitabı tərifləyən həmkarlarına, şersevərlərə Hüseyn müəllim imkan verməyərək qeyri-adi təvazökarlıq nümayiş etdirirdi…

«Mən varam» deyə kürsülərdən yerli-yersiz hayqıran tribun şairlərdən, hay-küyü poeziyasından «qüdrətli» olan həmkarlarından fərqli olaraq ilahi vəhyin pıçıltılarını sakitcə varağa köçürən H.Kürdoğlu yeni-yeni şer kitabları ilə oxucularını sevindirmək fürsətini əldən vermədi.

Lakin günlərin birində doğma Laçını əldən getdi. 1992-ci ildə qoynunda boya-başa çatdığı, əsrarəngiz gözəlliyinə gözəlləmələr qoşduğu dədə-baba torpağı düşmən tapdağı altında qaldı. Laçının və laçınlıların qara günləri başlayanda Hüseyn müəllimin də ürək ağrıları başladı… Bu ağrılar isə ağılara çevrilib yurd nisgilli yurddaşlarımızı ovutdu:

*Bu dağda qurd uladı,*
*İçimdə dərd uladı.*
*Viran qoydu yağılar,*
*Xaraba yurd uladı.*

***

*Ölsün yuva dağıdan,*
*Dilim göynər ağıdan.*
*Can verməərəm ölümə*
*Qan almamış yağıdan.*

***

*Taleyi dönmüş mənəm,*
*Ocağı sönmüş mənəm.*
*Dağıdıblar yuvamı,*
*Qanadı sınmış mənəm.*

Hüseyn Kürdoğlu xalq ədəbiyyatını, folkloru məharətlə mənimsəmiş, zəngin mütaliəyə və geniş dünyagörüşə malik ziyalı, ədəbiyyatşünas alim və istedadlı şair idi. O, söz materialından zərgər dəqiqliyi ilə istifadə edən sənətkar idi. Ümumşərq poeziyasını, klassik və müasir

ədəbiyyatımızı dərindən bilən bu insan müxtəlif vəznlərdə, müxtəlif poetik formalarda yaratdığı şer nümunələrində yetkin sənətkarlığından xəbər verirdi. Axıcı, rəvan dil, özünəməxsus deyim və ifadələr, orijinal obrazlar, metaforalar onun fərdi üslubunu, bənzərsiz dəst-xəttini müəyyənləşdirirdi:

*Hicran ac qurd kimi izimə düşür,*
*Damır gözüm yaşı, sözümə düşür.*
*Məndən uzaqdasan bir işıq ili,*
*Yenə də işığın üzümə düşür.*

H.Kürdoğlunun şerlərində ərsəyə yetdiyi gül-çiçəkli, sis-dumanlı, yaşıl ormanlı, buz bulaqlı, başı qartallı Laçın dağlarının əsrarəngiz təbiəti var. Onun şerlərinin leytmotivini yurddaşlıq, vətəndaşlıq qayəsi təşkil edir:

*Qocaldıb gətirdi dərd qışa məni,*
*Gör saldı nə yaman sərt qışa məni.*
*Laçın torpağına qismət olmasam,*
*Pay verin çöllərdə qurt-quşa məni.*

Sarı Aşıq bulağından su içən, Dədə Şəmşirlə illər boyu ünsiyyət qurub dostluq edən Hüseyn Kürdoğlunun xalq ruhundan qaynaqlanan poeziyası öz tədqiqatçılarını gözləyir. Onun poetik örnəkləri çağdaş poeziyamızın dəyərli nümunələri kimi geniş elmi təhlilə cəlb olunmağa layiqdir. Ruhun şad olsun, Hüseyn müəllim!

«Ədəbiyyat qəzeti»,
30 aprel, 2004-cü il

*Salman Şəlvədərəli*

# VƏTƏNƏ SƏDAQƏT, MİLLİ ƏZƏMƏT VƏ FƏLSƏFİ HİKMƏTLƏR POEZİYASI

*(Hüseyn Kürdoğlu. «Yaralı torpağım, yaralı sevgim». «Sabah», 1997)*

Xalq bəyənən, oxucunun qəlbinə yatan poeziya həqiqətə məhəbbətin sözlərlə musiqisidir. Doğrudan da əsl poeziya həqiqəti sevmək, ona vurğunluqdur. J.Renarın təbirincə deyilsə, həqiqətə vurğun sənətkar istedadlı şairdir. Çünki o, həqiqəti o qədər şirin və cazibədar, qibtəyə və təqdirə layiq canlandırır ki, oxucu da bu həqiqəti pərəstişlə sevir. Hüseyn Kürdoğlunun poeziyasında bu keyfiyyət poetik zəka məşəli kimi nur ələyir. Bu yazımızda onlarca şer kitabı oxucuya məlum olan şairin yalnız 1997-ci ildə çap olunmuş «Yaralı torpağım, yaralı sevgim» kitabından söhbət açacağıq.

Səma çilçırağında və göylər kəhkəşanında yalnız Günəş özünə xas ulu möhtəşəmliklə parladığı kimi, bu kitabda da beçə balı kimi süzülən şirin şerlər aləmində Vətən millət həyatının hərtərəfli dayağı kimi mənalanır. Əgər qəhrəmanlıq fəlakət məqamında yaranırsa, ən müqəddəs, nəcib hiss olan vətənpərvərlik də Vətənin toxunulmaz mənliyinə qarşı qatı düşmən hərisliyi yönələndə kəskinləşib ovxarlı qılınca çevrilir.

*Mən dünya demərəm sənsiz dünyaya,*
*Nur düşər üzündən günəşə, aya.*
*Ata vüqarı tək əyilməz qaya,*
*Ana qəlbi kimi çiçəksən, Vətən.*

*Dar gündə hayına gəlməyənlərin,*
*Könül qubarını silməyənlərin,*
*Qədir-qiymətini bilməyənlərin,*
*Tozunu sovuran küləksən, Vətən!*

*Sinəmdə çırpınan ürəksən, Vətən.*
*Körpəcə nəvəmə bələksən, Vətən.*
*Halalca süfrəmdə çörəksən, Vətən.*

Hüseyn Kürdoğlu Vətənə sədaqət hisslərini o qədər müqəddəs məzmunda göstərməyə nail olur ki, Vətən onun əqidəli sahibi olmaq istəyən insan nəzərində ilahi ibadətgaha çevrilir, vətəndaş adı mötəbərləşir, onun uğrunda həlak olan övladının adı və ünvanı əbədiləşir. Vətən taleyinə laqeydlik isə vətəndaşlıq vicdanını itirmək şərəfsizliyi kimi ikrah doğurur.

Bu müqəddəs məzmunun dəyəri vətənə sədaqətdir, şair xalqa xitabla Vətən üçün döyünən ürəyinin harayı ilə hayqırır:

*... Qorxağı, satqını unudur Vətən,*
*Vətəndaş olmayır hər yoldan ötən.*
*Yıxılmaz kökünün üstündə bitən...*
*... Vətənə qıymasaq öz canımızı,*
*Boş qoysaq döyüşdə meydanımızı,*
*İblis qul eyləyər vicdanımızı...*
*... Əcdadımız yatan bu dağ sənindir,*
*Viranə görünən yaylaq sənindir.*
*Yolunu ot basan bulaq sənindir,*
*Odu söndürülən ocaq sənindir,*
*Yağılar daraşan o bağ sənindir...*
*Qaçma bala, qaçma, torpaq sənindir!!!*

Hüseyn Kürdoğlunun şerlərində vətənə sədaqət insan ömrünün şərafət zirvəsi kimi mənalandırılır. Vətən üçün döyünən ürəyə və düşünən beynə malik insan daxilən – mənəviyyatca Vətən müqəddaratı üçün fədakarlığa hazırlanır. Fəlakətdən bərbad olmuş rayonlarımızda, şairin qəzəbli hisslərlə dediyi kimi bağ-bağat doğranıb, evlər talanıbdır:

*Vurublar çobanı, aşıb qayadan,*
*Yal-yamac qoyunlu-quzulu qalmış.*
*... Dağlar haraylayır xilaskarını,*
*Ana ər oğlunu, gəlin yarını.*
*Tutublar atəşə toy mağarını,*
*Şərab qədəhlərdə süzülü qalmış.*
*Cocuqlar qərq olub sellənən çaya,*
*Qalxıb şivən səsi ulduza, aya.*
*Dərdli bir şairdir damcılı qaya,*
*Orda qan ağlayan Füzuli qalmış...*

N.Tusinin təqdirlədiyitək «insanlar öz ata-babalarının qayda-qanunlarını; məsələn, adət-ənənələrini, məsləklərini, nüfuzlarını, vəziyyətlərini və sairəni qoruyub saxlamalıdır»; A.A.Bakıxanov da belə qənaətdədir ki, «vay o dirinin halına ki, ölü nəcabəti ilə fəxr edir». Söz yox ki, hər iki mütəfəkkirin fikirlərində paralel həqiqət vardır. Bu həqiqətlərin Hüseyn poeziyasında fəlsəfi inikası təsirli və ibrətamizdir. Hüseyn yeri düşəndə vacib məqamda Zərdüşt peyğəmbərə, şairlər ustadı Şeyx Nizamiyə, dərin hikmətlər mütəfəkkiri Dədə Qorquda, fələyin bağrını yandıran Füzuliyə, millət fədakarı Səttarxana, şiri-nər Koroğluya, milli mənlik bahadırı Babəkə, el qəhrəmanı Qaçaq Nəbiyə üz tutur, onların keçdiyi şərafətli yolu, tarixdə qazandıqları yaxşı adı nəsillərə nümunə göstərir, tariximizin bu iftixar zirvələrindən nümunə götürüb öyrənməyə və Vətənə – millətə sədaqətli olmağa çağırır, bütün bu fəxarət məziyyətlərindən bəhrələnməyi vacib bilməklə bahəm bu fazillik və rəşadətləri yada salmaqla kifayətlənməyib, mövcud vəziyyətdə bu ulu titanların adına, onların təmsil etdikləri xalqa yaraşan mövqe tutmağa səsləyir.

*Ana yurdun oğul-qızı harayımdan oyansın,*
*Koroğlular məmləkəti tapdanırsa,*
*Neynirik bu canı biz?!*

*Babalardan miras qaldı bizə Vətən namusu,*
*Gözəllərin pak isməti tapdanırsa,*
*Neynirik bu canı biz?!*
*İçimizdən xain çıxıb, yolumuzu kəsirsə,*
*Üstümüzdən qara yellər burum-burum əsirsə,*
*Qara geymiş qız-gəlinlər öz baxtından küsürsə,*
*Nakam qalmış məhəbbəti tapdanırsa,*
*Neynirik bu canı biz?!*
*Xocalının qızıl qanı selə dönüb axırsa,*
*Qarı düşmən körpələri süngülərə taxırsa,*
*Göygöz düşmən yaraq verib, rişxənd ilə baxırsa,*
*Xalqımızın şan-şöhrəti tapdanırsa,*
*Neynirik bu canı biz?!*

Hüseyn Kürdoğlunun fəlsəfi məzmunlu bayatılarla dediyi misralar da bu məzmunu tamamlayır və haqlı olaraq belə qənaət irəli gəlir ki, yaramıza göz yaşı məlhəm ola bilməz, əslində də:

*Əzizdir adı yurdun,*
*Şirindir dadı yurdun.*
*Övlad korocaq olsa,*
*Qaralar odu yurdun.*

***

*Vətən göz içindədir,*
*Eşqi söz içindədir.*
*Yazıq o millətə ki,*
*Düşmən öz içindədir -*

hikməti milləti düşündürməlidir.

Hüseyn Kürdoğlunun müdrikliyi ondadır ki, o, həyat həqiqətlərini aydın – canlı həyatın poetik ekiz tayı kimi vermək ləyaqətinə malik olduğundan, onu oxuyan şəxs yeddi yol ayrıcındakı tərəddüd burulğanına düşüb qəzaya uğramır. Bu mənada Hüseyn öz şerlərində real ictimai mövcudluğu və onun əks-sədasını dərindən qavrayır və öz hikmətli poeziyası ilə yenə həyata qaytarır. Burada ye-

ridir ki, antik dünyanın poetik hikmət dühası Esxelin «Müdrik çox bilən adam deyil, biliyi xeyirli olan adamdır» kəlamını xatırladaq və iftixarla xatırlayaq ki, Hüseyn Kürdoğlunun poeziyası xeyirxahlığın tərənnümü, bədxahlığın ittihamıdır. Bu xislət də sanki «Qurani-Kərim»dəki «hər çətinlikdən sonra bir yüngüllük gəlir. Allahın mərhəməti sayəsində insana müsibətdən sonra səadət, yoxsulluqdan sonra rahatlıq, məğlubiyyətdən sonra zəfər nəsib olar» kəlamının inikası kimi təsir bağışlayır.

Deyildiyi kimi, göz yaşı duzlu sudur, onun axdığı yerdə həyat göyərmir, ağır vəziyyət qarşısında ağlamaq, çətinlik müqabilində döyükübgöz yaşı tökmək nicat yolunu azmaqdır, acizliyin iqrarıdır. Məşəqqətdən bahara, məğlubiyyətdən qələbəyə olan ümidin carçısı və icraçısı olmaq isə biləyin gücünə biliyin qüdrət verdiyi ağıllı qəhrəmanlıqdır ki, Hüseyn bu fəlsəfi mətləbin məharətli tərənnümçüsü olan tələbkar vətəndaş şairdir. Onun aşağıdakı vətənpərvərlik harayı və xeyirxah arzulara çatmaq amalı bütün millətin ürəyindən xəbər vermirmi:

*İşıqlısız, Dəli dağsız, Kəlbəcərsiz nə vətən,*
*Qırxqız hanı, Turşsu hanı, Ağbulaqsız nə vətən.*
*Qaradağsız ah çəkirdik, Qarabağsız nə vətən…*
*Şuşanı da, Laçını da alasıyıq, alası,*
*Bu gün öylə savaş görək tarixlərdə qalası.*
*… Xəyanətlə kimlər açdı darvazanı,*
*El tanıyır düz deyəni, düz yazanı.*
*Qaynayacaq məhkəmənin qır qazanı.*
*Xainlərə yoxdur aman, laçınlılar,*
*Laçınlaşın, ey qəhrəman laçınlılar!*

«Yaralı torpağım, yaralı sevgim» kitabı H.Kürdoğlunun kamil istedadlarla tay-tuşluğuna inam zirvəsidir. Biz istərdik ki, heç kəslə müqayisə olunmayan çətin günün mətin sənətkarı, ana dilimizin çağlayan duru bulağı, xalqımızın maddi və mənəvi aləminə yaxından bələd

olan milli əqidəli vətəndaşı haqqında millətin mənlik müəllimi Nərimanovun ona yaraşan kəlamını xatırladaq: «Vətənin qədrini o kimsə bilər ki, vətən ilə onun ruhən əlaqəsi olsun, vətən ilə bir yerdə ağlasın, bir yerdə gülsün». Vicdanlı vətəndaşa yaraşan bu milli mənlik, Hüseyn Kürdoğluda nə qədər qüvvətlisən!

*Qış günündə yer tapıram qaçqınlara,*
*Bu yuvanın istisinə sevinirəm.*
*... Oğulları qurban getmiş anaların*
*Əyilməyən qamətinə sevinirəm.*
*Yırtıcıdan qisas alan sonaların*
*Qeyrətinə, şöhrətinə sevinirəm.*
*... Ahlarım qapqara buluda döndü,*
*Fəryadı ucalıb zil olan mənəm.*
*Yaylağım, ovlağım tamam tar-mar,*
*Hanı duruşumda əvvəlki vüqar?!*
*Elim qaçqın düşüb diyarbadiyar,*
*Ağlaşan daşları el olan mənəm!*

Vətən ilə bir ağlayıb, bir yerdə gülən ürəyin çırpıntılarını sözlərlə şərh etməyə ehtiyac varmı?

Kəsə məntiqlə iqrarlamaq gərəkdir ki, Hüseyn Kürdoğlu böyük Səməd Vurğun dühasının istedadlı şagirdliyinə tamam layiqdir. Onun poeziyasında bütün varlığımız hərtərəfli görünür, ələlxüsus Vətənə sədaqət, milli əzəmət və fəlsəfi hikmətlər insanı mənəvi cəhətdən qidalandırır...

«Zaman» qəzeti,
1997, №13

*Zümrüd Şəfiyeva (Rəhimova)*
*Filologiya elmləri namizədi*

# ABDULLA QORAN POEZİYASININ TƏDQİQİ

Son zamanlar Sovet İttifaqında kürd ədəbiyyatının müxtəlif məsələlərinə aid bir sıra maraqlı əsərlər yazılmışdır. Bu əsərlərin bir qismi görkəmli kürd şarlərinin həyat və yaradıcılığına, bir qismi də kürd ədəbiyyatının hələ işlənməmiş nəzəri problemlərinə həsr olunmuşdur.

Müasir kürd ədəbiyyatına aid monoqrafiyalar arasında Hüseyn Alışanovun «Müasir kürd şairi Abdulla Qoranın poeziyası» adlı əsəri xüsusi yer tutur. XX əsr kürd ədəbiyyatında dönüş yaratmış, ardınca böyük bir nəsli aparmağa qadir olan ustad şair Qoran haqqında əsər yazmaq həm şərəfli, həm də çətin və məsuliyyətli işdir. Qorandan yazmaq üçün onun yaradıcılığını bütün incəliklərinə qədər duymaq, kürd şerinə gətirdiyi məzmun, forma və üslub yeniliklərini araşdırmaq lazımdır. Qoran sözünün cazibəsini, sirrini, füsunkarlığını dərk etmək üçün gərək həm yüksək elmi-nəzəri biliyin, həm də həssas, kövrək şair qəlbin olsun. Burada quru tədqiqatçılıqdan başqa poetik zövqə malik olmaq da şərtdir. Məhz bu mənada Hüseyn Alışanovun əsəri kürd ədəbiyyatı, o cümlədən Qoran haqqında az-çox yazılanlar arasında xüsusi mövqeyə malikdir.

Kürdüstanda milli mətbuat faciəsi bir sıra kürd şairləri kimi Qoran irsinin də bir küll halında nəşrinə imkan verməmişdir. Şairin vəfatından 8 ilə yaxın bir vaxt keçməsinə baxmayaraq xalq öz oğluna məhəbbət və ehtiramını bildirmək səadətindən hələ də məhrumdur. Qoranın öz sağlığında onun iki-üç kitabçası çap olunmuşdur. Bir sıra qiymətli nəzəri məqalələri, şer və poemaları isə ayrı-ayrı qəzet və jurnal səhifələrinə səpələnmişdir. Şairin əsərlərinin cildlərdə toplanmaması müəyyən mənada tədqiqat-

çının işini ağırlaşdırır, şairin əsərlərini bir-bir axtarmağa, toplamağa vadar edir. Lakin Qoranın özü ilə məktublaşması və Bakıda təhsil alan kürd aspirantlarındakı materiallar müəllifi bu çətinliklərdən bir az xilas etmişdir.

Müəllif öz monoqrafiyasına «ilk söz» yazmış və üç fəsilə bölmüşdür. O, fəsillərə bölmək prinsipini qəbul etsə də, standart yolla getməmiş, hər fəsilə məzmununa uyğun mənalı adlar vermişdir. Fəsillərin üçü də qüvvətli yazılmışdır. Buradakı fikirlər təkrar olunmadan bir-birini izləyib tamamlayır. Müəllif «Həyat və sənət yollarında» adlandırdığı birinci fəsli «Ağır illər», «İlk qələm təcrübələri» başlıqlarına bölmüş və burada Qoranın məhrumiyyət dolu uşaqlıq illərini, klassik şairlərə nəzirələr yazmasını, nəhayət bir novator kimi yetişməsini tədqiq etmişdir.

Qoran şerində realizmin inkişafından bəhs edən müəllif azad məhəbbət motivlərinin, Qoran poeziyasının bəzəyi, yaraşığı olan təbiət təsvirlərinin və şerlərinə ictimai-fəlsəfi məna verən milli-azadlıq, beynəlmiləlçilik ideyalarının tərənnümünü məharətlə təhlil etmişdir.

Qoran şerinin janr və şəkillərinə, vəzn və dilinə həsr olunmuş fəsil sırf nəzəri xarakter daşıyır. O öz mühakimələrini təsdiq üçün Qorana, kürd yazıçı və ədəbiyyatşünası Ə.Səccadiyə müraciət edir. Müəllifin söylədiyi mülahizələr, gəldiyi nəticələr təkcə Qoran yaradıcılığına deyil, XX əsr kürd ədəbiyyatına aid edilə biləcək maraqlı, elmi fikirlərdir.

H.Alışanov Qoranın bir sıra şerlərinin mənasını, şeriyyətini qorumaqla Azərbaycan dilinə tərcümə etmişdir. Bu tərcümələr nə qədər təbii səslənsə də, müəllif kitabda sətri tərcüməni üstün tutmuşdur. Çünki Qoran şerlərinin lətafətini, milli və üslub xüsusiyyətlərini izah etmək üçün bu, ən yaxşı yoldur.

Əsasən müəllifin orijinal mühakimələri üzərində qurulmuş monoqrafiyanın üstün cəhətlərindən biri də onun dilidir. H.Alışanov sadə və obrazlı yazmağı sevir, yüksək elmi fikirləri asan, aydın söyləməyi qəbahət sanmır.

Bütün bu müsbət cəhətlərilə yanaşı, monoqrafiyada xırda nöqsanlar da nəzərə çarpır. Məs.: səh. 4-də müəllif yazır ki, «... Orbeli, Kurdoyev və Rudenko «Məm və Zin» epopeyasını epik vüsətinə, sənətkarlıq səviyyəsinə, ictimai-fəlsəfi zənginliyinə görə adətən Nizaminin və Rustavelinin dastanları ilə müqayisə edirlər».

Demək lazımdır ki, bu müqayisəni 1938-ci ildə çıxmış «Pamyatniki epoxi Rustaveli» kitabındakı məqaləsində təkcə İosif Orbeli etmişdir. O, sənətkarın xəlqiliyindən danışarkən Şərqin üç böyük şairinin adını çəkmişdir. Sonralar da bir sıra kürdşünas alimlər, o cümlədən Kurdoyev, Rudenko Əhmədi Xaniyə həsr etdikləri yazılarında akademik Orbelinin bu fikrinə isnad etmiş, ona haqq verib şərik olmuşlar.

Səh. 11-də göstərilir ki, «Jin» (Həyat) qəzetinin ilk redaktoru və mətbəənin sahibi Pirəmerdin ardıcılları onun məhdud baxışlarını bayraq etdikləri üçün Qoran etiraz əlaməti olaraq qəzeti tərk etmişdir. Pirəmerd Qoranın sevib qiymətləndirdiyi XX əsr şairlərindən biridir. Onların baxışlarındakı ayrılığınmı, yoxsa Pirəmerdin məhdud görüşlərininmi mahiyyətini qısaca açıb göstərmək burada yerinə düşərdi.

A.Qoranın yaradıcılığı əsasən poeziya nümunələrindən ibarət olsa da, o, bəzi ədəbiyyatşünasların qalın-qalın kitablarına dəyən bir sıra nəzəri məqalələr yazmışdır. Yeri gəldikcə şairin məqalələrinə müraciət olunsa da monoqrafiyada onun elmi-tənqidi irsi barədə heç olmazsa 1-2 səhifə yazılmadığına təəssüf edirsən.

H.Alışanovun monoqrafiyası Qoranın həyat və yaradıcılığına həsr olunmuş ilk böyük tədqiqat əsəridir. Lakin ona qədər həm kürd ədəbiyyatşünaslığında, həm də xarici və sovet kürdşünaslığında Qoranın şeri, şəxsiyyəti, kürd xalqının ictimai həyatındakı mövqeyi yüksək qiymətləndirilmişdir. Monoqrafiyada Qoran poeziyasının tədqiqatçılarından bəhs açmaq lazım idi, lakin müəllif bunu nə üçünsə etməmişdir.

Bunlardan başqa bir neçə tərcümə (səh. 35, 60, 62, 74) və müəllifin kürdcə sitat gətirdiyi şerlərin özündə və azərbaycanca tərcüməsində nəzərə çarpan orfoqrafiya səhvləri də xırda qüsurlar sayılmalıdır.

Ümumiyyətlə, elmi mühakimələrlə zəngin olan monoqrafiya yüksək zövq və ilhamla işlənmişdir. Hələlik Qoranın vətəni Kürdüstanda olmasa da, onun bir zamanlar şer qoşub «Xəzər dəryasının sahil qızı» adlandırdığı Bakıda şairin xatirəsinə, bədii irsinə layiqli bir kitab yazılmışdır.

Azərbaycan Elmlər Akademiyasının Xəbərləri
(Ədəbiyyat, dil və incəsənət ser.), 1970, № 4.

## ALİMİN MONOQRAFİYASI

Şair və ədəbiyyatşünas Hüseyn Alışanovun «Müasir kürd şairi Abdulla Qoranın poeziyası» mövzusunda yazdığı monoqrafiya Bağdad şəhərində ərəb dilində buraxılmışdır.

«Elm» nəşriyyatı tərəfindən 1969-cu ildə Azərbaycan dilində çap olunan bu monoqrafiya İraq ədəbiyyatşünaslarının diqqətini cəlb etmişdir. Əsərin mütərcimi, yazıçı və ədəbiyyatşünas Şükür Mustafa yazır: «Böyük kürd şairi Abdulla Qoran haqqında yazılmış bu dəyərli kitabı əldə etdiyimə görə çox sevindim. Xalqlar dostluğunun carçısı, beynəlmiləlçi nəğməkar, azadlıq fədaisi, kommunist şair Qoranın bütün yaradıcılıq xüsusiyyətləri Azərbaycan alimi tərəfindən diqqətlə öyrənilmiş və çox gözəl şərh edilmişdir».

Qeyd etmək lazımdır ki, monoqrafiya hələ 1974-cü ildə İraqın «Ət-taaxi» («Qardaşlıq») qəzetində hissə-hissə çap olunmuşdur.

Monoqrafiyada deyildiyi kimi kürd ədəbiyyatının öyrənilməsi Yaxın və Orta Şərq xalqlarının bədii yaradıcılığı haqqında elmi təsəvvürləri genişləndirmək və bütövləşdirmək məqsədi daşıyır. Kürd poeziyasının ayrı-ayrı dövr-

lərini, inkişaf mərhələlərini, müasir vəziyyətini sovet ədəbiyyatşünaslığının elmi-nəzəri prinsipləri baxımından öyrənmək bu cəhətdən vaxtı çatmış bir məsələdir. Son illərdə Moskva, Leninqrad, Daşkənd, Aşqabad, Yerevan və Bakı şərqşünasları kürd ədəbiyyatının bir sıra problemlərinə toxunmuş və qiymətli əsərlər yazmışlar. Müasir kürd şerinin ən böyük nümayəndəsi olan Abdulla Qoranın poeziyasına həsr edilmiş bu monoqrafiya həmin əsərlər arasında elmi mükəmməlliyinə görə seçilir.

Müəllif öz tədqiqatında dahi şairimiz M.Ə.Sabirin Qoran yaradıcılığına təsirini aşkara çıxarmış, kürd şairinin dərin ictimai-siyasi və fəlsəfi məzmunlu satiralarında Sabir dühasının bədii boyalarını iftixar hissi ilə şərh etmişdir.

Qoran türk, ərəb və ingilis dillərini mükəmməl bilirdi. O, ərəb və türk ədəbiyyatlarından dərs demişdir. Şair Kərkükdə «Mədrəseyi-ümumiyyə»də oxuyarkən və sonralar İraq kommunistləri ilə birlikdə irticaçı Nuri Səid hökuməti tərəfindən Kərkük zindanında işgəncələrə məruz qalarkən «Hophopnamə»ni tapıb oxumuş və «Zindan dəftəri»ndə toplanan əsərlərini Sabirin təsiri ilə yaratmışdır.

H.Alışanovun monoqrafiyasında Abdulla Qoranın sovet mövzusunda yazdığı əsərlərin təhlilinə geniş yer verilir. Qoran həyatının son illərində ilk dəfə Sovet İttifaqına gəlmiş, Moskvada müalicə olunmuş, İraqa qayıtdıqdan sonra təəssüratını şerlərə çevirmişdir. O, Bakıda yazdığı «Lenin yolu» (1959) şerində Azərbaycan torpağının bugünkü cahcalalına heyran qalır, xalqımızın tərəqqisinə ilham dolu şair qəlbi ilə sevinir.

Hüseyn Alışanovun monoqrafiyası Abdulla Qoranın həyat və yaradıcılığını əhatə etməklə bərabər, müasir kürd ədəbiyyatının başlıca problemlərinin obyektiv elmi həllinə kömək göstərən bir əsərdir.

«Ədəbiyyat və incəsənət» qəzeti,<br>19 fevral, 1977.

Bünyad Əhmədov

## ALİM-ŞAİR

Son on ildə ədəbiyyatımıza gələn istedadlı şairlərdən biri də həmyerlimiz Hüseyn Kürdoğludur. Rayonumuzun yetişdirməsi olan Hüseyn Kürdoğlunun həyat və yaradıcılığı haqda söz açmaq hamımızın çoxdankı arzusudur.

Hüseyn Kürdoğlu (Alışanov Hüseyn Həsən oğlu) 1934-cü ildə Laçının ən səfalı guşələrindən olan Əhmədli kəndində anadan olmuşdur. Hüseynin uşaqlıq həyatı ecazkar dağ təbiətinin qoynunda keçmişdir. Doğma kəndinin əfsanəvi gözəllikləri, zərif saz havaları, özünün tütəkdə çaldığı yanıqlı el mahnıları Hüseynin həssas qəlbində dərin izlər buraxmışdır. Şair sonralar uşaqlıq həyatı haqda belə yazmışdır:

*Ələsgəri, Vaqifi*
*Oxuyub zövq alardım.*
*Özüm də mahnı qoşub,*
*Tütəyimdə çalardım.*

Hüseyn böyük bir ehtirasla oxuyub öyrənirdi. O, həyata, ürəkdən sevdiyi ədəbiyyata daha dərindən bələd olmaq həvəsi ilə yaşayırdı.

Hüseynin ilk qələm təcrübələri orta məktəbdə oxuduğu zaman rayon qəzetində çap olunmağa başlayır. Hələ bu yazılar göstərirdi ki, o, gələcəkdə öz arzusuna çatacaq.

Ədəbiyyata olan sonsuz marağı Hüseyni Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə aparır. O, az bir vaxtda universitetdə özünə dərin hörmət qazanır. «Kürdoğlu» təxəllüsü ilə yazdığı şerlər universitet qəzetində və sıra şer almanaxlarında ardıcıl çap olunur və şerləri haqda müsbət rəylər yazılır.

Hüseyn Kürdoğlu 1958-ci ildə «S.Vurğunun ilk yaradıcılıq dövrü» mövzusunda müvəffəqiyyətlə diplom işi müdafiə edərək universiteti qurtarır. Bir il müddətində Radio və televiziya verilişləri komitəsində redaktor işləyir. Həmin ildə o, müasir həyatımızın bir sıra aktual məsə-

lələrinə həsr edilmiş maraqlı oçerklər yazmışdır. Mövzu etibarı ilə rəngarəng olan bu oçerklərdə rayonumuz, onun əmək adamları və onların fəaliyyəti daha geniş yer tuturdu.

Hüseyn Kürdoğlu 1960-cı ildən bəri Azərbaycan SSR EA Yaxın və Orta Şərq Xalqları İnstitutunda elmi işçi kimi fəaliyyət göstərir. Kürd dilini bilmədiyi halda o, kürdşünas olmaq arzusuna düşür. Qısa bir vaxtda kürd dilini və kürd ədəbiyyatını öyrənmək lazım idi. O, böyük bir həvəslə özünün istedadına arxalanarq kürd dilini öyrənməyə başlayır. Artıq altı aydan sonra o, kürdcə müstəqil danışmağı və yazmağı öyrənir. Kürd xalqının sənət incilərini yorulmadan öyrənir, maraqlı tədqiqat işləri aparır.

Nəhayət, yuxusuz gecələr, gərgin axtarışlar öz bəhrəsini verdi. 1966-cı ilin baharında Hüseyn Kürdoğlu «Müasir kürd şairi Abdulla Qoranın poeziyası» mövzusunda dissertasiya müdafiə edir və ona filoloji elmlər namizədi alimlik dərəcəsi verilir. Gənc alimin elmi əsərinə yazılan rəylərdən aydın olur ki, əsər yüksək bədii dildə yazılmış, tərcümələr gözəl və dolğun çıxmış, Abdulla Qoranın yaradıcılığı dərindən təhlil olunmuşdur. Əsər alimin elmi rəhbəri, kürdşünas Rəhim Qazi, Asiya xalqları institutunun Leninqrad filialında kürd kabinetinin müdiri, filoloji elmlər namizədi K.K.Kurdoyev, Yerevan kürdşünaslarından Orduxan Cəlili, dosent M.Mübariz, işin rəsmi opponentləri filoloji elmlər doktoru Kamran Məmmədov və Leninqrad Akademiyasının elmi işçisi, filoloji elmlər namizədi Kərim Əyyubi tərəfindən yüksək qiymətləndirilmişdir.

Əsər 1969-cu ildə Elmlər Akademiyasının nəşriyyatı tərəfindən monoqrafiya şəklində çapdan çıxmışdır. Qeyd etmək lazımdır ki, əsər respublikamızda kürd ədəbiyyatını öyrənmək sahəsində atılan ilk addımlardan biridir.

Hüseyn Kürdoğlu hal-hazırda demokratik kürd ədəbiyyatına dair elmi iş üzərində çalışır.

Hüseyn Kürdoğlu tərcüməçilik sahəsində də öz qələmini sınaqdan keçirmişdir. O, kürd şair və nasirlərindən Ə.Həjarın, A.Qoranın, R.Qazinin, Ə.Aqrinin və başqalarının bir sıra əsərlərini azəri dilinə çevirmişdir. Ə.Həjarın «Kürd nəğmələri» kitabında tərcümələrin əksəriyyəti Hüseyn Kürdoğlunundur. O, Rəhim Qazinin «Peşmərqə» adlı povestini, A.Qoranın milli azadlıq hərəkatına həsr edilmiş şerlərini də müvəffəqiyyətlə tərcümə etmişdir.

O, eyni zamanda Məhdimquludan, S.Stalskidən, Sayat Novadan və bir sıra sosialist ölkələri yazıçılarından müvəffəqiyyətli tərcümələrin müəllifidir.

H.Kürdoğlunun tərcümələri də maraqla oxunur. O, kürd şairlərindən etdiyi tərcümələri kitab şəklində çap etdirmək fikrindədir. H.Kürdoğlu elmi işlə çox məşğul olmasına baxmayaraq, bədii yaradıcılıqdan bir an belə ayrılmır. Müntəzəm olaraq qəzet və jurnallarda yeni şerlərilə çıxış edir.

Hüseyn Kürdoğlunun 1963-cü ildə «Səhər nəğmələri» adlı ilk şerlər kitabı çap olunmuşdur. 1968-ci ildə isə «Yurdumu gəzə-gəzə» adlı ikinci şerlər kitabı «Gənclik» nəşriyyatı tərəfindən oxuculara çatdırılmışdır. Şairin yeni kitabı çapa hazırlanır.

Hüseyn Kürdoğlu klassik irsimizi də dərindən öyrənən, yaradıcılığı gündən-günə püxtələşən lirik ruhlu bir şairdir. Onun bütün şerləri sadə bir dildə yazılmış, oynaq və hərarətlidir. Şerlərinin əsas mövzusunu respublikamızın əsrarəngiz gözəllikləri, onun əmək adamlarının böyük qələbələri təşkil edir.

İndi isə Hüseyn Kürdoğlunun oxuculara məlum olmayan əsərləri haqda. Şair son vaxtlar mövzuca müxtəlif rübailər yazmışdır. Bu rübailər min sətirdən artıqdır. Bundan başqa o, bir neçə poema üzərində işləyir. Şairin «Bulaq» poeması artıq efirdə səslənmişdir. H.Kürdoğlu «Mil çiçəkləri», «Yurdumu gəzə-gəzə», «Sevdiyim adamlar» silsilələrindən bir sıra əsərlər yazmışdır.

H.Kürdoğlu şerlərindən birində yazır:

*Könlümün sazına mizrab vuranda,*
*Min dastan deməyə hazır duranda,*
*Ellərin qəlbində yuva quranda,*
*Qonar misralarım dodaqlar üstə.*

Şairin son vaxtlar yazdığı əsərlər göstərir ki, onun bu arzusu çiçəklənəcək. Onun misraları xalqının dodaqları üstə qonacaq. Əsərləri daha çox seviləcək, daha çox oxunacaq.

«Laçın» qəzeti,
12 mart, 1970

***Fəxrəddin Əzimov***
*Paşabəyli səkkizillik məktəbinin*
*dil-ədəbiyyat müəllimi*

## «QAYA ÇİÇƏKLƏRİ»

«Gənclik» nəşriyyatı gənc şair Hüseyn Kürdoğlunun «Qaya çiçəkləri» adlı yeni şer kitabını çapdan buraxmışdır. Kitabda şairin müasir mövzuda yazdığı rübailəri toplanmışdır. Dörd misradan ibarət olan hər rübaidə dərin məna ifadə olunmuşdur. Bu rübailəri dönə-dönə, sevə-sevə oxuyursan, sözlərdəki ayrı-ayrı hikmətləri düşünməyə başlayırsan. Elə bil ki, Sarı Aşıq bayatılarının şirinliyi, gözəlliyi bu rübailərin canına hopmuş, Kürdoğluya məxsus bir dillə vəsf edilmişdir.

«Qaya çiçəkləri» məzmun etibarilə üç qismə bölünmüşdür: «Qaya çiçəkləri», «Sevgi çələngi» və «Bir az da qaratikan».

H.Kürdoğlu öz rübailərində Vətən, xalq məhəbbətini, ailə məhəbbətini, qadın gözəlliyini və həyatda olan tüfeylilərə, əliəyrilərə qarşı mübarizə duyğularını aydın bir dillə ifadə etmiş və dəyərli poetik nümunələr yaratmışdır.

Satirik planda yazdığı rübailərdə müəllif xalqın malını mənimsəyənləri, vəzifəsindən sui-istifadə edib əliəyrilik edənləri tənqid atəşinə tutaraq belə yazır:

*Qulaq as, gözünü dik danışana,*
*Sən də dik cavab ver, dik danışana.*
*Gülləyə tutasan müftəxorları,*
*Birbəbir qoyasan dikdə nişana.*

Və yaxud:

*Qaynar qazanımız kürədə bizim,*
*Nəfsimiz od salar Kürə də bizim.*
*Fermada çatmışıq müftə quyruğa,*

*Kərə də bizimdir, kürə də bizim. –*

deyə şair tutarlı, kəskin misraları ilə tüfeylilərin iç üzünü açıb göstərir, onlara dərin nifrətini bildirir.

Hüseyn Kürdoğlunun bu yeni kitabı çox oxunaqlıdır.

«Lenin yolu» (Azərb.KP Ağdam RK
və Rayon Sovetinin orqanı)
qəzeti, 16 fevral, 1971.

***Hörmətəli Kərimov***
*Pirili kənd səkkizillik məktəbinin*
*dil-ədəbiyyat müəllimi*

## ÇİÇƏK TƏBƏSSÜMLÜ ŞAİR

Qarşımda bir kitab var. Üstündə bir çiçək, bir də onun təbəssümü birləşib bu kitabda. Bəli, şair bu kitabı heç də təsadüfən «Çiçək təbəssümü» adlandırmamışdır. Elə kitabın ilk səhifəsindən, ilk sətirlərindən oxucu təbiətlə üz-üzə dayanır. Onun əsrarəngiz gözəlliklərini – yaşıl xalı salmış düzənliklərini, başı qarlı dağlarını, buz bulaqlarını, şırıltılı nəğmə deyən çaylarını öz oxucusunun qanına, ruhuna yeridir. Hiss edirsən ki, şair özü də bu gözəlliklərin həmişə vurğunudur və bu gözəlliklərin səyahətinə oxucusunu poeziyanın polad qanadlarında aparmağı bacarır.

Oxucularımıza təqdim etdiyimiz «Çiçək təbəssümü» şerlər kitabı Hüseyn Kürdoğlunun beşinci kitabıdır.

Şairin «Səhər nəğmələri» (1963), «Yurdumu gəzə-gəzə» (1969), «Qaya çiçəkləri» (1970), «Doğma diyarım» (1973) adlı şerlər kitabları ayrı-ayrı başlıqlar altında verilsə də bu əsərlərin hamısında lirik qəhrəmanın əsas ideyası Vətənə bağlılıq, Vətənin əsrarəngiz gözəlliklərini duymaqdır.

Hüseyn Kürdoğlu Vətəni, onun gözəlliklərini böyük məhəbbətlə sevən bir şairdir. O bir şair, bir vətəndaş kimi Odlar diyarının təbiətinə bağlıdır. Çünki o həm ilham mənbəyini və həm də poetik incilərinin əsas rüşeymlərini göy yaylaqların döşündən, başı qarlı dağların zirvəsindən, Tərtərin nəğmələrindən toplamış, poeziyanın ahəngdar dili ilə şeriyyətə çevirmişdir:

*Açılıb arzumun çiçəyi-gülü,*
*Gülüstan görürəm obanı-eli,*

*Yenidən kükrədi sazımın teli,*

*Yurdumu gəzdikcə mən dilə gəldim.*

Şairin «Çiçək təbəssümü» şerlər kitabı dörd başlıq altında verilmişdir: «Tərtər nəğmələri», «Fikrimin üfüqləri», «Sevdiyim adamlar» silsiləsindən və «Sevən qəlbin işığı». Bundan başqa kitaba «Məcnun bulağı» və «Quzular dağa çıxdı» poemaları da daxil edilmişdir.

Hüseyn Kürdoğlunun bu şerlər kitabında təbiət təsvirləri ilə bərabər müxtəlif mövzular da çox məharətlə – əsl şair sənətkarlığı ilə işlənmişdir. Elə buna görədir ki, onun əsərlərində klassiklərə dərin məhəbbət ruhu duyulur və onlara dərin rəğbət hissi aşılanır. Hüseyn Kürdoğlu şerimizə yeni ruh, yeni forma gətirməklə bərabər, öz qələm yoldaşlarını əsrlər boyu yaşaya bilən əsərlər yazmağa çağırır:

*İzlərimdə gül açaydı,*
*Qönçəsini yel açaydı.*
*Dodaqlarda dil açaydı,*
*Bu şerimin bircə bəndi.*

Şerin axıcılığından, ifadə tərzindən görünür ki, bu istedadlı bir sənətkarın səmimi etirafıdır, həyatın, onun inkişaf meyllərinin mahiyyətinə nüfuz etməkdən qorxmayan və orada cəsarətli axtarışlar aparmaqdan çəkinməyən bir şairin etirafıdır.

«Tərtər nəğmələri», «Fikrimin üfüqləri», «Sevdiyim adamlar» silsiləsindən olan bölmələrdə şairin xüsusilə güclü şerləri toplanmışdır. «Kəlbəcərin Laçın kəndi», «Bir şairin surəti», «Prometey», «Çingiz İldırım», «Anam» və s. şerlərini onun yaradıcılığında ən güclü şerlərdən hesab etmək olar. Qaf dağının «əfsanələr qayalığının» qəhrəman sakini Prometeyə həsr etdiyi şer şairin yaradıcılığında tarixi əfsanələrin incəliklərini çox gözəl dərk etdiyini göstərən əsaslı faktdır:

*Yerdə od var ikən göz dikdin göyə,*

*Allah ocağından od oğurladın.*
*İnsan muradına yetişsin deyə,*
*Qaldı gözlərində neçə muradın.*

Şerin başqa bir bəndində isə bu gün gözəlləşməkdə olan Sovet Azərbaycanının xarüqələr yaradan insanın əli ilə necə inkişaf etdiyi keçmiş həyatla düzgün müqayisələndirilmişdir:

*Prometey, ilham al insan səsindən,*
*Yerləri dolanaq, göylərə varaq.*
*Günəş diyarından, od ölkəsindən,*
*Sönən ulduzlara atəş aparaq.*

Belə gözəl sənət əsərlərini oxuyanda hiss edirsən ki, şairin bu şerləri yuxusuz gecələrin, narahat gündüzlərin və həssas ürəyin bəhrələridir.

Hüseyn Kürdoğlunun bu kitabında yaradıcı bir alimin, incə ruhlu bir şairin, Vətəni, onun gözəlliklərini həssas bir ürəklə sevən qeyrətli bir vətəndaşın hərarətli duyğuları birləşmişdir. O, şerlərinin əksəriyyətində bənzətmələrdən, məcazlardan və ümumiyyətlə, bədii təsvir vasitələrindən çox məharətlə istifadə edir. Həm klassik şerin və həm də aşıq şerinin qanunauyğunluqlarını bilən Hüseyn Kürdoğlu dəyərli qoşmalar və tutumlu cinaslar yaradaraq kitabın oxunaqlığını daha da artırmışdır.

«İrəli» (Azərb.KP Kürdəmir RK
və Rayon Sovetinin orqanı) qəzeti,
13 may, 1976

***Zakir Məmmədov***
*Şərur rayonu, fəhlə*

## TOY KARVANI

*Hüseyn Kürdoğlu. «Toy karvanı», «Yazıçı», 1981*

Hüseyn Kürdoğlunun son illərin yaradıcılıq məhsulu olan şerlər kitabında Vətən torpağını, təbiət gözəlliklərini, əməkçi insanların qüdrətini, yurdumuzun tarixi qəhrəmanlarını, dahi sənətkarlarımızı, müasir kəndimizi və s. çox gözəl bir dillə, bədii şəkildə tərənnüm edən şerləri toplanmışdır. Şair istər Vətən haqqında, onun saysız-hesabsız gözəlliyindən, igidlərindən, dünənindən, bu günündən yazsın, istərsə də uşaqlıq illərilə bağlı ötən günlərindən, məhəbbətdən – bir sözlə, onun hər hansı şeri olursa-olsun, orada xalq yaradıcılığının ətri duyulur, sözlərin ahəngdarlığı, lakonizm bu əsərlərə gözəllik verir.

*Nizamilər anasıdır bu vətən,*
*Girə bilməz bu meydana hər yetən.*
*Öyrənmişəm Füzulidən, Vaqifdən*
*Ulu sazın, ulu tarın sözünü.*

*(«Əlim qələm tutalı»)*

Onun şerlərinin bir cəhəti də təqdirəlayiqdir. Əgər şair klassik söz ustalarını, el sənətkarlarını, keçmişin mərd, igid qəhrəmanlarını təsvir edirsə,bugünkü sənətkarları, əməkçi insanları, müasir kəndi də unutmur. Bəzən isə bütün bunları o, «Mənim torpağım», «Əlim qələm tutalı», «İki körpü», «Çadır kitabxana», «Ürək çağırışı» və s. şerlərində olduğu kimi yığcam bir şəkildə, vəhdət halında tərənnüm edir. Qeyd etmək lazımdır ki, kimin, nəyin haqqında danışırsa-danışsın, orada şairin özünü, arzularını duymaq mümkündür.

*Sənət Şirini tək gözəl yarım var,*
*Fərhadam, düz sözüm, düz ilqarım var.*
*Ömür Xosrov kimi əhdi pozmasa,*
*Min dağ uçurmağa iqtidarım var.*

H.Kürdoğlu sözdən qənaətlə istifadə etdikdə, fikrin bir o qədər aydın, ifadələrin ahəngdar səslənəcəyini yaxşı bilir. Bu cəhətdən «Qaya Koroğlu», «Qoruyaq gərək», «Mənəm», «Qız ağacı», «Dördlüklər», «Ata yurdundan bayatılar» başlığı altında toplanmış şerləri öz təsir və təbiiliyi ilə diqqəti cəlb edir.

«Çıxarmı yaddan», «Ürəyim açılmadı», «Yaşılı tökülüb, qurusu qalıb», «Qaraqoyunluda», «Xətrimə dəymə», «Qarabağa gedən qatar» və s. isə şair Hüseyn Kürdoğlunun kənd həyatı, uşaqlıq illəri, sevgi, məhəbbət ilə bağlı yaddaqalan, mənalı şerlərindəndir. «Çobanın kədəri» şeri obrazları ilə maraqlıdır.

Qeyd etmək lazımdır ki, «Toy karvanı»nın mövzu dairəsi bir o qədər geniş olmasa da, şairin üslub özünəməxsusluğu şerlərə yaddaqalan don geydirə bilmişdir. H.Kürdoğlu oxucusuna elə sadə dildə söhbət açır ki, onun səmimiyyətinə inanırsan. Şerlərinin axıcılığı, həzinliyi, deyiliş tərzi xalq ruhundan bəhrələnən bir şairin uğurlarından xəbər verir.

«Ədəbiyyat və incəsənət» qəzeti,
3 dekabr, 1982

*Əli Aslanoğlu*

## QIZIL BALIQ GƏLİŞİ

Hüseyn Kürdoğlunun yaşı 70-ə çatmadı. Bu, onun özü ilə tanrısı arasındakı haqq-hesabdır. Bizimlə Hüseyn arasında hesab isə bambaşqadır. Bu hesab-kitabı ortalığa tökəndə ucu-bucağı görünməyən bir ömür karvanı baş alıb gedir. Bu karvanın sarvanı qəlb, qatarı söz, yükü hikmət, mənzilgahı əbədiyyətdir.

Ədəbiyyatımıza çox «yazarlar» gəlib və gedib. Böyüklərə mədhiyyə yaza-yaza fəxri adlar alanlar da, daxili xaricindən dalda qalanlar da, mənsəb üçün qələm çalanlar da, .... bir sözlə neçə-neçə filanlar da... Beləələri sel gətirən çör-çöp kimidir, sel kəsilən kimi onlardan da əsər-əlamət olmur. Hüseyn Kürdoğlu isə bizim dağlara (ədəbiyyatımızın zirvəsinə desək daha doğru olar) çayın əksinə üzən qızıl balıq kimi gəldi. Gəldi... və getmədi, qaldı... O gedə bilməzdi, çünki, «Yaralı torpağım, yaralı sevgim» deyə gəlmişdi, səssiz-səmirsiz, hay-küysüz, - qızıl balıq kimi; daşlara, qayalara çırpıla-çırpıla, nəfəsinə su qatıb sıldırımları aşa-aşa gəlmişdi Hüseyn.

Dünyada qəribə təzadlar var. Zahirən sakit və mülayim görüntünün daxilində nə qədər güclü hayqırtı olarmış?

*Yaxşı həsrətiylə yaman xəstəyəm,*
*Ya zaman xəstədir, ya mən xəstəyəm.*
*Loğman neyləsin ki, üzdə yaram yox,*
*İçinə al qanı daman xəstəyəm.*

Nə boyda fəlsəfə, poetik ictimai təfəkkür tutumu cəm olub bu dörd misrada? Bu, şairin öz həqiqi xislətidir ki, poetik obraz kimi verilir. Burada dözümlə dözülməzlik, yaxşı ilə yaman, dünyanın görünən (aləmi-şəhadət) və görünməz (aləmi-məlaküt) tərəfləri əksliklərin vəhdəti kimi təsəvvürə gətirilir və bu ziddiyyətdən meydana çıxan mübarizənin mənbəyi və istiqaməti göstərilir, za-

manın əyriliyinə (nisbilik nəzəriyyəsi) məcazi münasibət bildirilir.

Hüseyn Kürdoğlu olduqca nadir rast gəlinən sənətkardır ki, bütün yaradıcılığında söz və ya qafiyə xatirinə yazılmış bircə misra tapmazsan. Bu, ona görə belədir ki, Hüseynin dili danışmır, qəlbi danışır; o, ürək çırpıntılarının əks-sədasını kağıza köçürür. Əsasən şairlərdə yaradıcılığın təkanvericisinə ilham deyilir. Hüseyn üçün bu söz kifayət etmir, ona görə ki, onun əsərlərində romantik pafos səciyyəvi deyildir, burada bədii fikir mütləq şəkildə real zəmindən doğur və elmi-təcrübi əsaslara dayaqlanır. Yəni bədii obraz fabulanın özündən qabarıb çıxır, onun həyat və məişət, maddi və mənəvi koordinatlarında konkret mövqeyi, istinad məqamı vardır. Bədii təsvir o qədər səmimi və real nəzərə çarpır ki, şairin özü bu münasibətlərdə yalnız icraçı kimi görünür – istər-istəməz fikirləşirsən ki, müəllif deyir: «həyat budur, mən yalnız onun təsvirini kağıza köçürmüşəm». Bu, prozaikadır. Nəsrdə prozaik olmağa nə var ki: şerdə prozaik olmaq üçün isə gərək Hüseyn Kürdoğlu təfəkkürünə malik olasan, bizi əhatə edən aləmin bütün çalarlarını öz rəngində görə biləsən, bəzi daltonik «şairlər» kimi yalnız öz görə bildiyin rəngi hər naxışa sırımayasan.

*Hanı yer üzünə yiyə çıxanlar,*
*Qəbrindən çürümüş tiyə çıxanlar.*
*Göydə də ruhundan tapmaz bir əsər*
*Xəyal qanadıyla göyə çıxanlar.*

Göründüyü kimi, şair ilhamı və bədii təfəkkürü xəyalpərəstlikdən kəskin fərqləndirir və birbaşa göstərir ki, gərdişin dönəmində nəyəsə yiyələnmək, nəsə əldə etmək üçün təkcə yaxşı-yaxşı düşünmək, xəyallara qapılmaq kifayət deyildir, bunun üçün mübarizə aparmaq və onun vasitələrinə malik olmaq gərəkdir.

Hüseyn Kürdoğlunun yaradıcılığını izlədikcə, oradakı həyatla bağlılığı, səmimiyyəti gördükcə qəribə düşüncə

meydana çıxır. Sanki, bu adam şair olmaq fikrində deyilmiş, onu həyatın özü, təbiətin dialektikası bu işə sövq etmişdir. Çünki Hüseyn yalnız deyilməli sözü deyir, yalnız yazmalı ifadəni yazır, yalnız düşünülməli olan məqamı düşünür və ona görə də istədiyini tapır və tapıntısını poetik müstəviyə keçirir. Onun əsərlərində həyat hadisələri və mənəviyyat aləmi ilə paralellik həm də simmetrik məziyyətlərə malikdir. Simmetriya isə gözəlliyin ən ümdə şərtidir, bundan əlavə də həyatın güzgü təsviridir. Bu təsvirdə hər kəs öz sifətini olduğu kimi görür. Hüseyn Kürdoğlunun güzgüsü qabarıq və ya çökük deyildir, düz və perpendikulyar müstəvidir. Ona görə də həyat və mənəviyyat burada olduğu kimi inikas edir, hadisələr süni surətdə böyütməyə və kiçiltməyə məruz qalmır.

Təbiət mənzərəsi ilə daxili duyğunun poetik ilmədə naxışlanması, hər adi görünən hadisə və ya təsvirdən yüksək məfkurəvi tutuma malik bədii düşüncə istehsalı Kürdoğlu yaradıcılığının xarakterik cəhətidir desək yanılmarıq. Yuxarıdakı dördlükdə göstərildiyi kimi, şair poetik düşüncə, bədii ifadə, bir qədər ümumi desək, fəlsəfi-məntiqi nəticə əldə etmək üçün göylərə uçmur, çünki dünyanın yerüstü sirlərinin çox hissəsinin hələ də açılmadığı ona bəllidir. Ona bu da bəllidir ki, insan insanlığı ilə yerə, yurda, vətənə, təbiətə bağlıdır, cəmiyyətə qovuşuqdur, hər bir insan təkin ümumidə ifadəsi olduğu qədər də ümuminin təkcədə təcəssümüdür. Bu halda fərdi duyğu və düşüncə tərzi ümuminin müəyyən etdiyi normalar çərçivəsində olmalıdır. Belə mütənasiblik Hüseyn Kürdoğlunun şerlərindəki bədii məntiqin dialektik və formal məntiqlə uyarlı olduğunu göstərir, eyni zamanda da onun bədii təfəkkür çərçivəsinin imkanlarını ortaya qoyur. Qeyd etmək lazımdır ki, bu, çox az ədiblərə və şairlərə xas olan cəhətdir. Bədii mübaliğənin ölçüsünü, şerin fikir tutumunun əndazəsini onun məzmun və mövzu potensialına uyğunlaşdırmaq hələm-hələm adamlara nəsib olmur. Çünki burada nəzərə alınmalı faktorların sayı

çoxdur, hərtərəfli biliyə malik olmayan şair bu mütənasibliyi axıra kimi qoruyub saxlaya bilmir. Misala baxaq:

*Aşağıda yanıq düzlər çalı-çalı,*
*Yuxarıda qarlı dağlar xalı-xalı.*
*Biz dumanda görüşməyə can atırıq,*
*Namərd duman hey çəkilir dalı-dalı.*

Bu kiçik, ilk baxışda adi görünən şer parçasından nələri görür və hiss edirik?

1) Şairin qərar tutduğu yer (koordinat) – orta yüksəklikdə dağ yamacı
2) İlin fəsli – yay
3) Laçın dağlarının ümumi mənzərəsi
4) Biçənəklərin izi
5) Yay fəslində dağlarımızda dumanın geri – yuxarı çəkilməsi
6) Hərəkətin istiqaməti –yuxarı, yamaca tərəf
7) Sevdiyinin özündən yuxarıda dayanması (!)
8) Özünün həmin hündürlüyə can atması (!)
9) Qarabağ dağlarının ətəklərinin və nisbətən zirvə hissələrinin orta müşahidə hündürlüyündən görünüşü
10) Milli çalar – sevgililərin həya və isməti – yad nəzərdən, dedi-qodudan yayınma və s. və i.a.

Mənə elə gəlir ki, daha bundan o tərəfə şərh yeri qalmır. Budur Hüseyn Kürdoğlu poeziyası! İbrət götürün, ey bir kəlmə poetik ifadəni söyləmək üçün bir səhifə giriş verib üç səhifə şer yazanlar!

Göstərmək vacibdir ki, Hüseyn Kürdoğlu bədii sözü nə qədər kəsə və yığcam deməsinə baxmayaraq onun şerlərində süni sıxlaşdırma görünmür, misra və ya cümlə tıncıxmış halda deyildir, söz özünün normal məkan tutumundadır. Bu ona görə belədir ki, hər söz və hər ifadə öz yerini qanunauyğun şəkildə tutur və beləliklə də dialektik

məntiqin mütənasib tərif anlamına uyğunluq qorunub saxlanılır.

Hüseyn Kürdoğlu poeziyasından söz açarkən Qarabağ mövzusuna toxunmamaq olmaz. Çünki bu sahədə şairlikdən, şeriyyətdən əlavə, vətəndaşlıq mövqeyi də öz fərdi xüsusiyyətləri ilə göz önünə gəlir. Doğma yurdu düşmən tapdağına çevrilmiş şair yalnız öz dərd-qəminin, iztirablarının izharı ilə kifayətlənmir, Vətən torpağını yağılardan azad etmək üçün hər bir vətən oğlunun fədai zirvəsinə yüksəlməyini tələb kimi qoyur:

*İşıqlısız, Dəlidağsız, Kəlbəcərsiz nə vətən,*
*Qırxqız hanı, Turşsu hanı, Ağbulaqsız nə vətən,*
*Qaradağsız ah çəkirdik, Qarabağsız nə vətən,*
*O gözəllik səltənəti tapdanırsa,*
*neynirik bu canı biz?!*

Hüseyn Kürdoğlu mənəvi ölümü maddi ölümdən daha dəhşətli hesab edir. Elə buna görə də Qarabağın faciəsinin ümumən ölkənin, onun vətəndaşlarının melodramına çevrilməsinə qarşı çıxır, çünki mənən əzilib alçalan xalq qələbə əldə edə bilməz, Vətən əsgəri üçün qürur və əzəmət ən vacib şərtlərdən biridir. Torpağı azad etmək üçün onun dərdini anlamaq yox, qeyrət və hiddət libasını geyib döyüşə atılmaq lazımdır.

*Geysin döyüş paltarını alov saçan dağ-daşımız,*
*Ağlamayın, məlhəm deyil yaramıza göz yaşımız!*

İşğal altında qalmış ana yurdun xarabazara çevrilməsi, hər yaz uçub gələn qaranquşların öz yuvasını tapa bilməməsi və bütün bunlara uzaqdan seyrçi kimi baxılması şairə xəcalət təri gətirir, hətta heyvanların da öz ərazisi, yurd-yuvası uğrunda vuruşduğunu misal göstərməklə həmvətənlərini aktiv mübarizəyə, döyüşə səsləyir:

*Hanı bu dağın obası,*
*Fəryad çəkir xarabası.*

*Nə dam-daş var, nə yuvası,*
*Qaranquşdan utanıram.*

*Meşədə xəyalım çaşır,*
*Qara kölgələr dolaşır.*
*Yer üstə ayı savaşır,*
*Bu savaşdan utanıram.*

*(«Yuxuda kəndimizdəyəm»)*

İlk oxunuşda şair qəlbinin poetik düşüncəsi kimi nəzərə çarpan bu şerin sətiraltı fəlsəfi tutumu daha böyükdür. Burada təbiət qanunlarının cəmiyyət qanunlarına nisbətən daha etibarlı olduğu göstərilir və həyat-cəmiyyət dramında bir qrup adamların mənfi obraz ampulasının xəcaləti ümumiyyətlə, bütövlükdə insanlığın mənəviyyatına aid edilir, cəmiyyətin və onun birgəyaşayış qaydalarının təkmilləşmə ehtiyacı ictimai problem kimi irəli sürülür. Bu problem ilk öncə cəmiyyət analitikasında koordinat sisteminin qeyri-sabitliyi, mənəvi-əxlaqi dəyərlərə münasibətdə fərdi mənafe faktorlarının aktiv vəziyyətdə hesablama sisteminə daxil ola bilməsi ilə şərtlənir.

Hüseyn Kürdoğlunun şerlərində məhəbbət mövzusu həm zaman və məkan parametrlərinə, həm də obyekt və subyekt amillərinə görə ən çox işlənmiş sahədir. Şairin məhəbbət, vəsf və tərənnüm müstəvisindəki yaradıcı fəaliyyətini bir məqalədə geniş təhlilə uğratmağın qeyri-mümkünlüyünü nəzərə alaraq yalnız bəzi səciyyəvi və özünəməxsus cəhətlər barədə öz fikrimizi oxucularla bölüşdürmək məcburiyyətindəyik.

Qeyd etməliyik ki, Hüseyn Kürdoğlunun bir şair kimi yetişib formalaşmasının dinamikası da fərqlidir. Əksər şairlər ilk yaradıcılığa məhəbbət duyğularının poetik ifadəsində qədəm qoyur, sonralar daha geniş mövzulara əl atdığından bu mövzu bir qayda olaraq, müəyyən qədər arxa plana atılır, Hüseynin isə gənclik illərində çap etdirdiyi «Yurdumu gəzə-gəzə» (1968), «Qaya çiçəkləri»

(1970), «Çiçək təbəssümü» (1975) kitablarında tərənnüm poeziyası daha aktiv vəziyyətdədir, məhəbbət mövzusu isə bu çoxluqdan sanki, ehtiyatla, aram-aram «qaya çiçəkləri» kimi cücərib çıxır, illər ötdükcə ləçəklənir, könül duyğularını öz ətrinə qərq edir.

Öz şerlərində böyük Füzulini dönə-dönə yad etməsi, onun məhəbbət lirikasından əxz etdiyi poetik duyumu getdikcə idraki təfəkkür sisteminə keçirərək buradakı ülviyyətin əndazəsini qavramaq cəhdi şairin bu məsuliyyətli məsələdə ehtiyatlılığına səbəb kimi göstərilə bilər. Çünki Hüseyn Kürdoğlu öncə qeyd etdiyimiz kimi, poetik hay-küyçülükdən uzaq adam idi və hər ötəri duyğunun ardınca söz oynatmağı sevmirdi, çiy söz deməzdi və söz deyəndə də məqamında deyərdi:

*Mətləb yetişməsə, sözüm kal olsa*
*Düzmərəm varağa sözüm dəyməmiş.*

*(«Bir tənəçi qadına cavab»)*

Hüseyn Kürdoğlu məhəbbətdə saflığı, sədaqəti, hətta duyğunun belə bakirəliyini onun ülviyyətinin ən ümdə şərti kimi qəbul edir, bayağı düşüncəyə, ötəri ehtiras və şəhvətə imkan yeri qoymurdu:

*Təşnə könlüm, od tutsan da su içmə,*
*Duyğuları lilllənmişin əlindən.*
*Xar olarsan el içində, gül alma*
*Gülüstanı güllənmişin əlindən. (!)*

Biz burada klassik Şərq fundamentalizmi ilə çağdaş əxlaq düşüncəsinin kəsişmə nöqtəsini görürük – insan nə qədər müasirləşsə də, ata-babalarımızın göz bəbəyi kimi qoruduğu namus və qeyrəti əldən buraxmamalı, el içində şərəfini və ad-sanını aşağı salmamalıdır. Bu, Hüseyn Kürdoğlunun nəinki məhəbbət mövzusunda işlədiyi əsərlərin konseptual qayəsidir, bütün yaradıcılığı boyu əldə rəhbər tutduğu poetik doktrinadır.

Hüseyn Kürdoğlu Vətən üçün, xalq üçün, ədəbiyyatımız üçün təmənnasız yazdı, yaratdı, şöhrətə can atmadı, layiqincə ənam və mükafat görmədi. Özündən qat-qat aşağıda olanların əldə etdiyi mənsəbə və təltiflərə həsəd aparmadı. Gözütox, qürurlu adam idi dağlar oğlu, qartal kimi yüksəklikdən baxırdı həyat və məişət hadisələrinə və tükü-tükdən seçirdi, çünki sərraf idi, sənətkar idi.

Bu məqaləni onun özünün yazdığı üç bəndlik bir qoşma ilə bitirmək istəyirəm. (Bacarsam 4-cü bəndi özüm əlavə edəcəyəm).

**Getdi**

*Nə gördü dünyadan yazıq Kürdoğlu,*
*Nə tez bu torpağa üz qoydu getdi.*
*Çənlibeldən aşdı ilham köhləni*
*Sıldırımdan keçən iz qoydu getdi.*

*İnci qiymətini sərraflar qanar,*
*Qədrini bilənlər həsrətlə anar.*
*Sönməz ocağından ocaqlar yanar,*
*Bədxah ürəklərə köz qoydu getdi.*

*Dirilik suyudur açdığı bulaq,*
*Yüz yandan üstünə yol salar qonaq.*
*Sözün sayına bax, sanbalına bax,*
*Dünyada bir dünya söz qoydu getdi...*

Mənim əlavəm (Bağışla, ustad, bacardığım budu):

*Başında ağ saçı yaşa düşmədi,*
*Çınqıllar keçsə də daşa düşmədi.*
*Deməyin Kürdoğlu başa düşmədi –*
*Çox incə mətləbə göz qoydu getdi.*

***Rəfael Güləliyev***
*AMEA-nın dissertantı*

## ÖLÜMÜYLƏ VÜSALA ÇATAN ŞAİR

Bir zaman var idi. O zamanlar vətənimizin ucqar bir dağ kəndində ömrümün ən şirin çağlarını – uşaqlıq illərini qədir-qiymətini bilmədən arxada qoyduğum zamanlar idi. El-obanın toy-düyünləri, şadlıq məclisləri sazsız-sözsüz keçmirdi o zamanlar. Hərdən mən də uşaq dəcəlliyimdən əl çəkib, sazın sehrinə uyub avazla oxuyan aşığın sözlərinə qulaq kəsilərdim. Bəlkə də mənasına varmadığım, hərdən zümzümə xətrinə yadımda saxladığım şerlər indi də yaddışımdan silinməyib:

*Məndən uzaqlaşdı körpə günlərim,*
*İzinə düşsəm də çata bilmərəm.*
*Bir bala ceyranın dəli könlünü*
*Can verib almışam, sata bilmərəm.*

*Öpdüm aşiqlərin məzar daşını,*
*Nakam məhəbbətin son sirdaşını.*
*Əslinin, Kərəmin o göz yaşını*
*Ömür şərbətimə qata bilmərəm.*

*Görün mənim kimi zaval vurmuşu,*
*Gözəllik görəndə yox olur huşu.*
*Ürək dedikləri səməndər quşu,*
*Sinəmdən çıxarıb ata bilmərəm.*

O zamanlar bu şerin müəllifi haqqında düşünmək ağlıma da gəlməzdi. Ağlıma belə gəlməzdi ki, həmin bəndlərin müəllifi - Azərbaycanın ən gözəl təbli şairlərindən biri olan Hüseyn Kürdoğlunun yaradıcılığı, poeziya aləmi nə zamansa məni bir tədqiqatçı kimi maraqlandıracaq və bəlkə də həmin bəndlər şairin poetik təfəkkürü-

nə, daxili aləminə ədəbiyyatçı nəzəri ilə baxmağa mənə stimul verəcək. O zamanlar bilməzdim ki, həmişə görmək ümidində olduğum şairlə təsadüfən tanış olacağam və bu sənətə gəlişimin ilk xeyir-duasını da elə həmin nura qərq olmuş şəxsiyyətdən alacağam.

Bəli, 1996-cı il idi. Onda hələ mən ADPU-nun filologiya fakültəsində I kursda oxuyurdum. Yaz fəsli idi. İstirahət günlərinin birində Mədəniyyət Mərkəzində hansısa bir yığıncaq olacaqdı. Mən də dəvət almışdım. Ümumiyyətlə, Mədəniyyət Mərkəzinə gedişim çox az hallarda olardı. Ancaq bu dəfəki gedişimdə xoş bir təsadüflə rastlaşdım. Həmin gün adını çox eşitdiyim, ancaq üzünü görmədiyim bənzərsiz şairimiz H.Kürdoğlunu yaxından görmək və tanış olmaq mənə nəsib oldu. Nədənsə şairlə görüşmək, oda bələnmiş bir ürəyin sızıltısını yaxından duymaq çoxdankı arzum idi. Müqəddəs bir arzuma çatmışdım. Bədii ədəbiyyata olan marağımı da nəzərə alsaq bu görüş mənim üçün çox əhəmiyyətli idi. Təkcə bir ədəbiyyatçı həvəsindən başqa həm də şairin maraqlı bir şəxsiyyət kimi yaddaşımda yer etməsi bu görüşü mənim üçün daha da mənalı edirdi. Filologiya fakültəsində oxuduğumu bildikdən sonra mənimlə söhbətə marağı bir az da artdı. Sənətə aid tövsiyələr verməyi də unutmadı.

Səmimi söhbətin axarında xəyallar məni öz ağuşuna almışdı. Bayaqdan gah şairin xarici görkəminə aid uşaqlıqda uydurduğum təsvirlərin üst-üstə düşməsi, gah da şairi kiməsə oxşatmağım barədə olan fikirlər məni əməlli başlı çaşdırmışdı. Mənimlə söhbət edən nurlu çöhrə məğrur baxışı, dalğalanmış ağ saçları ilə poeziyamızın üfüqlərində daim bərq vuran ölməz şairimiz S.Vurğunu xatırladırdı elə bil.

Səmimi söhbəti, xoş davranışı ilə məndə olan çəkingənliyi bütünlüklə aradan qaldırdı. Məhrəm münasibəti ilə məni özünə bir az da yaxın etdi və bu yaxınlıqdan bayaqdan məni çaşdıran həqiqətin səbəbini anladım. Anladım ki, qarşımda bütünlüklə öz yaradıcılığının mahiyyətinə

uyğun bir şair dayanıb. Şairlə danışdıqca el şənliklərində nəğmələrə çevrilən, hələ lap uşaq ikən eşitdiyim şerləri yaddaşımda təzələndi. Bu vaxta qədər üzünü görmədiyim şairi bəlkə də həmin şerlərin məzmununa, mahiyyətinə uyğun təsvirlə xəyalımda canlandırardım və nəhayət həmin gün şairin xəyalımda yaranan, poeziyasının ümumiləşmiş lirik obrazına uyğun simasının şahidi oldum.

Həqiqətən də çox az-az sənətkar tapılar ki, öz sənəti ilə, yaradıcılığı ilə eyni mahiyyətdə olsun. Həmişə bu ikilik arasında kəskin ziddiyyətlər mövcud olur. Ancaq biz bu təzadı H.Kürdoğlu şəxsiyyəti ilə H.Kürdoğlu yaradıcılığı arasında görmürük. Bu yerdə xalq şairi B.Vahabzadə haqqında deyilən bir fikir yada düşür: «Bu lirikadan şairin şəxsiyyəti ilə əsərlərində tərənnüm olunan insanın obrazı, lirik qəhrəmanın xarakteri arasında ziddiyyət yoxdur, əksinə tam bir harmoniya bərqərardır». Bu fikri eyni ilə H.Kürdoğluya da aid etsək yanılmarıq. Bu da Hüseyn Kürdoğlunun poeziyada sənətkar üçün ən yüksək keyfiyyətlərdən sayılan sadəliyindən, səmimiyyətindən və təbiiliyindən irəli gəlirdi. Bəli çox sadə, səmimi və olduqca təbii bir insan idi H.Kürdoğlu!

Onun bu xüsusiyyətləri təsadüfi qazanılan keyfiyyətlərdən deyildi. Buna başlıca səbəb yaşadığı mühitin həssas şairi riqqətə gətirməsi və ona ilham atını səyirtməkdə kömək etməsi idi. Onun göz açdığı məkan Tanrının yaratdığı sirli bir möcüzə idi. Yaradan «Ol» deyəndə bu məkandan heç nəyini əsirgəməmişdi. Həmin məkan başdan-başa poeziya mənbəyi və hər addımı hər bir mövzuya ilham verən təbii qüvvə idi: dağların məğrur duruşu, yalçın qayaların «çiyinlərindən» axan şəlalələrin şırıltısı, daş çatladan büllur gözlü bulaqların zümzüməsi, dağların ətəklərində sıx meşələrin sıra-sıra düzülüşü, ildırımın çaxması, boynubükük bənövşənin kol dibinə qısılması, dağların başına gah çalma qoyan, gah da yaşmaq vuran dumanın dağ-dərəni vaxtlı-vaxtsız bürüməsi, kəkliyin kol dibindən səkməsi, bildirçinin ot laylarının arasında oğrun-

oğrun yerişi və kərəntinin ağzından pırıldayıb uçması, qartalın dağ başından şığıması, əliyin ürkək-ürkək qaçaraq gözdən itməsi, ağ sürünün dağ döşünə yayılması, bax elə bu andaca çoban tütəyinin sədası, yayda obaların çalçığırı, yağışdan sonra göy üzünü yeddi rəngə boyayan göyqurşağı və elə bu fonda, bu sakitlikdə dərələrdən gələn selin uğultusu, ara-sıra təpələrin üstündə tək-tənha qalmış neçə-neçə əsrin şahidinə çevrilən palıd ağaclarının yalqız duruşu, çay qırağında tora düşmüş qızıl balığın çapalaması, meşənin ortasındakı talada, sakit bir yay gecəsində arıxanada yan-yana düzülmüş arı pətəklərindən həzin bir sızıltını xatırladan ana arının oxuması, elə həmin andaca gecəquşunun nəğməsi... Hansını deyim, gör hələ nələri də qaldı.

Mayası bu mühitdə yoğrulmuş az adam tapılar ki, heç olmasa pünhan duyğularını cızma-qara etməmiş olsun. O da ki qala haqqdan bir damla payı olan şairə. Bax bütün bu gözəllikləri görən və duyan şair bu duyğuları ölməyə qoymurdu. Tanrının yeni möcüzəsini yaradırdı. Onun adi insanlardan da fərqi bax elə bu idi.

Şairlə söhbətimiz çox uzun çəkdi. Söhbətin belə uzun çəkməsi şairi lap yaxından müşahidə etməyimə imkan yaratdı. Yaşımın az olmasından və şairlə şəxsən özümün keçmiş xatirələrimin olmamasından həmin anda onunla bağlı danışılan əhvalatlar bir-bir yaddaşımda təzələndi.

Onlardan ən maraqlısını, yaddaşımda dərin iz buraxanını, həm də çox nisgillisini atamın dilindən eşitmişəm.

Atam danışır ki, 1991-ci ilin oktyabr ayı idi. Laçında «mehmanxana»nın qarşısında bir neçə adam dayanıb söhbət edirdik. Elə bu vaxt H.Kürdoğlu maşından düşdü, hal-əhval tutdu. Dayanıb bizimlə xeyli söhbət etdi. Bir ara üzünü üfüqdə günəşin qırmızı rənginə boyanmış dağlara tərəf tutdu, dağlın bir görkəm aldı. Dağlara baxa-baxa xeyli fikrə getdi və nəhayət dilə gəldi: «Mən şəhərə qayıdıram, amma nədənsə daxildən bir qüvvə məni dağlara sarı çəkir... Eloğlular, bu payız dağlar mənə çox

misgin görünür…» Görəsən şairi dağlara sarı çəkən o qüvvə hansı qüvvə imiş, həmişə poeziyasında alınmazlıq rəmzinə çevrilmiş bu məğrur dağlar şairə nə üçün misgin görünürmüş?! Daxilimdə yaranan bu sualları Laçının işğalından sonra cavablandırmaq bir o qədər də çətin olmadı. Həm də anladım ki, H.Kürdoğlu poeziyamız üçün haqdan doğulan bir damla paydır. Və anladım ki, bir vaxtlar Yaxşısının vüsalına çatmaq üçün neçə-neçə misilsiz bayatılar yazmış, məhəbbətin dərdə bələnmiş poetik obrazını əbədi heykələ çevirmiş Haqq Aşığı – Sarı Aşığın davamçısı kimi parlaq bir işıq Azərbaycan ədəbiyyatında yenidən bərq vurur. Anladığım bu həqiqətə şairin öz yaradıcılığında da rast gəlirik:

*Verdiyin qələmlə mən də yazıram,*
*Qayalar bağrında gövhər qazıram.*
*Dirilik suyunu gəzən Xızıram,*
*Qarlı dağlar aşsın Göyatım gərək.*

Şair özünü «işığına can atdığı», «ülviyyətinə tapındığı» Haqq Aşığı – Sarı Aşığın davamçısı kimi görür və öz ustadının seçmə bayatılarına ön sözdə yazırdı: «Gecə də, gündüz də ən ilhamlı saatlarımda, anlarımda ilahidən gəlirmiş kimi qəlbimdən munis bir səs eşitdim. «Sən də bayatı yaz, dördlük yaz, səni öz xələfim kimi görmək istəyirəm!» Yazdı da. Özü də ustadının adına layiq:

*Durna qatarında uçur dördlüyüm,*
*Səf tutsun indi də bayatım gərək.*
*Sönüncə qəlbimdə sonuncu şölə*
*Dönsün inci sözə həyatım gərək.*

*Yaxşı yar dəlisi, ey Haqq Aşığı,*
*Közərir sözündə eşqin işığı.*

*Vətən yaraşığı, el yaraşığı,*
*Bağbansan bağında boy atım gərək.*

Bu misralar H.Kürdoğlunun Sarı Aşığın yaradıcılığından bəhrələnməsinə bir daha təsdiqdir. O, sələfi Sarı Aşığı təkrar etməmiş, ondan ilhamlanaraq yeni çalarda, orijinal deyimdə bədii nümunələr yaratmışdır.

Yaradıcılığındakı oxşarlıqla yanaşı H.Kürdoğlu da ustadı Sarı Aşığın taleyinə oxşar bir tale yaşadı. Biri Yaxşısına, o biri isə Vətəninə həsrət köçdü bu dünyadan. H.Kürdoğlu da bu həsrəti çəkmək üçün haqqdan güc almışdı, ustadı Sarı Aşıq kimi.

*«Aşığın dağ gücü var.*
*Körpünün tağ gücü var.*
*Yaxşı dərdi çəkirəm,*
*Dizimdə haqq gücü var».*

Yoxsa çətin olardı, düz on bir il dağlarsız ruhən dağda yaşamaq. Bəli, cismən Xəzərin sahillərində yanıb odlara yaxılsa da, o, hər gecə yuxusunda dağlara qovuşurdu, ruzigarın acı xatirələrinə boy verən misralarıyla dağların dərdinə şərik olurdu.

Hörmətli oxucu, şairlə söhbətim məni elə ovsunlamışdı ki, həmin anda qəlbimdə şairin yaradıcılığı və haqqında eşitdiyim maraqlı xatirələrdən başqa fikirlərə «iynə ucu boyda» belə yer qalmamışdı. Elə o zamandan da şairi daha da yaxından tanımağa can atdım və məni ovsunlamış poeziyasını dərindən öyrənməyə və izləməyə başladım.

Onun ən gözəl xüsusiyyətlərinqdən biri də o idi ki, zamanın poeziya qarşısında qoyduğu vəzifələri yaxşı dərk edirdi. Bu vəzifələri yerinə yetirmək həm ağır, həm də böyük və möhtəşəm, olduqca şərəfli idi.

Son dövrlər cəmiyyətimizdə baş verən köklü dəyişikliklər poeziyada da əks-səda verdi və poetik düşüncəyə təsir etdi. «Xalqın şüuru və hər bir insanın özünü-

dərki yeni mərhələyə qalxdı». İnsanlar həyatın bütün sahələrində olduğu kimi bədii ədəbiyyatda da cəsarətli olmağa və ucadan danışmağa başladı. Çünki bu haqqı həmin insanlara azadlıq bəxş etmişdi.

Bu dövrdə H.Kürdoğlunun da poetik dünyagörüşündə müəyyən dəyişmələr baş verdi. Bütün mövzularda yazdığı şerlərin bədii dərkində və poetik inikasında yeni estetik keyfiyyətlərin əksi özünü büruzə verdi.

H.Kürdoğlu poeziyasının əsas xüsusiyyətlərindən biri də mövzu dairəsinin genişliyidir. Onun seçdiyi mövzular cəlbedici, orijinal, əhatə etibarilə çoxşaxəlidir. H.Kürdoğlu poeziyasının qaynaqları və əhatə etdiyi mövzu genişliyindən söhbət açarkən tənqidçi-ədəbiyyatşünas Yaşar Qarayevin aşağıdakı fikirləri yada düşür: «Hələ körpə ikən Fizzə ananın alaçıq çubuğundan asıb yırğaladığı poeziya beşiyinə üç meh eyni vaxtda əsib: İşıqlı dağından, Ələsgər sazından, Füzuli sözündən! Təbiət, folklor və klassik şer üç zirvədən tökülən üç şəlalə kimi bu gün də bu şerin su içdiyi üç dirilik çeşməsi olaraq qalır.

Mən dördüncü şəlaləni – Araz çeşməsini də əlavə etmək istəyirəm».

Şair haqqında deyilmiş bu fikirlər 80-ci illərə qədər əlavəsiz qalırdı. Bu gün isə mən beşinci şəlaləni – Qarabağ çeşməsini də əlavə edirəm. Yəqin ki, Y.Qarayev şair haqqında dediyi bu fikirləri bir qədər sonra demiş olsaydı heç mənim də əlavəmə ehtiyac olmazdı. Bu fikir o vaxt deyilmişdi ki, onda hələ nə «Yaralı torpağım, yaralı sevgim», nə də «Hər şəhid bir nəğmədir» adlı hər səhifəsi şairin ürəyinin oduna bələnmiş kitablar yaranmamışdı. Hələ o vaxt heç kəsin təsəvvürünə gəlməzdi ki, piri, pənahı saydığı, hər il gedib üz qoyaraq səcdə etdiyi, kam aldığı dağlara şair nə vaxtsa həsrət qalacaq. Hələ o vaxt heç kəsin ağlına belə gəlməzdi ki, ilhamını o dağlardan alan şair haçansa viran olmuş torpaqlarımızda ruhları dolaşan şəhidlər haqqında yazdığı şerlərə ön sözdə Sarıbabaya müraciət edəcək və Xəzərin qoynunda alışıb-yanan

«qoca, xəstə» şair öz səsini Sarıbabaya Xəzər küləklərinin qanadlarında çatdıracaq.

Həqiqətən də bu ağlagəlməz işə başımıza gəlməyincə heç kəsi inandıra bilməzdik. Ancaq dağları miskin görən şairə bu dərd agah olmuşdu. Çünki H.Kürdoğluda haqq vergisi var idi. O, həqiqi şair idi. İlahidən gələn səsin tərənnümçüsü idi. Elə buna görə də yanaşdığı hər hansı mövzu şairin qələmində bənzərsiz lirik obrazlara, bədii ifadə və təsvir vasitələrinə çevrilirdi. Qəlblə yaşayan və duyan şairin poetik düşüncələri qəlbdən süzülür və bənzəri olmayan lirik nümunələr kimi ağ kağıza düzülürdü. Şairin poeziyasında obrazlı fikir silsilələri vətən həsrətindən, vətənə olan yüksək ülvi məhəbbətdən yaranır və ən gözəl incə, ali insani hiss və duyğuların bənzərsiz ifadəsi kimi əsas qayəyə çevrilirdi. Xüsusən də 90-cı illərdə H.Kürdoğlu poeziyasının ümumi qayəsi qəlbləri sızladan vətən həsrətini, torpaq itkisini və vətən uğrunda ölən oğul və qızlarımızın ağır, dözülməz dərdini poetik düşüncələrinə uyğun mənalandırmaq və lirik lövhələrə çevirmək idi.

Yaşadığı illərin Qarabağla, doğma yurd-yuvayla bağlı olan günləri onun qəlbini riqqətə gətirirdi. Vətəndən uzaqda olsa da xatirələrində yaşanan vətənli günlər onun şerlərində ən mühüm misralar kimi əks olunurdu. Xüsusən də yaz-yay aylarında şairin çox olan dərdi bir az da artırdı. Hər il təbiət canlanan vaxt Laçınlı günlərlə bağlı xatirələrin oyanması, yaddaşın bir-bir vərəqlənməsi şairin qəlbində həzin duyğulara çevrilirdi. Şairin də çarəsi bu duyğuları poetik lövhələrə, sehirli misralara çevirərək xəyalları ilə baş-başa qalmağa qalırdı.

Bu xəyalların ağuşunda da Tanrı ona elə bir fitrət, elə bir istedad, elə bir vergi göndərirdi ki, heç olmasa şairin dadına çata bilsin, heç olmasa şairin içində püskürməyə hazır olan odu-alovu ram edə bilsin, sözə çevirərək xəstəhal şairə təsəlli verə bilsin.

Nə yaxşı ki, gözəl şairimiz M.Aslan demiş «Allah ümidinə» olan şairdən «varlığı yox, yoxluğu hər şeydən uca» olan Tanrı bunu əsirgəmədi. Cızdağını çıxardan ötən xatirələrlə bağlı ülvi duyğuları, hər şəhidin ruhuna bir nəğməni, bir sözlə Azərbaycan ədəbiyyatı tarixində əsrarəngiz poeziya çələngini hörməkdə ona arxa oldu, dayaq oldu, şairə ilham verən qüvvəyə çevrildi.

Ola bilər bu sözlərim H.Kürdoğlu poeziyasına dərindən bələd olmayanlar üçün sadəcə bir pafosu xatırlatsın. Ancaq bir ədəbiyyatçı kimi H.Kürdoğlu yaradıcılığına yanaşdıqda görürük ki, onun poetik söz demək imkanlarına nə qafiyə çərçivəsi, nə də bədii forma və janrlar mane ola bilmirdi. Bu da yəqin ilahi vergidən irəli gəlirdi. İlahi ona poetik fikrini ifadə etmək üçün elə bir imkan vermişdi ki, o daxili hisslərini kiçik həcmli bədii janrlarda əks etdirərkən heç bir xətaya yol vermirdi. Lirik lövhələrində deməyə çalışdığı sözün vərəqlərdə nöqsansız, qüsursuz əksi, bədii ifadə və təsvir vasitələrindən yerli-yerində böyük ustalıqla istifadə edərək bənzərsiz lirik poeziya nümunələri yaratması H.Kürdoğlu yaradıcılığında ilahi qüvvənin qüdrətindən doğan bir parlaq nişanədir desək yəqin ki, yanılmarıq. Bu səbəbdəndir ki, onun yaratdığı hər bir misra Tanrının yaratdığı hər bir şey kimi sirlidir, sehirlidir, sadədir, səmimidir, təbiidir və nəhayət sadaladıqlarımın ümumi ifadəsi olaraq gözəldir. Şairin poeziyasını izlədikdə biz bu gözəlliyi – Azərbaycanın bədii coğrafiyasını, vətən tariximizin keçmişini, bu gününü, ümumiyyətlə Azərbaycanın az qala bütünlüklə maddi və mənəvi dəyərlərinin poetik əksini görür və istər-istəməz heyran qalırıq.

Görkəmli ədəbiyyatçı, akademik Bəkir Nəbiyev H.Kürdoğlunun yaradıcılığından söz açarkən bu cür çoxəhatəliliyi aşağıdakı kimi ifadə etmişdir: «Hüseyn Kürdoğlunun ədəbi irsi bir növ müxtəsər, poetik Azərbaycan ensiklopediyası təsiri bağışlayır». Mənə elə gəlir ki. bu, gözəl şairimiz H.Kürdoğlunun yaradıcılığına qədirbilən ədəbiyyatçı tərəfindən verilən dəqiq qiymətdir.

Yaşının ahıl bir çağında Qarabağ mövzusu, vətən həsrəti yaradıcılığının başlıca mövzusuna çevrildi. Bu mövzuda şairin yaradıcılığı yeni keyfiyyətlər tapdı. Bədii ifadə və təsvir vasitələri, lirik obrazlar sistemi və s. şairin qələmində yeni məzmunda, yeni çalarda təzahür etməyə başladı. Dövrün hadisələrinə uyğun mövzular – narahat bəşəri hisslər, həqiqət axtarışları, vətənə məhəbbət, vətən həsrəti və s. bu lirikanın başlıca qayəsinə çevrildi. Şair gündəlik həyatda baş verən reallıqları səmimi duyğularla işıqlandırır və bənzərsiz şair təxəyyülünə uyğun mənalandırır, yeni rəng və çalarlarla əks etdirirdi.

Şairin lirikası vətən həsrəti mövzusunda yazdığı şerlərlə son dövrlərdən etibarən zənginləşməyə və yeni məzmun daşımağa başladı. Vətən həsrəti şairi çox dərdli etmişdi. Bəli, çox dərdli şair idi. Bu ifadəmə görə məni bəlkə də qınayan da tapılacaq ki, «O, hansı şairdir ki, dərdi olmasın?» Əslində bu belədir. Ancaq bu dərd çox kövrək və həzin idi. Şairin eninə-boyuna elə biçilmişdi ki, yaradan elə bil onları qoşa yaratmışdı. Yaradan bu qoşalığı ona verəndə həmin dərdə, ələmə bab dözüm də verməyi unutmamışdı. Bu dözümün özü də bir dərd idi. Bu dözüm hər hansı bir fiziki təsirə qarşı olsaydı, nə var idi ki? Bu dözüm dünyanın bütün xanalarında baş verən haqsızlıqlara, ədalətsizliklərə və tökülən haqsız qanlara qarşı mənəvi bir dözüm idi. Bu o dözüm idi ki, şairi düz 50 il damla-damla, qətrə-qətrə misralara hopdurdu və yaratdığı bənzərsiz lirik söz naxışları ilə adını ədəbiyyatımızın tarixinə əbədi yazdı:

*Tablaya bilmədin bu nisgilə sən,*
*Yandıqca əridin gilə-gilə sən.*
*Daha qismət deyil bir də güləsən,*
*Dörd divar içində qalan Kürdoğlu.*

Bu misralarda şairin dözümü qalmamışdı, naümid idi. Bir zamanlar:

*Laçınım sıldırımlı,*
*Boranlı, ildırımlı.*
*Oğulları, qızları,*
*Dar gündə fil durumlu.*

***

*Laçından yağı keçməz,*
*Namərd ayağı keçməz,*
*Dərələr məzar olar,*
*Xınzır bu dağı keçməz. –*

deyən mübariz şair ömrünün qürub çağında yaman nagüman görünürdü:

*On ildir at çapır orda yağılar,*
*Xainin gözünə damsın ağılar.*
*Bir də Qoç Nəbilər haçan doğular,*
*Həsrətlə saralıb-solan Kürdoğlu…*

***

*Zaman Qarabağdan uladı keçdi,*
*Qanlı yarasını yaladı keçdi.*
*O gecə yuxuma girdi Koroğlu,*
*Uzaqdan başını buladı keçdi.*

Elə bu dərdə dözməyərək tərk etdi bu fani dünyanı H.Kürdoğlu. Dözmədi yurd-yuvasında xainin at çapmasına. Dözmədi ustadı Sarı Aşığın «əfsanəvi igidliklərinə zaman-zaman» şahidi olduğu Koroğlunun, Qaçaq Nəbinin, Həcərin övladlarının bu günkü «hay-harayına, arsız-gorsuz çal-çağırına». Bəlkə də, elə buna görə bir zamanlar «şair xəyalının qüdrəti» ilə Sarıbabanın vüsalına qovuşan, səsini Xəzər küləklərinin qanadlarında Sarıbabaya göndərən şair haqqa qovuşdu və ruhunu şəhidlərin ruhuna qatdı. Bəli, bütün bunlar oldu bu dünyada şairin yerini dar edən.

Şair müqəddəs arzusuna – dağlara qovuşmaq arzusuna çata bildi. Şəhid nəğmələrini piri, pənahı saydığı Sarıbabayla üzbəüz dayanaraq dedi. «Şəhid olmuş igid balalarının göyərçin ruhlarını» başına topladı. Vətənsiz yaşadığı illərin acı xatirəsini söylədi şəhid ruhlarına və onların uca, müqəddəs bir amal uğrunda şəhid olmalarını gözümüzdə bir daha ucaltdı. Həmin ucalığa yazdığı nəğmələri bir-bir söyləyərək şəhidlərin ruhuna layla dedi, özü də asta-asta yırğalanan sonsuz sakit meşələrin qoynunda əbədi bir yuxuya qərq oldu. Bu yuxuya da zümzüməli bulaqların pıçıltısı layla dedi. Bu yuxudan oyanmaq olarmı?! Yuxun şirin, ruhun şad olsun, haqq vergili şair!

«Kredo» qəzeti,
14, 21 avqust, 2004

## ŞAİRİN ÖLÜMÜNƏ MƏN İNANMIRAM, SİZ DƏ İNANMAYIN

Uşaqlıq illərim köçdə-düşdə, aranda-dağda keçib. Üstəlik kəndimizin müdrik adamlarından olan Əmiraslan kişi evimizin həndəvərindən hər ötüb-keçəndə dil-ağıza qoymazdı. Laçın, Kəlbəcər, Güləbird deyilən ərazilərdən keçdiyini, atamın-anamın – bala, bura Sarı Aşıq oymağıdır dediyini, mənə Sarı Aşıq bayatılarıynan, gündə neçə kərə xatırladardı. Bu bayatılardan biri heç yaddan çıxan deyil:

*Aşıq, min aya dəyər,*
*Xalın min aya dəyər.*
*Ay var bir günə dəyməz,*
*Gün var min aya dəyər.*

Və yaxud atamın gündə neçə dəfə təkrarladığı bu:

*Mən aşiqəm, qoyun biz,*
*Qurd siz olun, qoyun biz.*
*Allah vermiş bostandır,*
*Dolduruq qoyun biz, -*

bayatı və unudulmuş neçə-neçə deyimlər o yurda məndə doğma bir hiss, yanğılı bir məhəbbət, həm də bir həsrət yaratmışdı.

Böyüdüm, oxudum, ali təhsil aldım, başım min bəlalar çəkdi, uşaqlıq illərində yaşadığım aranlı-yaylaqlı, köçlü-köməcli günlərim min dəfə artıq əzabıynan qəlbimi cızım-cızım elədi. Hər dəfə Sarı Aşıq ünvanlı, Yaxşı sevgili şerləri oxuduqca arandan yaylağa, yaylaqdan arana daşındı könlüm. Hər dəfə Sarı Aşıq bayatılarını oxuduqca nənəmin, anamın, atamın zəhmətlə bağlı nəsihətlərini eşit-

dikcə gözüm qarşısından arana həsrət dağlar keçdi, dağlara həsrət Araz nəğmələri ürəyimi göynətdi. Ömrümün göz yumub Sarı su çölünə bağladığım neçə əzablı ili mənim qəlbimdə Vətən həsrəti üstündə köklənmiş uşaqlıq duyğularımdan gələn neçə dastana, neçə nağıla Sarı Aşıq bayatılı, Yaxşı sevgili neçə əzablı təzə hiss, təzə duyğu yaratdı.

Vərəqlədiyim kitablar yaşadığım günlərin ağrı-acısını orda axtarmağa sövq elədi məni. Hamı bilir Laçın, Kəlbəcər dağları o taylı-bu taylı Azərbaycanın o tayda Savalan, Heydər baba, bu tayda Murov, Kəpəz, Ala göl, Qara göl yaylaqlarıyla, dağlarıyla həmdərddir. Dərdini bir-birinə deyə bilməyən ayrı düşmüş qardaşlardır: ögey kimi, yad kimi.

Min dürlü dərdimi, min cür sevgimi öz dilimlə mənə hərarətlə duyduğum bir şair çatdırdı. «Yaralı torpağım, yaralı sevgim» adıyla. Bu dağlar oğlu, şəxsiyyətinə çox gec bələd olduğum Şəhriyar yanğılı, S.Vurğun ilhamlı, Sarı Aşıq nisgilli Hüseyn Kürdoğlu idi. Neçə il əvvəllər yazdığı hisslər, duyğular əsiri, bayatılar, rübailər ustadı olan şairin bir dördlüyündə oxuyuram:

*Sozalmaz, soğulmaz bulaq olaydım,*
*Bir dağın gözünə çıraq olaydım.*
*Deyirlər qocalar uşaqlaşırlar,*
*Uşaqlaşmayaydım, uşaq olaydım.*

Məgər öz taleyini neçə il əvvəl görmək hissi deyildimi bu? Hüseyn Kürdoğlu həm də Lələ Kərəm dərdli idi. Elə bir çox azərbaycanlılar kimi, həm də elə mənim kimi:

*Ərzurum dağında bir lələ yatar,*
*Uçdu, məzar oldu bir lələyə tar.*
*Kərəmin dərdini yazacaq deyə,*
*Hər durna bu yerə bir lələk atar.*

Qardaşım Əlibala Zaloğlu deyir: Qardaş, H.Kürdoğlu M.Şəhriyarın bütöv Azərbaycana, Azərbaycan balalarının yaşadığı uşaqlıq illərinə həsr etdiyi «Heydər babaya salam» poemasına ilk cavab yazan şairlərdəndir. Mən onun şerlərini oxuduqca gündə neçə kərə uşaqlıq illərimi yaşayıram.

*Füzuli naləsi, Vaqif səsiyəm,*
*O yanıq Kərəmin od nəfəsiyəm.*
*Mən həyat eşqinin bir qətrəsiyəm…*

- deyən şairin ağrıları mənə çox doğmadır. Sözü əməlinə düz, düzü düzlərin düzü olan Hüseyn Kürdoğlu.

*…Göyləri titrədir ana fəryadı,*
*Fəqət göylərin də yoxdur imdadı.*
*Qana yerikləyir Adəm övladı…*

- deyəndə insan xislətindəki ziddiyyətləri, nankorluğu, namərdliyi izah etmək üçün belə nəticə çıxarır: - «Bütün dünya boyu insan xəstədir».

H.Kürdoğlu təbiətə həssasdır. Bütün dağlarımızı, dərələrimizi kövşən-kövşən, cəbə-cəbə tapdayıb, qaya-qaya dırmanıb, sal-sal aşıb. Hər düzdəki, çəməndəki otun-əncərin, çiçəyin, gülün ətrini duyub. Dədə Qurbani dilindən bütöv Azərbaycana boylanan bənövşəni belə dindirir:

*Eşqin əli səpmiş onu torpağa,*
*Ərməğandır gözəl dosta bənövşə.*
*Kim dəyişər cəvahirə, altuna,*
*Yar gətirsə bircə dəstə bənövşə.*

Yaxud bənövşə ünvanlı bəndlərin sonunda –

*Yaxına gəl, su keçməsin aradan,*
*Boynumu quc, könül çıxsın qaradan.*

*Bəlkə mənə möhlət verdi Yaradan,*
*Sən gətirsən son nəfəsdə bənövşə.*

Çox zaman təbiəti özündən incik salmağa qorxan, süsənli-sünbüllü çöllərə addımını aramla basan şair H.Kürdoğlu «Görəsən küsdümü bənövşə məndən» deyə duyğulanır:

*O gün əl çəkmədi yaxamdan ağrı,*
*Heç uzaq olmadı əndişə məndən.*
*Gəldi dost əlində gördü ki, yoxam,*
*Görəsən küsdümü bənövşə məndən.*

Yaxud özünü bənövşə kimi kövrək hesab eləyir şair…

*Biçarə Kürdoğlu səndən də kövrək,*
*Bəxti yel ağzında bir qərib lələk.*
*Könül bir şüşədir, mavi, sənin tək*
*Az qalıb əl üzə bu şüşə məndən,*
*Barı küsməyəydi bənövşə məndən.*

İlahi, istər şair oslun, istər filosof, insan insan hisslərini necə ağrılı-acılı, necə yanğılı dilləndirərmiş.

*Özü bir aləmdir aləmdən ayrı,*
*Qəm çəkir İlahi bir qəmdən ayrı.*
*Köksünə dağ çəkən sənəmdən ayrı*
*Dünyanı danmışı necə görmüsən?*

Ey həmvətənlər, ey Kürdoğlusevərlər, sanmayın ki, Kürdoğlu öldü, getdi. O, əbədidir, öz şeriylə, sənətiylə, şirin xatirələriylə. Heç Əzrayıl da sevinməsin ki, onu diri dünyamızdan qoparıb apara bilib.

*Mən öləndə sanma ki, dünyadan itəcəyəm,*
*Biryolluq kəsiləcək daha səsim, sorağım.*

*Daş qoymayın üstümə göyərib bitəcəyəm,*
*Əbədiyyət eşqi var, ölümsüzdür torpağım.*

- deyən şairin ölümünə mən inanmıram, siz də inanmayın. Əbədiyyət nəğmələri qoşan şair ölməz. –min cür ab-havalı məclislərin bəzəyi olan «Kürdoğlu» sözü neçə qərinə əvvəl də vardı, neçə əsrlər sonra da olacaq. Çünki xalqdan bəhrələnib, xalqın öz sözüdür, Kürdoğlu diliylə deyilən söz.

Azərbaycan mədəniyyətində, Azərbaycan tarixində bir əbədi ünvan var – Xudafərin ünvanı. Azərbaycanın birlik rəmzi, bütövlük rəmzi. İndi baxın, Kürdoğlu Xudafərini necə dindirir:

*Dədə Körpü, mən ney tutum, sən dil aç,*
*Neçə tarix, neçə dövran görmüsən.*
*Aydan, gündən soruşuram yaşını,*
*Alçaq-uca, yaxşı-yaman görmüsən.*

və ya

*Səndən keçib Xəstə Qasım, Qul Abbas,*
*Ulu saza bir tel qoşub Xan Araz.*
*Qurbanidən saxlamısan bir avaz,*
*Sözə sərraf, saza loğman görmüsən.*

Böyük Nizamini, Füzulini unutmayan xalq sözündə zərrə qədər həqiqət olan kimsəni, o cümlədən özündən sonra bir fikir ümmanı qoyub gedən Hüseyn Kürdoğlunu unutmayacaq.

*Dilimdə sözə döndüm,*
*Od tutdum, közə döndüm.*
*Yuvamdan ayrı düşdüm,*
*Yollarda toza döndüm.*

Çoxlarını dünya unudar, lakin:

*Bu dağda daşlar ağlar,*
*Payızlar, qışlar ağlar.*
*Tökülər qəbrim üstə*
*Köç gedən quşlar ağlar.*

- deyən şairi unutmağa dünyanın haqqı yoxdur. Amma o da həqiqətdir ki, mənim çox gec tanıdığım bu dağlar oğlu yaxşı-yaman dediyimiz bu dünyadan çox gileyli getdi. Bəlkə elə ona görədir ki, onun yazdıqlarını oxuyanda şirin-şirin ölümə çağıran bir harayın, ünün adama papaq elədiyini hiss edirsən, görürsən. Papağın qara verə-verə ölümə çağırdığını anlasan da fəqət getmək istəyirsən. Demək, qüdrətli poeziya istəsə səni öldürə də bilir, dirildə də.

H.Kürdoğlunun şerlərini, bayatılarını oxuyanda insan həm yenidən doğulur, həm də ölümün şirin bir tam olduğuna inanır. Əlbəttə, onun yaradıcılığındakı bu ölümə çağırış notlarını şairin daha çox giley-güzarı ilə bağlamaq ədalətli olardı. Coşğun yaradıcılıq dövrü keçən H.Kürdoğlunun əksər şerlərində zamandan şikayətin, dünyanın gərdişindən bezikmənin, duyğularının küskünlüyü-incikliyinin hər hansı oxucuda acı, kədərli bir təəssürat yaratdığına şübhə yeri qalmır.

50-ci illərdə ədəbiyyata gələn, çağdaş lirikanın ən gözəl nümnələrini yaradan H.Kürdoğlunun ədəbi irsində sifarişlə yazılmış şerlər tapmaq olmur. Nə yazıbsa, nə yaradıbsa bağrının başından qopanları, ürəyini göynədənləri, arzusunu, diləyini ifadə edənləri yazıb. Onun qüdrətli şair qələmi heç sovet ideologiyasına da boyun əyməyib. Elə ona görə də «sandıqlar dolusu sərvət, qoltuqlar dolusu nemət» görməyən H.Kürdoğlu:

*Yazmışam, yığılıb xeyirsiz qalıb,*
*Dillərə düşməyib sehrsiz qalıb.*
*Zamanın dodağı şersiz qalıb,*
*Yaman cırıldayır gileyli qapım.*

- deməklə bərli-bəzəkli, zınqırovlu «şair» qapılarını yada salır. O qapıları biz də yaxşı tanıyırıq. Amma onu da əminliklə deyirik ki, «yaman cırıldayır gileyli qapım» deyən şairin qapısını gələcək nəsillər də ədəbiyyatın qapısı kimi tanıyacaqlar. Bu qapıdan ehtiramla keçib gələcəyə H.Kürdoğludan salam apara biləcəklər.

«Kredo» qəzeti,
26 iyun, 2004

*Mir Cəfər*

# SƏNƏTKAR VƏ ŞƏXSİYYƏT BÜTÖVLÜYÜ

Sənətkar və şəxsiyyət həmahəngliyi ədəbi aləmdə çox az təsadüf olunan görüntülərdəndir. Bu həmahənglik əslində elə bütövlüyü, tamlığı şərtləndirir. Hüseyn Kürdoğlu həm sənətkar kimi bütöv idi, həm də şəxsiyyət kimi, insan kimi. Onun dağ havası qoxuyan şerlərini oxuduqca nə qədər mənəvi zövq alırıqsa, şairin özü ilə ünsiyyətdə olarkən bir o qədər mənəvi rahatlıq tapırdıq.

Hüseyn sənətinin ecazkar gücündən çox deyilib, çox yazılıb. Azərbaycan filologiya elminin ən sanballı alimləri, böyük nüfuz sahibləri, görkəmli qələm ustaları Hüseyn poeziyasını qədərincə qiymətləndiriblər. Ancaq onun əsrarəngiz lirikasında tədqiqata ehtiyacı olan kifayət qədər misralar, beytlər, bəndlər və bütöv şerlər vardır. Dahi Füzulinin belə bir misrası var. «Söz bir gözəldir kim hər kəsə camal göstərməz.» Ulu Tanrı, Hüseynə sözün camalını görüb duymaq, yazmaq qabiliyyəti vermişdi. Hüseynin şerlərini oxuduqca Azərbaycan dilinin nə qədər şirin, zəngin olduğuna heyrətlənməyə bilmirsən. Şifahi xalq ədəbiyyatından, klassik irsimizdən mayalanan bu lirika çağdaş ədəbiyyatımızda öz xüsusi çəkisi, yeri olan nümunələrdəndir. Hüseyn poeziyasında diqqəti cəlb edən əsas amillər sözə yeni münasibət, sözişlətmədə mütərəqqi bir üsul, az qala hər misrada olan poetik kəşfdir. Hüseyn şerində nümunə üçün bir dənə də olsun nahamar ifadəyə rast gəlmək mümkün deyil. Poetik təfəkkür tərəzisində bu söz və ifadələrin hamısı eyni çəkini verir. Sözlər, poetik fikirlər arasındakı əlaqələrdə zərgər dəqiqliyi, elektron düzlüyü vardır. Hüseyn poeziyasında zahiri cəlbedicilik nə qədər qabarıqdırsa, misraların daxili məna yükü bir o qədər sanballıdır.

Hüseynin şerlərində zahir-batin amili nə qədər bir-birini tamamlayırsa, onun sənəti ilə şəxsiyyəti də bir o qədər bir-biri ilə uzlaşır.

1969-cu ildə Bakıya gələndən sonra ilk tanıdığım populyar şair Hüseyn Kürdoğludur. İlk şerlərimə, hekayələrimə də o əl gəzdirmiş, ilk qolumdan tutan o olmuşdur. Əlbəttə, Universitetin filologiya fakültəsinin romantik tələbələri üçün adlı-sanlı şairlə tanışlıq böyük reytinq sayılırdı. Hüseyn müəllimlə tanışlığıma səbəbkar onun kiçik qardaşı tələbə dostum Şirindil Alışanlı idi. Bir insan kimi Hüseyn müəllimin sadəliyi, səmimiliyi və təvazökarlığı onu istənilən müsahib üçün yaxın həmsöhbət edirdi. Uca boylu, qartal baxışlı, gur dalğın saçlı şairin qürurlu və əzəmətli bir görkəmi vardı. Necə deyərlər o, təpədən dırnağa şair idi.

Hüseyn müəllim dağlar oğluydu. Əllinci illərdən Bakıda məskunlaşmasına baxmayaraq böyüyüb boya-başa çatdığı Laçın torpağı ilə, Əhmədli kəndilə nəfəs alırdı. Əhmədli də Əhmədli idi. Dağlı, meşəli, axar-baxarlı yüz illiklərin tarixini, mədəniyyətini özündə yaşadan qədim bir yurd yeri. Bu gün Hüseyn itkisi Əhmədli itkisi qədər göynədir bizləri. Əslində elə düşmən caynağında əsir olan dağların, meşələrin, kəndlərin, qurulu evlərin həsrəti Hüseyn itkisini tezləşdirdi. Hər il istirahətini ana yurdda keçirən şair on illik intizara dözə bilmədi. Elinin, camaatının qaçqın olub pərən-pərən düşməsi şairə əzab və iztirab gətirdi. Qələmə sarıldı, ürəyi kimi qələmi də göynədi, şerlərində ağrılı bir fon yarandı.

Hüseyn Kürdoğlunun sadəliyi və səmimiyyəti, qürurluluğu və təvazökarlığı onu çoxdan şəxsiyyət kimi formalaşdırmışdı. O, ədəbi zümrə içərisində nüfuz qazandığı kimi xalq tərəfindən də sevilirdi. Qarabağda, Laçında şersevərlərin onun necə pişvazına çıxdığının, ayağının altında qurbanlar kəsildiyinin dəfələrlə canlı şahidi olmuşam. Bax, budur sənətkar ömrü. Bax, burdan – xalq sevgisindən başlayır sənətkarın şəxsiyyətə çevrilməsi.

Hüseyn təvazökar və qürurlu insan idi. Elmlər namizədi olmasına baxmayaraq söhbətlərində apardığı elmi tədqiqatlardan söz açmazdı. Halbuki, o bir şərqşünas alim kimi ölkəmizdən kənarda tanınan bir neçə alimdən biri idi. Redaksiyaların qapısını çox nadir hallarda döyərdi, şerlərini poçt ilə göndərərdi. Süni təmtəraqdan uzaq idi. Yuvarlaq yubileylərini, ad günlərini süni bir proqramla təşkil olunmuş salonlarda yox, dağlar qoynunda sazlı-sözlü şersevərlərlə keçirərdi. Adətən Əhmədlidə keçirilən belə məclislərə onun qələm dostları, alim həmkarları da təşrif gətirərdilər. Ümumiyyətlə, hər yay Hüseynə görə Laçında bir ədəbi ovqat yaşanardı. Laçın dağlarında Hüseynin getdiyi yer, keçdiyi yol, gəzdiyi meşə, suyundan içdiyi bulaq, kölgəsində dincəldiyi ağac tarixə dönərdi. «Bu Hüseyn bulağıdır», «Hüseyn müəllim bu ağacın kölgəsində oturardı», «At belində bu meşədə gəzərdi» - deyə danışardı el-oba adamları.

İndi ürəyimizdə bir Hüseyn itkisi, Hüseyn göynərtisi özünə yer tapsa da təsəllimiz onun yadigarı olan şerləri, ədəbi irsidir. İllər, onilliklər, yüzilliklər keçəcək, ancaq Hüseyn sənəti, şəxsiyyəti unudulmayacaqdır.

## İSLAMİ DƏYƏRLƏRDƏN BƏHS EDƏN KİTABLAR

… Mərhum şair Hüseyn Kürdoğlu «İmana-dinə gəldim» şerlər kitabını Laçın rayonundakı Molla Əhmədli kəndində yaşayıb vəfat etmiş Seyid Cabbar oğlu Seyid Əmir ağanın nəcib ruhuna ithaf edib. Bu kitabın ilk səhifəsində Seyid Əmir ağanın fotoşəkli əks olunub. Və elə həmin səhifədə Hüseyn Kürdoğlu bir bəndlik şerində qeyd edir ki, Laçın iblis torunda olsa da, yenə də Molla Əhməd obasında Seyid Cabbar ağanın müqəddəs ocağı gur, ülvi bir işıq saçacaq. Daha sonra «Oxu bu kitabı» üç bəndlik şerində şair dindaşlarını «İmana-dinə gəldim» kitabını iman gözüylə oxumağa və bu dünyanı Qurani-Kərimin gözüylə tanımağa dəvət edir. İnsanlara haqqın yolunu həqiqətlə tapmağı, Tanrının dərgahına ülviyyətlə, fəzilətlə ucalmağı tövsiyə edir. «Məhəmməd» şerində Kürdoğlu Peyğəmbəri (s) vicdanı pak, yenilməyən qəhrəman, kainatın günəşi, şərəf-şanı və İslam səltənətinin ilk sultanı kimi dəyərləndirir. 105 səhifədən ibarət olan bu kitabda şair insanları İslama tapınmağa çağıraraq, dinimizin xəzinə açan olduğunu, Qurani-Kərim kitabının isə əbədi bir möcüzə, bütün kitablardan uca olduğunu deyir.

«Nəbz» qəzeti,
17 avqust 2004-cü il

*Ağayar*
*Jurnalist*

## «CƏSARƏT SƏRÇƏYƏ DƏ QÜVVƏT VERİR...»

«İşıqlı» dağı gözümün önündən getmir…

Başında ağappaq bulud, çiynində dumandan yapıncı, sinəsində zəmzəm sulu bulaqlar, ətəyində ağ mirvariləri xatırladan alaçıqlar…

«Dağ-dağa bənzəyər» deyib atalar. Ancaq adamın dağa bənzəməyi daha maraqlıdır. Şair Hüseyn Kürdoğlu «İşıqlı» dağına yaman oxşayır: ağappaq, gur saçlarıyla, içində ümmanlar çırpınan gözləriylə, məğrur qədd-qamətiylə…

Yəqin ki, «İşıqlı» dağına çox baxmağındandır. Hüseyn müəllimin üzü də bu dağ kimi nurludur, işıqlıdır. Elə şerləri də «İşıqlı»nın köksündən pərvazlanan bulaqlar kimi həzin və göynərtilidir.

*Qismət olmayaydım özgə torpağa*
*Gözlərim Laçını görəydi bir də...*

Allah ömrünü uzun eləsin, Hüseyn müəllim! Siz olmasaydınız neyləyərdik!

Aşağıdakı söhbətə görə sizə təşəkkür edirəm və bu söhbəti ağsaqqal sözünə qiymət verən oxucularımıza ərməğan edirəm.

**- Hüseyn müəllim, yeni ildə səhifəmizin ilk qonağısınız...**

- Mən ilk günlərini yaşadığımız 1999-cu il münasibəti ilə bütün qələm sahiblərini, ziyalıları ürəkdən təbrik edirəm. Arzu edirəm ki, ilin üç doqquz rəqəmi kimi xoşbəxtliyimiz dalbadal gəlsin. Xalqımız azad, firavan günlərə çıxsın.

Onu da qeyd edim ki, bu xoşbəxt arzuların həyata keçəcəyinə inanıram. Hər gecənin bir sabahı var.

**– Zamanın Qıratı aşdı gədikdən**
**Mənim də gəncliyim belində getdi…**

– Mənim uşaqlığım həm Laçında, həm Qarabağda – necə deyərlər, aranla-dağı birləşdirən köç yollarında keçib. Yaxşı yadımdadır, qışda Ağcabədiyə köçərdik, yayda Əhmədli yaylaqlarına. Bir dəfə qardaşımla məni tər xurcunun bir gözünə, iki bacımı isə o biri gözünə salıb atın üstünə aşırdılar. Dürmək yeyə-yeyə, dalaşa-dalaşa gəlib yaylağa çatdıq…

Köçəri, el dili ilə desək, tərəkəmə həyatı keçirdiyimə görə Qarabağ torpağıyla bağlı xatirələrim saysız-hesabsızdır. Sənətkar qocalanda onu yaşadan uşaqlıq və gənclik xatirələri olur. Nəyi düşünürsə düşünsün gəncliyin, uşaqlığın haləsinə qayıdır, dünyanı oradan seyr eləyir. Mən ən sadə bir şeri yazanda da Laçın gəlib gözümün önündən keçməlidir. Keçməsə şer yaza bilmirəm. Təəssüf ki, kövrək xatirələrimin bağlı olduğu ana torpağım əsarət altındadır. Ona görə də gəncliyimi xatırlayarkən həmişə kədərlənirəm.

**– Gəncliyin gözü məhəbbətdir.**

– Mən də belə hesab edirəm və öz əsərlərimdə məhəbbətə geniş yer verirəm. Xatirələrim içərisində məhəbbət xatirələri də çoxdur. Həm özümün qəlbimdən gələn duyğular, həm də gözümlə gördüklərim. Uğursuzluqlar, faciəli məhəbbətlər, qismətinə göz yaşı düşən aşiqlər – bunların hamısı könül dünyama öz təsirini göstərir. Hətta sel aparan gənclər görmüşəm. Sevgilisi saçın yola-yola özünü sellərə atmaq istəyib və s.

Nizami çox düzgün deyib ki, həyatın məhvəri məhəbbətdir. Məhəbbət olmasa dünya zülmətə qərq olar. Həm də bu ali hiss təkcə gəncliklə qurtarmır. Bütün ömrü boyu insana mənəvi dayaq olur. Bunu şerə gətirmək isə asan məsələ deyil. Çünki Füzuli var. S.Vurğun lap mənim

kimi ağsaçlı vaxtında belə bir qənaətə gəlib ki, məhəbbətin nə ilki, nə də sonu var, əzəlidir, əbədidir.

**– Dediniz ki, uğursuzluqla qurtaran, hətta faciələrə səbəb olan məhəbbətlər görmüsünüz… Belə insanlara necə təsəlli vermək olar?..**

– Gərək insan həyatda təsəlli tapmağı bacarsın. Bunu Qurani Kərim də buyurur. Əgər insan itirdiyinə səbr edə bilmirsə o heç vaxt yaşaya bilməz. Həyat belədir ki, hamı xoşbəxt ola bilmir. İnsanların yarıdan çoxu nakam məhəbbətin əzablarından dadır. Bu əzablar özü də nəşəli əzabdır. İnsan elə bir kamilliyə çatmalıdır ki, məhəbbətin əzabından belə zövq ala bilsin. Həsrətin əlində didilib, çeynənib düşgünə çevrilmək, məhv olmaq lazım deyil. İtirilmiş məhəbbət insanı bezdirməməli, onu həyata daha sıx bağlamalıdır. Nəsə itirəndə tapmayacağını bilə-bilə axtarırsan. Bu axtarış üçün yaşamaq istəyirsən. Bax, əsl məhəbbət budur!

**– Məhəbbətdə xəyanəti bağışlamaq olarmı?..**

– Xəyanət əlbəttə ki, nisbi anlayışdır. Bəzən görürsən ki, gənclər ayrılıblar və bir-birilərini günahlandırırlar. Kənardan bitərəf bir adam kimi baxanda görürsən ki, heç birində günah yoxdur. Sadəcə həyatın dalğaları bunları gətirib buraya çıxarıb. İnsanın qeyri-kamilliyi, şəxsi naqisliyi də ayrılıqla nəticələnə bilər. Əgər bu xəyanətdirsə bağışlamaq olmaz.

Şüurlu şəkildə xəyanətkarlıq etməyi necə bağışlamaq olar. Sən bağışlasan da Allah bağışlamaz.

**– Qələm sizin üçün nə deməkdir?**

– Həyat, ömür-gün, məhəbbət, əzab, nəşə, ümumiyyətlə insan mənəviyyatına aid olan bütün hisslər deməkdir. Əlbəttə, elə şairlərimiz var ki, mənim kimi həm elmi, həm də ədəbi yaradıcılıqla məşğul olur. Mən bu peşələri bir-birindən ayırmıram. Elmi yaradıcılıqda da poeziyaya söykənirəm. Buna görə dostlarım məni qınayırlar. Ola bilsin ki, həyatı obrazlı dərk etməyimin nəticəsidir.

Nə yazıram yazım özümdən asılı olmayaraq orada bir şairanəlik yaranır. Həmişə həyatda romantika axtarmışam, gözəllik axtarmışam. Ümumiyyətlə, gözəllik mənim meyarımdır.

Adətən səhər saat 5-də, 6-da oyanıram. Şerlərimin çoxu beynimdə əvvəlcə hazır olur, sonra durub yazıram. Əlbəttə, oturub düşünə-düşünə yazdıqlarım da var. Ümumiyyətlə, mən alatoran vaxtı qələmi götürürəm və bu alaqaranlığın içində poetik bir aydınlıq görürəm.

**– Bu günkü gənclik sizi qane edirmi?..**

**Əvvəlcə sənətdə, sonra əxlaqda.**

- İndi şer yazmaq sənətinə böyük bir axın var. Dağlardan sel gələndə daşlar bir-birinə dəyir, qaranlıqda qığılcımlar çıxarır. Elə daşlar da var ki, lilin, palçığın içərisində itib gedir. Bu gün ədəbiyyatda qığılcım çıxarmağı bacaran, selin ağzında didilib məhv olmayan, necə deyərlər içində od olan gənclər o qədər də çox deyil. Gənclər arasında məni qane etməyən bir şey də var ki, dili yaxşı bilmədən, dilin cövhərini, şəhdi şəkərini mənimsəmədən şer yazırlar. Gözəl fikir tapırlar, ancaq gözəl ifadə edə bilmirlər. Necə deyərlər, dil topuq çalır. Buna görə də klassik ədəbiyyatı, folkloru yaxşı bilmək lazımdır. Bir də ki, kimlərəsə aludə olmaq, kimlərisə yamsılamaq düzgün deyil.

Gənclər şerdə mücərrəd istilahlara, elmi istilahlara çox uyurlar. Bunu fəlsəfi fikir kimi başa düşürlər. Bu fəlsəfə deyil.

Ancaq bütün bunlara baxmayaraq gənclərimizin yaradıcılığı ümidvericidir. İnanıram ki, gələcəkdə – astanasında durduğumuz XXI əsrdə gözəl yazarlarımız olacaq.

O ki, qaldı əxlaq məsələlərinə, bu böyük bir problemdir. Hansı həyətə baxırsan zirzəmilərdə kompüter, bilyard, tennis və s. oyun qurğuları düzəldiblər. Oradakı uşaqların çoxu məktəbdən qaçan uşaqlardır. Hər şey məktəbdən qaçmaqdan başlayır, Doğrudur, dolanmaq ucbatından da məktəbdən qaçanlar olur. Yəni siqaret, şokolad,

tum satıb çörək qazanırlar. Mənim gileyləndiyim bizim harın, haram gəlirlə quduzlaşan gənclərimizdir. Ali məktəbdə elə gənclər var ki, nə savadı var, nə mərifəti, nə də dünyagörüşü. Onlar üçün həyat kef çəkməkdən ibarətdir. Vətənin sabahını belə qeyri-insani keyfiyyətlərə məxsus olan gənclərə etibar etmək olmaz.

**- Hüseyn müəllim, ağsaqqal sözünü kəsərdən salıblar…**

- Allahsız yerdə otur, böyüksüz yerdə yox. Ulu sözünə baxmayan ulaya-ulaya, böyüyün sözünə baxmayan böyürə-böyürə qalar.

Bu atalar sözlərini yada salmağım təsadüfi deyil. Ağsaqqalın sözünü nə qədər kəsərdən salsaq ağsaqqala heç nə olmayacaq. Olan bizə olacaq. Təsəvvür elə, avtobusda yol gedirdim, yer yoxuydu. Ayağım da bərk ağrıyırdı. Axırda məcbur olub bir cavan oğlana yaxınlaşdım ki, qoy bir az da mən oturum. Az qaldı ki, mənə ağır söz desin. Belə gənclərdən nə gözləyəsən. Onunçün ağsaqqal sözündən bir serjant silləsi daha kəsərlidir.

Ancaq yenə də bütün ağsaqqallar mənəvi aşınmaya qarşı mübarizə aparmalıdır.

Biz çox şeylər itirmişik. Əsarətdə qalan torpaqlarımızla birlikdə. Ancaq ümidimiz itməməlidir. Hər şeyi itirmək olar, ümiddən başqa, Turgenevin əsərlərinin birində belə bir səhnə var. Vəhşi bir it qaça-qaça sərçə yuvasının üstündən keçmək istəyir. Sərçə yuvada balası olduğuna görə elə qabarıb qışqırır ki, az qalır ürəyi partlasın. İt vahimələnib geri çəkilir. Gör balaca bir quş öz yuvasını necə qoruyur? Cəsarət sərçəyə də qüvvət verir. Mən gənclərimizə qeyrət və cəsarət arzulayardım. Qoy bizi müxtəlif siyasi mövqelər yox, dərd birləşdirsin: Vətən dərdi!

**- Bir damla mürəkkəbiniz qalsaydı nə yazardınız?**

- Laçın. Çünki bu söz təkcə rayon adını ifadə etmir. Laçın ucalıq, məğrurluq rəmzidir.

**– Söhbətimizin əvvəlindəki misralarınızı yenə xatırlayıram.**

**... Gözlərim Laçını görəydi bir də.**

**Və Allahdan arzu edirəm ki, hələ ilk ongünlüyünü başa vurmadığımız 1999-cu ildə bu müqəddəs arzunuza qovuşasınız.**

«Mən və sən» qəzeti,
8 yanvar, 1999

## HÜSEYN KÜRDOĞLU – 50

Hörmətli qələm dostumuz Hüseyn Kürdoğlu! Sizi – istedadlı şair və tanınmış tədqiqatçını anadan olmağınızın 50 illiyi münasibəti ilə ürəkdən təbrik edirik!

Siz 60-cı illərin əvvəllərindən ədəbi yaradıcılığa başlamış, klassik şerimizin, folklorumuzun, aşıq poeziyasının ənənələri zəminində püxtələşərək, həm ideya-məzmun, həm də forma-sənətkarlıq baxımından gözəl bədii əsərlər yaratmısınız. İlk kitabınız olan «Səhər nəğmələri»nin nəşr edildiyi 1963-cü ildən bəri 10 şer məcmuəsinin, Şərq ədəbiyyatından bədii tərcümə kitablarının müəllifi kimi tanınmış və oxucuların rəğbətini qazanmısınız.

«Yurdumu gəzə-gəzə», «Doğma diyarım», «Ata yurdum», «Qaya çiçəkləri», «Dördtelli durnam», «Çiçək təbəssümü», «Toy karvanı» və başqa kitablarınızda təbiət, zəhmət, məhəbbət, eləcə də Vətən gözəlliyinin, əmək qəhrəmanlarının romantik tərənnümü, dilimizin zərifliyini və zənginliyini təcəssüm etdirən cinaslı dördlükləriniz Sizin yaradıcılığınızda ənənəviliklə novatorluğun qırılmaz vəhdətini səciyyələndirən mühüm cəhətlərdəndir.

Siz bir tədqiqatçı kimi də səmərəli fəaliyyət göstərirsiniz. Müasir kürd şerində milli azadlıq hərəkatının inikasına həsr etdiyiniz «Müasir kürd şairi Abdulla Qoranın poeziyası» monoqrafiyanız Azərbaycan-kürd ədəbi əlaqələrini işıqlandıran maraqlı tədqiqat əsəri kimi mühüm elmi əhəmiyyətə malikdir. Təsadüfi deyil ki, bu əsəriniz ərəb və kürd dillərinə də tərcümə olunmuşdur.

Əziz qələm dostumuz!

Sizə uzun ömür, cansağlığı, bədii və elmi yaradıcılığınızda yeni uğurlar arzulayırıq.

Azərbaycan Yazıçılar İttifaqının İdarə Heyəti
«Ədəbiyyat və incəsənət» qəzeti, 6 iyul 1984-cü il

# YARALI TORPAĞIN ŞAİRİ

Çağdaş ədəbiyyatımızın, müasir poeziyamızın tanınmış şairlərindən olan, əsl ziyalı, mübariz vətənpərvər, istedadlı şərqşünas alim-filoloq, Hüseyn Kürdoğlu (Alışanov Hüseyn Həsən oğlu) əbədiyyət karvanına qoşulub bu dünyadan köçüb.

Lirik-romantik şair Hüseyn Kürdoğlu 1934-cü ilin 15 iyununda Laçının Mollaəhmədli kəndində anadan olub. İbtidai və orta təhsilini kənd məktəblərində başa vuraraq 1953-58-ci illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində ədəbiyyat və dil ixtisasına yiyələnmişdi.

Əmək fəaliyyətinə Azərbaycan Televiziya və Radio Verilişləri Komitəsində ədəbi dram şöbəsinin redaktoru kimi başlamışdı. Sonra Azərbaycan Milli Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda elmi işçi vəzifəsində çalışmışdı. «Müasir kürd şairi A.Qoranın poeziyası» mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş, uzun müddət Şərqşünaslıq İnstitutunun «İran ədəbiyyatı» şöbəsində böyük elmi işçi vəzifəsində çalışmış, elmi-nəzəri tədqiqatları ilə bütün Şərqdə tanınmışdı. Hüseyn Kürdoğlunun sonrakı əmək fəaliyyəti Nizami adına Ədəbiyyat İnstitutu ilə bağlı olub, qədim dövr Azərbaycan ədəbiyyatı istiqamətində dəyərli tədqiqatlar aparıb.

Hüseyn Kürdoğlunun şair qəlbində böyük həyat eşqi, qaya çiçəklərinin zənginliyi, Laçın dağlarının qüruru var idi… On beş yaşından şer yazmağa başlamışdı.

Qocaman şair yeniyetməlik illərini xatırlayaraq deyirdi: «Heyif ki, Dağlıq Qarabağ və Qarabağətrafı rayonlar kimi bizim doğma Laçın da indi qanlı yağıların – erməni faşistlərinin dustağıdır. Doğulduğum kənd – Mollaəhmədli respublikamızın ən dilbər guşələrindən biri idi. Mən dünyaya göz açandan bu kənddə saz səsi eşitmişəm, aşıq nəğmələri dinləmişəm. Folklorun bütün janrlarına aid bu kənddən örnəklər toplamaq olardı. Nənəm çoxlu

nağıllar, rəvayətlər, əfsanələr bilirdi. Bu əfsanələrdən biri də kəndimizlə yaylaq arasındakı Məcnun bulağı haqqında idi. Bu əfsanəyə görə on dörd yaşına çatan oğlanlar yazla yayın qovuşub-ayrıldığı günün gecəsi, dan ulduzu doğan zaman Məcnun bulağının suyundan içsə şair və ya aşıq olar. Nənəmin dediklərinə bütün qəlbimlə inanırdım. İntizarla gözləyirdim ki, yaşım on dördə çatsın. Həmin gecə gəlib çatdı, mən sonsuz həyəcanla gizlincə gedib o sudan içdim və doğrudan da bundan sonra şer yazmağa başladım».

Görkəmli şairimizin, Məcnun bulağı kimi sinəsindən söz çağlayan sənətkarın indiyə qədər iyirmi şer kitabı nəşr olunub. Onun bütün əsərlərində ecazkar təbiət lövhələri, dərin məhəbbət duyğuları, vətən sevgisinin müqəddəsliyi mükəmməl bədii ifadəsini tapıb.

Görkəmli şair bədii-poetik sözün ecazı ilə doğma Laçını, Qubadlını, Kəlbəcəri, Şuşanı, külli Qarabağı vəsf edirdi. Erməni faşistləri Qarabağı işğal edəndən sonra həssas şairin ürəyi sızım-sızım sızlayırdı. O, «Hər şəhid bir nəğmədir» kitabında torpaqlarımız uğrunda şəhid olanların ruhuna qovuşurdu. Hüseyn Kürdoğlu son kitablarından birini «Yaralı torpağım, yaralı sevgim» adlandırmışdı. Və özü də bu dünyadan yaralı, narahat getdi. Laçın dağlarına qovuşa bilməsə də Xırdalan dağında özünə əbədi aşiyan tapdı… Ruhun şad olsun! Sənin əziz xatirən ürəklərdə əbədi yaşayacaq…

*Gözəllik eşqinin çırağı şerim,*
*Yaralı yurdumun yarağı şerim.*
*Təşnə könüllərə şərbət olacaq*
*Mənim bu dirilik bulağı şerim.*

Qələm dostları

«525-ci qəzet», 15 iyul, 2003

# HÜSEYN KÜRDOĞLU

Azərbaycan poeziyasına və elmi-ədəbi fikrinə ağır itki üz verib. Çağdaş poeziyamızın görkəmli nümayəndələrindən biri, tanınmış şərqşünas alim, filoloq Hüseyn Kürdoğlu (Alışanov Hüseyn Həsən oğlu) yaradıcılığının məhsuldar dövründə – ömrünün 69-cu baharında qəflətən vəfat edib.

H.Kürdoğlu 1934-cü ildə Laçın rayonunun Mollaəhmədli kəndində dünyaya göz açmış, erkən yaşlarından saza-sözə maraq göstərmişdir. Bakı Dövlət Universitetinin filologiya fakültəsini bitirdikdən sonra isə həyatını söz sənətinin inkişafına, ədəbi problemlərimizin tədqiqinə həsr etmişdir.

Onun bənzərsiz irsi yüksək bədiiliyi, təkraredilməz sənətkarlığı, dilinin təmizliyi ilə seçilir. Xalq şerimizin ənənələri ilə zəngin klassik poeziyamızın qovşağında intişar tapan H.Kürdoğlu poeziyası şairin müxtəlif illərdə işıq üzü görmüş «Səhər nəğmələri», «Yurdumu gəzə-gəzə», «Qaya çiçəkləri», «Doğma diyarım», «Çiçək təbəssümü», «Ata yurdum», «Dördtelli durnam», «Toy karvanı», «Durna səsi», «Quzular dağa çıxdı», «Bu dünya bir karvan yolu», «Min bir bayatı», «Yaralı torpağım, yaralı sevgim», «Tovuzum mənim – oğuzum mənim», «Ziyalımız – ziyamız» kimi kitablarında öz bədii təcəssümünü tapmışlır. Ta qədimlərdən xəlqi poeziyamızın bədii özəlliklərindən olan cinas H.Kürdoğlu yaradıcılığında yeni poetik zirvəyə qaldırılmışdır.

Səmimi, ilıq, kövrək poetik nəfəsi olan Hüseyn Kürdoğlunun çağdaş Azərbaycan şerində özünəməxsus yeri və mövqeyi vardır. Şairin son dövrdə qələmə aldığı poetik örnəklərdə itirilmiş yurd həsrəti, torpaq nisgili aparıcı bədii motiv kimi nəzərə çarpır.

H.Kürdoğlu ədəbi-elmi ictimaiyyətimizə həm də görkəmli şərqşünas, filoloq-alim kimi də yaxşı tanışdır. O, əlli ilə yaxın bir müddətdə Azərbaycan Milli Elmlər

Akademiyasının Şərqşünaslıq və Ədəbiyyat İnstitutlarında elmi fəaliyyət göstərmiş, bir sıra monoqrafiya və məqalələri ilə elmi-ədəbi fikrimizin zənginləşməsi və inkişafı üçün əlindən gələni əsirgəməmişdir. Onun qədim dövr Şərq ədəbiyyatı sahəsində tədqiqatları öz dəyərini həmişə saxlayacaq.

Görkəmli şair və alim, gözəl və mərd insan Hüseyn Kürdoğlunun əziz xatirəsi oxucuların və qələm dostlarının qəlbində həmişə yaşayacaq.

*Azərbaycan Yazıçılar Birliyi*
*Azərbaycan MEA*
*Nizami adına Ədəbiyyat İnstitutu*

«Ədəbiyyat qəzeti»,
18 iyul, 2003-cü il

## GƏLİMLİ-GEDİMLİ DÜNYA

İyulun 12-də istedadlı şair, dəyərli alim, təvazökar insan Hüseyn Kürdoğlunun dünyasını dəyişdiyi gündən bir il keçir… Amansız ölüm sinəsi misra-misra közərən, ilhamı dağ çayı kimi coşub-kükrəyən görkəmli bir söz sənətkarını apardı. Bu cismani yoxluq isə H.Kürdoğlunun zaman-zaman təravətini saxlayacaq gözəl şerlərinin bircə misrasına belə toxuna bilmədi. Bizlərə və bizdən sonra gələnlərə bir şair qəlbinin və ruhunun misralarda yaşayan ölməzliyi – söz xəzinəsi qaldı.

Ruhun şad olsun, Hüseyn Kürdoğlu!

«Ədəbiyyat qəzeti»,
9 iyul 2004-cü il

# XATİRƏLƏR

***Teymur Bünyadov***

*AMEA-nın həqiqi üzvü,*
*professor*

# GÖZLƏRİ YOL ÇƏKƏRDİ

*Şer olmasa nə ay doğar, nə də gün,*
*Yer-göy ağlar, yasa dönər toy-düyün.*
*Heykəlidir Nizaminin, Vaqifin,*
*O şah palıd, o xan çinar əyilməz.*

*Hüseyn Kürdoğlu*

Çoxdandı bir nigarançılıq keçirirdim. Dünyasını vaxtsız dəyişmiş istedadlı, mehriban, gözəl bir yetişdirməmin yadigar qalan kitabının nəşri gecikirdi. Hər bu məsələ yadıma düşəndə özümü danlayır, onun ruhu qarşısında borcumu verə bilmədiyimdən təsirlənirdim. Bir gün içimdə ümid dolu, inam dolu bir arzuyla Şirindil müəllimin yanına yollandım. İş otağını açanda gördüm bir nəfərlə qabaq-qənşər əyləşib söhbət edirlər. Mane olmayım deyə ayaq saxladım, içəri girmədim. Tez-tələsik Şirindil müəllim qapını açdı, qoluma girib içəri dəvət elədi. Bir qədər aralıya səmt edərək necə deyəcəyimi, nə nəticə verəcəyini düşündüm...

Nədən söhbət apardıqlarını qulağım almışdı. Çox keçmədi Şirindil müəllim dərindən ah çəkərək utana-utana mənə müraciət etdi: Teymur müəllim, yaxşı yerində gəlmisiniz. Dünyadan vaxtsız köçən, taleyi kəm, unudulmaz qardaşım Hüseyn Kürdoğlu haqqında xatirələr kitabı hazırlamaq fikrimiz var. Hüseyn sizin də dostunuzdu, həm də sizə dərin hörmət və ehtiramı vardı. Kövrəldi: «Bir də ki, o həm gözəl insan, həm də gözəl şairdi, nəğməkardı». Bu sözləri eşidəndə tüklərim ürpəşdi. Rəhmətlik elə bil gəldi durdu qarşımda. Yaraşıqlı görkəmi, sərv boyu, mənalı, mehriban, qəmli baxışı ilə.

Dalğalı saçları, pərişan çöhrəsi, çatma qaşları, sakit, şirin danışığı ilə. Bəzən də qeyri-adi gülüşü, qəh-qəhəsi ilə.

Şirindil mənim xahişimi böyük məmnuniyyətlə həll etdi. Lakin mən Hüseynin haqqında ürək sözlərimi yazacağım barədə ona heç nə demədim. Pərişanlaşdım, ayrıldıq. Yol boyu fikirlərim məni min səmtə dartdı, çəkdi. Elə bil vəhydən qeyri-adi bir səs gəldi. Mütləq yaz dedi, misralara düz dedi...

Xatirə, xatirə! Doğma, əziz, şirin, duzlu, həm də qəmli-ələmli, dərdli-kədərli. Mənalı, məzmunlu xatirə nə unudular, nə yaddan çıxar. Həyatının sonuna qədər səninlə olar, sənlə qalar. İllərcə qəlbində qərar tutar, yuva qurar. Xatirə ibrət dərsi, gör-götür dünyasıdı. Gərək xatirə doğru, düzgün olsun. Yalansız, filansız, uydurmasız, qondarmasız. Məncə, yalan xatirə Tanrı qarşısında günahdı, vicdana ləkə, qəlbə əzab-əziyyətdi. Nə isə. Deyəsən, mətləbdən aralandım. Əsla yox. Bunları demək gərəkdi, vacibdi...

Hüseyn Kürdoğlu əsilli, nəsilli, köklü-köməcli, qollu-budaqlı bir türk tayfasının layiqli övladıdı. Dağlar qoynunda binalanıb qərar tutan Laçın bölgəsinin Molla Əhmədli şenliyində dünyaya göz açmış, laylalanmış, əzizlənmiş, boya-başa çatmış, kamala yetmişdi.

Yeri gəlmişkən, Molla Əhmədli kəndi ilə əlaqədar bir məsələni xatırlamaq yerinə düşərdi. Gün kimi aydındır ki, ətraf kəndlərdən fərqli olaraq, Molla Əhmədli türk kəndidir. Bu şenliyin əsli-kökü Qarabağla, bir qədər də dəqiq desək, Ağdamla əlaqədardı. Bu həqiqəti onların adət-ənənələri, danışıq tərzləri, mənəvi dünyalarında da görmək olar. Bu elin sazlı-sözlü adamları da adnandı. Muğam və xalq mahnıları oxuyan xanəndələrindən Əhməd, Kamal, Cəmil, İsmayıl və aşıqlarından Aşıq Salman, Məşədi Dadaş, Aşıq Calal, Aşıq Namaz və başqaları eldə-obada tanınıblar, ad qazanıblar. Şairin Kürdoğlu təxəllüsünə gəlincə, bu, bir xoş arzunun nəticəsidir. Bu təxəllüs ona necə də yaraşır. Böyük yazıçımız

Mirzə İbrahimovun da xoşuna gəlmişdir. Burada qeyri-adi bir şey axtarmağın mənası yoxdur. Şair nəyi istəyər, necə istəyər, bu, onun öz işi, öz qənaətidir...

Molla Əhmədli kəndi əfsanəli, nağıllı bir dünyaydı. Əvəzi, bənzəri olmayan dünya. Dağlarının başı qarlı, yamacları laləli, zirvəsi qayalı, qalalı, qartal yuvalı. Zaman-zaman qaynayan müalicə bulaqlarının, çağlayan dəliqanlı dağ çaylarının zümzüməsi, şərqisi, mahnısı bir ayrı heyrətamizlik, bir ayrı aləmdi. Dadlı, tamlı meyvə bağları, gül-çiçək ətri el-obaya naxış çəkir, bəzəyir. Şahə qalxan köhlənləri, cins mal-qarası adnandı. Bu gözəlliklər Hüseyni şair elədi, Hüseyn də bu yerlərə şərəf gətirdi, şairləndi...

Bir qayda olaraq, dağ adamlarının təbiətində doğulub boya-başa çatdığı yerin təbiətilə bir yaxınlıq, eynilik, doğmalıq hökmrandır. Onlar dağlar qədər vüqarlı, arxalı, ürəkli, dözümlü və kövrək olurlar. Təbiətlərində genişlik, səmavilik və aydınlıq özünü büruzə verir. Dağlıların ürəkləri açıq, sadə, səmimi, özü bütöv, sözü bütöv olurlar. Dediyindən dönməz, qürurunda əyilməz, sədaqətli, etibarlı, düz ilqarlıdırlar. İnadlı, iradəli, inancıl, istiqanlı, vətəncanlıdırlar. Həm torpağının ağası, həm torpağının quludurlar. Bütün bu keyfiyyətlər Hüseyn müəllimin təbiətində özünə geniş yer tapmış, o bir dağlar oğlu kimi tanınmışdır. Hüseyn müəllim qeyrətli olduğu qədər də həyalı, abırlı, ismətli, isbatlıydı.

İşdən evə qayıtmışdım. Yoldaşım Zivər xanım gülümsəyərək: - Deyəsən, Hüseyn haqqında xatirə yazırsan - dedi. Sən hardan bilirsən? - Sən işdə olanda bəzi parçaları oxudum. Bəli, mən onun xatirini çox istəyirdim. Zivər xanım qəhərlənmiş halda Hüseyndən söz açdı: «Onunla beş il universitetdə bir sinifdə oxumuşam. Canlara dəyən oğlandı, gözəl insandı. Davranışı, nəzakəti, qeyri-adi insani münasibəti ilə hamının istəklisinə çevrilmişdi. Müdam fikirli görünərdi. Elə bil bu zəmanənin adamı deyildi, başqa planetdən gəlmişdi. Görünür, təbiətilə yanaşı, şairliyi də onu bu günə qoymuşdu. Yaşar

Qarayev, Tofiq Hacıyev kimi Hüseyn də yaxşı oxuyurdu. Çoxlarından seçilirdi. Elə gecə-gündüz universitetin kitabxanasından çıxmırdı.

Bir gün axırıncı dərs qurtaranda əlimi cibimə saldım. Gördüm, 25 manat pulumu itirmişəm. Ha dedim, ha soruşdum, gördüm deyən olmadı. Qanı qara getdim evə, götür-qoy elədim. «Kim götürər»i fikrimdə gəzdirdim. Səhər dərsə gələndə mehriban gülüşü ilə Hüseyn mənə yaxınlaşdı. Pulu mənə uzadaraq, dünən yerə düşəndə mən götürmüşdüm, - dedi. Yoldaşlarımla gedib şirin-şəkər şeylər aldıq. Yedik bir yerdə, gülüşdük bir yerdə». Zivər xanıma dedim bunu xatirəyə daxil edəcəm. - Mən yazmaq üçün demədim ha. Səndən nə desən çıxar. Yazıb məni biabır eləmə...

Azərbaycan Yazıçılar İttifaqının doqquzuncu mikro-rayonda bir kooperativ binası vardı. Nədənsə eyni bir mənzili mənə də söz verirdilər, Hüseyn Kürdoğluya da. Məsələ xeyli ciddiləşdi. Arada kiçik bir soyuqluq da yarandı. Bir gün Hüseyn gəldi yanıma. Əhvalatı ətraflı şərh elədi. Və utana-utana: «mənim evim yoxdur, uşaqlar da böyüyürlər. Kirayə tutmağa da siz bilirsiniz ki, imkanım yoxdur» - dedi. Bir qədər sarsılmış kimi oldum. Baxışlarımız qarşılaşdı, bir-birinə dəydi-toxundu. Və «sən Allah, məni qəhərləndirmə, mənzil artıq sənindi. Xoş güzəran keçir, oğul evləndir, gəlin gətir» xeyir-duasını verdim. Halallıq aldığı üçün sevindi, min-nətdarlığını bildirdi.

Məclislər yaraşığı akademik Əlisöhbət Sumbatzadə Qafqazın əvəzolunmaz tamadası kimi tanınırdı. Mən də bu böyük alim, gözəl insan, el ağsaqqalından həm tarix elminin sirlərini, həm də tamadalığın bəzi məqamlarını öyrənmişdim. Yeri düşəndə, dost-tanış məclislərində əməlli-başlı toybabalıq edirdim. Bir gün Hüseyn Kürdoğlu tələbə yoldaşı Zivər xanımı və məni oğlu İlhamın toy məclisinə dəvət etdi. Musiqinin sədaları başlayar-başlamaz Hüseyn bizə yaxınlaşdı: «Teymur

qağa, bu toy da sizindi, məclis də. Xahiş edirəm, məclisə başçılıq edəsiniz. İnanın, bu, mənim çoxdankı arzumdu. Axı mənlə bərabər siz də istəyirsiniz ki, İlhamın toyu mənalı, məzmunlu, həm də şən keçsin.» Gözlənilməz qəfil təklif məni çaşdırsa da, tez özümü ələ aldım və məclisə rəhbərlik etdim. Çal-çağır meydan aldı. Sağlıq sağlıq ardınca, rəqs-rəqs axarınca. Süzən kim, sındıran kim. O zaman gənclərə tövsiyə elədiyim bəzi mətləblər indi də xatirimdədi: «İsmətli qız qeyrətli oğula qismət olanda həyat mənalı keçər, ömür uzun olar, şirin olar. Bir-birinizə can deyin, can eşidin. Qoşa yarıyın, qoşa qarıyın. Sayrışan ulduzlarınız görüşsün. Nişan üzüyünüz nə barmağınızı sıxsın, nə barmağınızdan düşsün. Müdam üzüklərə baxın, sevinin, xatırlayın.» Hüseyn bərk həyəcan keçirirdi. Tez-tez yanıma gəlir, razılığını bildirirdi. Nə gözəl günlərdi, İlahi!

Maraqlı bir məsələni də xatırlatmaq yerinə düşərdi. 1983-cü ilin yayında Hüseyn Kürdoğlu doğma elinə istirahətə gedibmiş. Eşidib ki, bir nəfər təsərrüfat işilə məşğul olarkən torpağın dərin qatından içərisi gümüş sikkə ilə dolu bir küp tapıb. Xəzinəni bir neçə yoldaş öz aralarında bölüşdürüblər. Və belə güman ediblər ki, gümüş sikkələrin tərkibində qızıl qarışığı var. Hətta tərkibi yoxlamaq üçün tədbir də görüblər. Hadisədən xəbər tutan Hüseyn müəllim tələsik işə qarışır. Və camaata bildirir ki, bu tapıntı təkcə kəndimizin deyil, xalqımızın tarixinin qaranlıq səhifələrinə işıq sala bilər, çox mətləblərə aydınlıq gətirər. Ona görə də tapanlardan xahiş edib ki, sikkələri aparıb Laçın diyarşünaslıq muzeyinə təhvil versinlər.

Hüseyn müəllim Bakıya qayıdarkən dərhal Azərbaycan Elmlər Akademiyası Tarix İnstitutuna məlumat verir. Tarix İnstitutunun elmi işçisi Abuzər Ələkbərov hadisə yerinə ezam edilir. 224 ədəd gümüş sikkə camaatdan alınır. Tapılan sikkələr Bakıda öyrənildikdən sonra yenidən Laçın diyarşünaslıq muzeyinə təhvil verilir.

Necə bir tarixi əhəmiyyətli pul dəfinəsi kimi. Araşdırmadan aydın olur ki, sikkələr Səfəvilər hakimiyyəti zamanı Təbriz, Ərdəbil, Xoy, Naxçıvan və Gəncə şəhərlərində zərb edilib. Buydu, Hüseyn Kürdoğlunun elmə, torpağa, xalqa bağlılığının bariz nümunəsi...

Zaman öz hökmünü verdi. Təbli şair, qüdrətli şair, sevimli şair kimi püxtələşdi, sayıldı, seçildi. Şairlər cərgəsində sıralandı, öz baxışı, sehrli şerləri, öz səsi, öz nəfəsilə. Nə yazdısa ürəkdən yazdı, ürəyilə yazdı. Bu qoşa qanadlı insanın sağ qanadı şairlik idisə, sol qanadı alimlikdi, araşdırıcılıqdı. Onun şerləri kimi elmi əsərləri də dəqiq, dürüst, dərin məna və məzmunlu idi. Gərgin əməyi, çalışqanlığı nəticəsində özünə layiq miras qoydu. Alim kimi dərin bilik sahibiydi, ümumiləşdirmələrdə mahirdi. Güclü məntiqə, qeyri-adi müşahidə qabiliyyətinə malikdi. Təbii şair kimi, həm də təbii, istedadlı tədqiqatçıydı. O da həqiqətdir ki, Hüseyn heç kəsə əyilməz, qürurlu gəzərdi. Şan-şöhrətdən uzaqdı. Heç kimdən pay ummazdı.

Son illər daha qaraqabaq, fikirli, xəyallı, dərdli-ələmli görünürdü. Yazıq-yazıq, məlul-məlul gəzirdi. Sanki dünyanın qəmini çəkir, içində sağalmaz dərd gəzdirir, çiynində qurğuşun yükü daşıyırdı. İstəyirdi heç kəsə görünməsin, tək-tənha gəzsin, öz aləmində yaşasın. Dərdi bilinməz Hüseynin dərdi çəkilməz olmuşdu, sınır, sıxılır, heç nəyə dözmür, heç nəylə barışmaq istəmirdi. Elə bil bezmişdi həyatdan, küsmüşdü hamıdan. Getmək istəyirdi, köçmək istəyirdi, vidalaşmaq istəyirdi bu yalan, yaman dünyayla. Nə isə...

Bəlkə də dünyanın gərdişiylə barışmırdı. Bəlkə də ölkədə baş verən dəhşətli hadisələr onu yaman günə qoyur, didib-parçalayırdı. Bəlkə də qərib-qərib, qəmgin-qəmgin bizlərə sarı həsrətlə boylanan cənnətməkan Molla Əhmədli elinin axar-baxarı, dağları, zil dərələri, ürək açan mənzərələri şairi yandırıb-yaxırdı. Bəlkə də bulaq başında, göy talada sevgi tilsiminə düşdüyü anlar onu

yaman günə qoymuşdu. Ulularının, valideynlərinin, qohum-əqrəbanın lal sükutda uyuyan məzarları, yadların əsirində olmaları Hüseynin ürəyinə köz basır, göyüm-göyüm göynədirdi. Bəlkə də o yerlərə bir də dönə bilməyəcəyi ümidsizliyi onu xəstəliyə düçar etmiş, sağalmaz yaraya çevirmişdi. Bəlkə də...

Bəşər övladı insan təbiətin tacı, yer üzünün əşrəfidi. Hüseyn öz bənzərsizliyini saxlamaqla şərəfli, ləyaqətliydi, sədaqətli insandı. Hamıya nümunə olan insan şəxsiyyəti bütöv, arzusu, əməli safdı, təmizdi. Qəribədi, nədən yaxşı insanları, istedadlıları, qeyrətliləri üzü boz, qəlbi soyuq torpaq tez qoynuna alır, öz dünyasına qovuşdurur. Hüseyn Kürdoğlunu da belə.

Hamı gəldi-gedər dünyaya qonaqdı. Yalnız geci-tezi var. Qalan onun qoyub-getdiyi nişanələri, yadigarlarıdı. Həyatla, zamanla barışmaq gərək. Bizlərə Hüseyn müəllimin kamal dünyasının məhsulu olan zəngin irsi qaldı, adı qaldı, sanı qaldı. Bir də doğma, əziz övladları. Biz də onun ruhunu şad eləmək istədik. Qəbrin nurla dolsun, yerin behiştlik olsun, - deməklə təsəlli tapdıq.

# HÜSEYN KÜRDOĞLU HAQQINDA XATİRƏLƏRİM

Yaşadığımız bu dünyada insanları biri-birinə bağlayan tellər ayrılıq gətirən yarğanlı-yoxuşlu keçilməzlikdən, hündür-qalın arakəsmələrdən çoxdu. İnsanla insan arasında yaxınlıq yaradan ünsürlərdən biri, deyək ki, - kiminsə kiminləsə içəridən-içəriyə oxşarlığıdısa, ya da yaşdaşlıq-taytuşluq, qohumluq-qançəkərlik, ya da qan yaddaşıdısa, biri də yol birliyi, o yolu yola çevirən əqidə-amal oxşarlığı, peşə eyniliyidi. Eyni yolun yolçuları kimliyindən, haralılığından asılı olmayaraq biri-birinə daha tez uyuşub-isinişirlər. İnsanlar görüb-başa vurduqları hər hansı işin dəyərini peşə dostlarının gözüylə ölçüb-biçməyə maraqlıdı. Ancaq bu baxımdan da hər adamın çox yox, uzağı, iki-üç könül düşərgəsi olur. İnsan ürəyinin qapısını başadüşəninə açmaqdan ötrü elə bil kimisə arayıb-axtarır, kiminsə yoluna göz dikib gözləyir. Axtardığını tapanda dərindən nəfəs alır. Belə tanışlıqlar illəri arxada qoyduqca ilmələnib-bərkiyib dostluq-doğmalıq ayrılmazlığına çevrilir.

Mən Hüseyn Kürdoğlu (Alışanov) adını ilk dəfə əllinci illərdə atamdan eşitmişəm. Onda yaz köçünü Qarabağdan üzü Laçın yaylaqlarına qaytaran bir oba aran axşamını bizimlə qonşuluqda keçirmişdi. Salam-əleykdən sonra o çöl, o yol qonşularının Laçın bölgəsinin Əhmədli, daha doğrusu, Molla Əhmədli kəndindən olduğunu bilən atam Əli oğlu Əlqəmə öz söhbətdaşına üz tutub: - Ə, qardaş, deyirlər sizlərdən yaxşı bir şair çıxıb, indi o hardadı? – sualına – hə, şirin yazır, özü də hələ oxuyur – cavabını aldı, alıb da Allaha şükür elədi.

Sonrakı illərdə mən Hüseyn Kürdoğlu imzasını qəzet-jurnallarda görür, sevinir, deyəsən hələ qarasınca için-için öyünürdüm də. Hüseynin qafiyəli deyimləri,

duyumları, dili-tavazası mənə bir köynək yaxın görünürdü.

İlk tanışlığımız 1968-ci ildə baş tutdu. İşçisi olduğum «Ədəbiyyat və incəsənət» qəzetinə gəlmişdi, özü də şersiz-flansız. «Gəlmişkən yazı-pozu gətirərdin» iradımı «-Yox ey, dedim sənnən tanışlaşaq…» cavabıyla gücdən saldı.

Beləcə, ala gözlü, qıvrım telli, abrı üzündən yağan yar-yaraşıqlı Hüseyn Kürdoğluyla yüz ilin dostu-doğması kimi görüşüb elə o cür də ayrıldıq. Həmən ilin içində evinə qonaq çağırmışdı məni. Günümüzü gözəlləşdirən, duruldan onun əlyazmadan oxuduğu şerlər oldu. Ayrı-ayrı qələm adamlarıyla, aşıqlarla dadlı-duzlu, qafiyəli yazışma seçmələrini də oxudu Hüseyn. O illərdə hansı uğurunusa bayramlaşdırıb Buzovna kəndində yaşayan yaxın qohumunun həyət-bacalı evində başqa bir sözlü-sazlı qonaqlıq da düzənləmişdi qohuma qanarlı, dosta istiqanlı olan eloğlum. Orda şair Qasım Qasımzadə, həkim-professor Gürşad Hüseynov, iqtisadçı alim Həbib Şirinov, kimlər, daha kimlər vardı. Hələ gedən başı sükan arxasında gözəl mahnılar oxuyan Həbib kişinin aynaqlığı heyran qoymuşdu hamını. Qonaqlıqarası baxça gəzintisində də o görkəmli, o samballı, o sayılan kişilər Hüseyn Kürdoğlunun özünü asanlıqla əzbərlədən şerlərindən deyir, bir ziyalı kimi onun insani dəyərlərindən ağızdolusu danışırdılar. Mənsə deyilənləri dinləyir, qələm qardaşımın hörmətli-urvatlı tutulmasına sevinir, yaradıcılığı adamlığına, adamlığı yaradıcılığına yaraşan bir ustadın ucalığını görür, duyur, hələ desən, örnək də sayırdım onu.

İlk uzun yoldaşlığımız 1970-ci ilin yayında onun doğma kəndində – Əhmədlidə oldu. Yadımdadı, Hüseynin qaynaqları qaynayan, havası bal qoxuyan qocaman kəndi. Yadımdadı şairin anası, əmiləri, qohum-qardaşları. İndi tanınmış alim kimi ad açmış Şirindil Alışanov (Hüseynin kiçik qardaşıdı) onda hələ orta məktəbdə oxuyurdu. Hüseyn yaman çox istəyirdi doğmalarını, qohumlarını,

kəndçilərini. Kəndin qaya meşələrini, Abad-Xeyir deyilən gözəllik dərəsini, yaradıcılığının qaynaqlandığı yaylaqları, bulaqları elə ağızdolusu öyürdükü o… ilahi ilham ocağına ilahi baxış işıq salırdı biri-birinə. Onda Hüseyn Kürdoğlu 1918-ci illər savaşlarında əhmədlilərin ermənilərə necə tələ qurmasından, onlara necə üstün gəlməsindən də alaşalı-küləşəli halda danışırdı.

İşıqlı dağının döşündə qərarlaşan Qara gölə səfərimiz başqa bir aləmiydi. Ondan bir gün öncə mən obaşdan Laçındakı hərbi komissarlığın qabağından keçərkən yaşı yetmişi ötmüş bir nənə evinin bircə başıpapaqlısı olan nəvəsinin əsgərlikdən saxlanılması xahişini eləmiş, məndən kömək diləmişdi. Məni borca salan oydu ki, o el ağbirçəyi gözlənmədən qarşımı kəsmiş, yerə çöküb dizlərimi qucaqlamış, ona yardım əlimi uzatmağı ağlaya-ağlaya diləmişdi. İndi iş elə gətirmişdi ki, bölgə hərbi komissarının özü bizə «sürücülük» edirdi. Belə ki, komissar respublikanın hərbi nazirliyindən gəlmiş hörmətli qonağını – əslən Laçının Mişni kəndindən olan Mahmud Məmmədovu bizimlə qoşalaşdırıb gəzinti qulluğunu götürmüşdü boynuna. İndi Qara göldə ayrı bir tamaşa vardı. Gölün arxa söykədiyi İşıqlı dağının başı qatı-qara, döşü duru-ağımtıl dumana bürünmüşdü. Gölün üzündə də, altında da çöl quşları üzüşürdü. Açılana əl atmaq heç yada düşə bilməzdi. Biz gölün içərisinə doğru irəliləyib suda köklənmiş daşların yuxarı qalxmış qurusunda oturmuşduq. Eyvaz Yusifov da burdaydı, Bakıdan yaylamağa yollandığı kəndindən hay vurub qələm qardaşlarının görüşünə gəlmişdi. Özü də respublika radiosunda müxbirlik edirdi. Üstəlik də mənim çalışdığım filologiya fakültəsinin axşam bölməsində oxuyurdu. Eyvaz bizi Laçında axtarmış, sorağımızı alıb gəlmişdi Qara gölə. Gələndə hər hava üstündə danışdıra bildiyi sazı da götürmüşdü özüylə. Hə, hə, bu 1970-ci ilin yayında baş vermişdi. İndi biz suyun ada daşında oturub süfrə açmışdıq. Eyvaz «Yanıq Kərəmi» çalırdı. Qalanlarımız ya təklikdə,

ya da birağızdan alçaqdan-alçaqdan oxuyurduq. Hamımız da Hüseyn Kürdoğlu qoşması, gəraylısı üstündə gumuldanırdıq. Ayrı tamaşa vardı burda. Hamı yuxalmışdı. Ağlayanın biri də komissar idi. Birdən o əyləşdiyi daşın üstündən yaşlı gözlərini yanar gözlərimə zilləyib, gur səsinə güc verib keçdi aynaqlığa…

– Hə!.. belə-belə işlər.

– Belə-belə işlər… gözəldi, doğrudan gözəldi Talıb qardaşım.

– Yox, qardaşın inciyib səndən.

– Nə pisliyimiz dəyib görəsən bu paqonlu igidə?

– Sən o dizini qucaqlayana elə ordaca birbaşa söz verəydin gərək.

– Orda baş verənləri bu qaçaraqla kim qoymuş ola komissarın ovcuna?

– Eh, ay sağ olmuş, hərbiçidən nəyi gizləmək olar axı? Hamısından halıyam. Düzünü bilmək istəsən o kiçik səhnəli tamaşanı mən özüm görürdüm pəncərədən. Qardaşın o nənənin nəvəsinə bir azar şəbədəsi yazdırıb-qoşdursun ki, o cılız-cındırlı bala Urusetdə ev tikmək nədi, heç qar kürüməyə də yaramasın…

Onda, söhbətin bu yerində göl qonşumuz olan anaş quşlardan biri havaya qalxıb başımız üstündə qığıldadı, – bunu o çağırışçı oğlanın gəlinkən ölmüş anasınınmı, ya belibükük nənəsininmi ruh alqışına yozub söhbətin yanaqlarda yaş yandıran kövrəkliyini gülüş gətirən çölçü çıldırmasıynan əvəzlədik. Gülüşün ağrını ağrıdıb-göynədən anında Allahdan olurmuş kimi, könlümüzü şənliyə sürüyən başqa bir olay baş verdi: hərbi komissarın Bakıdan gəlmiş o mişnili qonağı bizdən üç-dörd addımlığa aralı, gölün qırağındaca şaqqır-şuqqur qaynayan bozartma tavasının yandığını düşünüb heç nə demədən yüyürdü ocağın yanına; orda qoyulmuş – birində su, o birisində salyarka olan iki oxşar çaydanın salyarka olanını əndərdi buğlanan tavanın içinə. Yerli qonağın pərt olduğunu görən Hüseyn Kürdoğlu komissara anlatdı ki,

darıxmasın, - indi Ağa onu özünə qaytarar. Doğrudan da, Hüseyn haqlıydı, kef pozub mısmırıq sallamağa heç bir tutalğa-mutalğa yoxuydu. Yeməyə gəldikdə, dünya onun üstündə qurulmayıb ha. Ona qalsa, süfrədə hər şey vardı: axtarma pendir, sərmə çiyə, beçə balı, hər cür mer-meyvə, göy-göyərti... Sazın havasına oynayıb-süzmək elə bil aynaqlıq gününə yeni başlanğıc gətirdi. Mayor elə gözəl yallı getdi ki, Hüseyn qol götürüb oyuna girdi. Yüz ilin ağrı-acısını candan siyirib çıxardan bir gün idi o gün...

Haman ilin yayında Laçın-Qubadlı səfərinin baş-langıcını Laçından üzüaşağı Həkəri boyunca götürmüş, Zəngilanda, Qubadlıda gəzməyi, görüşlər keçirməyi nəzərdə tutmuşduq. Ondan bir il öncə biz ikilikdə Qubadlıda olmuş, görüşlü, tanışlı-bilişli günlər keçir-mişdik. Qubadlıda bəlli olmuşdu ki, Hüseyn Kürdoğlu orta məktəbin bir hissəsini bu bölgənin Mollu və Xanlıq kəndlərində oxumuş, üstəlik də özünə sanballı dostlar qazanmışdı.

Onun məktəb yoldaşlarından – yaşıdlarından biri «Hüseyn mənim qardaşımdı» deyən Məsudə Rüstəmova onda o bölgəyə başçılıq edirdi. Başçı bacı bizi orayacan mərhəm saydı ki, bulaqüstü gəzintilərə getməzdən öncə səhər qəbulunu elə bizim iştirakımızla apardı. Kabinetin bir küncündə Hüseynlə baş-başa oturub çay içirdik. Bölgənin prokuroru, məhkəməsi, hələ desən milis rəisi də burdaydı. Katib orda misallar çəkə-çəkə, sübutlar gətirə-gətirə orqan işçilərini o ki var danladı. Onları yurddaşların şikayətinə düzgün baxmamaqda suçladı, bir az da hədələdi. O paqonlu-paqonsuz orqan işçiləri də qaba-ğından yeyən deyilmişlər. Onlar bir ağızdan danışır, qanunçuluqdan dəm vurub Birinci katibin onlara qara yaxdığını deyirdilər. Söhbət yoxuşa dirənəndə Hüseyn o məhkəmə sədrinin kimliyini, kimlərdən olduğunu soruş-du. Deməyəsən, bu qabağından yeməz oğlanın atası şairin dostuymuş. Məhkəmə sədri «mən bu kişinin - Hüseyn

Kürdoğlunun yanında hətərən-pətərən danışa bilmərəm»- deyəndə o gərgin deyişməyə son vuruldu. Günün çoxunu bulaqlar üstündə keçirdik. Qabağa acı içki gələndə başçı qadın qonaq qardaşlarını sıxıntıya salmamaq üçün çəkilib oturdu bir qıraqda.

Ertəsi gün Qubadlıdan yollandıq Zəngilana. Biz gəlincə hazırlıq görülübmüş. Şəhər idarələrində, kəndlərdə oxucularla görüşlərimiz sıx-sıx keçirilirdi. İstirahət də cana yatır, ürəkdən tikan çıxarırdı. Zəngilanın cənnət görkəmli, cənnət musiqili çinar meşəsində gəzinirkən, meşədən yuxarıkı qalxımda saqqız ağacından saqqız yığırkən, suyu sozalmış-azalmış çaydan eləcə əlimi uzadıb başını yaş daşların altında daldalamış balıqlardan tuturkən, bunlardan da gözəli: çinar yarpaqlarının çoxalətli çalğısını dinlərkən mən o səfərin, o gəzintinin tarixini qocaman bir çinarın beşbarmaqlı yarpağına yazıb-yapmışdım. Onun oxunuşu belədi: «Qubadlı-Zəngilan, Ezamiyyət, 13-17 iyul, 1970. Ağa Laçınlı, Hüseyn Kürdoğlu».

1971-ci ilin yayında da biz Qubadlı-Zəngilan tərəflərə Laçından yol götürmüş, üzüaşağı Həkəri boyunca üçlükdə gəlmişdik: Hüseyn Kürdoğlu, Sabir Rüstəmxanlı, bir də mən.

Sabir Rüstəmxanlı həmin səfərin ayrı-ayrı cizgilərini özünün «Ömür kitabı»nda qələmə alıb: «... Laçına ilk gəlişimdi... Yoldaşlarım gecikmişdilər, iki gün mehmanxanada tək qalıb onları gözləməli oldum». «Sevinirdim ki, yoldaşlarım gecikib, Laçında heç kimə xəbər vermədən öz ürəyimlə baş-başa qalmaq istəyirdim». Ardınca: «neçə gün dağları gəzib-dolandıq, Həkəri çayının gur sularında çimdik». Yaddaşı aldatmayıb Sabiri. Laçından üzüarana getdikcə isti bizi tıncıxdırır, canımıza gicişmə salırdı. Sağ əldə axan Həkəri dalğa əlini azacıq yuxarı qaldırıb-yellədib çimişməyə çağırırdı bizi. Çimib-sərinləşib, sərələndik qaynarlığı özündən hündür qaya qonşusunun kölgəsində azalan, çayın bir döngə daldasında yastılanan

hamar qayaların üstünə. Toxtaxlıq sərinliyində kefimiz şırtıq çalırdı. Deyib-gülürdük. Birdən Hüseyn Kürdoğlu üzü avazımış halda dedi: - Bir buna baxın ey, çayın gurrahında çimib-çabalarkən çarpanaqlı daş ayağımı çapıb-doğrayıb. Hüseyn yarasını göstərəndə ah-uf oraları götürdü. Öncə qorxuşduq. Baxanda gördük ki, qorxulu heç nə yoxdu, dostumuzun ayaq barmağının birində bap-balaca, nəppə-nəzik bir cızıq var. Ancaq suyun qanı çox yayıb çox göstərməsi onu xoflandırıb. Di gəl ki, Hüseyn ilan sancmasını da dilə gətirdi. Bir də göz qoyduq, heç bir ilan-çayan dişinin-mişinin izi yoxuydu orda. Bu qorxunun qorxusuz olduğundan arxayınlaşan mən o biri yoldaşlara (yolumuzu yüngülləşdirmək amacıyla Laçın məsul-larından birini bizə qoşub qonaqlardan göz-qulaq olmağı ona tapşırmışdılar) him eləyib başladım iki əlimlə başıma döyməyə. Nəriltisi kefiköklükdən gələn olmazın bir şaxsey-vaxsey salıb dedim ki, yıxıldı evim, qaraldı ocağım, bu yara sağalan yaraya oxşamır heç. Bu «deyin-gənlik, bu başadöyməklik» vur-tut üç-dörd dəqiqə çəkdi. Gördüm yox ey, Hüseyn urva kimi ağarıb, özündə deyil. Onda açıldı gül ağzım, nə açıldı: vasvasılığına görə bəs deyincə qınayıb doğmalıq topuna tutdum onu. Beləcə qardaş kimi istədiyim istəklim yavaş-yavaş özünə gəldi. Gülümsündü.

Zəngilanda dağlı-aranlı kəndlərin bir çoxunu gəzib-gördük. Bu azmış kimi qədir bilən, yol saxlayan ev yiyələri bizi oraya yaxın olan Qafan dağlarına da apar-dılar. O meşəli dağ elə bil öz görkəmini mənim Oğuldə-rəmə yaxın olan Qədimin meşəsindən, Dəmirçidağın axar-baxarından götürmüşdü. Orda olduğumuz ilin-günün tarixi ona görə yadda qalıb ki, biz orda yeyib-içərkən o tala çəmənində, o bulaq üstündə mənim 1971-ci ilin 15 iyulunda Bakı qəzetlərinin birində məqaləm çap olunmuş qəzetin elə yalnız mənə aid parçası ətirli kölgəsi üs-tümüzə düşən həmərsin koluna ilişib qalmışdı. Biz, necə deyərlər, o məqaləli qəzetlə dal-qabaq, dabanqırma gedib

çıxmışdıq o dağlara. Zəngilanda da şerli-söhbətli görüşlərin çoxu adamların iş yerində keçirilirdi. Bir dağüstü tarlada-kövşəndə biçinçilərlə eləcə mərzlərin arasında söhbət aparmalı olduq. Orda kombaynçılar kombaynı əylədilər, küləş-bəlim tayaçıları da yığışıb gəldilər o maşının kölgəsinə. Çıxışımız yaxşı eşidilsin deyə dırmaşıb qalxdıq kombaynın üstünə. Bu hündür kürsü əlverişliydi. Sürücü oğlan sükan arxasında oturub çıxışlara açıq pəncərədən qulaq açırdı. Sıra Sabir Rüstəmxanlıya çatmışdı. O, yuxarıdan – təkərli kürsüdən sinirli bir səslə şer yağdırırdı aşağıya. Birdən kombayn yelləndi əliyenişə – sıldırıma sarı. Biz yapışmağa tutalğa axtarırkən dinləyicilər qışqırışdı. Maşın dayandırıldı. Xatadan sovuşduq. Demiyəsən düşüncəsi şerə tikilən sürücü özündən asılı olmayaraq öyrəncəli əlini uzadıbmış sükana. Maşını saxladıqdan sonra necə yanlışa yol verdiyini anlayan oğlan tir-tap getdi özündən, ancaq onun ayılması uzun çəkmədi. Kombaynçı oğlanın tez ayılması, özümüzün salamat qutarmağımız hamı kimi Hüseyn Kürdoğlunu da çox sevindirdi. Dedi ki, şer səfərində qana düşmək heç yaxşı olmazdı. Bizi çimçəşdirən bir də oydu ki, bu cür ölümlərin yozumu vurub başdan aşır. Axı şaiyə də böhtan kimi qırxayaqlı, qırxqanadlı, qırxdilli iblisdi, yerişə-uçuşa başladımı bir göz qırpımında qovzayıb-bürüyəcək hər yanı. Kəs görüm qarşısını necə kəsirsən onun. Tanrı qorusun bizi belə ağrılı loğazlardan.

Bərdəyə getmişdik Hüseyn Kürdoğluyla birlikdə. Hüseynin orda yerləşmiş, yerlilənmiş doğmalarının, dostlarının əhatəsində idik. Raykom işçilərinin aparacağı görüşlərə çox yaxa tutdurmurduq. Oranın prokuroru da Hüseynlə yaxınmış. Prokuror bizi evinə qonaq çağırdı, şerlərini oxudu. Ancaq qonaqlarını üzü Kəlbəcərə, dağlara, sərinliyə sarı aparmazdan, şehli-çiyələkli talada ayaqyalın gəzdirməzdən, dişgöynədən bulaqlardan içirməzdən, özünü də, özümüzü də gəraylı, sarıköynək havaları üstündə oxutmazdan öncə, o qanun qoruqçusu bir növ

gizlin halda Bərdənin ulu sakinlərindən biri olan iri gövdəli bir çinarı göstərdi bizə. Bəlli oldu ki, içində yaşadığımız imperiyanın otuz yeddi damğalı o tutqu illərində onlarca, yüzlərcə işıqlı adamlarımız heç uzağa aparılmayıb, elə o çinarın dibindəcə güllələnib, o çinarın dibinə quyulanmışlar. Orda o başdaşı çinara söykənib üçümüz də hönkür-hönkür ağladıq. Kimə dəyməyib ki, o güllə bizim bu qapazaltı məmləkətdə? Əlimizdən ayrı nə gələsiydi? – həmd-surə oxuyub vidalaşdıq «qəbri» yiyələrindən gizli qalan ölülərdən. Günün qalan saatlarının hamısını meşə gəzintisində başa vurduq.

70-ci illərin əvvəlində baş verən bir əhvalat da xatirimdən silinmir. Hüseynlə birlikdə Bakıdan Laçına yollanmışdıq. Qarakeşdiylə Kamallı kəndi arasında torpaq savaşı düşdüyünü orda eşitdik. Bədii ədəbiyyatın Təbliğ Bürosundan möhürü pul gətirəsi kağız-kuğuzu yenə də özümüzlə götürmüşdük. Laçında işləri sahmana salıb Kəlbəcərə aşmağı almışdıq göz altına. Ancaq nədənsə Laçında yetən deyirdi ki, o qanı yatırtsanız yalnız siz yatırda bilərsiniz. Niyəsini soruşanda deyirdilər ki, o camaat düzgünlüyü sevən, halalı haramdan seçməyi bacarandı. Özlərinin sanballı ağsaqqalları az deyil. Görünür bu dəfə onların bu işinə heç birinə qohumluğu çatmayan, tərəzinin gözünü əyməyən qıraq adamın qarışması gərəkdi. O da var ki, o camaat qarın otaran, cib dolduran çinlidən-vəzifəlidən sayıb-çəkinən deyil. Onlar hər yetirənə yendirməzlər. «Bir halda ki, belədi… əgər bir ellik qan bizim sözümüzlə səngiyərsə…» Bu uğurda Hüseynlə mənim düşüncəmdə haçalıq duyulmadı. Yollandıq Qarakeşdiyə. Orda o qovğalı yerdə sünbülü sütüllənmiş arpa tarlasını traktora çığnadıb ortasına bir bıçaq enində zey çəkmişdilər. Cızılmış-qazılmış aranın o üz-bu üzündə iki QAZ-51 maşını burun-buruna durmuşdu. Bəlli oldu ki, maşının yüklüyündə-kuzovunda keşik çəkənlərin ayağı altı yaraq-yasaqla, çomaqla-dəyənəklə doludu. Doğrudan da qan iyi gəlirdi hər tərpənişdən. Biz kəndin

ortasında dayanmışdıq. Kimliyimizi bilənlər də, bilməyənlər də nədən ötrü gəldiyimizi kəsişdirir, acığını yatırdıb yanımıza daşdanır, xoş gəldin eləyir, bizi çaya-çörəyə çağırırdılar. Bizsə, yeyib-içmək hayında deyildik. Bununla belə, qonağa olan hörmət sözümüzün keçməsinə umudu artırmışdı bir az. İşi çətinləşdirən oydu ki, bu torpaq qovğasının dədə-babadan bəri dolaşıq tərəfləri varmış. Uzun çək-çevirdən sonra bir neçə kişi yumşalan kimi oldu. Bu yola yaxınlaşma anlarında altındakı boz atı eləcə çılpağına minib qaranəfəs eləyən bir qoca gəlib çıxdı söhbətin üstünə. Özü də eşib ulu keçmişin qara sandığını, tökdü ortaya qara pambığını. Dedi bala, elə fitvanın ağırını mən vermişəm: nolajax, hər tərəfdən beş-üç adam öləndən sonra bütün bu işlər düşəcək yoluna. Üstəlik də qoca qoçaq vurğuladı ki, bala, ta kişi olan namus yolunda, torpaq uğrunda ölməyi bacarmırsa onda niyə papaq gəzdirir başında? Qoca azman qonaqla yaxşı davranırdı. Çörəyə oturmamağımız ona da yer eləyirdi, di gəl ki, torpaq savaşından danışanda ağzından qan tökülürdü onun. Hüseyn Kürdoğlu qocanın öz adamlarına kürdcə dediklərini rusca mənə pıçıldayıb bildirdi ki, burda ağır işlər baş verə bilər, bərk durmaq gərəkdi. O fitvaçı qocanı ağrıdan bir də oydu ki, axı niyə iki qohum-qonşu kənd biri-birilə dil tapa bilmir? – ona görə onu qınamaq da yersiz olardı. Söhbəti evdə yox, kəndin ortasında eləməyimiz mənliyini canından çox istəyən kişilərə toxunurdu. Bərk durmağımızın səmərə verəcəyinə inam işartısı duyulandan sonra biz qələm dostumuz olan jurnalist Hüseyn Həsənovun evini seçdik. Kəndin başbilənləri də oturdu bizimlə üz-üzə. Süfrə açılanda Hüseyn Kürdoğluyla himləşib «barışığa söz verilməyincə çörək kəsən deyilik» atmacasını atdıq ortaya. Hamı kiridi. Ağsaqqallar avazıdı. Allahdan savayı heç kimdən qorxmağı ağlına belə gətirməyən bu azman kişilər kürdcə nəyisə biri-birinə deyəndə burmabığlı, aslan biləkli yeniyetmələr də ağsaqqallardan izn alıb sözə qarışdılar.

Hüseyn Kürdoğlu deyilənləri ruscaya çevirib gedişatdan bala-bala halı edirdi məni. Sən demiyəsən, qanından-canından mərd olan ev yiyəsi (Hüseyn Həsənovun rəhmətlik atası) «Ə, ağsaqqal belə olar da, görmürsünüz daş qayayla üzləşib» deyimini dilə gətirib, barışıq yolunu açmağı işarə edib, bizi sındırmağa qıymayıb. Öləninə rəhmət, qalanına cansağlığı, çətinliklə olsa da axır ki, Qarakeşdi ağsaqqalları yola gəldilər. Süfrə elə bil bolluq sərgisiydi. Bir az bundan öncə biz qapıya düşən kimi eləcə gözümüzün qabağında iki erkək əngizlənib cıvırıqdan çıxarılmışdı. Əlibol kişi qurbanlığın birini külkülfəti, birini də qonaq-qarası üçün kəsdirmişdi. Başqa təamlarla yanaşı, bir erkəyin bozartması qalaylı mis məcməidə qoyulmuşdu qarşımıza. Qoca azman göz qoyub görər ki, oturanlar özünə pis qulluq eləmir, bircə Hüseyn Kürdoğludan savayı… O, elə bir ucdan tikələri marıttayır, bunu götürüb onu qoyur, heç birinə də ürəkdən girişmir. Bunu sezən ev yiyəsi birdən üzünü Hüseyn Kürdoğluya tutub sərtvari bir ata ərkiylə dedi: - Ə, bura bax, bilirəm Əhmədlidənsən, kimlərdən olduğunu da yaxşı bilirəm. Adın bu mahala sığışmır. Di gəl ki, çörəyi çox ölüvay yeyirsən. Kişi kişinin çörəyini dırtmalamaz, ya ürəkli giriş, ya da çəkil bir qırağa qatıqdan-doğadan hortdat, bu dişdi kişiləri iştahdan salma. İndi canının dərdindən bozartmaya girişən Hüseyn Kürdoğlu gülə-gülə ev yiyəsinə üz tutdu: - Əşi, əmi, eldən-evdən əskik olmayasan, ancaq sən bu Ağaya elə bir zarafat girəvəsi verdin ki, elə ömrü boyu qoşa nağarada çalacaq bunu (şair qardaş düz duymuşdu: arabir yada düşürdü o «dırtmalama» deyimi).

Ertəsi günü üz tutduq Kamallıya. Kamallılar çağırışsız-göndərişsiz haya gəlməyimizi bəyəndilər, bizi istiqanlı qarşıladılar, bizə sağ ol dedilər. Bununla belə, günortadan günbatanacan çənə döysək də buranın ağsaqqalları barışıq yoluna yaxınlaşmaq belə istəmədilər. Yalnız axşam toranlığında Kamallının mərd kişiləri

kürdcə qonuşub-pıçıldaşıb türkcə ucadan: «De Bakıdan yol döyüb gəliblər, bunnarı eşitmamax da çətindi axı…» Ancaq bu yolagəlmə işarəsinə pəl vuran tapıldı.

Kürdoğlu yenə ürəklənib rusca anlatdı ki, sən mənə baxma, bərk dur, burda mənim çox adamla haqqı-salamım var, sözəbaxmazlara üz vura bilmirəm; sən yenə bərk dur, yenə süfrənin yanından ötüb, «çayı-çörəyi neynirik, bir öynə yeməməklə öləsi ha deyilik» deyib özünü ver bulaqların gözünə. Hüseyn düz düşünübmüş, əlacı buymuş elə bu işin. Kürd olasan – mərd olasan… süfrəsinə yaxın düşmədiyimiz, çörəyinin dəlisi olan bu qanarrılar alaşalandı, nə alaşalandı.

Qaranlıq qapını alanda kamallıların da bizə olan hörməti özünü göstərdi. Axşamın ala-toranlığında oxumuşu, baştərpədəni, varlı-hallısı çox olan o kəndin başbilənləri kəndin bir yanında Qaranlığa baxan təpənin döşündə barışığa söz verdilər. Onları da, o igid qorxmazları da qarakeşdililər kimi qorxudan qonaqların çörək kəsməməsiydi, ayrı nəyimizdən çəkinəsiydilər, bizdən nə asılacağı vardı o varlığı el adətinə-urufuna bağlanmış bığıburma igidlərin?

Ertəsi gün obaşdan hər iki kəndin giley-güzarı artıq arxada qoymuş qıvraqları – qoçaqları bizi köhlən atlara mindirib apardılar Qaranlıq dağının, Saxsağanlının gözəlliyi göz oxşayan yerlərini gəzməyə, görməyə. Yola düşməzdən öncə bəlli oldu ki, biz gündüzü gəzib-dolaşıb axşamına Qaranlıq dərəsində, çayın qırağında barışıq bayramı keçirəsiyik. O bircə günün atüstü gəzintisi bizə o ellərin neçə dəyərli cizgilərini açıb-göstərdi. Yadımdadı, yer yiyələri bizi başından baxanda dibi görünməyən, şumal-şümşad qatarı uzanan bir qayanın qaşına çıxartdılar. Söhbət axarında aydın oldu ki, filankəs yeniyetmə çağlarında bax o ucalığı-dərinliyi göz qaraldan qayanın köksündə köklənmiş o ağacın üzüsıldırıma bitib dolaylanan budağı üstüylə yeriyib gedib uc qanaddan uc yarpağı qopardıb sağ-salamatca qayıdıb geriyə. Buna bənzər

olaylarda mərdliyinə sığınıb mərcdə udan neçə-neçə igidlərin adını eşitdik o gün. Bəlkə bütün bunlara görə gəzinti könlümüzə yatır, ürəyimizdən tikan çıxardırdı. Qalınlığı qaranlıq örtüyü salan o meşədə palıd ağacının lap dibindən axan bir bulağın buz dadlı suyundan dadanda mən adsız bulağa «Palıd bulağı» adını verdim. Adı Hüseyn Kürdoğlu da bəyəndi.

Barışıq gününün aylı gecəsini Qaranlığın ətəyində, - Ağdərə çayının qırağında keçirdik. Barışığı bayram edən kişilər barışıq süfrəsini burda, bu arılıq-duruluq qaynağında açmağı uyğun saymışdılar. Kürdün qolugirli yeniyetmələri bir göz qırpımında iri kötükləri, quru payaları dığırrayıb gətirdilər çayın qırağına. Gecə ocağının tonqal dilimləri eləcə havada dolanırdı Ayın qızılı şoxuna. Qızılı balıqlar qarşımızdakı qıjovda özlərini bizə göstərirmiş kimi hoppanıb-düşürdülər. Suyu şappıldadan onların bədən şapalağı idi. Çayın çalğı damarı Ayın qızıl barmaqlarıynan çalınırdı elə bil. Deyəsən balıqların pərli-pərəli qanadı da bir mizraba çevrilmişdi burda. Ayrı gecəydi vallah. Balıqçılar beş-on addım aralı gedib toru bir anın içində doldurub boşaldırdılar. Ancaq Hüseyn Kürdoğlunu da, məni də çəkən ən çox bu gözəlliklər qovşağıydı. Biz arada icazə alıb dikəlirdik çay yuxarı. Hüseynin şairliyi vurmuşdu başına. Orda, o gəzinti qobusunda onu yaradıcılıq ovqatında çiçəklərlə danışan görüb özümü verdim görünməzliyə. Qıraqdan tamaşa elədim ona. O da mənim kimi nigaran qalıb bizi geri çağıranları eşitmirmiş kimi süfrədən qaçıb gövdəni qopartmadan, çiçəkli budağı əyib tuturdu burnuna. Arada biz dostları eşidib süfrə başına qayıdır, yenə də izn alıb it-bata çıxır, yenə də «tapılıb-tutulub» qaytarılırdıq adamların arasına. Deyir, qannın qanan olsa yaran tez qaysaqlanar. Hər iki kəndin başbilənləri aralarında heç nə olmayıbmış kimi elə səmimi, elə canı-dildən davranırdılar ki, day bizim o giley-güzardan söz açmağımıza yer qalmamışdı. Ancaq gəzib görmək, yeyib-içmək, candan yorğunluq-arğınlıq tikanını

çıxartmaq qalmışdı bizə. Qonaqlar kürdə aid bir lətifəni bilərəkdən, ya bilməməzlik ucbatından yarımçıq danışanda aynaqlığı bacaran ev yiyələrinin bir özündən deyəni: dayan, haylə dəyil, belədi o lətifə – deyib heç nəyi gizlətmədən, ört-basdır eləmədən başdan başdayırdı o gülüşlü olayları. Deyirlər hər adamın ürəyi özünün yumruğu boydadı. O, enlikürək, burmabığ, aslan biləkli kürd kişilərinin nədənsə iri, səxavətli, salamcıl əlləri daha çox yer tutub mənim yaddaş düyünçəmdə. Orda, o zarafatcıl tay-tuşlardan birisi bizi istəkləyib tez-tez deyirdi: - Ə, başınıza hərrənim sizin, illərdi üzünüzü görüb sözünüzü eşitməkdən ötrü lələdağıq. İndi deyin görüm Allah qoysa, hər ilin yazında, lap elə yayında, dağların bu çal-çağırlı çağında biz bir tutalğa tapıb belə dalaşsaq – bozalaşsaq yenə gələrsinizmi buralara? – sualına bizdən: - Sizin kimi qədirbilənlərin, yolsaxlayanların görüşünə qışın lap oğlan çağında da payi-piyada gələrik – cavabını alırdı. Gecənin ən yaddaqalan çalarlarından biri səsi olanın da, olmayanın da mənim ismarıcımla kürd mahnısı oxu-masıydı. Onda Hüseyn Kürdoğluyla mən nəfəs-nəfəsə durub «Deyirlər kürd qızı çıxıbdı dağa, hava qaralıbdı, qorxuram yağa» mahnısını ifa elədik. Bu ifa burdakı ağzıbirdən bir çıxış yoluydu. Bu baxımdan Hüseyn Kürdoğludan geri qalan mən haman o Ağdərə, Yeddibölük, Qaranlıq, Sağsağanlı havasının hallandırdığı yerdə «qəçi, qəçi vərməkə, diləmen şan-şan məkə, əzətdəmə düəmən» («Ay qız, ay qız, elə etmə, ürəyimi şan-şan eləmə, mən səninəm, sən mənim, fikir-xəyal eyləmə») mahnı misralarıyla, kürdcə bildiyim yalnız bu iki misrayla (onu da oxuduğum texnikumda bir otaq yoldaşımın dilindən çəkib hopdurmuşdum yaddaşa) havacat üstündə oxuyanlara səs verməklə borcumu ödəmiş olurdum. Hüseyn Kürdoğlu Ciyərxun, Abdulla Qoran, Həjar kimi kürd klassiklərindən də ağızdolusu danışır, mütəxəssisi olduğu sahənin qaranlıq qatlarını açırdı. Ömrümdə Hüseyn Kürdoğlunu o cür açılışan görməmişdim. Özünün qoşmalarını, gəraylılarını,

dördmisralıqlarını da çox yatımlı deyirdi Hüseyn Kürdoğlu. Onun ordakı ocaq qırağı çıxışı elə bil qığılcım çaxır, gecəyə gözəllik gətirir, ardıcıl alqışlarla qarşılanırdı. O gecə orda hamı şairləşmişdi, ancaq uğur çələngi Hüseyn Kürdoğlunun başındaydı. Nə ilahi gecə idi o gecə…

1975-ci ilin qışında (dekabr ayı idi) qulağım çaldı ki, Hüseyn Kürdoğlu bərk azarrayıb. Eşidən kimi getdim ona baş çəkdim. Gördüm yox, bu xına o xınadan deyil. Gecikmək olmazdı. Özünü dilə tutub razılıq alan kimi qaçdım vağzala. Bir-iki gündən sonra qatarla yollandıq Moskvaya. Qaynım Musa oğlu Mürşüd onda Bakıda tələbəydi. Bizi yola salmaq üçün vağzala gəlmişdi. Vağzalda xəlvətcə söz açıb belə ağır azar keçirən bir adamla məni tək qoymamaq istədiyini bildirdi. Dedi bu adamın halı pisdi. Qoy sənə yoldaşlıq edim. Düz sözə nə deyəsiydim. Mürşüdün köməyi yerinə düşdü. Axı yaranışdan incə olan, evində-eşiyində ömrü boyu nazı çəkilmiş, ərki götürülmüş, hər əldən yemək almayan, tez iyrənməyiynən bir az vasvasıtəhər görünən, bir az da tez inciyib-küsən, gözündən tük yayınmayan, gileyini ustub-ustub əridib sancmağı da bacaran, ən başlıcası, sirdaşını-dostunu özündən çox istəyən, ona çox ağırlıq salmaması ucbatından ağrısını-acısını içinə verib örtülü saxlayan bir görkəmlini yola vermək çox da asanlıqla başa gəlmir…

Ayrı nə gileyim? – məni cin atına mindirib cırnadan Hüseynin yeməkdən qorğanıb-qaçmasıydı. Anasının südü kimi halalı olsun, - ölüb-dirilirdim onu yedirdincə. Yalvarışlar havadan asılı qalanda keçirdim «savaşa»: - Ə, bax bu çiçək kimi toyuq budunu, çolpanın bu ağappaq döş ətini o tökülmüş burnuna tutub az qoxlasana. Noolub, oğurluq ət deyil deyinə keçmir boğazından? Ye, yeməsən bu dəqiqə bu xörəyi səpəcəm vaqona. Deyim ki, Hüseyn özünü ağır asmırdı, onun iştahası doğrudan da küskün olurdu. İmanı yetərincə olan bu Allah adamını aclıqdan, ağrıdan çox dostlarının nigarançılığı rahatsız edirdi. Bax beləcə dilə tuta-tuta, ağrılı mədəsinə yararlı bilib arada əlli qram tut

arağı içirdə-içirdə, üzə salıb yedirdə-yedirdə, ayağına isti corab geyindirib üstünü örtə-örtə çatdırdıq onu ona sağlıq gətirən, ömrünə-gününə düşərli olan Moskvaya.

Moskvalı loğmanlar onun azar-bezarının başlanğıcını, törədici ünsürləri tez tapdılar. Deməli, sağaltmaq yolu tapılacaq. Bizə də bu gərəkdi, ancaq bu. Yoxlanış günlərini biz hələ mehmanxanada yaşayır, orda da gecələyirdik. İç-içə otaqlarda Hüseyn Kürdoğlunun sayıqlamaları məni tez-tez oyadırdı. Ən çox da «ay nənə» deyib anasını çağırırdı, qızı Süsən, oğlu İlhamla danışırdı Hüseyn. Arabir qardaşlarından Alışanın, Sefinin, Hürşanın, Şirindilin də adını çəkirdi. O, özgə ölkədə yiyəsini tanımadığım adlar da sadalayırdı Hüseyn Kürdoğlu. Onun «bacı», «nənə» sözləri hələ də qulağımda səslənir. Ancaq danışıqlarının çoxu anlaşılmaz olurdu. Sonrakı illərdə bir dəfə də olsun bu yuxu söhbətlərindən söz salmadım, qıymadım özündən kövrəyin kövrəlməsinə.

70-ci illərin sonundan bu yana Hüseyn Kürdoğluyla ən çox hər ikimizin iş yerinə yaxın olan «Akademiya» metrosunun yan-yörəsində qarşılaşır, görüşür, hal-xoş edirdik. Bu görüşlərdə o özünün ağrı-acısından çox, yağıya qalıb yağmalanmış yurd-yuvamızdan, erməni oylağına çevrilmiş yaylaqlarımızdan, evi dağılıb ocağı sönənlərdən, aclıqdan-qıtlıqdan can verənlərdən danışır, danışdıqca urva kimi ağarır, şüşələnmiş gözlərini yana çevirirdi.

Axırıncı görüşümüz də elə iş yerimizin həndəvərində oldu. Gördüm alızdı, sifəti də avazıyıb. Keçdim gülməcə gülləməyə, ancaq qara qayğı onu üstələmişdi, dodağı qaçsa da qırışı açılmadı. Küləyi sındıra-sındıra yolunu saxladığım adamı yaxındakı dayanacağadək ötürdüm. Onda mənə elə gəldi ki, köhnə dostumu – Hüseyn Kürdoğlunu harasa uzağa, özü də cənnəti canında olan bir yerə, lap ruhuna sığınacaq saydığı Abad-Xeyir yaylağına, Əhmədliyə yola salıram... Torpağı əlindən alınıbdı, cənnəti ruhundan alınmasın Hüseyn Kürdoğlunun. Amin!

Bakı,
2 yanvar, 2004

## İNANA BİLMİRƏM, İNANIM NECƏ?

*Dünyadan köçübmü dinim-imanım?*
*İnana bilmirəm, inanım necə?*
*Görünmür gözümə ciyərim-canım,*
*Kürdoğlusuz olub gündüzüm gecə.*

*Mənə deyəndə ki, ağlamaq bəsdi,*
*Hüseyn haqqında bir xatirə yaz.*
*Ürəyim titrədi, əllərim əsdi,*
*Elə bil qurudu dilimdə avaz.*

Hüseyn Kürdoğlu haqqında qalın-qalın kitablara sığmayan xatirələrim olsa da, mən onun aramızda olmamağına inana bilmədiyim və bunu röyada gördüyümü zənn etdiyim üçün bir müddət qələm əlimdə quruyub qaldı, yazmağa cəsarət etmədim.

İnsan təkcə atadan-anadan yox, səmimi dostlarını itirdikdə də yetim qalarmış. Bir çox sədaqətli dostlarım bu fani dünyaya əlvida deyibdi. 47 il ürək dostum olan Hüseyn Kürdoğlunun qayıtmaz səfərə getməyi dostdan yetimliyimi qat-qat artırdı. Yetimlər yetimi oldum, qara bulud kimi doldum, bu dərddən yarpaq kimi saralıb soldum.

Hüseynlə tanışlığım 1955-ci ildə başladı. Bu vaxta qədər biri-birimizi üzdən tanımırdıq. O, Azərbaycan Dövlət Universitetində, mən isə Bakı Ali Partiya Məktəbində oxuyurdum. Bir gün onun qəzetdə dərc olunmuş şerləri içərisində «Atəşimə su çiləmə qoy alışıb-yanım Araz» kimi misraları olan şerini oxudum. Şer Azərbaycanın iki yerə bölünməsinə həsr edilmişdi. Şer məni hədsiz dərəcədə təsirləndirdi. Qəlbim məni vadar etdi ki, Hüseynə bir məktub yazıb göndərdim. Sonunu bir şerlə bitirdiyim məktubu tanıdığım bir tələbənin vasitəsilə ona

çatdırdım. Aradan cəmi üç gün keçdi. Məktəbdə mənə dedilər ki, bir nəfər səninlə görüşməyə gəlib. Görüş otağına getdim. Bir nəfər sadə və yaraşıqlı geyimli oğlanı burada gördüm. Dərhal ürəyimə damdı ki, bu Hüseyndir. Həyəcanla «Hüseyn sənsən?» – deyib onun boynunu qucaqladım. Köhnə dostlar kimi görüşüb-öpüşdük. Bax, Hüseynlə ilk tanışlığımız belə başladı. Tezliklə bu ilk səmimi tanışlıq sınaqlardan üzü ağ çıxan dostluq və qardaşlıq münasibətlərinə çevrildi. Elə bilirdik ki, iki canda bir ürəyimiz döyünür.

Tələbə olduğumuz dövrdə bir-birimizlə vaxtaşırı görüşürdük. Dərsdən sonra dəniz sahilinə gəzməyə gedirdik. O vaxt şerlər yazmağa başlasam da, utandığımdan heç kimə oxumurdum. Yazdıqlarım «sandıq ədəbiyyatı» idi. Hüseyn Kürdoğlu isə tələbəlik illərində bir şair kimi tanınırdı, şerləri mətbuatda çap olunurdu. Universitetdə keçirilən mərasimlərdə Hüseynin oxuduğu şerlər alqışlarla qarşılanırdı.

Bir gün dəniz sahilinə gəzməyə gedəndə Hüseyn təkid etdi ki, yazdığın qoşmalardan bir neçəsini oxu. Mən ona dedim ki, təzə-təzə yazmağa başlamışam. Hələ oxunası şerlərim yoxdur. Hüseyn ona yazdığım məktubun sonunu şerlə bitirdiyimi mənə xatırlatdı. Dedim, onu sizin şerinizin təsiri ilə yazmışdım. Lakin o, əl çəkmədi. Bir skamyada oturduq. Yanımızda ağdamlı tələbə yoldaşım Xosrov Kərimov da var idi. Mən cibimdən dəftərçəmi çıxarıb utana-utana üç qoşma oxudum. Onlardan birini misal gətirirəm:

### Çəkər

*Gözəl, hüsnündəki o gözəlliyə,*
*Baxsa gül-çiçək də xəcalət çəkər.*
*Bəs onda de görüm bu yazıq canım,*
*Mən sənə baxanda nə halət çəkər?*

*Adın dastan olub dildə-ağızda,*
*Səni görsə Şirin – o pəri qız da,*
*Gözəllər hesabı olan kağızda,*
*Öz adı üstündən qara xətt çəkər.*

*Həsrətin çoxunu eyləyib xəstə,*
*Hər rəssamam deyən düşsə də qəsdə.*
*Gözəl, camalını ağ kağız üstə,*
*Rəfaeldə olan məharət çəkər.*

*Səni görsə belə dayanar qoca,*
*Hüsnündən utanıb ay çıxar gecə.*
*Günəş də bilməz ki, gizlənsin necə,*
*Buluddan üzünə o bir sədd çəkər.*

*Amandır, Şamili eyləmə sayıl,*
*Canın can almağa hamıdan qayıl.*
*Mən də can alanam deyən Əzrayıl,*
*Bircə baxışından xəcalət çəkər.*

Mən qoşmaları oxuyanda Hüseyn boynumu qucaqlayıb məni öpdü və dedi: - Gözəl şerlərdi, utananın oğlu olmaz. «Azərbaycan gəncləri» qəzetinə ver, çap etsinlər. Hüseynin təkidi ilə «Azərbaycan gəncləri» qəzetinə bir neçə şer verdim.

Aradan az vaxt keçəndən sonra məşhur şair Əhməd Cəmilin «Xoş gəlmisən gənc şair» adlı təqdimatı ilə şerlərim həmin qəzetdə çap olundu. Etiraf edirəm ki, Hüseynin təkidi olmasaydı mən qəzetə şer verməzdim, bəlkə də heç şer yazmağı davam etdirməzdim.

## *Lök qalasına səfər*

Bir dəfə Hüseyn Kürdoğlu dostu, tələbə yoldaşı, kamil alim, gözəl insan olan Yaşar Qarayevlə Kəlbəcərə gəlmişdi. Hər ikisi də mənim əziz qonağım idi. Onlar

Kəlbəcərin təbiəti, onun tarixi keçmişi, abidələri, uzunömürlü qocaları ilə maraqlanırdılar. Bu barədə mənə verilən sualları cavabsız qoymamağa çalışırdım. Kəlbəcərdə olan qədim qalalar və digər abidələr haqqında onlara ətraflı məlumat verdim. «Lök» qalasından daha geniş söhbət açdım. Bu yerdə Yaşar və Hüseyn mənə dedilər ki, «Lök» qalasını görməyimiz pis olmazdı. Sənin işin çoxdu, mümkünsə bizə bir bələdçi qoş gedib o qalanı görək. O zaman mən Maarif şöbəsinin müdiri işləyirdim. Doğrudan da işim həddindən çox idi. Mən onlara dedim:

– Lök qalasını sizə göstərmək də mənim işimdi.

Həmin günün səhərisi Lök qalasına yola düşdük. Maşınımız bir çox kəndlərdən, o cümlədən Sarıdaş kəndindən keçməli idi. Bu kəndlərin bir çoxunda pulsuz-parasız məktəb binaları, sinif otaqları tikdirirdik. Biz bu tikintilərin də bir neçəsinə baş çəkdik.

Yaşar Qarayev və Hüseyn Kürdoğlu tikintilərdə işləyənlərlə səmimi görüşüb onlarla ruhlandırıcı söhbətlər edirdilər. Sarıdaş kəndinin yaxınlığında mən bu kənddə yaşayan, yaşı 130-dan da çox olan Həsənquliyev Bədəl adlı bir kişidən söhbət açdım. Qonaqlarım onu görmək arzusunda oldular. Maşını Bədəl kişinin qapısına sürdük. Dedilər ki, Bədəl kişi ot yığmağa gedib, axşamüstü işdən qayıdacaq. Bu xəbər qonaqlarda Bədəl kişinin çox yaşlı olmasına şübhə yaratdı.

Nəhayət Lök qalasına çatdıq. Bu qala çox nəhəng və hündür qayalığın üzərində inşa edilmişdir. Qalaya çıxmaq üçün çox dar və çətin bir daş cığırla qalxmaq lazım gəlirdi. Bundan başqa qalanın ayrı bir yolu yox idi. Hüseyn dağ adamı idi. O, bu dar cığırla qalxmaqdan qorxmadı. Yaşar müəllim bir qədər ehtiyat etdi. Bir uzun ağacın baş tərəfindən mən, ayağından Hüseyn, ortasından Yaşar tutdu. Heç bir xəta olmadan qalaya çıxdıq. Burada gördüklərindən onlar heyrətə gəldilər. Sərt bazalt qayalarından yonulmuş bir neçə çox dərin və geniş quyular adamı xəyallara daldırırdı. Görəsən bu quyular nə ilə və necə qazılmışdı? Quyularda su və ərzaq ehtiyatı sax-

lanırmış. Qala divarları içi boş, silindrik şəklində möhkəm daşlarla hörülüb. Yaşar və Hüseyn iki saatdan artıq vaxt ərzində qalayla tanışlıqdan doymadılar.

Burada qəribə bir işin şahidi olduq. Bir çoban sürüsünü qala divarından kənar olan yamaca otlamağa çıxarmışdı. Çoban məni tanıdı və dedi: - Sizə burada cüyür ətindən bir kabab qonaqlığı verəcəyəm. O, sözünə belə davam etdi. – Bir həftə bundan qabaq bir cüyür ovladım. Ətini aşağıdakı mağaraya qoymuşam. Hər gün ondan kabab bişirib yeyirəm.

Hüseyn Kürdoğlu təəccüblə dilləndi: - Çoban qardaş, bu yayın günündə bir həftə mağarada qalan ət xarab olmayıbmı? Çoban dedi: yox, elə bil ki, heyvanı indicə kəsmisən. Belə deyib o aşağı endi, mağaradakı ov ətindən xeyli gətirdi. Ət buz kimi idi. Heç bir qoxusu-zadı hiss olunmurdu. Çobana kömək edib bişirdiyimiz kababı ləzzətlə yedik.

HAŞİYƏ: Sonradan biz burada tədqiqat işi aparıb müəyyən etdik ki, hündürlükdə olan bu daşdan yonulmuş çox da dərin olmayan mağarada daima hava cərəyanı yaranır və əti soyuq saxlayır. 15 gün həmin mağaraya qoyulmuş ətin də xarab olmadığının şahidi olduq. Lök qalasının başqa möcüzə və hikmətləri də var. Bunlar başqa bir yazının mövzusudur.

Qonaqlar Lök qalasından ayrılmaq istəməsələr də, geri qayıtmağın vaxtı çatmışdı. Qərara aldıq ki, Sarıdaş kəndində Bədəl kişini görək. Yolda Novlu bulağın üstündə əylənib onun dişgöynədən suyundan içib yolumuza davam etdik. Az sonra Bədəl kişinin evinə çatdıq. Dedilər ki, Bədəl kişi çiynində yaba, dırmıx odur yuxarı döşdən enir. Həyətdə saçları süd kimi ağ, nurlu bir qadın oturmuşdu. Yaşar dedi: - Bax, bu nənənin 100 yaşı olar.

Nəhayət Bədəl kişi gəldi çıxdı. Qonaqlarla səmimi görüşdü. Süfrəyə çay qoyuldu. Bədəl kişi arıxanaya gedib bir dalaq ağ, balla dolu şan gətirdi.

Yaşar Qarayev və Hüseyn Kürdoğlunun Bədəl kişi ilə maraqlı söhbətləri oldu.

Hüseyn Kürdoğlu: - Bədəl baba, neçə yaşın olar?

- Nə bilim, ay bala. Bircə onu bilirəm ki, bizim meşələrimizdə mən yaşda palıd ağacı yoxdur.

Yaşar Qarayev 100 yaşı olan qadını göstərib Bədəl kişidən soruşdu: - Bu nənə yaşlı olar, yoxsa sən?

Bədəl kişi gülümsəyərək dilləndi: - Ay oğul, nə danışırsan, o mənim nəvəmdir.

Yaşar da, Hüseyn də dedilər ki, daha bizim başqa sözümüz yoxdur. Bu kişi tarixi abidədir, onu tədqiq etməyə böyük ehtiyac vardır.

## *Dağların loğmanları*

Kəlbəcərdə Maarif şöbəsinin müdiri işləyirdim. Bakıya gəlmişdim. Hüseyn Kürdoğlunun xəstə olduğunu bilirdim. Getdim ona baş çəkməyə. Evində mənə dedilər ki, Hüseyni səhv müalicə ediblər, çox zəifləyib, havasını dəyişmək üçün Bərdə şəhərində yaşayan bir qohumunun evinə getdi. Bir müddət orada qalası olacaq. Mən dedim ki, yaydır, Bərdə də istidir. Hüseyn ya gərək Laçına gedəydi, ya da Kəlbəcərə gələydi. Bildirdilər ki, o qədər candan düşüb ki, dağa getməkdən qorxdu. Onun Bərdədə qaldığı evin ünvanını öyrəndim. Geri qayıdanda gedib Bərdədə onu gördüm. O qədər arıqlamışdı ki, baxanda heyrətə gəldim.

Bərdədə Hüseynə dedim ki, səni Kəlbəcərə aparacağam. Tərəddüd etdi. Dedi burada bir tanış həkim mənə nəzarət edir. Ona bildirdim ki, dünyanın ən məşhur həkimləri Kəlbəcərdədir. O, gülümsəyərək soruşdu: - Kimdi onlar? Mən ona belə cavab verdim: - Əvvəla, Kəlbəcərin havası və suyu loğmandır. Onun balı, qaymağı, kərəsi, kəklikotu, zirəsi, ecazkar mənzərəsi, dağı, daşı, dərəsi, Tərtərin zümzüməsi, bax, bunların hərəsi ən qüdrətli həkimdir.

O, təqribən bir ay yarım bizdə qalası oldu. Vəziyyəti günbəgün yaxşılaşdı. Get-gedə özünü gümrah hiss etdi.

Dağlar onun ilhamını coşdurdu. Burada bir çox şerlər yazdı.

Bir gün qəribə bir hadisə baş verdi. Yay idi. Məktəblər bağlanmışdı. Rayonun yaxınlığındakı «Şapılar Turşsuyu» deyilən səfalı bir yerdə pioner düşərgəsi açmışdıq. Bu düşərgədə şagirdlərə şerlər də öyrədirdilər. Bir gün Hüseyn Kürdoğlunu bu düşərgəyə dəvət etdilər. Mən onu müşayiət etdim. Biz düşərgəyə çatanda uşaqlar Hüseyni gül-çiçəyə qərq etdilər. Sonra 12 uşaq iki dəstəyə bölündü. Elan elədilər ki, dəstələr Hüseynin şerlərini oxumaqda yarışacaqlar. Qalib gələnlərə mükafatlar veriləcək. Yarış başlandı. Uşaqlar o qədər xoş avazla Hüseynin şerlərini ifa etdilər ki, hamımız heyran qaldıq. O, uşaqları bağrına basıb öpdü. Yarışın qaliblərini müəyyən edəndə mən təklif etdim ki, uşaqların 12-si də qalıb sayılsın. Münsiflər heyəti bu təkliflə razılaşdı. Sonra 20-25 uşaq Hüseyni dövrəyə alıb onun şerlərini heyranedici avazla oxudular. Mən rayondan kitablar gətirtdirib Maarif şöbəsinin adından uşaqlara bağışladım.

Hüseyn Kürdoğlu bildirdi ki, bu yüksək səviyyəli görüşü ancaq bu dağlarda təşkil etmək olardı. Sənin Bərdədə sadaladığın həkimlərin sırasına bu görüşü də əlavə etmək lazımdır. Daxilən çox sevindim ki, dağlar, burada baş verən hadisələr onda ruh yüksəkliyi yarada bilib.

### *Allah saxlayana heç nə olmaz*

Hüseyn Kürdoğlu bizim evdə olanda Xalq yazıçısı Əli Vəliyev, yazıçı və şairlərdən Bayram Bayramov, Qasım Qasımzadə, Qulu Xəlilov və başqaları İstisu kurortunda dincəlirdilər. Onlar Hüseynin Kəlbəcərdə olduğunu bilirdilər. Bir gün Əli əmi mənə zəng vurub dedi ki, biz piyada, gəzə-gəzə «Ceyran bulağı»nın üstünə gedirik. Orada bizi bir qonaqlıq gözləyir. Hüseyn Kürdoğlu ilə səni məclisimizə dəvət edirik. Maşına əyləşib «Ceyran

bulağı»na yola düşdük. Maşında sürücüdən başqa Hüseynlə mən oturmuşduq. İstisu kurortuna çatıb Tərtər çayının qırağına enib dağa doğru dönmək istədikdə dəhşətli bir hadisə baş verdi. Dağın döşündən keçən yoldan bizə doğru sürətlə qayalar, sallar, iri və xırda daşlar hellənməyə başladı. Bir an keçməmiş maşınımızın yanlarına və gerisinə tökülən daş-qayalar bizi vahiməyə gətirdi. Bu da bizim həyatımızın sonu – dedik. Bir onu gördük ki, bizi əzilmiş hesab edən kurorta gələn adamlar qaça-qaça hayımıza gəlirlər. Onlar gələnə kimi daş-qayaların hellənməsi qurtardı. Qapıları açmaq istədik, yaxındakı sallar buna imkan vermədi. Hayımıza gələn adamlar daşları, salları kənarlaşdırıb maşının qapısını açdılar. Bizim və hətta maşının örtüyünün salamat olduğunu görüb mat qaldılar. Bizim birimiz o birimizi əzilmiş hesab edirdik. Bizi maşından çıxardılar. Maşının dörd tərəfinə düşənləri görüb özümüz də mat qaldıq. Maşına bir daş da toxunmamışdı. Hayımıza gələnlər maşının yolunu çətinliklə açdılar. Salamat qaldığımıza inanıb Allahın kərəminə min şükür etdik.

Bir nurani qoca kişi dedi: - Bir tikə çörəyiniz ovsanaya düşüb. Yetim sevindirin, qurban deyin. Onu da yaddan çıxarmayın ki, Allah saxlayana heç bir şey olmaz.

Sən demə dağın döşündəki yolu genişləndirmək üçün qayaları «ammonal» adlanan partlayıcı maddə ilə dağıdıb yolu kürüyən buldozerçi iş icraçısının tapşırığı ilə daş-qalağı hellədirmiş.

Hayımıza gələnlərə dərin təşəkkürümüzü bildirib yolu yuxarı qalxanda iş icraçısını və buldozerçini gördük. Maşından düşdüm. İş icraçısına dedim:

- Yolu kürüyərkən aşağıdakı yola niyə nəzarətçi qoymamışdınız? Niyə heç bir qadağan işarəsi yox idi?

O, üzr istəsə də, mən özümü saxlaya bilməyib onun üzünə bir karlı sillə çəkdim. Yolumuza davam etdik. Hüseyn Kürdoğlu yarı ciddi və yarı zarafat dedi: - Mən

sənin sillənin səsini eşitdikdən sonra salamat qaldığımıza inandım.

Təqribən 15 dəqiqədən sonra «Ceyran bulağı»na çıxdıq. Dostlarla görüşüb öpüşdük. Başımıza gələn qəza haqqında heç nə demədik. Əli Vəliyev Hüseynin xəstələndiyini bilirdi. Onun vəziyyətinin yaxşılaşdığını görüb sevindi. Sonra dedi ki, indi də sözü veririk Hüseyn Kürdoğluya. Son dövrlərdə, Kəlbəcərdə yazdığı şerləri dinləmək istəyirik. Hüseyn əvvəlcə təklifdən boyun qaçırmaq istədi, lakin bu mümkün olmadı. Əli Vəliyevin istəyini yerinə yetirməmək mümkün bir iş deyildi. Hüseyn 7-8 şerini oxudu. Qasım Qasımzadə, Qulu Xəlilov Hüseyn Kürdoğlunun yaradıcılığından geniş söz açdılar. Əli Vəliyev də öz fikirlərini söylədi. Mənə də söz verdilər. Başqaları da çıxış etdi. Beləliklə «Ceyran bulağı»nın başındakı məclis Hüseyn Kürdoğlunun görüş məclisinə çevrildi.

Bundan sonra Hüseynlə bir çox kəndlərə getdik. Hər yerdə onu böyük hərarətlə qarşıladılar. Şer söyləməsini xahiş etdilər. Hüseynin camaatla söhbəti, şer oxuması, məsləhətləri və arzuları qəlblərin böyük sevincinə səbəb oldu.

## *Şahidi olduğum bir əhvalat*

Mən onun da şahidi olmuşam ki, Hüseyn Kürdoğlunun üzünü görməyənlər də, onun yaradıcılığını, yazdığı şer və poemaları yüksək qiymətləndirmişlər. Bu barədə bir misal gətirmək yerinə düşərdi. Kəlbəcərdə muzey direktoru işləyirdim. Novruz bayramı günü olsa da məni Bakıya çağırmışdılar. Həmişə olduğu kimi Hüseyn Kürdoğlu ilə görüşdüm. O, mənə bildirdi ki, kürəkəni Ruslan rəssamdır, yaxşı əl qabiliyyəti var. Lakin sənətinə görə ona iş tapa bilmirik.

Muzeylərin tərtibat idarəsində məni tanıyırdılar. Dedim, gedək ora, xahiş edək bəlkə Ruslana bir iş ver-

sinlər. Hüseyn Kürdoğlu, riyaziyyatçı alim, şair Firudin Şimşək və mən İçərişəhərdə yerləşən Muzey tərtibatı idarəsinə getdik. İşçilərindən biri bizə dedi ki, özünüzü soyuqsaqqal etməyin, idarə əməkdaşlarının 50 nəfərini ixtisara salırlar, buna görə də Ruslanı işə götürmək imkan xaricindədir. Öyrəndik ki, rəhbər işçilər içəridə Novruz bayramını qeyd edirlər. Qapı bağlı idi. Çox çətinliklə onlara gəldiyim barədə xəbər çatdırdım. Hüseyn Kürdoğlunu, Firudin Şimşəyi və məni çox hörmətlə qarşıladılar. Mən yoldaşlarımı təqdim etdim. Hüseyn Kürdoğlunun adını çəkdikdə idarə rəisi stolun siyirməsindən Hüseynin iki şer kitabını çıxardı və durub onunla bir də görüşdü. Hətta Hüseynin bir neçə şerini əzbərdən dedi.

Biz Ruslan barədə xahişimizi bildirdikdə rəis dedi: - Düzdür, bizdə 50 nəfər işçi ixtisar edilir. Buna baxmayaraq Hüseyn Kürdoğlunun xahişini yerə salmaq olmaz. Belə deyib o, əmr kitabını gətirib Ruslanın işə qəbul edildiyi barədə əmr yazdı. Bu Hüseyn Kürdoğluya, onun yaradıcılığına olan böyük ehtiramın nəticəsi idi.

## *El-obanın məhəbbəti*

Kəlbəcər rayonu ilə Laçın rayonu arasında yarış müqaviləsi bağlanmışdı. Maarif işlərinə görə də yarış şərtləri var idi. Bu şərtlərin necə yerinə yetirildiyini yoxlamaq üçün bir maarif şöbəsinin müdiri kimi Laçın rayonuna getmişdim. Burada öyrəndim ki, Hüseyn Kürdoğlu doğma kəndi Əhmədliyə dincəlməyə gəlib. «Həm ziyarət, həm ticarət» deyib Əhmədli kəndinə yollandım. Gəlişim Hüseyni hədsiz sevindirdi. O, məni kəndlərinin ərazisindəki dişgöynədən suyu olan «Məcnun bulağı»na apardı. Bu çeşmə dağların qoynunda, mənzərəli bir yerdə çağlayırdı. Hüseyn çeşmənin nəyə görə «Məcnun bulağı» adlandırılması barədə maraqlı əfsanə danışdı.

Kəndə qayıdıb məktəbin işləri ilə tanış olduq. Səhərisi Hüseyn məni «Abadxeyir dərəsi»ndəki Turşsuyun başına

apardı. Bir gün sonra məktəbin işi ilə tanış olmaq üçün Hüseyn Kürdoğlu ilə Şeylanlı kəndinə yollandıq. Burada Hüseynin xalq arasında necə böyük hörmətə malik olduğunun bir daha şahidinə çevrildim. Qocalar onun üzündən, cavanlar əllərindən öpürdülər. Məktəbin işi ilə tanış olduq. Bina darısqal idi (Camaatın xahişi ilə sonra mən gözəl insan, Maarif naziri Mehdi Mehdizadəyə Şeylanlı kəndindəki binanın yararsız olmasından danışdım və camaatın xahişini ona çatdırdım. Mehdi müəllim binanın genişləndirilməsinə, əlavə sinif otaqları tikilməsinə kömək etdi və bu səkkizillik məktəbi orta məktəbə çevirdi).

Məktəbdə işimizi qurtarandan sonra kimin evində gedib çörək yeməyimiz barədə əməlli-başlı «dava» düşdü, mübahisə oldu. Müəllimlər inciməsin deyə kənd kitabxanasının müdiri işləyən, el şairi Mehbalı Quliyevin evinə getdik. Bura bir dəstə uşaq gəlib Hüseyn Kürdoğlunun şerlərini xoş avazla oxudular. Məclis əslində Hüseynlə görüş məclisinə çevrildi. Bir çoban da Hüseynin şerlərindən bir neçəsini dedi. Mehbalı Quliyev gözəl saz da çalırdı. O, sazı sinəsinə basıb Hüseynə yenicə həsr etdiyi şerini ifa etdi.

## Gəlibdi

*Hüseyn Kürdoğlu qəlb niyyətinə,*
*Əməl edib bilə-bilə gəlibdi.*
*Gərək biz gedəydik ziyarətinə,*
*Ziyarətin özü elə gəlibdi.*

*Ürək sözlərini yazır qələmi,*
*İstedadı olub hikmət aləmi.*
*Həmişə olubdu xalqın həmdəmi,*
*Adı hər məclisdə dilə gəlibdi.*

*Mehbalının bu gün oldu bayramı,*
*Təkcə mən yox, bayram eyləyir hamı.*
*Qəlblərdə yurd salıb Kürdoğlu namı,*
*Sevincimiz dönüb selə, gəlibdi.*

Mehbalı mənə həsr etdiyi şerini də oxudu. Hüseynlə birlikdə bir neçə kəndə getdik. Hər yerdə onu eyni məhəbbətlə qarşıladılar. Bir daha yəqin etdim ki, o, el-oba içərisində böyük hörmətə malikdir.

## *Bir kitab haqqında*

Yəqin ki, Hüseyn Kürdoğlunun çoxşaxəli yaradıcılığı barədə xatirə yazanlar az olmayacaqdır. Buna görə də mən onun «Qaya çiçəkləri» kitabı üzərində bir qədər dayanmaq istəyirəm. Bu kitab başdan-başa cinaslı dördlüklərdən ibarətdir. Onu da deyim ki, Aşıq Alı və Hüseyn Kürdoğlu qədər çox cinaslı şerlər yazan üçüncü şəxsə rast gəlməmişik. Həm Aşıq Alının cinaslı bayatıları və təcnislərinin, həm də Hüseynin cinaslı dördlüklərinin şəxsən mənə böyük təsiri olub. Bunu aşağıda etiraf edəcəyəm.

Hüseyn Kürdoğlunun cinaslı dördlüklərinin hər biri ayrıca bir əsərdir. Ustalıqla cilalanmış bu dördlüklər oxucunu düşüncələrə dalmağa vadar edir. Burada dərin mənalar, həyat həqiqətləri öz əksini tapmışdır. Cinaslı şerlər yazmaq çətin olsa da Hüseyn bu müşkül işin öhdəsindən çox məharətlə və bacarıqla gələ bilmişdir.

*Göy çəmənə yaraşıqdır ağ davar,*
*Hər nə varsa, qırmızıda, ağda var.*
*Üç rəngdədir yurdumuzun qızılı –*
*Qara da var, sarı da var, ağ da var.*

Burada ustalıqla vətənimizin var-dövlətindən «qara qızıl»ından – neftindən, «ağ qızıl»ından – pambığından söz açılmış və cinasla mənalandırılmışdır.

Başqa bir misal.

*Gedirəm, salamat qalın, meşələr,*
*Dağlar qoynundakı qalın meşələr.*
*Ürkək maralları gizlədin barı,*
*Onların qaydına qalın, meşələr.*

Dördlükdə cinasın məharətlə seçildiyi göz qabağındadır. Görünür «Göygöl» qoruğunda maralların ovlanıb azaldılması, ovçuların ceyran və cüyürlərə divan tutması şairi narahat etmiş və o, bu dördlükdə həyəcan təbili çalmışdır.

Yaxud:

*Gərək başa düşüm, qanım Arazı,*
*Hansı şah olmadı qanıma razı?!*
*Qanlı köynəyimi bayraq eylədim,*
*Min dəfə boyadı qanım Arazı.*

İzah etməyə ehtiyac yoxdur ki, Hüseyn dörd misrada xalqımızın tarixinin müəyyən bir dövrünü əks etdirmişdir. Tarixin qanlı səhifələrindən bəhs edən bu misraları həyəcansız oxumaq mümkün olmur. Azərbaycanın iki yerə parçalanması, bu haqsızlıq zamanı xalqın qanının axıdılması, Araz çayının arada keçilməz çəpərə döndərilməsi adamın gözləri qarşısında canlanır.

Hüseyn Kürdoğlu yazır:

*Dön igid başına, dön ər başına,*
*Anamın gəlini dön ər başına.*
*Qartallar qayanın, bülbüllər gülün,*
*Şairlər vətənin dönər başına.*

Burada da həyat həqiqətləri qələmə alınmış, el igidinin qədir-qiymətini bilmək, lazım gəlsə vətənə

qurban olmaq kimi insani xüsusiyyətlərdən, bəşəri ideyalardan bəhs edilmişdir.

Dördlüklərin birində şair deyir:

*Soyuq qanın Arazdımı, Kürdümü,*
*Qəlbin yenə şıltaqdımı, kürdümü.*
*Gözdən uzaq, könüldən də uzaqmış,*
*Heç demirsən yada salım kürdümü?*

Əslində burada məhəbbətin aliliyindən söz açılır, yersiz hərəkətin lüzumsuzluğu nəzərə çatdırılır, gözdən-könüldən uzaq olmamağın vacibliyi lazım bilinir. Etibardan, ilqardan, vəfadan, səmimi olmaqdan danışılır.

Yazdığı cinaslı dördlüklər də sübut edir ki, Hüseynin müşahidə qabiliyyəti çox güclüdür, o, xalqın məişətini, adət-ənənələrini dərindən bilir. Adi bir hadisədən cinas yaradır və onu mənalandırır.

*Anam yenə xəlbir tutub dən ələr,*
*Tayalanar kəhrəba tək dənələr.*
*Sərgi sərib dəyirmanlıq qurudar,*
*Bir ucdan da dəcəl quşlar dənələr.*

Kənd həyatını bilməyən, belə şer yazmağı ağlına da gətirə bilməz. İndi xəlbirin nə olduğunu və onunla dən ələndiyini bilməyənlər var. Dəni sərib həyətdə qurudanda quşların dənə daraşdığını çox görmüşük. Bu dördlük bir etnoqrafik hadisənin tərənnümüdür.

*Əzəl gündən söz xəzinə, dil açar,*
*Açılmayan qıfılları dil açar.*

Baxın, necə də gözəl deyilmişdir. Hüseynin istisnasız olaraq bütün cinaslı dördlükləri dərin mənalı və düşündürücüdür.

*Mən də gəlib keçdim bu dağdan axır,*
*Köpüklü ağ sular bu dağdan axır.*
*Süd axıb tökülür dolu döşündən,*
*Qızıl qayalardır bu dağda naxır.*

Hüseyn Kürdoğlu sözü elə cilalayıb mənalandırmışdır ki, qızıl qayaların qızıl naxıra bənzədilməsi yerinə düşmüşdür. Elə belə desən ki, qayalar naxırdır, bu, adama mənasız bir fikir kimi görünər. Amma Hüseyn zəkası və qələmi qayaların naxır olmasını oxucuya inandırmışdır.

Biz misal gətirdiyimiz cinaslı dördlüklərin heç birini seçmədən kitabın vərəqlərini açıb qələmə aldıq. Çünki Hüseynin cinaslı dördlükləri biri-birindən gözəl, mənalı və hikmətlidir.

Hüseyn Kürdoğlu onsuz da xalq şairi idi. Təkcə cinaslı dördlükdən ibarət «Qaya çiçəkləri» kitabına görə onun xalq şairi adını xüsusi fərmanla rəsmiləşdirmək ədalətli bir iş olardı.

Bəs, yuxarıda dediyim kimi Aşıq Alının və Hüseyn Kürdoğlunun cinaslı şerlərinin mənə nə təsiri olmuşdur? Hər ikisinin belə şerlərini oxumaqla doymurdum. Bu təsirlə belə qərara gəldim ki, mən də cinaslı şerlər yazmaqda qələmimi sınayım. İşə başladım. Hər iki ustadın cinasları mənə təkan oldu. Müəyyən təcrübə qazanandan sonra belə qərara gəldim ki, «Azərbaycan dilinin mənzum cinas lüğəti» adlı bir kitab yazım. Gərgin əməkdən sonra bu adda 640 səhifəlik bir kitabım işıq üzü gördü. İndiyə kimi ədəbiyyatda 7-8-dən artıq mənası olan cinaslara rast gəlmədiyimiz halda adı çəkilən kitabda 100 mənalı cinas da vardır.

Səmimi surətdə etiraf edirəm ki, Aşıq Alının və Hüseyn Kürdoğlunun cinaslı şerlərini oxumasaydım mənim adını çəkdiyim şerlə cinas lüğətini yazmaq ağlıma da gəlməzdi. Buna görə də hər iki dahi cinas ustadına əbədi minnətdaram. Onu da hörmətlə xatırlayıram ki, Hüseynin hər bir kitabını oxuyanda şerləri məndə yeni

ideyalar yaranmasına səbəb olurdu və bunlardan bəhrələnib şerlər yazırdım. Onun mənalı söhbətlərindən də dəfələrlə bəhrələnmişəm.

Bir dəfə söhbət «nimdaş» kəlməsindən düşdü. Söhbət iştirakçılarının bəziləri bu sözün mənasını bilmədilər. «Nimdaş» sözünü Hüseyn işlətmişdi. O, qayıdıb mənim üzümə baxdı. Mən dedim ki, «nimdaş» sözünü Azərbaycanın hansı kəndində kimdən soruşsan bu sözün mənasını dərhal deyə bilər. Həddindən çox köhnəlmiş paltara da «nimdaş» deyirlər. «Nimdaş» – köhnəlmiş, yararsız hala düşmüş mənasında işlədilir.

Hüseynin «nimdaş» sözü mənim bir dördlük yazmağıma səbəb oldu. Düşündüm ki, kasıb olan oğlan toyda da nimdaş paltar geyməyə məcbur olur. Amma, bütün insanlar öləndə təzə «paltar» – kəfən geyir. Bunu fikirləşib belə bir dördlük yazdım.

*Harınlar min illər xalqı edib qul,*
*Qızılla, gümüşlə məzələnibdir.*
*Toyu da nimdaşla keçirib yoxsul,*
*Öləndə paltarı təzələnibdir.*

Dördlüyü Hüseynə oxuduqda dedi: - Axırıncı iki misran ədəbi yenilikdir.

## *Dözüləsi olmayan dərdlər*

Həyatda elə hadisələr baş verir ki, buna dözmək mümkün olmur. Yurd-yuvalarımızın düşmən tapdağına çevrilməsi, ata-babalarımızın məzarlarının da yağılara girov qalması dözüləsi dərdlər deyil. Atamın məzarı Kəlbəcərin Ağcakənd kəndində, qaçqın olan anamın məzarı Bakı şəhərindədir. Bəli, bundan dözüləsi dərdlər saymaq olmaz. Bu müsibətə tablamadığımı hiss edən Hüseyn Kürdoğlu təskinlik tapmağım və dərdimə şərik olmaq üçün aşağıdakı şeri yazdı.

## Dağ kimi dayan

*(Şair qardaşım Şamil Dəlidağa)*

*Ana matəminə tab eylə qardaş,*
*Elə dərd özü də mərdə yaraşır.*
*Analar dünyadan köçdüyü gündə,*
*İlahi kədərə, dərdə yaraşır.*

*Qəbri qazılmadı o qəlbi dağda,*
*Çeşmələr qaldımı səsdə-soraqda?!*
*Ruhu səmalarda, cismi torpaqda,*
*Ona asiman da, yer də yaraşır.*

*Köksü xəzinəydi nəğməyə, sözə,*
*Min bir bayatısı töhfədir bizə.*
*Onun məzarına yaş tökən gözə,*
*Tərtər də, Araz da, Kür də yaraşır.*

*Borcluyuq eşqinə, istedadına,*
*Yetsin nəvələri hər muradına.*
*Vaxtında gələrsə, yer övladına,*
*Xeyir öz yerində, şər də yaraşır.*

*Ana şəfqətindən varmıdır doyan,*
*Ana sevgisinin nuruna boyan.*
*Sən bu dar gündə də dağ kimi dayan,*
*Dağ kimi dayanmaq kürdə yaraşır.*

Hüseyn Kürdoğlu bir qayda olaraq dost-tanışların sevincindən ürəkdən bəhrələnirdi, onların dərdlərinə isə şərik çıxırdı. Bu məsələlər həmişə onun diqqət mərkəzində olurdu. Hikmətli sözləri, məsləhətləri dərdi olanların təskinlik tapmasında böyük əhəmiyyət kəsb edirdi. 1976-cı ildə əzizlərdən əziz, unudulmaz atam Səlim dünyasını dəyişdikdə Hüseyndən belə bir teleqram almışdım:

*Şamil, ata dərdi ağır olsa da,*
*Olub keçənləri sən gətir yada.*
*Dünyada qalacaq kimin atası?*
*Möhkəm ol, mərdliklə keçir bu yası.*
*Qibləgahın olub həmişə atan,*
*Bundan təskinlik tap hər saat, hər an.*
*Buna etmirəm şəkki,*
*Dərd-qəminin şəriki.*

*Qardaşın*
*Hüseyn Kürdoğlu*

Hüseyn Kürdoğlu ilə həmişə biri-birimizin dərdlərinə şərik olduğumuz kimi, uğurlarımıza da qəlbən sevinirdik. Kəlbəcərdə ictimaiyyətin köməyi ilə adı dillər əzbərinə çevrilən bir tarix-diyarşünaslıq muzeyi yaratmışdım. Hüseyn bu muzeyə böyük heyranlıqla tamaşa etdi. Bu uğura görə məni bağrına basıb öpdü. Çoxlu xoş sözlər dedi. Qiymətli məsləhətlər də verdi. O, kəndi gözəl bilirdi. Məişət əşyalarını yaxşı tanıyırdı. Muzeyə, onun salonlarına iki saatdan artıq tamaşa etdikdən sonra dedi:

- Şamil, hər şeyə diqqət yetirdim. Çoxlarının görmədiyi və görsə də adını bilmədiyi hədsiz əşyalar toplamısan. Bunlar xalqın mənəvi tarixidir. İnanıram ki, bu muzeydən elmi əsərlər də yazılacaqdır. Kəndlə bağlı olan bir neçə əşyanı – «bəndəmburan»ı, «kotan qayışı»nı, maral buynuzundan «kirkid»i muzeydə görə bilmədim.

(HAŞİYƏ: Hüseynin bu iradından sonra mən onun dedikləri əşyaları tapıb muzeydə yerləşdirdim və Bakıya gələndə ona bildirdim ki, muzeydə görmədiyin əşyaları Kəlbəcərə gələndə görəcəksən.)

O, muzeyə baxdıqdan sonra rəy kitabına gözəl bir şer yazdı. Şerdə deyilirdi:

*Gəlsin iftixarla qoy baxsın ellər,*
*Sevinsin qocalmış əsrlər, illər.*
*Öpülüb qızıla tutulsun gərək,*
*Bu dastan muzeyi yaradan əllər.*

*Yarat, əziz Şamil, əlin var olsun,*
*Dağların var olsun, elin var olsun!*
*Bu böyük hünərin kövrəltdi məni,*
*Daşa da dil verən dilin var olsun!*

Lakin belə bir muzeyin yaradılmasına görə sevinən Hüseynin şadlığı sonralar qüssəyə çevrildi. Azərbaycanın dilbər guşələri, o cümlədən Kəlbəcər və onun bu zəngin muzeyi erməni quzğunlarının caynağına keçdi. Hüseyn Kürdoğlu bu muzeyi xatırlayaraq onu təsvir edən, onun işğalını vətənin sinəsinə çəkilən dağ sayan şer yazdı. Mən onun bu şerini həyəcansız oxuya bilmirəm.

### Kəlbəcər muzeyi

*(Şamil Əsgərova)*

*Kəlbəcərin muzeyi bir nağıl muzey idi,*
*Zərrədən günəşəcən dünyada hər şey idi.*
*Bütün cəh-cəlalıyla müsibətli yer üzü,*
*Aylı, günlü, ulduzlu, kəhkəşanlı göy idi.*
*Bir nağıl muzey idi!*
*Miladdan o yana da, miladdan bu yana da*
*Ən qədim köhnə idi.*
*Ən yeni təzə idi.*
*Bir nağıl muzey idi!*
*Min illərin töhfəsi nə qədər yazı vardı,*
*Alı pişvazı vardı,*
*Ələsgər sazı vardı.*
*Şəmşir avazı vardı.*
*Vurğunun xatirəsi onun yaraşığıydı,*
*Gözünün təbəssümü sanki ay işığıydı.*
*Qılınc, qələm, bir də saz,*
*Gərdəklər qotaz-qotaz,*
*Corablar qotaz-qotaz.*
*Xalçalar nə xalçalar – Dəlidağ çəmənzarı,*
*Elin fəxri-vüqarı.*

*Neçə növ cəhrə – daraq,*
*Neçə növ dükçə-yumaq.*
*Babaların papağı, kotanı və çomağı,*
*Qayaların qoynunda gildən saxsı çırağı…*
*Ah, nələr vardı, nələr,*
*Nə töhfələr vermişdi bu muzeyə nənələr?!*
*Gündoğan və günbatan,*
*Güney və qüzey idi.*
*Qarlı zirvələr ilə o da üz-üzə idi,*
*Bir nağıl muzey idi!*
*Onu yaradan kişi çağdaş Prometey idi,*
*Dağıtdı bu nağılı, qarət eylədi yağı.*
*Vətənin sinəsindən getməz bu namərd dağı.*
*Kəlbəcərin muzeyi bir nağıl muzey idi,*
*Dünyada hər şey idi.*

Mən hər dəfə Hüseyn Kürdoğlu ilə görüşəndə mütləq bu muzeydən söz salardıq. Azərbaycan tarixi üçün xüsusi əhəmiyyətə malik olan belə bir zəngin muzeyin düşmən əlinə keçməsinə görə yanıb-tökülürdük. Mənim bu dərddən uşaq kimi kövrəldiyimi görən Hüseyn daha çox kövrəlib deyirdi:

- Bakıda üçüncü Kəlbəcər yaradarsan. İnşallah onun açılışını Kəlbəcərdə keçirərik.

### *Hüseyn Kürdoğlu xeyirxahlığı*

Mən, böyük kürd şairi Ciyərxun haqqında dissertasiya yazırdım. Onun haqqında «Xalqın şairi» adlı bir kitabım çap olundu. Bu kitabın redaktoru Hüseyn Kürdoğlu idi. Dissertasiya müdafiə etdiyim zaman üç nəfər opponentimdən biri Hüseyn Kürdoğlu idi. Onun xeyirxah iradlarının mənə böyük köməyi oldu.

640 səhifəlik «Kürdcə-Azərbaycanca, Azərbaycanca-kürdcə, Kürd dilində qafiyə lüğəti»m çap olundu. Bu

kitabın redaktorları – kürdşünas alimlər Hüseyn Kürdoğlu və Zümrüd Şəfiyeva öz qiymətli məsləhətləri ilə lüğətin daha da mükəmməlliyinə səbəbkar oldular. Ulu şair Şəhriyarın «Heydər babaya salam» poemasına cavab olaraq yazdığım «Dəlidağa salam» poemamın rəyçisi Hüseyn Kürdoğlunun qiymətli fikirləri böyük əhəmiyyətə malik oldu.

Hüseyn Kürdoğlu qüsurlarımı xeyirxahlıqla söyləyirdi. Heç bir qeyri-obyektivliyə yol vermirdi. Saxta tərifin düşməni idi. Tələbkarlığına söz ola bilməzdi. Bir sözlə ən gözəl insani xüsusiyyətlər onda cəm olmuşdu.

Onu da xüsusi olaraq qeyd edirəm ki, Hüseyn Kürdoğlu yüksək mədəniyyətə malik olan gözəl bir ailə başçısı idi. Onun ömür-gün yoldaşı Fəridə xanımla aralarında olan mehriban münasibətə yalnız qibtə etmək olardı. Bütünlüklə qohum-qardaşları hələ cavan vaxtından Hüseyni nəslin ağsaqqalı hesab edirdilər. Onun bir sözü iki olmazdı.

Hüseynin qardaşı Şirindil Alışan elmlər namizədi, tanınmış tənqidçi, Azərbaycan Milli Elmlər Akademiyası nəşriyyatının direktorudur. Lakin bunun Hüseynin yanında mətləbə heç bir dəxli yox idi. Şirindil Hüseyni özündən böyük qardaşı olmasından əlavə ata əvəzi hesab edirdi. Hüseynin hər bir sözü Şirindil üçün yazılmamış, lakin dəqiq yerinə yetirilən qanun idi. Hüseynin övladları Süsən, İlham və Nasirin ona olan məhəbbətləri heç bir ölçüyə sığışmazdı. Hüseyn də öz növbəsində övladlarının üzərində yarpaq kimi əsirdi. Ümumiyyətlə, Alışan nəslində böyüklük-kiçiklik, dərin xətir-hörmət, təəssübkeşlik, biri-birinə qayğıkeşlik, vətənə, xalqa dərin məhəbbət hökm sürür. Buna görə də bu nəslin övladları xalqın çox böyük və dərin hörmətini qazanıblar.

***

Son dövrlərdə Hüseynlə hər görüşəndə və ya telefonla danışanda həmişə söhbətimiz düşmən tapda-

ğında qalan torpaqlarımız, yurdundan pərən-pərən düşən el-obamızın üzərində dayanardı. O, alınmaz qalalar olan Şuşanın, Laçının, Kəlbəcərin və digər rayonların başısoyuqluq ucbatından düşmənə verildiyindən yana-yana danışırdı. O, arzulayırdı ki, Laçını quzğunların pəncəsindən xilas edək, dizin-dizin müqəddəs dağların ziyarətinə gedim, əyilib üzümü torpağına sürtüm. Bundan sonra dərhal dünyamı dəyişdirim. Ən ulu arzum budur. Lakin…

Baş verəcək dəhşətli hadisəyə 8-9 saat qalmış 11/07-2003-cü il tarixdə hər gün olduğu kimi zəng vurub halını soruşdum. Çox ümidsiz danışdı. Sarsıldım, məyus olub «Gündəliyim»ə aşağıdakıları yazdım.

### *Hüseyn Kürdoğlu ilə telefon söhbətim*

*Gecə on bir idi, telefon etdim,*
*Əvvəl cavab verdi mənə arvadı.*
*Hüseynin halı necədir – dedim,*
*Çox qəmli danışdı, sanki ağladı.*

*Sonra Hüseynlə eylədim söhbət,*
*Ümidsiz danışdı, onu danladım.*
*Dedim, Xaliqdə var yenilməz qüdrət,*
*Bəxtdən gileyləndi, bunu anladım.*

*Ürək-dirək verdim, dedim biz hələ,*
*Qarabağı, Şuşa, Laçını görək.*
*Bənzəyək düşməni qərq edən selə,*
*Gedib Dəlidağa baş əyək gərək.*

*«Məcnun bulağı»nın yoldadır gözü,*
*Biz gedib onunla öpüşməliyik.*
*Dilimizdən düşmür Kəlbəcər sözü,*
*Biz gedib onunla görüşməliyik.*

*Dedi: - Ağlım kəsmir, bir də ya qismət?!.*
*Yenə verdim ona mən ürək-dirək.*
*İçimdən alışdım, yandım nəhayət,*
*Dedim: - sarsılmasın Hüseyn gərək!*

Mən gündəliklərimi şer şəklində yazıram. Yuxarıdakılar Hüseynlə söhbətimin qısa məzmunu idi. Bu söhbətdən təqribən 8-9 saat sonra, yəni 12/07-2002-cü il tarixdə səhər saat $7^{00}$ radələrində dözüləsi mümkün olmayan müsibət baş verir – Hüseyn Kürdoğlu dünyasını dəyişir.

## *Qaradan da qara xəbər*

Mən əslən laçınlı olan Məmməd Mirzəyevin yanına övladım Xalidlə getmişdim. O, hiss etdi ki, hadisədən mənim xəbərim yoxdur. Çox böyük üzüntü ilə dilləndi:

- Şamil, Hüseyn Kürdoğlumuz daha dünyada yoxdur.

Elə bildim bu qaradan da qara xəbər ürəyimə sancılan zəhərli ox oldu. Sanki yaş gözlərimdə hazır dayanıb bu qara xəbəri gözləyirmiş. Uşaq kimi hönkür-hönkür ağladım, elə bildim qədəmim qırıldı, ayağa qalxa bilmədim. Məmməd həkimin və Xalidin köməyi ilə gözümdən yaş seli axa-axa yerimdən qalxdım. Xalid dərhal məni Hüseyngilə apardı.

Qurulan yas çadırını, bura gələn insan selini, Hüseynin qardaşı Şirindili və oğlu İlhamı gördükdə özümü saxlaya bilmədim, yerə çökdüm. Məni kiritmək mümkün olmadı, başım-bədənim keyidi, dərmanlar içməli oldum. Deyirlər kişi ağlamaz. Bəli, düşmən önündə kişi ağlamaz. Şuşa, Laçın, Kəlbəcər və bir çox qalan rayonlarımız nankor qonşularımız tərəfindən işğal edildikdə, el-obamız yurdundan-yuvasından didərgin, pərən-pərən olanda kişi olan nə cür dözüb ağlamazdı? Hüseyn Kürdoğlu kimi 47 ilin sadiq dostunu, xalqımızın bu görkəmli şairini itirən necə tablayıb göz yaşı tökməzdi?

Yas yerindən gecə saat $11^{30}$-da evə qayıtdım. Məmməd həkimin mənə verdiyi dəhşətli qara xəbər barədə «Gündəliyim»ə aşağıdakıları kövrələ-kövrələ birtəhər yazdım.

## Zil qaradan qara xəbər

*Məmməd həkim aldı dilə,*
*Zil qaradan qara xəbər.*
*Göz yaşlarım döndü selə,*
*Ürəyimə doldu kədər.*

*Dedi: – Şair Kürdoğlumuz,*
*Gözəl insan, mərd oğlumuz,*
*Ünvanımız, titulumuz,*
*Daha yoxdur o mötəbər.*

*Sanki yağdı başıma daş,*
*Hönkür-hönkür qaldım çaş-baş.*
*Xəbər yalan olaydı kaş,*
*Hüseyn də ölər məgər?*

*İnanmadım, ondan yenə*
*Xəbər aldım dönə-dönə.*
*Xalid ilə yas yerinə*
*Getdim, məni boğdu qəhər.*

*Hıçqırıqla qan ağladım,*
*Qəlbimə dərd, qəm bağladım.*
*Lap yadımdan çıxdı adım,*
*Hava mənə oldu zəhər.*

*Yerimdə key qaldım belə,*
*Tutsalar da məni dilə:*
*– Özünü al Şamil ələ,*
*Bir uşağa oldum bənzər.*

*Ağır dərddir dost itirmək,*
*Buna necə dözsün ürək?*
*Şamil, ərzi ələk-vələk,*
*Eyləsən də yoxdur təhər.*

Bundan sonra da «Gündəlik»lərimə ürəyimi boşaldıb Hüseyn haqqında nəsə yazıram. Bunların hamısını bir yerə cəm etsən bir kitab həcmində olar. Hüseyn Kürdoğlunu ömrümün son gününə qədər unutmayacağımı, xatirəsi mənim üçün həmişə əziz olacağını yəqin etməyimdən qismən də olsa təskinlik tapmağa çalışıram…

Tez-tez düşünürəm ki, vəfasız dünya hamımıza vəfasız olacaq. Nə edim ki, Hüseyn Kürdoğlu dərdindən bir təsəlli tapım. Vaxtaşırı «Gündəlik»ə onun haqqında nə isə yazıram, bununla cüzi də olsa özümü bir az ovuduram.

### *Mümkündürmü çəkmək, çəkilməz dərdi*

Böyük şair, kamil alim, gözəl insan, əzizlərdən əziz, dost-qardaşım Hüseyn Kürdoğlunun dünyasını vaxtsız dəyişməsi münasibətilə

*Bir oğul itirdi Odlar diyarı,*
*Qələmi kağıza gövhər düzürdü.*
*Bir oğul itirdi Laçın dağları,*
*Sözün dəryasında inci gəzirdi.*

*Xəyalı qartaldan cürət alırdı,*
*Sözün səmasında qanad çalırdı.*
*Ərş onu uğurla yola salırdı,*
*Qayıdıb kağıza hikmət süzürdü.*

*Vətənin dərdinin loğmanıydı o,*
*Mənalı kəlamlar heyranıydı o.*
*Sözün bağçasının bağbanıydı o,*
*Sonalıyıb seçmə güllər üzürdü.*

*Dilindən düşmürdü Qarabağ sözü,*
*Laçını gəzirdi həmişə gözü.*
*Ümidə, inama tuturdu üzü,*
*Dözülməz olana qəlbi dözürdü.*

*Həyatda silinməz çox izi qalıb,*
*Sözünün xəzinə məxəzi qalıb.*
*Qəlblərdə sarayı – əvəzi qalıb,*
*Ürəklərdə şer qalası hördü.*

*Ağırdı itkisi – dağ heykəllidi,*
*Kitabları bizə bir təsəllidi.*
*Laçına uçubdu ruhu, bəllidi,*
*Böyük müsibəti xalqımız gördü.*

*Vardı ikimizin belə əhdimiz,*
*Birgə Qarabağa gedəsiydik biz.*
*Laçını ziyarət edəsiydik biz,*
*Qoymadı, əcəl tərs qərarı verdi.*

*Hüseyn Kürdoğlu! – Apardı ölüm?*
*Görün nə söyləyir, qurusun dilim!*
*O köçdü, zənn etdim qırıldı belim,*
*Bu itki qəlbimdə qəmdi, qəhərdi.*

*Tanrı bəxş etmişdi ilhamı ona,*
*Ürəkdən bağlıydı Azərbaycana.*
*Şamilə dönmüşdü ciyərə-cana,*
*Mümkündürmü çəkmək, çəkilməz dərdi.*

## ***Sözdən inci seçərək kağız üstə düzərdi***

Bu gün əziz dost-qardaşım Hüseyn Kürdoğlunun qırxıdır. Qax rayonunun Qaşqaçay kəndindəyəm. Səhhətim imkan vermədi ki, Bakıya – yas məclisinə gedəm. Darıxıb aşağıdakı şeri yazdım.

*Azərbaycan itirdi çox qüdrətli bir şair,*
*Sözdən inci seçərək kağız üstə düzərdi.*
*Xalq dilinin sərrafı, böyük ustad, o mahir,*
*Söz bağından gülləri sonalayıb üzərdi,*
*Sözdən inci seçərək kağız üstə düzərdi.*

*Dastan oldu dillərdə qələminin hünəri,*
*Ələnirdi zehnindən kəlmələrin gövhəri.*
*Sözdən sözü seçməyin tanınırdı zərgəri,*
*Zəkasına güvənib mənalı söz gəzərdi,*
*Sözdən inci seçərək kağız üstə düzərdi.*

*Boş, mənasız sözləri o qələmə almadı,*
*Zümrüd etdi hər şeri – saralmadı, solmadı.*
*Dayaz ilə arası ömrü boyu olmadı,*
*Sözün dərin qəhrində qəvvaz kimi üzərdi,*
*Sözdən inci seçərək kağız üstə düzərdi.*

*Günəş olub qələmi, qəlblərə nur saçardı,*
*Sirli aləm mülkündə tilsimləri açardı.*
*Xəyallara dalanda qanadlanıb uçardı,*
*Səmasında hikmətin qartal kimi süzərdi,*
*Sözdən inci seçərək kağız üstə düzərdi.*

*Bəs Hüseyn Kürdoğlu – indi qalır o harda?*
*Kimin dili gələr ki, desin yatır məzarda.*
*Ürəklərdə yaşayır, xalq hardadı, o, orda,*
*Sözü naxış eyləyib qələmiylə bəzərdi,*
*Sözdən inci seçərək kağız üstə düzərdi.*

Bu xatirəni yazarkən böyük həyəcan keçirdim, dəfələrlə kövrəldim. Çox götür-qoy etdikdən sonra Hüseyn Kürdoğlunun müqəddəs ruhuna xəyalən baş əyib ona dedim:

*Qardaş, belə zənn etmə qalmısan özgə yerdə,*
*Ucaltmısan saraylar qədərsiz ürəklərdə.*

*Sevdiyin el-obanın qəlbində yaşayırsan.*
*Hikmətlidir hər sözün, əbədi bir şairsən,*
*Dəstəmizin öncülü yenə də olacaqsan,*
*Yaşadıqca vətənin, onunla qalacaqsan!*

Dekabr, 2003-cü il

## HÜSEYN KÜRDOĞLU İLƏ DEYİŞMƏ

Hüseyn Kürdoğlu bir neçə dəfə Kəlbəcərdə olmuş, şirin söhbətləri, dadlı-duzlu şerləri, cürəti, cəsarəti, haqpərvərliyi ilə mənim də qəlbimdə yuva salmışdı…

Keçən qışların birində Məmmədə* bir şer-məktub göndərmişdi. Məhəbbət və səmimiyyətlə yad elədiyi dostların sırasında mən də vardım. Necə vardım, görəcəksiniz. Məmməd Hüseynə çox gözəl cavab yazdı.** Mən də məktub yazmaq fikrinə düşdüm. Məqsədimi Məmmədə dedim. Məmməd yazdığı qafiyələri mənə bildirdi ki, təkrar eləməyim.

Mən cavab fikirləşməkdə olum, görək Kürdoğlu nə yazmışdı:

*Ağrın alım, halın-günün necədi,*
*Meylim düşüb düzəltdiyin qələmə.*
*Bir ucuynan eşqə dastan yazıram,*
*Bir ucuynan ox atıram ələmə!*

*Halısanmı, Şəmşir əmi hardadı,*
*Bəlkə əli heyvadadı, nardadı?!*
*Hər qoşması bir gülöyşə nar dadır,*
*Elə bilmə sataşıram lələmə…*

*Nə Qəmbərdən, nə Şamildən xəbər yox,*
*Bəhmən kimi əhlidildən xəbər yox.*
*Məmogildən, Oktaygildən xəbər yox,*
*Dərələri qar tutmayıb siləmə?*

*Dost hicranı qoy girməsin qəsdimə,*
*Duman kimi sürünməsin üstümə.*

---

* Şair Məmməd Aslan

** Məmməd Aslanın cavabı kitabın «Şerlər» bölməsində çap olunub.

*Beqay kimi dağ cüssəli dostuma*
*Can qurbandı, özgə qurban diləmə!*

*Bizim Saday razıdımı işindən?*
*Ac aslandı, can qurtarmaz dişindən!*
*Çox adamlar qaçıb onun döşündən,*
*Can qurtarmaq olmaz hələm-hələmə!*

*Önündə mey, əlində bir piyala,*
*Şair Əli qərq olurmu xəyala?*
*Şair gərək haray sala, hay ala,*
*Denən, qardaş, quzu kimi mələmə!*

*Totuq qızın ayaq açıb gəzirmi,*
*Nazlanırmı, dodağını büzürmü?*
*Çəpik çalsan sındırırmı, süzürmü?*
*Qoy oynasın, acıqlanıb eləmə!*

*Çovğun əsib dalğa-dalğa yağırmı,*
*Boran sizi ev-eşiyə yığırmı?*
*Döl başlanıb qoyun-keçi doğurmu,*
*Ağzınıza heç dəyirmi dələmə?*

*Dəlidağın həsrətinnən ölərəm,*
*Nə şad ollam, nə bir deyib gülərəm,*
*Vallah, tez-tez görüşünə gələrəm,*
*Yaman əllər daş qoymasa şələmə!*

*O lağımlı qayalardan ilham al,*
*Perik düşmüş dostunu da yada sal.*
*Zirehlənmiş gədikləri seyrə dal,*
*Evə girib çox özünü bələmə!*

*Ürəyimdə Tərtər kimi coşur qan,*
*Kürdoğlunu öldürəcək bu hicran.*
*Yaşılbaşlar ovçusuydum bir zaman,*
*İndi daha qarğa düşür çələmə!..*

Göz qabağında olan şer haqda mən heç nə demirəm…

Məmmədin cavabı da həmin qaiyə ilə on bir bənd idi. Uraladım. Üç şer yazdım. Məmmədə dedim, dedi ki, gətir, oxuyaq, sonra göndər. Apardım, oxumağa başladım:

*A Kürdoğlu, bəxtim yoxdu, neyliyim,*
*Yetən yeyir, dadsız deyir şiləmə!*
*Kim tərpənir, kül üfürür gözümə,*
*Deyən olmur, bir yazıqdı, piləmə!*

*Daha işim qalmayıbdı əyəsi,*
*Yan üstədi taleyimin dəyəsi.*
*Öyünməsin buynuzlular yiyəsi,*
*Bir gün gələr, meydan keçər peləmə!*

*Nə lazımdı, Əli sözün uzunu,*
*Bəs eyləyər yaxşı qatsan duzunu.*
*Anasından yarımayan quzunu*
*Bəstək olmaz, özgəsinə tələmə!*

Məmməd bunu bəyəndi. İkincini başladım:

*Yeri gəlsə, laylay olub yatırram,*
*Səsim eldi, sözüm eldi, eləm, ə!*
*Yeri gəlsə, kəl səsini batırram,*
*Quzuluxnan eyləyərəm elə məə!*

*Əzəl gündən bağlanmışam ay elə,*
*Verməmişəm günlərimi a yelə.*
*Qardaş, qəlbim qanla dolub ay elə,*
*Görən deyir, – e, ləmədi, e, ləmə!*

*Niyə danım çürüyümü, qəlpimi,*
*Başım ola ya alçaqmı, qəlbimi!*
*Qıran çoxdu tez-tez mənim qəlbimi,*
*Bir köməyim yoxdu deyə, eləmə!*

*Şair demə nə özünə, nə mənə,*
*Üç kəlməynən nə daqqalıq, nə «mən», ə!*
*Beş-on harın əmən məmə nəmənə,*
*Məmə odu el bəslənə, el əmə!*

*Xayın gözə bıçaq mənəm, qəmə mən,*
*Heç kəs olmaz Əli kimi qəm əmən!*
*Hərdən elə qərq oluram qəmə mən,*
*Rəssam olar hər kəs baxsa eləmə!..*

Məmməd sərt dindi:

– Bu olmaz!

– Niyə, Məmməd?

– Başdan ayağa sancmısan onu!

– Nədə sancmışam?

– «Yeri gəlsə, kəl səsini batırram»da, «şair demə nə özünə, nə mənə»də, «Xayın gözə bıçaq mənəm, qəmə mən»də!

– Axı bunnarın heç biri Hüseyni tutmur…

– Bə kimi tutur? Bir halda ki, məktub ona yazılıb, deməli, onu tutur! Şairin üzünə deyirsən ki, özünə şair demə! Olar bu?

– Onu dəyişərəm, yazaram ki, şair demə nə Məmmədə, nə mənə!

Lap pərt oldu:

– Sən bilmirsən ki, mən şairəm? Şer kitabımı sənə hədiyyə eləməmişəmmi?

– Yaxşı, yazaram nə Bəhmənə, nə mənə!

– Əminsənmi Bəhmən razı qalar?

– Qalar. «Xayın gözə»ni də yazaram öz-özümə…

– Neyləsən, olmaz bu təcnis! O birini oxu.

Oxudum:

*Şair olan gərək olsun xəyallı,*
*Dik gəzməsin ingilisin tuzu tək!*
*Şer gərək günəş kimi isitsin,*
*Dondurmasın hidrogenin buzu tək!*

*Həqiqətdi, nə gizlisi, nihanı,*
*Oddan olsa, söz yandırar cahanı.*
*Söz odu ki, daddandırsın dahanı,*
*El yalasın Naxçıvanın duzu tək!*

*Namərd salsa, körpüsünnən keçilməz,*
*Qabındakı şərbət olsa, içilməz.*
*Bəd ulayan yalquzaqdan seçilməz,*
*Əli hərdən mələməsə quzu tək!*

I

Afərin, vallah!..

Tutdu səni?..

– Kürdoğlu məktubu kimə yazıb?

– Saa.

Sənin mənnən düşmənçiliyin varsa, özümnən çək!

– Bu nə sözdü, Məmməd?..

– Mənim dostuma belə güllə atana…

– Məmməd, nə danışırsan sən?

– Yığışdır, qoy cibinə!

– Baş üstə!

Yığıb cibimə qoydum, durub evimə gəldim. Göndərmədim.

Həmin qışın yazında Bakıda – Natəvan klubunda rayonlarda yazan üç şairin yaradıcılıq gecəsi keçirilirdi. Biri Məmməd idi. Mən də getmişdim… Hüseynlə görüşəndə əlimi buraxmadı:

– Deyir, məni bərk sancıb iynələmisən?!

Mən heyrətlə Məmmədin üzünə baxdım. O arxayın dedi:

– Mən sirr dağarcığı döyüləm ha!..

Çox pərt olduğumu görən Hüseyn araya söz atdı:

– Çıxışa hazırraş, adını Məmməd Araza yazdıracam…

Yığıncaq başlandı. Mənə də söz verdilər. «Qonşu»nu uyğunnaşdırıb dedim. Şer yaxşı təsir bağışladı. Dərhal S.Rüstəmlə M.İbrahimov qonşu kimi zarafatlaşdılar.

M.İbrahimov görüşü yekunlaşdıranda adımı çəkdi, dedi ki, biz üç şairin deyil, dörd şairin görüşünü keçirdik…

Kəlbəcərə qayıdan kimi əhvalatı olduğu kimi Hüseynə yazdım, şerləri göndərdim, dedim ki, olan budu, necə istəyirsən, elə də qəbul et.

Aradan bir neçə gün keçmişdi. Bir axşam qəsəbə sakini Əli Qurbanlı mənə zəng elədi.

-Səhvən bir məktubun gəlib çıxıb mənə. Açmışam. Düzü, oxumuşam da.

-Eybi yoxdu. Uşax göndərrəm. Kimnəndi, nə yazır?

-Vallah yaman məzəli şerrərdi, hədə-hərbə.

-Yazan kimdi?

-Hüseyn Kürdoğlu…

Gətirtdim. Qüdrətinə, sənətkarlığına baxın!.. Şapalağını, sığallamasını görün!

I

*Xoş ilhamlı, uca təbli şairsən,*
*Gəl üstümə söz gülləsi şiləmə!*
*Gizli-gizli qan sızılıb yaramnan,*
*Qəlbim dolub ağzınacan liləmə!*

*Aramızı soyutmasın yavalar,*
*Rəvan sözün məlhəm kimi hov alar.*
*Qızıl quşsan isinməmiş havalar,*
*Qanad salıb lələyini tüləmə!*

*Dəlidağın hər çağına qurbanam,*
*Hər daşına, torpağına qurbanam.*
*Quzusunun dırnağına qurbanam,*
*Nə yazmışam, peşman olam, siləm, ə?!*

*Şair dedim həm sənə, həm özümə,*
*Məmməd özü qüvvət verər sözümə.*

*Dağ başından boz-boz baxma üzümə,*
*Elə bilmə sənnən qorxam, siləm, ə!*

*Yenə qardan ucalıbmı tayalar,*
*Hər yer ağmı, yoxmu özgə boyalar?*
*Yol üstündə buz tutubmu qayalar,*
*Salxımlama, qalaxlama, lüləmə?!*

*Axsaq dana tək axuru qoruyar,*
*Qayalıqda təkə xırı qoruyar.*
*Buynuzuyla bir naxırı qoruyar,*
*Bəbir, pələng bata bilməz kələmə!*

*Nərə çəksəm, qorxudan tük salarsan,*
*Qanın qaçar, yarpax kimi solarsan.*
*Kənarda dur, ayaq altda qalarsan,*
*İpə yatmaz, nal götürməz kələm, ə!*

*Elə bilmə söz mülkündə ağasan,*
*Gərək hələ gurlayasan, yağasan.*
*Canım-gözüm, sən ki, qırxlı çağasan,*
*Kənar dolan, ilişərsən çiləmə!*

*Yonulmamış daş qoyulmaz hörgüyə,*
*Öyrənməmiş əl uzatma kərkiyə!*
*Böyüyəsən, qolun-qıçın bərkiyə,*
*Gələm, orda bir oynayaq çiləmə!*

*Arı kimi qəlbim çiçək soraqlar,*
*Min zəhmətlə şanlar çəkər, qalaqlar.*
*Dəlidağda çoxdu büllur bulaqlar,*
*Lehmə tapıb üz-gözümə çiləmə!*

*El sözüdü mənim qəndim, şəkərim,*
*El gözüdü mənim ayım, ülkərim.*
*Qanımdadı o Tərtərim, Həkərim,*
*Yaxşı bax ki, dağlar yıxan seləm, ə!*

*Uğursuzlar çıxmayaydı rastıma,*
*Kürdoğluyam, duran olmaz qəsdimə!*
*Bir bəstidə pay yolladım dostuma,*
*Haram əllər toxunmasın sələmə!..*

II

*Səsin gəlib qulağıma yetişdi,*
*Unamazdım eyliyərsən belə məə!*
*Doğrudan da el məməsi əmirsən,*
*Burda yoxdu belə məmə, belə məə!*

*Dəlidağdan çox əsirmi sazaxlar?*
*Ağ gədiklər küləkləyər, sazaxlar!*
*Daşlarımda bir qırılmış saz ağlar,*
*Ərzurum tək bir gədiyəm, beləm, ə!*

*Gün doğmamış yolum düşdü tor bağa,*
*Hörümçəklər bağlamasın tor bağa!*
*Bağban gərək ziynət verə torpağa,*
*Torpaq gərək külüng əmə, bel əmə!*

*Adam bilməz, saya salmaz yadı yar,*
*Qılınc götür yadı doğra, yadı yar.*
*O Fərhaddan mənəm qalan yadigar,*
*Dağlar çapan bir külüngəm, beləm, ə!*

*Kürdoğlunu söz sərrafı sanasan,*
*Sözlərini yığıb gətir sana-san.*
*Cücələri payız vaxtı sana sən,*
*Hələ tezdi, tənə etmə beləmə!*

III

*Boğazı qumrovlu quzular kimi,*
*Sözlərin mələşə-mələşə gəldi.*
*Təcnisin yaralı pələngə döndü,*
*Elə bil, mənimlə güləşə gəldi!*

*Bahar səması tək eynim açıldı,*
*Çiynimnən dağ boyda qəmlər uçuldu.*
*Sözündən könlümə odlar saçıldı,*
*Yanğın alovları küləşə gəldi.*

*Başını dik saxla dağ vüqarıyla,*
*Yaşa Kürdoğlu tək dost ilqarıyla.*
*Dağları titrədən dalğalarıyla,*
*Dəryanın nərəsi günəşə gəldi.*

IV

*Söz mülkündə bir xaniman ucalmış,*
*Divarına hey çəkirəm şirə mən.*
*El bağının gülzarına varmışam,*
*Şan bağlayıb toplayıram şirə mən!*

*Saz almışam, ustad gərək sim qoşa,*
*Zilində də, bəmində də sim qoşa.*
*Sözlərimi qəlbimdəki sim qoşa.*
*Şəyird olam Ələsgər tək şirə mən!*

*İstisuyun üstündədi Taxtalar,*
*Gülməz orda qəlbi, ruhu taxtalar.*
*Qartalların oylağında taxt alar,*
*Kürdoğlu tək şah vüqarlı şir əmən!*

V

*Cismim, canım oda düşüb yananda,*
*Dərman olmaz Dəlidağın buzu tək!*
*Bir gözəlin busəsinnən sərxoşam,*
*Dərman hanı dodağının duzu tək?!*

*Çoxdu mənim qaravəllim, oyunum,*
*Qəm libası geyinmişdim, soyunum!*
*Deyirdim ki, üçəm doğar qoyunum,*
*Bəxtimə bax, tək doğuldu quzu, tək!*

*Hamınıza toy-düyünnər dilərəm,*
*Uzaqdayam, dost qədrini bilərəm.*
*Kürdoğluyam həzin-həzin mələrəm,*
*Sizdən ayrı, yetim qalmış quzu tək!..*

Üç gündən sonra Kürdoğluya cavab məktubu göndərdim. Bunları deyə bilmişdim:

I

*A Kürdoğlu, bəyan olsun özünə,*
*Göndərdiyin qoşun dalaşa gəldi.*
*Özü yetişməmiş sədası çatdı,*
*Məni saldı xeyli təlaşa, gəldi!*

*Çatanda gördüm ki, çoxu pöpüşdü,*
*Boş süfrəmdən yedi, içdi, köpüşdü.*
*Qoşunumla qucaqlaşdı, öpüşdü,*
*Qapıma yalaşa-yalaşa gəldi!*

*Mən Əliyəm, sözlərini haxladım,*
*İbrət aldım, lap himimnən laxladım.*
*Köhlənini tumarradım, saxladım,*
*Qəbul et, yerinə alaşa gəldi!*

II

*Sənin "ləmə" kombinatın varıymış,*
*Dillənmərəm heç, əzəldən biləm, ə!*
*Ya Bakıda qarışdırıb başını,*
*Beş-on dənə çırpışdıram, ciləm, ə!*

*Həyat özü məst eləyib, dəməm mən,*
*Haqqım nədi deyəm ağlı cəməm mən?!*
*Bəri başdan bildirim ki, bəməm mən,*
*Bilirəm ki, deyəcəksən ziləm, ə!*

*Şükür, sənin yaxşı keçib illərin,*
*Şirin çıxıb, rəvan olub dillərin.*
*Zəhmət çəkmə, boşda qalar əllərin,*
*Quraq vurmuş, dolu döymüş iləm, ə!*

*Dəli cöngə tez yorular, xamlayar,*
*Qoruq bassa, qoruqçular damlayar.*
*El gözü var, baxar, çəkər, samlayar,*
*Kim inanar, mən ha deyim filəm, ə?*

*Söz mülkündə yerim yoxdu, qanmışam,*
*O səbəbdən şairliyi danmışam.*
*Su içində susuzluqdan yanmışam,*
*Təşnələnmiş, cadar olmuş diləm, ə!*

*Dalaşdığım olmayıbdı yaşımnan,*
*Gücüm yoxdu, qorxma mənim daşımnan.*
*Zaman döyüb yanbızımnan, başımnan,*
*Nəzilmişəm, nəzilmişəm, miləm, ə!*

*Bir hünərim olmasa da özümdə,*
*Fərri məna çıxmasa da sözümdə,*
*Bir balaca ovsunum var gözümdə,*
*Heç demə ki, ilan kimi miləm, ə!*

*Qaravəllim yoxdu, bir az nayamca,*
*Mən Əliyəm, fəryadamca, vayamca.*
*Yay quruyan qumlu sızqa çayamca,*
*Necə deyim dağlar yıxan Niləm, ə?!*

III

*Tuğ gəzdirən bir dərvişə dönmüşəm,*
*Vurulmuşam qəsidəyə, ələmə.*
*Çalışma ki, barmağımı açasan,*
*Nə taparsan, ovcu bomboş ələm, ə!*

*Baltam kordu, kötük üstə çırpıram,*
*Ha çırpıram, yenə olmur çırpı ram.*
*Məmməddən bir qafiyəni çırpıram,*
*Tənə sözü bir bu qədər ələmə!*

*Döl faraşsa, can qurtarar körpədən,*
*Körpə əkən biçəcəkdi körpə dən.*
*Gəl incimə Əli kimi körpədən,*
*O, gərəkdi barmax sora, əl əmə!*

IV

*Bir dərənin çaqqal ola ağası,*
*Aslanı nə, pələngi nə, şiri nə?!*
*Dost olanda olmayasan ağ, ası,*
*Ülfət ola şəkərdən də şirin, ə!*

*Bülbül deyil bağa qonub hər ötən,*
*Ömür deyil hər sananan, hər ötən.*
*Kərəm kimi yana bilməz hər ötən,*
*Fərhad kimi can verəmməz Şirinə!*

*Elə bilmə şan çəkirsən arı tək,*
*Əli kimi bağban olma, arıt, ək!*
*Hara gəldi sarmaşırsan arı tək,*
*Gör nə yaman dadanmışsan şirinə?!*

V

*Mən ki, sənə toxunmuram, dəymirəm,*
*Ağrın alım, yaxşı lələ, təpinmə!*
*Buynuzunu bir bu qədər şeşəltmə,*
*Demədimmi mənəm pələ, təpinmə!*

*Nə vaxt dedim söz mülkündə ağayam,*
*Bir çarıxlı mollapapax qağayam.*
*Görürsən ki, hələ qırxlı çağayam,*
*Firon olma, götür bələ, təpinmə!*

*Səsim hanı nərə çəkəm, bağıram,*
*Kəsim hanı köməyimə çağıram.*
*Ayaqlama, biçarəyəm, fağıram,*
*İpə gəlməz kəlsən kəl, ə, təpinmə!*

*Ər deyiləm aslannan tük saldırım,*
*Nər deyiləm ağır yükü qaldırım.*
*Baxırsan ki, bərkiməyib baldırım,*
*Əyər, məni yıxar şələ, təpinmə!*

*Özbaşına olmayıbdı teşilər,*
*Qarı çəkər, o fırranar, eşilər.*
*Axır sözün əvvəl demir kişilər,*
*Tələsimə, tezdi hələ, təpinmə!*

*Hayın-küyün tez açılar paxırı,*
*Yaxşı qoru, qurd basmasın naxırı.*
*Süddən yanıx bir quzuyam, axırı,*
*Böyüməsin gözün, kələ, təpinmə!*

*Yüz çalışsa Əli kimi ələngə,*
*Əli çatmaz başındakı çələngə.*
*Mahir ovçu pusqu qurar pələngə,*
*Körpə uşaq quşa cələ, təpinmə!*

VI

*Mən özümə şair deyə bilmirəm,*
*Girəmmirəm o meydana, pəsəm mən!*
*Hər yazana şair demək günahdı,*
*Bu hikməti qana-qana pəsəm mən!*

*Gödək donnar hələ tez-tez qısalır,*
*Füzulinin söz gülşəni basılır.*
*Qoşma, qəzəl məhkəməsi asılır,*
*Dözəmmirəm bu divana, pəsəm mən!*

*Sən şairsən, dodaxlarda sözün var,*
*Söz mülkündə yer tutmağa gözün var.*
*Toxunmaram, alışdıran közün var,*
*Olammaram yekəxana, pəsəm mən!*

*Bəxtim məndən dönüb nəsə, bilmirəm,*
*Tufan kimi coşub əsə bilmirəm.*
*Çoxları tək misra kəsə bilmirəm,*
*Öyrənməyib əlim qana, pəsəm mən!*

*Heç bilmirəm, hardan belə cələşdik,*
*Mən mələdim, sən mələdin – mələşdik.*
*Birdən-birə qarşılaşdıq, tələşdik,*
*Sən kəl çıxdın, mən bir dana, pəsəm mən!*

*Öyrənməmiş əhvalıma, xoyuma,*
*Ağır daşlar atan çoxdu quyuma.*
*Lehmə dedin şəfa verən suyuma,*
*Qoydun məni yana-yana, pəsəm mən!*

*Bəhməni də incitmişəm özümnən,*
*Əli deyər, bərk düşmüşəm gözümnən.*
*Düz deyən tək xəta çıxır sözümnən,*
*Daha bezdim, gəldim cana, pəsəm mən!*

VII

*Vəfalı dost pay göndərdi bəstidə,*
*Anam mənə yaxma yağladı, pəh-pəh!*
*Özü nəzərimə gəldi ucaldı,*
*Yırtmadı pərdəni, saxladı, pəh-pəh!*

*Gah qımışdı, gah ağartdı gözünü,*
*Gah yanaşdı, gahdan dartdı özünü.*
*Gah ötürdü, gah qıvraltdı sözünü,*
*Gah səngidi, gah da çağladı, pəh-pəh!*

*Ülfətini kəsməməyə can atdı,*
*Gah düz vurdu, gah da qəsdən yan atdı.*
*Özü asdı, özü kəsdi qanatdı,*
*Özü məlhəm qoydu bağladı, pəh-pəh!*

*Nə gözəl sındırdı, çaldı qəlbimi,*
*Nə gözəl güldürdü, aldı qəlbimi.*
*Nə gözəl işrətə saldı qəlbimi,*
*Nə gözəl yandırdı, dağladı, pəh-pəh!*

*Söz mülkünü Əli gennən seyr etdi,*
*Yaxşı nəzər saldı, sonuna yetdi.*
*Bir gözü sevindi, uğundu getdi,*
*Bir gözü hönkürdü ağladı, pəh-pəh!*

Ona görə Bəhməni də incitmişəm özümnən, – demişəm ki, «Şair demə nə Bəhmənə, nə mənə» ona çatmış, zarafatla incidim, – demişdi.

Məktubu yola saldığımın səhəri Məmməd yanıma gəldi:

– Deyillər, Kürdoğludan məzəli bir məktub almısan?

– Yalan sözdü. Almamışam, kim deyir?

– Yuxuda gördüm.

– Hər yuxu çin olmur ha!

– Mənim yuxumun hamısı çin olur!

– Yox, mində biri çin olmaz, o da bu!

– Ver oxuyum!

– Dedim ki, gəlməyib.

– Deməli, ünvan dəyişik düşməsə, məktub üzə çıxmayacaqdı?

– Lənətə gəlsin ünvanı dəyişik salanı!

Məmmədi gülmək tutdu. Amma görünür məni pərt eləmək istəmədi. Məktubu ələ keçirmək istəyirdi:

– Onsuz da məzmununu bilirəm. Çıxart, şerrəri oxuyax!

– Çox qəlizdi, Məmməd!

– Gətir görək!

– Heç üzə çıxası döyül!

– Üzə çıxmamış heç nəyi qalmıyıf, bərelə!

Özümü acizliyə qoydum:

– Kürdoğluynan dostsan, mənnən həm dost, həm iş yoldaşı, həm qonşusan. Mənə tərəf çıxmağa söz versən, verərəm.

– Mən heç birinizə tərəf çıxası döyüləm. İntəhası oxumax istəyirəm.

– Zarafat eləmirəm. Mənə tərəf çıxmasan, verəsi döyüləm!

– Çıxıram, ver!

– And iç!

Düzəlişmədik. Məmməd acıq eləmiş kimi getdi. Amma səhəri bir də gəldi, ciddi söz verib məktubu apardı. O biri gün gətirib verdi. Münasibətini yazılı bildirmişdi:

*Kürdoğlunun sinəsinnən od aldım,*
*Aman Allah! Nə sinəymiş, nə sinə!*
*Şair Əli avandını düşünüb,*
*Ta bilməyib nəsi nəymiş, nəsi nə!*

*Qınayırsan bir dostunu haqq qına,*
*Elə qına, qoy düşməsin haqq qına.*
*Haqq iş tutub sığınaymış haqqına,*
*Nəs iş tutub, nə sinəymiş nəsinə!*

*Əlvan çıxmır, ha sürtürəm rəngə rəng,*
*Məmməd ala Kürdoğludan rəng gərək!*
*Gör nə qədər çiçək açıb, rəngarəng!*
*Nə zirvəymiş, nə sinəymiş, nə sinə!*

Sonra yazmışdı:

*Qanaqaçan tüfəngin var dilində,*
*Gərək elə hər yerdəmi çaxasan?*
*Döşəyirsən silahsızı görəndə,*
*Hünərin var, gəl indi də çax asan!*

*Fətir saldın min ədvalı, küncütdü,*
*Bir od vurdun, kənar ütdü, künc ütdü.*
*Bibər əkdin, elə bildin küncütdü,*
*Bunları da gəl işrətə, çağa san!*

*İnsaf deyil bir sevdadan nəf al, dan,*
*Şahin-şonqar gözləyirdin nə faldan?*
*Məmməd deyər, nə fal qaldı, nə faldan,*
*«Canım-gözüm, sən ki qırxlı çağasan!»*

Dolanıb axşamtərəfi gəldi, soruşdu ki, qeydlərimi oxudunmu? Dedim ki, işim çox oldu, heç baxmamışam. Onsuz da bilirəm neyləmiş olarsan! Araya söz saldım, evdə vacib bir işimiz olduğunu bildirdim, çatdırdım ki, onun da məsləhəti gərəkdi. Bizə getdik. Dedim ki, gətir

əvvəlcə Kürdoğluya cavabımı oxuyum, qulaq as, sonra başqa işlərimizi görək. Məmməd təəccüblə:

– Kürdoğluya cavab?

– Bəli.

– Ona cavab mümkün döyül!

– Qulaq as…

Mən cavabı oxuyub qurtaranda Məmməd dedi:

– Ver mənim qeydlərimi özümə…

– Yox, qulaq as.

Oxudum:

*Qahmar çıxdın, dost oduna alışdın,*
*Əriyirsən, qəhərinə maşallah!*
*Qala qurdun, şəhər saldın, çalışdın,*
*Çin səddinə, şəhərinə maşallah!*

*Məlhəmdimi sən dilinnən atdığın,*
*Dost deyil ki, keçi kimi satdığın?*
*Şah beçənin şan balına qatdığın,*
*Yedirtdiyin zəhərinə maşallah!*

*Haqq yolunda keşik çəkdin, çürüdün,*
*Tüstüləndin, Qaf dağını bürüdün.*
*Güc gələnin çomağını sürüdün,*
*Əliyəm, bu təhərinə maşallah!*

***

*Öz evimin olum qara çırağı,*
*Zər şamdanda şah evində yanınca!*
*Əcəl gəlsin, yaşamayım dünyada,*
*Qanmayanla həmdərd olub qanınca!*

*Sayıl olub qapılarda dilənim,*
*Külə dönüm, ələklərdən ələnim.*

*Düşmən vursun öz qanıma bələnim,*
*Özgə başa qalxan olub qalınca.*

*Əli deyər, təpə-dırnaq oyulum,*
*İbrahim tək mancanağa qoyulum.*
*Nəsimi tək dabanımdan soyulum,*
*Mənsəb üçün haqqı belə danınca!..*

Məmməd gedib «Əlinin məzəmmətinə məzəmmət» adında məktub yazdı. Daha doğrusu, adamı heyran eləyən bu təcnisləri yazdı:

*Ürəyində qoyma şübhə güləşsin,*
*Sözlərimi sola yazma, sağa yaz.*
*Tökülməsin qaşqabağın, gül açsın,*
*Bir üznüyü tez döndərib sağa yaz.*

*Qar yağırsan, məşəqqətdən dona can,*
*Döz gətirməz bu şaxtaya, dona can.*
*Gəlir yenə günəş gözlü donaçan,*
*Hər yamacdan bir gür bulaq sağa yaz.*

*Məmməd batar, dərin çətin, üst asan,*
*Təcnisimi bir bayatı üstə san.*
*Sağı sola qarışdırma, ustasan,*
*Sol tərəfi zülmət alıb, sağ ayaz!*

***

*Bir dost qırıb sinəm üstə sazımı,*
*Səda verməz, simlərini ha çala.*
*Palıd sınmaz, sınsa dayaq götürməz,*
*İstər min yol dirək basdır, haçala.*

*Qəlbim şüşə, çalış onu sındırma,*
*Sındırdınmı, qol götürüb sındırma.*

*Təzə sözün gəl şaxını sındırma,*
*Peyvənd olmaz, cır kəlməni ha cala!*

*Elə dalaş, barışmağa üz tuta,*
*Qaysaqlaya, bəlkə yara üz tuta.*
*Çürnük südü çətin bir də üz tuta,*
*Kimsə onu ha çalxaya, ha çala.*

*Dəm vurursan gölməçəmdə naxam var,*
*El oyanıb nə hərif var, nə xam var.*
*Söz demədim mən haçalı, nahamvar,*
*Fikrin varsa yetmiş yerə haçala!*

*Hər şeydən çox budu məni acıdan,*
*Nə qaydadı şirin dostu acıt, an?*
*Elə çaldın, daşa döndüm acıdan,*
*Məmməd duymaz ilan gündə ha çala!*

Mən ancaq bir təcnis yazmaqla kifayətləndim:

*Hər ağızda yuva salıb iki dil,*
*Dövran məlum, zaman aydın, çağ agah.*
*Əhvalına gülüşərlər yananda,*
*Ağlayallar işrətə gah, çağa gah.*

*Heç bilmirəm özüm necə hayanam,*
*İsitmirəm, ha alışam, ha yanam.*
*Bəlkə məni mumnan doğub, hay, anam?*
*Dost dilində ustadam gah, çağa gah.*

*Gərək Əli bundan da çox sinəmi?*
*Bəs deyilsə, utanma, de sin, əmi!*
*Necə dostdu, nişan alıb sinəmi,*
*Atdım, – deyib çaxmaya gah, çaxa gah?!*

Bununla da bu qəribə dastanımız bitdi. Amma mənim həyəcanım bitmədi. İstəyirdim ki, davam eləsin bu

«vuruş», bu «döyüş». Yox, Kürdoğlu cavab qaytarmadı, gözü yolda, ürəyi səsdə öz-özümə dedim ki, səbəb allahdan irəlidi deyib ərənlərimiz. Sağ olsun bu dastanın yaranmasının səbəbkarı!

Elə bu dəmdə eşitdim ki, Kürdoğlu xəstələnib. Tez ona məktub yazdım:

*Qəfil eşitdim ki, xəstələnibsən,*
*Dondu bədənimdə qanım, Kürdoğlu!*
*Çarx oldu başıma dolandı dünya,*
*Olanı mən necə danım, Kürdoğlu!*

*Vəfadan su içib vəfadarlığım,*
*İnadından doğub inadkarlığım.*
*Sənə möhürlənib bütün varlığım,*
*Olubsan şöhrətim, şanım, Kürdoğlu!*

*Kömək lazımdısa dərdini qovum,*
*Mən dönüm Bəhrama, o olsun ovum.*
*Qurban lazımdısa, qadanı sovum,*
*Yanmaq lazımdısa, yanım, Kürdoğlu!*

*İnan deyərəm ki, birini satın,*
*Birini üzərrik eləyin çatın.*
*Birini üyüdün məlhəmə qatın,*
*Verərəm, üç olsa canım, Kürdoğlu!*

*Əliyəm, Kürdoğlu deyəndə hər an,*
*Beşi də düzülüb düşür ağzımdan.*
*Dostun bir dırnağı ağrıyan zaman,*
*Qəmdən yerə gəlir yanım, Kürdoğlu!*

Bax belə tamamlandı bu dastan hələlik, mənim əzizlərim…

«Deyişmələr – dərdləşmələr»,
Bakı, «Gəncə» nəşriyyatı,
1996, s. 122.

*Zümrüd Şəfiyeva*
*(Rəhimova)*

# İLHAM ÇEŞMƏSİ

Mən Hüseyn Kürdoğlunu ilk dəfə Azərbaycan Dövlət Universiteti filologiya fakültəsinin nəzdində fəaliyyət göstərən ədəbiyyat dərnəyində görmüşdüm. O, üçüncü kursda oxuyurdu. Bu, fakültənin ən seçmə kursu idi. Bu vaxtacan fakültədə belə güclü bir qrupun olmadığını söyləyirdilər. Bu qrupda Hüseyn Kürdoğlu ilə yanaşı sonralar görkəmli ədəbiyyatşünas kimi tanınmış Yaşar Qarayev, Şamil Salmanov, Arif Səfiyev və məşhur dilçi alim Tofiq Hacıyev təhsil alırdılar.

Bir dəfə ədəbiyyat dərnəyində orta məktəbdə yazdığım, təbiətə həsr olunmuş bir şer oxudum. Hüseyn çıxış edib şeri tərifədi. Şerin poetik məziyyətlərindən çox, mənim təbiəti müşahidə etməyim, duymağım onun xoşuna gəlmişdi. Ümumiyyətlə, o, həvəsləndirməyi, ruhlandırmağı, xırda bir işartını alovlandırmağı bacarırdı. Mən ikinci kursda oxuyanda «Həsrət» adlı bir şer yazmışdım. Fikrini bilmək istədim, alıb oxudu. Təəssüratını gözəl bir şerlə bildirmişdi. Təəssüf ki, o şer indi məndə qalmayıb. Bircə misrası yadımdadı: «İlhamın sənətin Şah dağındadı...» Əgər nə vaxtsa belə qəmli bir yazı yazacağımı bilsəydim onun hər sözünü, yazısını qoruyub saxlardım.

Mən ədəbiyyat və şer vurğunu idim. Yataqxanada balaca tumbamın üstə çox sevdiyim şairlərin şəkillərini düzmüşdüm. «Lenin tərbiyəsi uğrunda» qəzetində Universitet şairlərinin şerləri və şəkilləri çap olunmuşdu. Başlıqlar və şəkillər göy rənglə rənglənmişdi. Hüseynin qəzetdən kəsdiyim şəklini də Səməd Vurğunun şəklinin böyrünə qoymuşdum.

Bir dəfə şairlər yataqxanaya görüşə gəlmişdilər. Hüseyn də onların arasında idi. Şairləri müşayiət edən Universitetin müəllimməsi, şersevən Ziynət xanım Əlizadə

Hüseynin «Eləmi?» rədifli şerini elə həvəslə, işıqlı bir təbəssümlə əzbərdən deyirdi ki.

*De, sənmisən mənim könül sirdaşım,*
*Qurtarmadı hicranınla savaşım.*
*Torpaq üstə gül bitirsə göz yaşım,*
*Sən onu da qoxlamazsan, eləmi?*

Bizim ədəbiyyat dərnəyinə əvvəl Bəxtiyar Vahabzadə, sonra Yusif Şirvan başçılıq edirdi. 1957-ci ildə onların hər ikisinin redaktorluğu ilə dərnək üzvlərinin əsərlərindən ibarət «Gənclik nəğmələri» adlı bir almanax çap olunmuşdu. Həmkarlar Komitəsinin fəxri fərmanına layiq görülmüş bu almanaxda Hüseynin də neçə şeri vardı. Bu almanax haqqında o vaxt aspirant olan akademik Bəkir Nəbiyev müsbət rəy yazmışdı.

Tale elə gətirdi ki, mən sonralar uzun illər Hüseynlə bir institutda, bir şöbədə işləməli oldum. Təyinatım rayona verilmişdi. Mənsə şəhərdə qalmaq istəyirdim. Hüseyn iş axtardığımı bilib Akademiyanın Şərqşünaslıq İnstitutunda açılacaq kürd qrupuna işçilər lazım olacağını söylədi. Beləliklə, mən 5-ci kursdan həftədə 2 dəfə Akademiyanın Şərqşünasdıq İnstitutuna gedib kürd dilini öyrənməyə başladım. Dərsi «İran» şöbəsində keçirdik. Böyük bir otaqdan ibarət olan bu şöbədə İranın ədəbiyyatı, dili, fəlsəfəsi, tarix və iqtisadiyyatı tədqiq olunurdu. Bu böyük şöbənin bir küncündə bir-birinə bitişik üç stol qoyulmuşdu. Bu stollar Əli Gəlavej, Rəhim Qazi və Hüseyn Kürdoğluya məxsus idi. Əli Gəlavej, Rəhim Qazi 1945-ci ildə Milli Kürdüstan hökuməti tərəfindən Bakıya hərbi təhsil almağa göndərilmiş, Milli hökumətin məğlubiyyətindən sonra isə vətənə qayıda bilməmiş, burada ailə qurub yaşamağa başlamışdılar. Hər ikisi elmlər namizədi idi. Hüseyn «Abdulla Qoranın poeziyası» mövzusunda tədqiqat aparırdı. Dərs vəsaiti kimi də Əli Gəlavej bizə kürd şairlərinin, o cümlədən Abdulla

Qoranın əsərlərindən və özünün tərtib etdiyi Kürd dilinin qrammatikasından dərs deyirdi. Biz B.F. Minorskinin kürd dilinin o biri dialektlərinə nisbətən ahəngdarlığı, səlistliyi, rəvanlığı ilə fərqləndirdiyi Sorani dialektini öyrənirdik. SSRİ-nin heç bir yerində bu dialekt və bu dialektdə yaranan ədəbiyyat tədqiq olunmurdu. XVIII əsrin sonu XIX əsrin əvvəllərində Baban əmirliyinin müstəqil fəaliyyəti ilə əlaqədar olaraq Süleymani şəhərində sorani dialektində yeni ədəbiyyat yaranır və bu ədəbiyyat başqa dialektlərdə yaranan ədəbiyyatlar üzərində üstünlük təşkil edir. Salim Kurdi, Nali, Koyi, Pirəmerd, Zivər, Qoran kimi böyük şairlər bu dialektdə yazıb yaratmışdılar...

A.Qoran Hüseynin ruhuna çox yaxın bir sənətkar idi. Ona görə də onun haqqında böyük məhəbbətlə yazmışdı. 1961-ci ildə A.Qoran Moskvada müalicə olunan zaman gedib onunla görüşmüş və yaradıcılığına aid bəzi məlumatları dəqiqləşdirmişdi. Sonralar onun bir neçə şerini Azərbaycan dilinə çevirib «Ədəbiyyat və incəsənət» qəzetində çap etdirdi. Hüseyn 1966-cı ildə «Müasir kürd şairi Abdulla Qoranın poeziyası» mövzusunda dissertasiya müdafiə etdi. Bu əsər 1969-cu ildə «Elm» nəşriyyatında, sonra isə Bağdadda ərəb dilində də çap olundu. Mən onun hər 2 kitabı haqqında «Ədəbiyyat və incəsənət» qəzetində, EA «Xəbərlər»ində rəy çap etdirmişdim.

O vaxt İraqdan üç gənc: İzzəddin Mustafa Rəsul, Nəsrin Fəxri, Kamal Məzhər gəlib burada kürd dili, ədəbiyyatı və tarixinə aid mövzular üzərində tədqiqat aparırdılar. Ə.Gəlavej iftixarla onları kürd elminin qaranquşları adlandırırdı. İstedadlı bir gənc olan Kamal Məzhər tarixçi idi. O namizədlik və doktorluq müdafiə edib vətəninə qayıtdı. Nəsrinlə İzzəddin isə namizədlik müdafiə edib ondan qabaq getmişdilər.

Əli Gəlavej və Rəhim Qazi Sorani dialekti əsasında kürdcə-azərbaycanca lüğət üzərində işləyirdilər. R.Qazi ixtisasca tarixçi idi. Milli Kürdüstan Hökumətinin başçısı, sonralar dara çəkilmiş Məhəmməd Qazinin qardaşı oğlu

idi. O da bəzən bədii yaradıcılıqla məşğul olurdu. Onun «Peşmərqə» (Fədai) povesti Bağdadda İzzəddinin vasitəsilə və geniş ön sözü ilə çap olunmuşdu. Bu əsər sonralar Hüseynin tərcüməsində Bakıda da nəşr olunmuşdu.

Mən Universiteti bitirdim, ancaq İnstitutun direktoru məni işə götürmədi. Deyəsən, o, kürdşünasların sayının artmasından ehtiyat edirdi. Ə.Gəlavejin xahişi, təkidi də kömək etmədi. Mən Ədəbiyyat İnstitutunda işə düzəldim. Bir müddətdən sonra Ə.Gəlavej dalımca gəldi və mən Şərqşünaslıq İnstitutunda kiçik elmi işçi vəzifəsinə işə düzəldim. Lakin gözlənilmədən Ə.Gəlavej partiya xətti ilə uzunmüddətli ezamiyyətə getdi. Bizim dil öyrənməyimiz və lüğətin yazılması da yarımçıq qaldı. Lüğəti olmayan, yarımçıq bildiyin bir dilin ədəbi materialları üzərində tədqiqat aparmaq əzablı bir işdi. Biz bu çətinliyi çəkə-çəkə işləyirdik. Nizaminin «Oğluma nəsihət» şerindəki o məşhur kəlama (hər vərəq ki, oxuyursan, çalış onun mənasını tamam biləsən) bəzən əməl edə bilmirdik. Gəlavej müəllimin Kürd qrupu, ya şöbəsi yaratmaq arzusu da ürəyində qaldı. Biz EA-nın yeni binasına köçəndə hərəmiz öz ixtisasımıza uyğun şöbələrdə işləyirdik. Rəhim müəllim İran tarixi şöbəsində, Gəlavej müəllim qısa fasilələrlə İnstituta qayıdanda İqtisadiyyat şöbəsində, biz isə «İran filologiyası» şöbəsində işləyirdik.

Gəlavej müəllim çox savadlı, mədəni bir şəxs idi. İqtisadçı olsa da ədəbiyyatı gözəl bilir və şer də yazırdı. Elm, sənət üçün yaranmışdı. Siyasətə qoşuldu və bu nurlu insanın da sonu faciə ilə qurtardı. Mən «Kürd şerində maarifçilik» monoqrafiyamı və «Qumru quşunun duası» kitabında çap olunmuş «Qartal» adlı yazını Gəlavej müəllimin əziz xatirəsinə ithaf etmişəm.

Gəlavej müəllim Hüseyndən xeyli yaşlı olsa da şəxsiyyətinə və istedadına hörmət əlaməti olaraq onu ehtiramla «Hüseyn müəllim» çağırırdı. Hüseyn böyük elmi potensiala malik idi. Ardıcıl məşğul olsaydı, elmi zirvələr, titullar fəth edə bilərdi. Arabir xəstələnməyi də

onu işdən soyudurdu. İnstitutun müdiriyyəti, işçiləri onun xətrini istəyirdilər. Xəstəliyi ilə əlaqədar işə gəlməyəndə, bəlkə də heç kəsə olmayacaq güzəşt ona olurdu.

Hüseyn hər şeydən öncə şair idi. Anadan şair doğulmuşdu. O, sözü bütün incəliklərinə qədər duyan, hər sözün məna əlvanlığını, yerini bilən söz sərrafı idi. Şer yazmaq onun üçün şərəfli olduğu qədər də adi idi. Onu sevdirən, ruh verən, ucaldan bir iş idi. Heç vaxt onu tərk etməyən ilhamı gur, saf, şəffaf bir çeşmə kimi çağlayırdı. Bayramlarda, xüsusən 8 martda Yerli Komitənin qadınları təbrik üçün gördüyü tədbirlərə bəzən Hüseyn də cəlb olunurdu. Onun açıqcada yazılmış, hər kəsin özünə uyğun yumorlu, zarafatlı bir bənd şer payı olurdu.

O, şifahi xalq ədəbiyyatının, aşıq poeziyası və musiqisinin bilicisi və vurğunu idi. Gözəl alim və yazıçı Rafael Hüseynov Şərqşünaslıq İnstitutunda işləyəndə artistlərlə, xanəndələrlə görüşlər təşkil edirdi. Bir dəfə də İnstituta cavan bir aşıq gəlmişdi. İnstitutun zalı adamla dolu idi. Hüseyn qabaqda oturmuşdu və intizarla aşığın çalmasını gözləyirdi. Aşıq isə danışırdı. O, birdən darıxmış halda qayıtdı ki, əə, nə çox danışırsan, bir çalsana.

Son illər onun üçün ağır keçirdi. Bir yandan xəstəlik yaxasından yapışmışdı, bir yandan əsərlərində sevə-sevə tərənnüm etdiyi Qarabağın-Laçının işğalı onu yandırıb yaxırdı. Bəlkə də xəstəliyə bir təhər dözə bilərdi. Qarabağın-Laçının yanğısını şerlərilə söndürməyə çalışardı. Ancaq onun canının cövhəri olan sözünə, sənətinə və şəxsiyyətinə laqeydlik onu incidirdi. Xəstəlikdən kövrəlib incəlmiş qəlbinin qayğıya, təsəlliyə möhtac olduğu bir vaxtda bu laqeydlik daha çox hiss olunurdu. Vaxtilə onu poetik təxəllüsünə qısqananlar, təxəllüsünün açıq yox, örtülü yazılmasını məsləhət görənlər olmuşdu.

O kürd dilini sonradan öyrənmişdi. «Könlümün, gözümün nuru, şerimin fəxri, qüruru, Çeşmə gözündən də duru, Saz dilim, tar-kaman dilim.» - deyə vəsf etdiyi isə Azərbaycan dili idi. Gözəllik aşiqi olan şair «Bulaq»

şerində bulağa «Gözəl aşiqisən gözlərim kimi»,- deyir. Onun gözəlliklə hər görüşündən kövrək, səmimi şerlər, bir-birindən gözəl, yeni, heyrətamiz məcazlar yaranırdı. «Qovulmuş qaz sürüsü tək, Qayalardan uça-uça» axan çay», «Dəni tükənməyən zəmi, fikrin əbədi həmdəmi» Azərbaycan dili»...

Təbiət gözəllikləri xüsusilə dağ mənzərələri onun ilham mənbəyi idi. Dağlar-dərələr, çaylar-çeşmələr ad-baad şairin vətənə sonsuz məhəbbətinin rəmzi kimi tərənnüm olunur. O, təbiətin bu ilahi gözəlliklərinin tamaşasından doymur. Çox sevdiyi bir çiçəyə, zərif, balaca bənövşəyə neçə-neçə şer yazmaqla poetik təxəy-yülünü, mənəvi dünyasının zənginliyini nümayiş etdirir. «Ağ bənövşə», «Bərdə bənövşəsi», «Kəpəz bənövşəsi», «Görəsən küsdümü bənövşə məndən», «Ağlatma məni, bənövşə» şerlərinin hər biri təkrarsız və gözəldir. Hüseyn Kürdoğlu «Payız meşəsi», «Çinar meşəsi», «Şəlalə», «Ağ göl» və s. şerlərində poetik sözün sehri ilə peyzaj lirika-sının misilsiz nümunələrini yaratmışdı. «Gözəlliyin bəhsi düşsə dünyada, Olmazmısan yeganəsi, Qarabağ», deyə vəsf etdiyi o ecazkar gözəllilərə həsrət qalan şair qəlbini iş otağındakı dibçək çiçəkləri ilə ovundururdu:

*Laçın çiçəklərinə həsrət qalıb Kürdoğlu,*
*Qərq olub göz yaşına şeriyyət çiçəkləri.*
*Nə yaxşı ki, var imiş Səadət çiçəkləri.*

H.Kürdoğlunun əsərlərindəki təbiət mənzərələri qüdrətli bir rəssam fırçası ilə çəkilsəydi, Azərbaycanın füsunkar gözəlliklərini əks etdirən qeyri-adi bir tablo yaranardı. Onun Vətəni tərənnüm edən, dilimizin zəngin-liyi, şirinliyi və poetik imkanlarının sonsuzluğunu bir daha nümayiş etdirən əsərlərinin tədqiq olunması, çap olunub yayılması çox vacibdir.

*Ahmәde Hәpo*

# ÜRӘK ZӘRBӘSİ

Deyirlәr insan dünyaya gәlәndә uca göylәrdә onun ulduzu da doğulur. Az ya çox yaşamasından asılı olmayaraq, insan bu dünyadan köçәndә onun ulduzu da asimanda sönür, yox olur. Bu qәdim xalq inancıdır.

Bir müddәt idi ki, ürәk sirdaşım, dostum-qardaşım, şair, alim, tәdqiqatçı, tәrcümәçi, әdәbi dünyamızın başbilәnlәrindәn biri, tәmiz vicdanlı insan Hüseyn Kürdoğlu dünyasını dәyişmişdi. Hәmin gündәn yuxum әrşә çәkilmişdi, sәbrim tükәnmişdi. Gecәlәr evdә otura bilmirdim.

Azәrbaycanın mәşhur şairi Sәmәd Vurğunun adını daşıyan bağ evimizin qarşısındadır. Gedirdim o bağa, Sәmәd Vurğunun heykәlinin qarşısında dayanıb, dәrin xәyallara dalırdım. Sanki özümü unudurdum. Xәyaldan ayılanda gözümü göyün әnginliklәrinә dikirdim. Hәrdәn mәnә elә gәlirdi ki, buludlar ağır gedәn bir karvandır, Hüseyn Kürdoğlu isә karvanbaşıdır. Bir gecә yenә dә gәldim o bağa, yenә gözlәrimi zillәdim buludlara, ulduzlara. Birdәn mәnә elә gәldi ki, iki parlaq ulduz sanki ayrılıb, gәlib başımın üzәrindә dayandılar, şölә saçdılar. Vallah, billah, ürәyimә damdı ki, bu qoşa ulduzlardan biri Sәmәd Vurğunundur, biri isә Hüseyn Kürdoğlunundur. Bu an elә bil Böyük Yaradandan mәnә sәda gәldi:

- «İnsanlar dünyasını dәyişәndә min-minlәrdәn birinin, ikisinin ulduzu göylәrdәn enmir. O şölә saçan ulduzlardan biri haqq şairi Sәmәd Vurğunundur, biri adlı-sanlı Hüseyn Kürdoğlunundur».

Yenә gecә yarıdan keçib, bu lal-kar bağda oturub xatirәlәrimi çözәlәyirәm, sanki uzun bir zәncir alınır. Bu zәncirin hәr bәndi bir rәngdәdir: ağ, qara, tәzә, köhnә… Hәr bәnd ötmüş bir günün şahididir. Özüm-özümә sual verirәm:

– Hüseyn Kürdoğlunu birinci dəfə harada görmüşəm, necə tanış olmuşuq?

Məncə dünyanın minlərlə sirrindən biri də xatirələrdir. Onlardan bəziləri aşkarlanır, bəziləri isə əbədi olaraq üstüörtülü qalır. Həqiqətə söykənən xatirə isə tarixin bir anına çevrilir.

Şair Hüseyn Kürdoğlu haqqında xatirələrim saysız-hesabsızdır. 30 illik tanışlıq, dostluq və qardaşlıq; onun hərtərəfli yaradıcılığı; ağlı-qaralı, ağır-yüngül birgə günlərimiz bu xatirələrdə qorunub saxlanır. İstəsəm də bunların hamısını iynə-sapdan keçirə bilmərəm. Həm də mənə çox ağırdır oturub göz yaşım, ürək dağım haqqında şirin-şirin xatirələr yazım. Bir də ki, mən hələ də nurani Hüseynin dünyasını dəyişməsinə inanmıram. O, dünyasını dəyişsə də, onun ruhu mənim başımın üstündədir və bizim ruhlarımız tanışlığımızı, qardaşlığımızı, sirdaşlığımızı davam etdirir.

Xatirələr bələdçi kimi məni keçən əsrin 60-cı illərinə, Yerevan şəhərinə apardı. 1960-cı ilin qışı idi. Yenə də kitab mağazasına getmişdim. V.İ.Lenin adına meydanda böyük bir kitab mağazası var idi. Bir tərəfdə rus və erməni dilində yazılmış kitablar, çox da böyük olmayan bir bölmədə isə Azərbaycan və kürd dillərində yazılan kitablar satılırdı. Həftədə bir dəfə hökmən o mağazaya gedirdim. Azərbaycanca olan kitabların çox hissəsi Bakıdan göndərilirdi. Yerevanda da ildə bir neçə adda azərbaycanca və kürdcə kitablar çap olunurdu.

Satıcı xanım məni gözəl tanıyırdı. Mağazaya gələn kimi Azərbaycan və kürd dillərində çap olunmuş yeni kitabları mənə göstərirdi. Mən də böyük həvəslə bədii və tarixi kitabları alırdım.

Bu dəfə də satıcı bir neçə kitabı qarşıma qoyub, dedi:

- Bunlar Bakıdan aldığımız yeni kitablardır.

Bu kitablardan biri daha çox marağıma səbəb oldu. Bu 1959-cu ilin axırlarında Azərbaycan Dövlət Nəşriyyatı tərəfindən çap olunmuş «Kürd ədəbiyyatı almanaxı»

kitabı idi. Kitabda kürd şairlərindən Fəkiye Teyranın, Həjarın, Ciyərxunun, Qanenin, Seyful-Quzatın, Heminin, Rəhim Qazinin, Aqrinin şerləri və Kərim Əyyubun hekayəsi çap olunmuşdu. Kürd dilindən tərcümələri müxtəlif ədiblər etmişdi. Bu adların arasında Hüseyn Kürdoğlunun da adı var idi. O, Rəhim Qazinin «Sevgilimin şəkli» şerini tərcümə etmişdi. Onu da deyim ki, adı çəkilən bu kitab tezliklə satıldı. Biz bir neçə yoldaş Azərbaycan SSR Mədəniyyət Nazirliyinə məktub yazıb, Yerevana 100 ədəd kitab göndərilməsini xahiş etdik. Tezliklə Yerevan bu kitabları aldı və qısa müddətdə kitablar satıldı. Yaxşı yadımdadır, aşağıdakı iki misra əksər oxucuların dilindən düşmürdü:

*Ah, könlümün ilk sirdaşı, bu gün aldım şəklini mən,*
*Öpüb qoydum gözüm üstə, bu yuxudur, nədir görən?*

Beləliklə mənim Hüseyn Kürdoğlu ilə qiyabi tanışlığım başladı.

Xatirələr ötən illərlə bağlı olur. Bizim 30 illik dostluğumuzun bəzi illərindən söz açmaq istəyirəm.

1961-ci ildə Hüseyn Kürdoğlu ilə ikinci qiyabi tanışlığım oldu. Həmin il kürd şairi Həjarın Azərbaycan dilində «Kürd nəğmələri» kitabı çap olundu. Kitabda şairin şer və poemaları toplanmışdı. Rəhim Qazi kitaba ön sözdə yazırdı: «Həjar poeziyası sözün geniş mənasında kürd klassik ədəbiyyatının tam milli zəmini üzərində yetişmişdir. Onun yaradıcılığı bir tərəfdən klassik ədəbiyyata bağlılıqla, o biri tərəfdən də qaynar və canlı xalq həyatının dərinliklərinə yol tapmağı ilə qüdrətlidir». Onu deməyi lazım bilirəm ki, bu kitab işıq üzü görməmişdən əvvəl böyük şair Bakıya gəlmişdi. Biz Yerevanda mətbuatdan izləyirdik ki, Bakı adlı-sanlı şairi böyük bir hörmətlə qarşılayıb.

Tərcümələrinin çox hissəsi Hüseyn Kürdoğlu tərəfindən edilmiş bu kitab bir tərəfdən oxucunu kürd ədəbiyyatı ilə tanış edirdi, digər tərəfdən isə Hüseyn

Kürdoğlunu sevdirirdi. Bundan sonra mən bu adın sorağında oldum. Axıcı, şirin dil və dərin məna onun hər bir şerini ana laylası qədər ürəyəyatımlı edirdi.

Lazımdır ki, burada bir haşiyə çıxım.

1937-ci ildə ermənilərin fitvası ilə, Mikoyanın köməkliyi ilə Stalin fərman verdi, 50 minə qədər Ermənistan kürdü Orta Asiya respublikalarına sürgün edildi. 1947-ci ildə qırmızı Moskva kürdlərin öz dədə-baba yurdlarına qayıtmağına icazə verdi. İmkanı olan 500-ə qədər ailə, o cümlədən bizim ailə də yenidən vaqonlara dolub, üz tutdu Vətənə doğru. Yaxşı yadımdadır, 1947-ci ilin qışında gəlib çıxdıq Yevlax stansiyasına. Burada qabağımızı kəsib dedilər ki, Ermənistan sizin qayıtmağınızdan halıdır və sizi qəbul edə bilməz. Səbəb də bu göstərilirdi ki, Ermənistanın ərazisi kiçikdir, sizin də kəndlərə Suriyadan gəlmiş ermənilər yerləşdirilib. Beləliklə bizi Yevlax, Qasım İsmayılov (Goranboy), Xanlar, Samux və digər rayonlarda məskunlaşdırdılar.

Mən Yevlax rayonunda «28 Aprel» (indiki «Aran») sovxozunda orta məktəbi bitirib, getdim Ermənistana. Yerevanda İnstitutu qurtarıb kürd dilində nəşr olunan «Riya təzə» qəzetində işləməyə başladım.

Hələ o vaxtdan ermənilər azərbaycanlıların, türklərin əleyhinə təbliğat aparırdılar. Hər il 24 Aprel günü bizə deyirdilər:

- Bu gün işə gəlməyin.

Həmin günü ermənilər qondarma soyqırımı günü kimi qeyd edirdilər. Bu və buna bənzər işlərin ucbatından 1970-ci ildə məcbur olub Bakıya köçdüm. Mətbuatda Dövlət Sirlərinin Mühafizəsi baş idarəsində işə qəbul olundum.

1970-ci il.

Bir gün Hüseyn Kürdoğlu ilə tanış olmaq üçün getdim Akademiyaya. On ildən artıq idi ki, bu həsrətdə idim. İndi biz bir şəhərdə yaşayırdıq və bu imkan mənə qismət olmuşdu.

Hüseyn görüşdüyümüz andan ürəyimə yatdı. Onun şirin, savadlı danışığı, mədəniyyəti, ziyalılığı, geniş dünyagörüşü məni heyran etmişdi. Neçə saat söhbət etdik. Yenicə çap olunmuş «Müasir kürd şairi Abdulla Qoranın poeziyası» kitabını mənə hədiyyə etdi. Kitab bu sözlərlə başlayırdı: «Yaxın və Orta Şərqin qədim sakinləri olan bir sıra xalqlar kimi kürd xalqının da əsrlər boyu uzun inkişaf yolu keçən zəngin ədəbiyyatı vardır». Təkcə bu cümlə sübut edirdi ki, alim yalnız Azərbaycanın yazılı və şifahi ədəbiyyatı ilə deyil, bütün Şərq ədəbiyyatı ilə yaxından tanışdır, kürd xalqının ədəbiyyatını isə hərtərəfli bilir. Elmi cəhətdən əsaslandırılmış, böyük tədqiqatçı zəhməti sərf edilmiş, yüksək ədəbi dildə yazılmış bu monoqrafiya o vaxtkı sərt sovet sərhədlərini aşaraq Bağdadda ərəb dilində çap olundu.

O gündən biz bir-birimizə bağlandıq, sonra dostlaşdıq. Dostluq körpüsü ilə birlikdə addımladıq, bir-birimizin evinə gəlib-getdik, qardaş olduq. 1970-ci ilin yayında Laçına ezamiyyətə getmişdim. Elə oldu ki, «Volqa» maşınında birlikdə qayıdası olduq. Yolüstü mənim işim olduğu üçün Xankəndinə döndük. Ağdamı keçəndən sonra, yolda dedim:

- Şair, fikir verirsən, ermənilər üçün hər şərait yaradılıb. Bunlar azərbaycanlılardan yaxşı yaşayırlar. Hətta yolları da digər rayonların yollarından seçilir. O, mənim sualımı cavabsız qoyub, susdu. Düzü onun bu hərəkəti qəlbimə dəydi. Ağsuyu keçib Şamaxıya tərəf xeyli qalxdıq, dincəlib çörək yemək üçün maşınımız dayandı. Hüseyn çiyin-çiyinə vermiş uca dağlara tərəf boylanıb dedi: Əhməd müəllim, indi icazə ver, Ağdamda mənə verdiyin sualın cavabını verim.

*Dağlarında naxış-naxış qara bax,*
*Gül soldurmaz nə yay, nə qış Qarabağ.*
*Odlar yurdu bir sehrkar xalıdır,*
*Üstündəki gözəl naxış – Qarabağ!*

*Yenə də baş çəkim Ağdama gərək,*
*Qarqarın suları Ağdama gərək.*
*Bu yerin qədrini bilməyənlərin*
*Qara gözlərinə ağ dama gərək!*

Şair xoş bir avazla bu iki cinaslı dördlüyü deyəndən sonra ikimiz də susduq, xeyli bir-birimizin üzünə baxdıq. Bilmədim onun ürəyindən nə keçdi, amma mənim ürəyimdən o keçdi ki, Hüseyndə Allah vergisi var və o, bütün varlığı ilə Azərbaycana bağlıdır. Bir neçə dəqiqədən sonra o, öz-özünə dedi:

- Heyf!

- Hüseyn, qardaş, nəyə heyfsilənirsən? – soruşdum.

- Əhməd müəllim, bildiyin kimi yaxınlarda mənim cinaslar kitabım çap olunacaq, ancaq bu iki cinas ora düşməyəcək.

- Heç fikir eləmə, indicə o iki bəndi yaz ver mənə, mən kitaba əlavə edəcəyəm.

Şeri yazıb mənə uzadanda uşaq kimi qızardı:

- Bu çox çətin işdir, qorxuram üzünə söz gələ.

- Heç nə olmaz: - dedim.

Oxucular bilməmiş olmazlar, Sovetlər birliyində hər bir iş planlı idi. Kitab çap olunanda dövlət nəşriyyatının planına salınırdı. Kitab nəşriyyatda yığıldıqdan sonra göndərilirdi Qlavlitə – senzora. O idarənin də qapısını açmaq çətin idi. Yığılmış kitaba bir misra da əlavə etmək qeyri-mümkün hesab olunurdu. Yuxarıda dediyim kimi mən o idarədə işləyirdim. Nəşriyyatlara və rayon qəzetlərinə nəzarət edirdim. Qısası həmin dördlükləri Qlavlitin əlavə peçatını vurub kitaba daxil etdim, nəşriyyatın rəhbərliyi ilə razılaşdırıb, mətbəəyə verdim.

Bir axşam hörmətli şairə danışdım ki, o dördlükləri kitaba əlavə etdirmişəm. Hiss etdim ki, onun sevinci yerə-göyə sığmır.

Bəli, 1970-ci ilin axırında Hüseyn Kürdoğlunun «Qaya çiçəkləri» adlı kitabı işıq üzü gördü, həmin iki cinaslı dördlük kitabın 14-cü səhifəsində çap olundu.

1975-ci il.

İlbəil dostluğumuz, qardaşlığımız artırdı. Artıq biz necə deyərlər köynək adamları idik. Hüseyn mənim yaradıcılığıma sevinirdi, hərdən mənə məsləhətlər verirdi. O, gözəl bilirdi ki, bədii yaradıcılıqdan əlavə, həm də kürd xalqının folkloru ilə məşğul oluram. Ona görə də hey deyirdi ki, folklordan bir mövzu götür, dissertasiya müdafiə et. Hətta mövzunu da müəyyən etmişdi: «Kürd xalq dastanlarında qəhrəmanlıq motivləri».

1975-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun dissertantı kimi həmin mövzu üzərində işləməyə başladım. Mövzu Azərbaycan Elmlər Akademiyasında təsdiq olundu. Bir il müddətində minimum imtahanları verdim, neçə elmi məqaləm çap olundu. 1976-cı ildə dövrün ən hörmətli mətbuat orqanlarından biri olan «Azərbaycan» jurnalının 6-cı sayında Hüseyn Kürdoğlunun məsləhəti ilə «Dastanlarda yaşayanlar» adlı məqaləm çıxdı. Bu məqalə tezliklə kürdşünaslıq aləmində yayıldı.

Əfsuslar olsun ki, fələk qoymadı Hüseyn Kürdoğlunun arzusunu yerinə yetirim. Böyük qardaşım Knyaz xəstələndi. Onu da deyim ki, Knyaz bizim ailədə məndən sonra ikinci adam idi ki, ali təhsil almışdı. Pedaqoji İnstitutu bitirmişdi, dil-ədəbiyyat müəllimi idi, orta boylu, yaraşıqlı bir oğlan idi. Elmli adam idi. Kürd dilində oxuyanda insan valeh olurdu. İstedadlı müğənni idi. Çox sevirdim onu. O, qəflətən xəstələndi, hər şeyi atıb, onun xəstəliyinin dalına düşdüm. Axırda apardım Moskvaya, bir aya qədər xəstəxanada yatandan sonra həkimlər açıq şəkildə dedilər ki, xərçəng xəstəliyinə tutulub. Az qala ürəyim partlamışdı, dünya başıma fırlanırdı. Kor-peşiman onu evə qaytardım. 1976-cı ilin may ayında haqq dünyasına qovuşdu. Bundan sonra iki il əlimə qələm almadım, dissertasiyanın müdafiə vaxtı keçdi. Artıq o işin ardınca

düşmədim. Vallah Hüseyn Kürdoğlu məndən çox fikir edirdi. Beləliklə, mənim dissertasiya işim yarımçıq qaldı.

1975-ci ildən bir xatirə də danışmaq istəyirəm.

Həmin il Hüseyn Kürdoğlunun «Çiçək təbəssümü» adlı kitabı «Gənclik» nəşriyyatı tərəfindən çap olundu. Mən lazımi yoldaşlardan xahiş edib kitabı plana saldırmışdım. Kitab işıq üzü gördükdən sonra qədirbilən şair kitabın birinci səhifəsinə aşağıdakı sətirləri yazıb mənə hədiyyə etdi:

«Bu kitabın nəşrində müəllifdən çox zəhmətlər çəkən, bütün varlığı ilə kürd xarakterinə malik qardaşım Əhməd Həpoya minnətdarlıq duyğuları ilə yadigar verirəm.

H. Kürdoğlu.

15.X.1975»

Böyük şairin bu minnətdarlıq sözlərinə nə əlavə etsəm də artıq görünəcək. Bircə onu deyirəm ki, bu kitab və bu sözlər mənim üçün son dərəcə əziz və qiymətlidir.

1980-ci ilin başlanğıcında Qlavlit yerli hökumətdən bir məktub aldı. Məktubda bir sıra məsələlərlə yanaşı yazılırdı ki, icazə verməyin Hüseyn Kürdoğlu imzası ilə hər hansı bir yazı çap olunsun. Onun «Kürdoğlu» təxəllüsü qadağan edilirdi. Bu məktub məni əzizimin nakam ölümü qədər ağrıtdı, yandırdı. Mən hey fikirləşirdim, yol arayırdım ki, bu xəbəri ona necə çatdırım. Birinci qanun icazə vermirdi bunu Hüseyn Kürdoğluya deyim, bu dövlət sirri idi. Digər tərəfdən duz-çörək yediyim dostum, qardaşım, kürdşünaslıq üçün bu qədər iş görən insana bu xəbəri demək mənə ölümdən də betər idi. Bir müddət keçdi. Bir gün o, mənə zəng edib, titrək səslə dedi:

- Əhməd müəllim, şerlərimi qəzetə, jurnala verirəm götürmürlər. Heç bir nöqsan da tutmurlar. Ancaq bir nəfər mənə deyib Qlavlitə müraciət edim.

Bu yerdə dilim dolaşdı. Həmin dəqiqə o, başa düşdü… Qərəz, biz qərara gəldik ki, sabah Akademiyada görüşək. Bu haqda mən Qlavlitin rəhbərliyi ilə məsləhət-

ləşdim və qərara gəldik ki, bundan sonra Hüseyn Kürd-oğlu, «Hüseyn Alışanov» imzası ilə yazsın. «Alışanov» onun familiyasıdır.

Biz Akademiyada görüşdük. Xeyli söhbətdən sonra o, əsəbiliklə və hirslə dedi:

- Əgər mən 100 il də yaşasam, «Kürdoğlu» təxəllüsünə icazə verilməsə, bir misra da çap etdirməyəcəm.

Birdən ağlıma bir fikir gəldi:

- Qardaş, gəl belə yaz: «Hüseyn K».

O, bir qədər fikrə getdi, gecdən-gec ağır-ağır dedi:

- Bəli, bəlkə də bununla razılaşaram.

Ancaq mən içimi yeyirdim: «görəsən, senzura buna razı olacaq?»

Biz bu işi yoluna qoyduq və bir müddət onun şerləri «Hüseyn K.» imzası ilə çap olundu.

Burda deyim ki, bu iş çox çəkmədi, öyünmək olmasın, Hüseyn Kürdoğluya qarşı olan bu qadağanı götürtdürə bildik, amma onun ürəyinə düşən xalı götürə bilmədik.

1990-cı il. Sovet İttifaqı dağılırdı, keçmiş sovet respublikalarına vəlvələ düşmüşdü. Azərbaycan da hadisələr burulğanında çalxanırdı. Bir tərəfdən Dağlıq Qarabağın məsələsi, bir tərəfdən daxili kürsü çəkişməsi, digər tərəfdən isə Ermənistandan zorla qovulmuş 200 min azərbaycanlı, 20 min müsəlman kürdü respublikada gərginlik yaratmışdı.

Ermənilər özlərinin bədxah əməlindən xəcalət çəkmiyib, üstəlik də dünyaya səs salmışdılar ki, guya Azərbaycanda azsaylı xalqlara qarşı repressiyalar həyata keçirilir. O vaxtlar informasiya blokadasında olduğuna görə Azərbaycanın səsi dünya ictimaiyyətinə çatmırdı. O zaman Azərbaycan hökuməti azsaylı xalqlara – kürd, ləzgi, talış, tat və digər xalqlara müraciət etdi ki, səsinizi ucaldın, həqiqəti dünyaya çatdırın, erməniləri ifşa edin. Bütün bu vəzifələrin həyata keçirilməsi üçün azsaylı xalqların mədəniyyət mərkəzlərinin yaradılması vacib idi.

1990-cı ilin bir yaz günündə, aprel ayında Bakı Dövlət Universitetinin iclas salonu qaynayıb daşırdı. Mənim sədrliyimlə keçən iclasda Kürd mədəniyyət mərkəzinin yaradılması və mədəniyyət mərkəzinin orqanı kimi kürd dilində qəzetin buraxılması müzakirə edilirdi. İclas qərar verdi ki, mədəniyyət mərkəzinin adı «Ronahi» olsun. Bu sətirlərin müəllifi isə mərkəzin sədri seçildi. Qəzetin adı isə çox böyük mübahisəyə səbəb oldu. Hərə bir ad deyirdi, ancaq razılığa gələ bilmirdik. Hüseyn Kürdoğlu da iclasda iştirak edirdi.

O, şagird sayağı əlini qaldırdı, məndən icazə istədi, ayağa qalxdı və dedi:

– Qəzetin adını «Dənge Kürd» («Kürdün səsi») qoyun.

Mən öz münasibətimi bildirməyə macal tapmadım, bütün salon əl çaldı və qərara alındı ki, qəzetin adı «Dənge Kürd» olsun.

Mənim redaktorluğumla 1992-ci ilin yanvar ayında qəzetin birinci nömrəsi işıq üzü gördü. İndi də o qəzet həmin adla nəşr olunur.

Bu da Allah tərəfindən Hüseynə verilmiş fəhmin xalqa göstərdiyi bir xidmət, bir qayğı idi.

1993.

Hüseyn Kürdoğlu ağır xəstə idi. Mən və Dostəli həkim (Laçındandır) onun evinə getdik. O və halalsüdəmmiş həyat yoldaşı Fəridə xanım bizi xoş üzlə qarşıladılar. Fəridə xanım çay-çörək hazırlayana qədər həkim Hüseyni müayinə etdi, resept yazdı. Onu da deyim ki, Dostəli həkimlə birlikdə vaxtaşırı ona baş çəkirdik. Hüseyn Kürdoğlu Dostəli Paşayevə bir həkim kimi çox inanırdı. Dostəli həkim həm onun hörmətini saxlayırdı, həm də Hüseyn Kürdoğlu şerinin vurğunu idi. Bir azdan sonra xəstəlik söhbətindən keçdik onun yaradıcılığına. Hüseyn ağır-ağır yerindən durub keçdi yazı masasının arxasına, iki kitab götürüb, üstünü yazıb verdi bizə. Bu kitablar Sarı Aşığın onun tərtibçiliyi və redaktorluğu ilə yenicə çapdan çıxmış «Seçmə bayatılar»ı idi. Sarı Aşıq şerinin vurğunu

olan Hüseynin bu kitabın çapından son dərəcə məmnun olduğunu duydum.

Biz Alışanovlarla bir ailə kimiydik. Oğlum Niyazinin toyunda bu qədirbilən insanın yazdığı şerin səmimiyyəti dediklərimə bir sübutdur.

## Eşqin çırağı

*(Əhməde Həponun ciyərparası*
*əziz Niyaziyə toy təbriki)*

*Əzəldən kürd elinin yurd-yuvası dağ olmuş,*
*Dağdan ayrı düşəndə sinəsi dağ-dağ olmuş.*

*Dar gündə ayrılmamış azəri qardaşından*
*Dağlar oğlu dostuna dağ kimi dayaq olmuş.*

*Kürd eşqinin and yeri büllur bulaq başıdır,*
*Bulağı quruyanda göz yaşı bulaq olmuş.*

*Kürdün bir ocağından yüz-yüz ocaq qalanır,*
*Onun əkdiyi fidan artmış, min budaq olmuş.*

*Kürdün şimşək qılıncı parlamış zaman-zaman,*
*Kürdün qanlı köynəyi müzəffər bayraq olmuş.*

*Hansı kürdün sevgisi yetibsə vüsalına,*
*Əhmədi Xani ruhu orda bir çıraq olmuş.*

*Əhmədin məclisində o çıraq yanır bu gün,*
*Nurundan içdikcə biz damağımız çağ olmuş.*

*Xəyalı pərvanədir o sehrkar çırağa,*
*Yanıb kül olmazmı bəs bu Kürdoğlu sağ olmuş.*

Hüseyn Kürdoğlu
11.X.1997

Hörmətli oxucular!

Xatirələr, dərd-yaralar çoxdur, onların hamısını dilə gətirmək çətindir.

Bir də elə çıxmasın ki, biz ancaq «elədiklərimizi», yaxud «yaxşılıqlarımızı» dilə gətirdik. «Elədiklərimiz» və «yaxşılıqlarımız» sözlərini qəsdən qələmə aldım. Ona görə ki, Hüseyn Kürdoğlunun hər iki xalqın ədəbiyyatı üçün elədiklərinin yanında bunlar ancaq dırnaqarası yazılmalıdır.

*Əbil Şükürov*

# UNUDULMAZ, HEÇ VAXT YADDAN ÇIXMAYAN ƏZİZ DOSTUM, USTAD ŞAİR H.KÜRDOĞLU HAQQINDA XATİRƏLƏRİM

*Elimin, obamın ustad şairi,*
*Təzə-tər qalmısan xatirələrdə!*
*İndi məzarındı bir güman yeri,*
*Necə daşlaşdın daş abidələrdə?*

Bəli, bu fani dünyanın gərdişi belədir. Hamı üçün pəncərədir, hər gələn baxar gedər! Necə baxdı, necə keçdi dünya gərdişinə fərq etmir. Nə isə… 1957-ci ilin payızında rayondan Bakı fəhləliyinə göndərildim… bir neçə ay işlədikdən sonra, ali məktəbə daxil olmaq üçün qəbul imtahanlarına ciddi hazırlaşırdım.

O vaxt iki il əmək stajı olanlara üstünlük verilirdi...

Nəhayət universitetin tarix fakültəsinə daxil oldum…

Bir gün «Azərbaycan gəncləri» qəzetində bir neçə gənc şairin şerləri çap olunmuşdu. Onlardan bir şer mənə çox şirin gəldi… bir də oxudum… Şerin müəllifi Hüseyn Kürdoğlu idi. Mən onda Hüseyni tanımırdım. Az bir müddətdən sonra onunla tanış oldum…

Hüseynin səmimiliyi, sadəliyi mənə elə təsir göstərmişdi ki, onunla tez-tez görüşməyə, həmsöhbət olmağa can atırdım… Bəli, vaxtaşırı görüşürdük, söhbətləşirdik. Amma o, qəlbimdəki arzumu bilmirdi, mən isə utanırdım, açıb demirdim ki, axı mən sizin şerlərinizi oxumaq üçün gəlmişəm.

Hüseyn orta məktəbi yeddi-səkkiz ilə bitirmişdi. Onun şagird yoldaşları danışırdılar ki, Hüseyn hamımızdan yaxşı oxuyur, həm də gözəl şerlər yazırdı. O, Akademiyanın Şərqşünaslıq İnstitutunda baş elmi işçi işləyəndə tez-tez yanına gedərdim… Onun iş yoldaş-

larının arasında necə hörmətə malik olduğunu əyani surətdə görürdüm. O, həmişə az danışar, daima xəyala qapılar, fikrə gedərdi. Soruşardıq, nə olub gəmin dəryada batıb? O isə deyərdi: gəmim yox, şer incilərim. Bax budur tapdım. Və bədahətən bir neçə bəndi deyərdi. Bəzən də yoldaşlar təkidlə ondan şer istəyirdilər… Ancaq onun cavabı belə olardı, hələ yox sonra… Onun təbi gələndə on-on beş dəqiqəyə səkkiz-on bənddən ibarət şer yazar və oradaca bizə oxuyardı. Həmin şerlər düzəliş edilmədən, redaktə olmadan eləcə də çap olunardı. Hüseynin şerləri tam mənasilə xalq dilində, aydın, səlis formada olurdu. Uzunçuluğa, sözçülüyə yer qalmazdı.

Mən onun oxucusu, poeziya aləmindən xəbəri olan bir qələm əhli kimi qətiyyətlə deyə bilərəm ki, Hüseynin yaradıcılığı çox zəngindir, az sözlə böyük fikirlər, mənalar aşılayır. Oxucuya xoş təsir bağışlamaqla bərabər, onu düşündürməyə vadar edir. Hüseynin yaradıcılığında Aşıq Ələsgərin söz şirinliyi, axıcılığı, S.Vurğunun poeziya qüdrəti duyulur. O, şerin bütün janrlarını qələmə alıb və istədiyinə nail olub.

Bütün qələm dostları və yüksək elmi rütbəli iş yoldaşları onun şer bələdçiliyilə Azərbaycanın səyahətinə çıxardılar, mənən zövq alıb xoşhal olardılar. Onlar dəfələrlə etiraf edirdilər ki, doğrudan da bu ustad şair, təkcə dağlar qalası, ərlər-ərənlər yurdu olan Laçının yox, bütün Azərbaycanın vurğunudur.

O özü həmişə deyərdi ki, dağları çox sevirəm, amma Laçının Sarıbaba dağını daha çox sevirəm. Soruşardıq, axı Laçında Sarıbaba dağından uca, yamyaşıl və vüqarlı dağlar var, məhz niyə Sarıbabanı çox sevirsən. O, bir dalğın baxışıyla bizi süzər və ani olaraq xəyala dalıb köksünü ötürərdi…

- Bilirsiniz, mənim gəncliyimin odlu-alovlu günləri onun ətəyində keçib. Sarıbaba eşqimin ilk səngəri, məhəbbətimin kəhkəşanı olub… O, kəhkəşan ki, indi də özümü orada hiss edirəm! Nə qədər ki, ömrüm var,

həmişə o dağı tərənnüm edəcəyəm. Sarıbaba dastanını hələ yazacağam... Ömür vəfa qılsa.. Heyif..., çox heyif!!!

Hüseyn müəllim olduqca sadə, mülayim təbiətli və şirin adam idi. Tez-tez görüşərdik, salam-kəlamdan sonra ürək ağrısı ilə Laçın məkanından söz açardı. O, vaxtaşırı yox, tez-tez dağları gəzməyə gedərdi. At minməyi çox sevirdi, deyərdi ki, şagird çantası çiynimdə bu dağlarda çobanlıq etmişəm. Bu torpağın bitirdiyi bütün nemətləri birər-birər tanıyıram, dənə-dənə dərmişəm, yemişəm, qoxlamışam... bağrıma basmışam. Dağların gül-çiçəklərindən bənövşəni çox sevirdi. Hüseynin yaradıcılığında təbiət lirikası çox qüvvətli və rəngarəngdir. 1975-ci ildə çap olunmuş «Çiçək təbəssümü» adlı şerlər kitabında «Ey ağ bənövşə» şerinin iki bəndinə nəzər salaq.

*Kövrəksən, gözəlim, necə də kövrək,*
*Yoluma dikilən yar baxışı tək!*
*Titrərsən quzeydən əsəndə külək.*
*Dünyaya bir aylıq qonaq bənövşə,*
*Ey ağ bənövşə!*

*Bağrıma basdıqca bu göy çəməni,*
*Saçıma şeh düzür dağların çəni,*
*Keçdiyim yollarda bitirsin səni,*
*Anamdır mənim də bu dağ, bənövşə!*
*Ey ağ bənövşə!*

Bəli, Vətənin gül-çiçəyini, təbiətini bax belə tərənnüm edərdi. Ancaq o, həmişə zamandan, dövlətin qoyun cildinə girmiş canavar məmurlarından haqlı narazı idi. Hüseyn hər adamla dostluq etməzdi, vəzifə üçün canfəşanlıq edən, özünü gözə soxan adamlara nifrət edirdi, ad-san, şan-şöhrət haqqında heç vaxt düşünməzdi. Onun yaxşı bir sözü var idi: mənim adım-sanım, şan-şöhrətim sözümdür, yazdıqlarımdır... xalqım, oxucum sözümü-şerimi bəyənirsə, o mənim ən böyük mükafatım və fəxri

adımdır. Mən əgər sözümlə, şerimlə xalqımın qəlbində yuva qurmuşamsa, qələm sahiblərinin ən bəxtəvəriyəm.

Hüseyn müəllim ustad şair olmaqla yanaşı, həm də elm adamı idi, uzun müddət Akademiyanın Şərqşünaslıq institutunda baş elmi işçi işləmişdi. O, filologiya elmləri namizədi idi. Ancaq həmişə özünü şer aləmində görürdü.

1990-cı ilin avqustunda Laçına məzuniyyətə gəlmişdi. Minkənd istisuyunda eşidir ki, tanınmış el ağsaqqalı Əmir müəllim oğluna toy edir. Ordan öz dostu, eyni zamanda Əmir müəllimin qohumu Oruc həkimlə - hal-hazırda o, akademik M.Topçubaşov adına Respublika eksperimental-təbabət kliniki xəstəxanasında endakrenoloji xəstəliklər şöbəsinin professorudur – birlikdə Laçının dilbər guşələrindən biri, axarlı-baxarlı, bağlı-bağatlı, ecazkar mənzərələrlə insanı heyran edən Kiçik Qafqazda tay-bərabəri olmayan Ağbulağa toya gəldilər. Onlarla birlikdə bir avtobus adam gəlmişdi. Həmin o mübarək toyu bu sətirlərin müəllifi aparırdı. Gələn qonaqların kimliyini mənə deyəndə, əlimdəki səs gücləndirəni-mikrofonu yanımda farağat dayanmış köməkçimə uzadıb, özümə məxsus çevikliklə toy mağarından çıxdım… görüşdük, öpüşdük… Xoş gəlmisiniz, həmişə toylara gələsiniz – deyəndən sonra, əziz qonaqları yemək-içmək mağarına dəvət etdim. Adətən bizdə çal-çağır-musiqi mağarı ayrı olur, yemək-içmək mağarı isə ayrı. Toylarımız üç gün davam edir. Toy məclisində çox qələbəlik və şuxluq olur.

Bəli, yemək-içmək təmtərağı başlandı… Ecazkar təbiətin bitirdiyi və yetişdirdiyi, adamı iştaha gətirən hər cürə naz-nemət süfrəyə qoyulmuşdu… Sağlıqlar bir-birini əvəz edirdi… Nəhayət mən qonaqları musiqi mağarına dəvət etdim… - Hə indi deyin görək hansı havanı istəyirsiniz. Hüseyn müəllim tez soruşdu ki, qara zurna var? Mən şəstlə: «əlbəttə, hələ çoban tütəyimiz, klarnetimiz də var» dedim. - Onda qara zurna ilə bir «Sarı köynək» çalsınlar. Hüseyn müəllim, Oruc həkim və mən

yaxşı-yaxşı sındırdıq, yəni kefin istəyən kimi oynadıq. Biləndə ki, toy məclisini mən idarə edirəm, əlini çiynimə qoyub dedi: yəqin ki, bir də rəqs edəcəyik. İndi ki, bu kənddəyik, gəlsənə bulağın üstünə gedək? Doğrudur bulağınız tərifə layiqdir, amma sən onu ifrat dərəcədə tərifləyirsən, onun şəninə necə şerlər yazmısan.

Mən dilimi dinc qoya bilmədim: – Əlbəttə şair qardaş, qənirsiz gözəli tərifləyərlər, hələ bir az da o yana keçərlər. Hüseyn müəllimin özünəməxsus bir kişmişi gülüşü yayıldı: – Bəh-bəh, nə yerində dedin. Bulağın üstündə 7-8 nəfər idik, hamımız heyran-heyran bulağın qaynayan gözlərinə, ağ mərmər qayaların döşündən fışqıran, süd kimi ağappaq köpüklənən bu şəfa ocağına dinmədən tamaşa edirdik.

Hüseyn müəllimin səsi sakitliyi pozdu: – Doğrudan da Ağbulaq, bəli kəndin adı da bu bulaqdandır. Daş pirin üstündə oturduq. Hüseyn qatarlanan ağ mərmər qayaların sinəsindən, yanlarından fəvvarə vuran və qayaların dibindən qaynayan bulaqları saymağa başladı və qırxdan çoxdur dedi. Əlindəki dolçanı doldurub içməyə başladı, amma heç yarısını da içə bilmədi… - Elə bil ki, buz salından süzülüb, nə qədər soyuqdur. - Ay Hüseyn müəllim, bizlərdə buna ya kövsər, ya da keybur deyirik. Bizim bu bulağımızın mənbəyi Baş İşıqlı dağ silsiləsinin Qızıl boğaz bazalt, daş, çınqıl qayalarından süzülüb gəlir. O haqda əlimdə elmi mənbə var…

Söhbətdən sonra hamımız toy evinə yollandıq. Yolnan gedərkən o ecazkar gözəlliklər diyarı Ağbulaq haqqında bədahətən bir şer dedi:

*Ağbulağın yeddi rəngdə daşı var,*
*Əyri qarı, Çöplü gölü, Kaşı var.*
*Dağa gəlsən Ağbulağa enməsən*
*Deməzlərmi bir zövqsüz naşı var?*

Qonaqlara məsləhət elədim ki, əgər istəyirlərsə otaq-ların birində saz aşıqlarını dinləsinlər. Bu lap qiyamət olar - deyən Hüseyn müəllim sağ tərəfində addımlayan Oruc

həkimi eyhamladı, həkim isə təbəssümlə razılığını bildirdi. Xal-xalça ilə bəzədilmiş kəllayı otaq qonaqları ağuşuna aldı. 25-30 nəfərlik məclis qızışdı, iki saz aşığı otağa daxil oldu. Sazın ahəstə, həzin söhbəti başlandı. Sazəndələr əziz qonaqların çal-çağır, oxumaq arzularını çox yaxşı yerinə yetirdilər. İki saatlıq məclis sona yetdi. Hüseyn aşıqlara çox sağolun, həmişə oxumaq səsiniz gəlsin deyib onlarla xudahafizləşdi. O əlini havaya qaldırdı, ərklə «ay Əbil müəllim, bu gün gecdir, gələn dəfə Dəmirçi bulağının üstündə məclis qurarıq» deyib avtobusa tərəf addımladı. Əfsus, çox əfsus ömür vəfa qılmadı… Yerin behişt olsun, əziz dost.

Mən xatirəmin əvvəlində qeyd etdim ki, bütün güllərdən, çiçəklərdən Hüseyn ən çox bənövşəni sevirdi, bu onun yaradıcılığında ömrünün axırına qədər özünü qabarıq şəkildə göstərmişdir.

1997-ci ildə nəşr olunmuş «Yaralı torpağım, yaralı sevgim» kitabında «Ağlat məni, bənövşə» şerinin iki bəndinə nəzər salaq.

*Laçın dağları dustaq,*
*Dərdi sinəmdə dağ-dağ.*
*Bilməz bənövşə qədri,*
*Tapdar səni yad ayaq.*
*Sən yuxuma girirsən,*
*Yuxum çəkilir ərşə.*
*Ağlat məni, bənövşə.*

*Dərən yox dəstə-dəstə,*
*Qaldım qulağı səsdə.*
*Görüş qismət olmasa,*
*Bitərsən qəbrim üstə.*
*Şerim də həsrət qalıb*
*Təbəssümə, gülüşə.*
*Ağlat məni, bənövşə,*
*Ağlat məni…*

*Südabə Şükür*

# NƏMLİ GÖZLƏRİNƏ BAXA BİLMƏDİM

Uzun illər bir yerdə işləyib, son tikəmizi bir yerdə yeyib, birlikdə gülüb, birlikdə ağladığımız anlar, günlər təzədən vərəqləndi, oxundu. Ömür-gününü son dərəcə həssas, zərif bir insana etibar edən 40 illik rəfiqəmlə dərdləşdik bu gün. Bəli, bu gün adi bir gün deyildi. Onun təmiz, saf sevgisinin əbədi dünyasına köçdüyü, ilk dəfə əziz, müqəddəs Ramazan bayramında öz süfrəsində övladlarının, nəvələrinin yanında otura bilmədiyi gündür bu gün. Yəni 20 şer kitabının müəllifi, tanınmış şair, gözəl qələm ustası Hüseyn Kürdoğlunun qara bayramı idi bu gün. Biz onu həm gözəl bir şair, həm də layiqli ailə başçısı – ata, baba kimi xatırladıq.

Şair Hüseyn Kürdoğlunu kiməsə tanıtmağa ehtiyac yoxdur. Onun Laçınsız qalan gündən bəri dən düşmüş saçlarının bəmbəyaz olduğunu yəqin ki, unutmamısınız. Mən isə bu gün başqa məqamlara toxunmaq istəyirəm. Mən Azərbaycan qız-gəlinlərinin qeyrətindən, vüqarından və könül nəğmələrindən danışmaq istəyirəm. Mən Hüseyn Kürdoğlunun ömür-gün yoldaşı Fəridə xanımdan söz açmaq istəyirəm. Onu «Uşaqgəncnəşr»də birlikdə işlədiyim zamandan ta bu günədək ürəyimdən, qəlbimdən itirməmişəm, təmiz ürəyinə, saf duyğularına görə. Bir də qadın ləyaqətinə, möhkəm sevgisinə görə. Xoşbəxt ailəsi var Fəridə xanımın. İki oğlu, bir qızı ilə həmişə fəxr edibdi. İndi qızı Süsən Daşqın, Toğrul, Şaiq adlı üç oğul, oğlu İlham isə Çinarə, Aytən adlı iki qız bəxş eləyib Fəridə xanıma.

Ananın bir arzusu var – sonbeşiyi, son kamı olan oğlu Nasiri evləndirmək, evindən gəlin nəfəsi duymaq, körpə səsi eşitmək. Nə deyirik, Allah arzusuna çatdırsın. Heç bir şey Fəridə xanımın dərdini azaltmasa da, güman edirəm ki, körpə qığıltısı başını qarışdıracaq. Jurnalist həmkarım

Fəridə xanımın ömür-gün yoldaşı Hüseyn Kürdoğluna üz tutub yazdığı qəmli, insanı düşünməyə vadar eləyən şerlərini oxuculara təqdim edirəm. Bu, təmiz, saf məhəbbətin ürək odu və titrəyişidir.

### Sənsiz olanda

*Gülsüz-çiçəksiz yazam,*
*Qəribsəmiş avazam.*
*Sinəsiz qalmış sazam –*
*Sənsiz olanda!*

*Bülbül gülşənsiz ötməz,*
*Kolsuz bənövşə bitməz.*
*Gözümü əcəl örtməz –*
*Sənsiz olanda!*

*Ağacsız olarmı bar,*
*Pərvanə şamda yanar.*
*Gözlərim səni arar,*
*Sənsiz olanda!*

*Yazılmamış varağam,*
*Qurumuş bir budağam.*
*Yuvamızda qonağam –*
*Sənsiz olanda!*

*Üzüksüz qaş kimiyəm,*
*Bir qara daş kimiyəm.*
*Qanadsız quş kimiyəm –*
*Sənsiz olanda,*
*Sənsiz olanda!*

## Hardasan?

*Hərarətdən, məhəbbətdən hörülən,*
*Xanimanım, qəlb məkanım yıxıldı.*
*Səadətim, sədaqətim yox oldu,*
*Yox insafın, mərhəmətin, hardasan?*
*45 illik məhəbbətim hardasan?*

*Sən yoxsansa harayıma gələn yox,*
*Ağlayanda gözlərimi silən yox.*
*Ürəyimdən keçənləri bilən yox,*
*Yox insafın, mərhəmətin hardasan?*
*45 illik məhəbbətim hardasan?*

*Qəmlə savaşdayam, gülə bilmirəm,*
*Dərdim dağdan ağır, bölə bilmirəm.*
*Sənsiz necə ölüm, ölə bilmirəm,*
*Yox insafın, mərhəmətin hardasan?*
*45 illik məhəbbətim hardasan?*

Heç bir millətin qadınları bu ucalığa çata bilməz. Bu, təkcə Azərbaycan qadınlarının qeyrətidir. Qeyrətinə qurban olum, millətim. Umduğum isə bütün kişilərimizin belə qeyrəti qiymətləndirməsi və dəyərləndirməsidir. Elə dünyasını dəyişmiş, məhəbbətini yalqızlığa bürümüş əzizimiz, şair Hüseyn Kürdoğlu kimi. Gorunuz işığa, nura boyansın, Allah rəhmət eləsin sizə, Hüseyn müəllim. Bu yazımı isə sizə olan hörmətimin bir damlası hesab edirəm.

«Qadın dünyası» qəzeti,
5-18 dekabr, 2003

*Fəridə Alışanlı*

## KEÇƏN GÜNLƏRİMİ QAYTARAYDILAR...

*Fəriş, gəlib çatdın altmış beş yaşa,*
*Əlli ilə yaxın gəlmişik qoşa.*
*Bu evdə işığın gur yansın sənin,*
*Mən yetmiş yaşında dönsəm də daşa,*
*Yaşa, qurban olum, yaşa, sən yaşa!*
(17.03.2003)

Ad günümdə mənə yazdığın sonuncu şerdir bu, Hüseyn! Yadındamı bu şeri oxuyanda necə incidim səndən? «Sənsiz bir ömür nəyimə gərək» – dedim. Acı bir təbəssümlə üzümə baxdın. «Sən güclüsən, dözümlüsən. Mənim yoxluğumdan sınma, əyilmə. Övladlarımıza dayaq olmaq üçün, şerlərimi qorumaq üçün yaşa. Evimizin işığı gur yananda mənim ruhum da sevinər» – dedin. Mən səninlə güclüydüm, səninlə dözümlüydüm, Hüseyn! Ömrünün ən qaynar çağında – 40 yaşına belə yetməmiş neçə xəstəliklə üz-üzə gəldin, nə qədər sınağa, nə qədər ağrıya tab gətirməli oldun. İllər uzunu səni bədbinlikdən, ümidsizlikdən qorudum. Ev-eşik qayğılarından, min cür sıxıntıdan uzaq saxladım. Əcələ gücüm yetmədi, ölümdən qoruya bilmədim səni. Gücüm də, dözümüm də səninlə bitdi, Hüseyn!

Bizim məhəbbətimiz əlli ilin sınağından keçib. Şahidimiz bu illər ərzində mənə yazdığın yüzlərlə şerdir. Hər gün səndən yadigar qalan dəftərləri vərəqləyir, dönə-dönə oxuyur, kövrək, səmimi, qaynar duyğuların işığına bələnir, acılı-şirinli xatirə dolu bu dünyadan qopmaq, ayrılmaq istəmirəm. Sənsiz olmamaq üçün, sənsiz qalmamaq üçün…

Yadındamı universitetdə oxuduğumuz, şer dərnəyinə getdiyimiz xoşbəxt, qayğısız illər. Bir gün nəyisə bəhanə edib məndən dəftər istədin. Geri qaytaranda mənə yazdığın ilk şeri oxudum.

*Gəl and içək bir müqəddəs ilqara,*
*Nur çiləsin bu peymana gözlərin.*
*Doğru sözün bəndəsiyəm əzəldən,*
*Çəksin məni imtahana gözlərin.*

*Ömür boyu həsrətinlə yanaram,*
*Bir quş olub yollarına qonaram.*
*Sən olmasan bu dünyanı danaram,*
*Əvəz olar bir cahana gözlərin.*

«Gözlərin» adlı bu şer mənim ürəyimin qapısını döyən bir elçiyə döndü. Tələbə dəftərlərim mühazirələrdən çox sənin yazdığın şerlərlə doldu. Öz ürək həmdəmini doğulub boya-başa çatdığın, bulağından şairlik vergisi içdiyin doğma yurd-yuvana, candan əziz bildiyin dağlara çağırdın.

*Qonaq gedək mən gəldiyim o dağa,*
*Qurban olum, sənin kimi qonağa.*
*Qovma məni gözlərindən uzağa,*
*Yaxşı günüm, xoş məkanım tapılmaz.*

Yaxşı günlərimizi, sevgi və səadət dolu günlərimizi ailə xoşbəxtliyində, isti yuvamızda tapdıq.

*Boran oldu, qar oldu,*
*Axırı bahar oldu.*
*Laçınlı Kürdoğluya,*
*Qubalı qız yar oldu.*

Üç övlad sahibi olduq, bir-birindən şirin beş nəvənin boyunu sevib əzizlədik. Sənin şerlərin toy-büsatlı günlərimizin yaraşığı, dərdli günlərimizin məlhəmi oldu. Sənin kövrək, həssas qəlbindən süzülən hər sözü başım üstündə yanan bir çırağa bənzədirdim.

*Bu rəngsiz, boyasız, bakir camalın –*
*Qocalmaz ilhamım, səadətimdir.*
*Başına dolanar tərlan xəyalım,*
*Sənin ziynətin də məhəbbətimdir.*

*İsti yuvamızın keşiyində dur,*
*Sən həsəd aparma dövlətə-vara.*
*Gözəllik də budur, həyat da budur,*
*Gözəlim, aldanma parıltılara.*

Sevgi və halallıq üzərində qurulan ocağımızda xoşbəxtlərin xoşbəxti, varlıların varlısıydıq. Dünyanın hansı ziynəti, hansı daş-qaşı sənin sözünü əvəz edə bilərdi? Ad günlərimizdə sənin şerindən yaxşı bir hədiyyəni xəyala belə gətirməzdik. Uşaqlar dil açanda, yeriyəndə sənin sözlərin də qol-qanad açıb pərvazlanardı.

*Ağzı bircə dişli, yarımca yaşlı,*
*Dodağı gülüşlü oynağan balam.*
*Kirpikləri yaşlı, qalınca qaşlı,*
*Acanda savaşlı, ağlağan balam.*

Bu, Süsənə yazdığın şerdəndir.

*Büdrəmək, yıxılmaq qorxutmur səni,*
*Bilirsən yüyürüb qaldıracağam.*
*Hələ ki, qoruyur taleyim məni,*
*Ərsəyə çatınca sənə dayağam.*

Bu, İlhama yazdığın şerdəndir.

*Doğdu fevral günəşi bahar günəşi kimi,*
*Dünyaya süd içirtdi analar döşü kimi.*
*Üfüqlərin gülüşü körpə gülüşü kimi!*
*Səadət mizrabıyla qəlbimi dindir bu gün.*
*Bir oğlum da doğuldu,*
*Nə yaxşı gündür bu gün!*

Bu da sonbeşiyimiz Nasirə yazdığın şerdəndir.

Sənin qədər ailəcanlı, uşaqlarını sevib-əzizləyən ata tək-tək olar. Ailənlə öyünərdin, sevinərdin, qürurlanardın. Mən xəstə yatdığım günlərdə yazdığın şer yadındamı?

*Atma gəldiyin yolun torpağından öpəni,*
*Öz könül dünyasına qəm toxumu səpəni.*
*Dolmuş səma gözlərin xəyalımın vətəni,*
*Yollarını bağlama, xəyal vətənə gəlsin,*
*Xumar gözlüm, ağlama, azarın mənə gəlsin.*

Sənin bir ailə başçısı, ömür-gün yoldaşı kimi qayğını, diqqətini, fədakarlığını sözlə ifadə etməkdə acizəm. Uşaqlardan hansı xəstələnsə bəlkə də həkimlərin dava-dərmanından çox sənin sözlərinin sehrindən, şəfqətindən sağalardı.

*Anan əli qoynunda hey ağlayır, kiriyir,*
*Gözlərinin sevinci dərd içində əriyir.*
*Qəlbimin qəm yurdunu duman, çiskin bürüyür,*
*Yumulmuş kirpiyinlə bağrımı iki bölmə,*
*Ölmə, Süsənim, ölmə!*

Hər bir kitabın çıxanda birinci nüsxəni şerlə avtoqraf yazıb mənə bağışlardın. «Səhər nəğmələri» adlı ilk kitabına belə bir avtoqraf yazmışdın:

*Ey könül bağında ilkin çiçəyim,*
*Soldura bilərmi boran-qar səni?*
*Verdim sevgilimə yadigar səni,*
*Onundur ilhamım, eşqim, ürəyim.*
*Qoynunda saxlayar nazlı yar səni,*
*Verdim sevgilimə yadigar səni.*

Başqa bir kitabını isə belə bir avtoqrafla hədiyyə etmişdin:

*Göy olsan günəşimsən, torpaq olsan baharım,*
*Özüm torpaq olunca dönməz eşqim, ilqarım.*
*Mənim nazlı Fəridəm, mənim şer sərrafım,*
*Sənsən, balalarımdır, bir də sözümdür varım.*
*Qoy gün doğsun üstünə, sənindir bu xəzinə,*
*Susamış maralımsan, gəl bu çeşmə gözünə.*

Nəvələrinə yüzlərlə şerlər yazmısan. Şaiqlə Aytən şerlərini əzbər söyləyəndə uçmağa qanadın olmurdu. Məktəbdə yeni bir mövzu keçəndə, bayram günləri olanda nəvələrin səndən yeni şerlər istəyərdi. Onların sifarişindən fərəhlənərdin, heç zaman «yoruldum, usandım» deməzdin. Nəvələrin o şerləri yenə deyirlər, Hüseyn. Eşidirsənmi, sevinirsənmi?! Onların səni axtaran nisgilli gözlərini görürsənmi?

*Çıxar sinif qabağına, şerimi söylər Aytənim,*
*Dərsindən «beş» alıb gələr, məni şad eylər Aytənim.*
*Bu qədər ki, çox istəyir başı qarlı babasını,*
*O bir gün daşa dönəndə bilmirəm neylər Aytənim?!*

Mənə ünvanlanan hər şerində bir xatirəmiz, sözə dönüb qalan bir anımız yaşayır. Onların hamısı mənə əzizdir. «Səninkiyəm» şerinin isə ürəyimdə öz yeri var. Sən o şeri yazanda hər sözün, hər misranın sənsiz günlərimin ağısına, harayına dönəcəyini nə biləydim. Deyilənin, yazılanın beləcə başa gəldiyini, beləcə yaşandığını nə biləydim.

*Səninkiyəm, soyuq məzar torpağı,*
*Mənim şair gözlərimə dolunca.*
*Öz sözümdən ağı deyib özümə,*
*Yana-yana saçlarını yolunca.*

*Baxtım kəsib sən olmusan əzəlim,*
*Ah çəkirsən töküldükcə xəzəlim.*

*Gözəlimsən, gözəlimsən, gözəlim!*
*Səninkiyəm qara yerin olunca.*

*Nazlı pərim, sən ha çəkdin nazımı,*
*Bir ayə tək qorudun hər sözümü.*
*Səninkiyəm, dərdli könül sazımı,*
*Qoca fələk alıb daşa çalınca.*

*Səndən uzaq vallah əhli qürbətəm,*
*Bir şəkiləm, cansızca bir surətəm.*
*Sanıram ki, min il sənə həsrətəm,*
*Gözlərindən bir gün ayrı qalınca.*

*Bəhər götür, ömür barlı bağ ikən,*
*Söz yanında hələ üzüm ağ ikən.*
*Kürdoğlunun qədrini bil sağ ikən,*
*Gecə-gündüz çox ağlarsan dalınca.*

Son illər çox fikirli, qəmgin dolanırdın. Xəstə canından da, səni doğma Laçına həsrət qoyan amansız dövrandan da gileyli idin. Beş il əvvəl çəkdirdiyin bir şəkli mənə bağışlarkən arxasına belə şer yazmışdın:

*Qocaldım gözəlim, qocaldım yaman,*
*Get-gedə soyuyur ürəyimdə qan.*
*Gözlərin qurbanı yazıq canımı,*
*Səndən də, məndən də alacaq zaman.*

«Ölümdən, məzardan az yaz. Axı bizim əhdimiz var. İlk nəvəmizin – Daşqınımızın toyunda qoşa süzməliyik» – deyirdim. Məni kövrələn görüb dəftəri gizləyər, toxtaqlıq verərdin. Bu şeri də məni ovundurmaq üçün yazmışdın.

*Kövrəlirik, ağlayırıq,*
*Dolanırsan başıma sən.*
*Hər qətrədə bir can olsa,*
*Verərdin göz yaşıma sən.*

*Ağır illər axıtmısan,*
*Qəlbimi çox ovutmusan.*
*Var ol, nələr oxutmusan,*
*Qəmli könül quşuma sən.*

*Gecə-gündüz yana-yana,*
*Göz yaşın döndümü qana?!*
*Yalvarıban yaradana,*
*Yaş caladın yaşıma sən.*

Bu həzin, kövrək duyğular məni o qədər təsirləndirdi ki, sənin qarşında bəlkə də ilk dəfə cürət edib şer adına bu sözləri yazdım.

*Baharımsan, yayımsan,*
*Ulduzumsan, ayımsan.*
*Şirin tanrı payımsan,*
*Odur ki, səhər-axşam,*
*Yalvarıb yaradana,*
*Dolanıram başına.*

*Evimizə dayaqsan,*
*Eşqimizə çıraqsan.*
*Məhəbbət keşiyində*
*Həmişə üzüağsan.*
*Odur ki, səhər-axşam,*
*Yalvarıb yaradana,*
*Dolanıram başına.*

*İşıqlı sabahımsan,*
*Ümidim, pənahımsan.*
*Mənim qibləgahımsan,*
*Odur ki, səhər-axşam,*
*Yalvarıb yaradana,*
*Dolanıram başına.*

Ayrılığın belə tez gələcəyini duymuşdun deyəmi qələmi əlindən bir an belə yerə qoymaq istəmirdin? Can ağrısından macal tapan kimi diz üstə olsa da yazdıqca yazırdın. Mənə oxumağa qıymadığın o şerləri indi dərdimlə birgə oxuyuram, Hüseyn. Ayrılığın, sənsizliyin şerlərini…

*Yadıma saldıqca son ayrılığı,*
*Sızlayır, göynəyir bağrımın başı.*
*Səninəm göylərdə günəş sönüncə,*
*Qocalıb, ovulub quma dönüncə,*
*Sənsiz ağlayacaq məzarım daşı.*

Qırx beş il əvvəl Astaradan – hərbi düşərgədən mənə yazdığın ilk məktub yadındamı, Hüseyn? Bir tutya kimi əzizləyib saxladığım o məktubu bu günlərdə yenidən oxudum. Sənin ilk məktubunu son məktubun kimi oxudum, Hüseyn. O məktubda yazırsan: «… Səni tez-tez yuxularda görürəm. Bəzən gülürsən, bəzən ağlayırsan, küsürsən, doluxursan. Dünən gecə səni ayaqyalın bir halda uca bir qayanın döşü ilə çıxan halda gördüm. Dalınca yüyürürdüm, sənə çata bilmirdim. Məndən qabaq qayanın başına çıxıb özünü tulladın, fəqət yerə düşmədin, buludlardan iki əl uzanıb səni göydə saxladı. Yerdən qollarımı açıb buludların içərisindəki o qüdrətli əllərə yalvardım, ancaq səni mənim ağuşuma qaytarmadı, çığırmaq istədim, yuxudan ayıldım. Hər axşam buludlara baxıram, sənin qəmli baxışlarını ulduzların içində axtarıram. Sən göydən, mələklərin məskənindən baxıb məni Xəzərin qumlu sahillərində görürsənmi?» Sən gördüyün bu yuxu qırx beş il sonra mənim görəcəyim yuxuymuş, Hüseyn. Yuxu kimi keçən ömrümüzün əvvəldə yazılan sonuymuş…

Yalnız bir təsəllim, bir ümidim var. Hər bir ömrün sonu olsa da böyük sevginin və bu sevgidən, bu işıqdan yaranan poeziyanın sonu olmur. Sən şerə bir allah qədər

tapınırdın, ilahidən verilən bu payın möcüzəsinə və qüdrətinə inanırdın. «Mən ölsəm də, sözüm diri qalacaq» – deyirdin.

Sən hər zaman yaşayacaqsan, Hüseyn! Səni oxuyanların, duyanların, sevənlərin qəlbində, ömrümüzün-günümüzün şerə dönən hər ayında, hər günündə, hər anında.

Bu ağrılı-acılı günlərimdə dayağım və sirdaşım sənin həzin, kövrək nəğmələrin, bir də xoşbəxt günlərin yadigarı olan şəkildən üzümə təbəssümlə baxan gözlərindir, Hüseyn!

*Yazılmamış varağam,*
*Quruca bir budağam.*
*Evimizdə qonağam*
*Sənsiz olanda,*
*Sənsiz olanda…*

30.X.2003
«Kredo» qəzeti,
23 oktyabr, 2004

# ŞERLƏR

*Aşıq Şəmşir*

## BİZƏ QONAQ GƏL

*Şair Hüseyn Kürdoğluya*

Gəlsən təzə bayram olar,
Bizim elə, a Kürdoğlu.
Güllər nənən göz dikibdi
Hər gün yola, a Kürdoğlu.

Dost görüşü – könül yazı,
İnan qalar hamı razı.
Qoca vaxtı telli sazı,
Çəkim zilə, a Kürdoğlu.

Səhər açıb, gün gələndə,
Dan yerinə ün gələndə.
Şad olardım sən gələndə,
Gülə-gülə, a Kürdoğlu.

Ağdabana atsan ayaq,
Yol gözləyir Daşnov bulaq.
Şiş qayaya, Buzluğa bax,
Çöplü gölə, a Kürdoğlu.

Əgər çıxsan Qaraşinə,
Üzə gülər kəklik meşə.
Sarı dağdan gül, bənövşə,
Dərib iylə, a Kürdoğlu.

Şəmşirə əzmlə baxsan,
Çaylar kimi daşıb-axsan.
Dürlü şer yazacaqsan,
Deyim hələ, a Kürdoğlu.

«Dağ havası» –
Bakı, «Gənclik», 1978, s. 65.

# İNDİCƏ

*Şair Hüseyn Kürdoğluya*

Gözlərəm yolunu xeyli zamandı,
Yetişmişəm bir muraza indicə.
Sən gələndə dağlar əlvan boyandı,
Əlim yatır telli saza indicə.

Daş bulağı görməyibsən hələ sən,
Üşüyərsən damcılasa ələ sən.
Dastan eylə yay obaya-elə sən,
Gəl başlayaq şirin sözə indicə.

Əlik məskənidi Yaylım güneyi,
Ovçulardan çox edirlər gileyi.
Qartalın baxışı, kəkliyin neyi,
Xoş gələcək deyim sizə indicə.

İlqarı mötəbər, sən üzü ağsan,
Qüdrətli şairsən, arxada dağsan.
Əksini görərsən qəlbimə baxsan,
İstəyin nur saçır gözə indicə.

Çıxaq Sarı dağa, Ceyranqaçana,
Bax Qızılarxaca, könül açana.
Nəzər yetir qanadlanıb uçana,
Tərlan qonar Taxtadüzə indicə.

Səninlə həmzəban İman, Ələsgər,
Şadlıqla yaşayın, görməyin xətər.
Alsın qələmini əlinə Qəmbər,
Bəlkə əsərlənib yaza indicə.

Etmərəm a dostum, əsla fəramuş,
Dağılmayıb başımdadır əğlü huş.

Buzluca buluddan süzülən yağış,
Düşən kimi dönür buza indicə.

İlham gəlib babasını görməyə,
Süsən balam gülü reyhan dərməyə.
Bu qoca Şəmşirə ürək verməyə,
Bir cüt tərlan gəlib bizə indicə*.

18 avqust, 1968
Ağdaban

## SƏN

*Hüseyn Kürdoğluya*

Məni çökürmüşdü möhnət şələsi,
Könlümü güldürdün, şad elədin sən.
Gələndə səhmimə Hüseynimin səsi,
Tarixdə silinməz ad elədin sən.

Qoca təbiətə inansan əgər,
Qəlbim saniyədə min hicran çəkər.
Ağzımı bal etdin, dilimi şəkər,
Dəhanımda şirin dad elədin sən.

Şəmşirəm, dosta say bir nökər məni,
Xəyalında dolananda hər məni.
Yamanca boğurdu qüssələr məni,
Dəhşətdən ayırdın yad elədin sən.

16.01.1977

---

* Şer ixtisarla Aşıq Şəmşirin «Seçilmiş əsərləri»ndə (Bakı, 1973, s. 98) çap olunub.

## GƏLMƏDİN

*Əzizim Hüseyn! Biləsən ki, mən xəstələnmişdim. Martın 27-də Qanköçürmə İnstitutuna gəldim və həmən gün sənə məktub yazdım. Nə özün gəldin, nə də bir məktub yazdın. Odur ki, mən haqlıyam deməyə: oğul atasın hansı gün axtarardı?*

*Xəstə vaxtımda olsa da bir neçə bənd şeri cızma-qara etdim.*

Bir olar, a dostum, insanın dərdi,
Bəlkə çox dərdimə güldün, gəlmədin.
Xəstə darıxanda axtarır mərdi,
Bilmirəm bilmədin, bildin, gəlmədin.

Kövrəldinmi, yoxsa gülümsədinmi,
Yorulmuşam, vaxtım yoxdur dedinmi?
İndi səndən giley-güzar edimmi,
Sən nə işə məşğul oldun, gəlmədin?

Dincəlmirəm, ağrım çoxdu bədəndə,
Mən də məəttələm, əlac edən də.
Acığım tutmuşdu məktub gedəndə,
Yadına salmadın, saldın, gəlmədin.

Sən ki ilqarlısan, bilirəm həmən,
Sızıldasam, sən olarsan can deyən.
Naməni alanı, a Kürdoğlu, sən,
Qaydıma qalmadın, qaldın, gəlmədin.

Gəlsəydin Şəmşirin nə hicran çəki,
Ya kağız çatmayıb ola bilər ki.
Talantlı şairsən, dəryalar kimi
Təlatüm elədin, doldun, gəlmədin.

4.IV.1969

## MƏNİ

*Hüseyn Kürdoğluya*

Adına aşığam, həm umudvaram,
Salma bir qorxuya, bir qala məni.
Qurban ocağının külü də gözəl,
Üfür, işıqlandır, bir qala məni.

Sən arxam ol, çaylar kimi bir daşım,
Süfrəmizdə ye, şirindi, bir daşım.
Əlini at, qoy düşməsin bir daşım,
Tikdir topdağıtmaz bir qala məni.

Əzəl oldum bir vəfalı yara ram,
Şəmşirəm, yolunda dağı yararam.
Atalıqdan qulam, yerin yararam,
Gəldin səhmiləri bir qala məni.

«Öyüdlər» – Bakı,
«Ozan», 1996, s. 228.

## HÜSEYN KÜRDOĞLUYA MƏKTUB

Azar məni yaxaladı,
Düşdüm xəstə, a Kürdoğlu.
Canımda ocaq qaladı,
Girdi qəsdə, a Kürdoğlu.

Əhvalıma yanan da var,
Vətən deyib gözüm ağlar.
Əlində gül gəldi nigar,
Tutub dəstə, a Kürdoğlu.

Gül açıla, bülbül ötə,
Qardaş gərək dada yetə.
Sədaqətə, məhəbbətə,
Olum bəstə, a Kürdoğlu.

İltimasım budur sənə,
Yalvarıram dönə-dönə.
İstisudan özün mənə,
Şəfa istə, a Kürdoğlu.

Yoldaşlarım var bu qədər,
Biri İvan, biri Cəfər.
Şəmşiri axtarsan əgər,
İki səstə, a Kürdoğlu.

28.03.1969
Bakı, Qanköçürmə İnstitutu

## TANIDAR ELLƏRƏ

*Hüseyn Kürdoğluya*

Gəlmisən Tərtərim doğulan dağa,
Göndərib görüşə Həkəri səni.
Dədələr qədrini bilən Kürdoğlu,
Ucaldar baxtıyın təkəri səni.

Əzəldən sözədir ilqarım, andım,
Mən də Qurban kimi saz üstə yandım.
Sözün nə şirindir, fəxrlə sandım,
Şerin beçə balı, şəkəri səni.

Topladın başına əhli-halları,
Gəzdin o qayalı, qarlı yalları.
Gözün qanlısıdır tamah qulları,
Görmədim nəfsinin nökəri səni.

Söhbətə, ülfətə, saza çağırmış,
Can ilə alınan naza çağırmış.
Min bir toy-büsatlı yaza çağırmış,
Dağların bir sevda ülkəri səni.

Saralıb yarpağım, uçurur külək,
Şəmşirin dərdini duyasan gərək.
Tanıdar ellərə o qoç Nəbi tək,
Düz sözün qalası, səngəri səni.

1970

## ƏYİLMƏZ

*H.Kürdoğluya*

Əhdi-ilqarından, dostum Kürdoğlu,
Bilirəm ki, o namərdə əyilməz.
Buludlar çalxanıb, qalxsa da tufan,
Papağı şax durar sərdə, əyilməz.

Əsli dürüst olub ata-babadan,
Aldım sorağını eldən, obadan.
Qartal kimi yerə enməz havadan,
Göydə şax dayanar, yerdə əyilməz.

Qoç Koroğlu söylə harda döyülmüş,
Ona tərif, çox dastanlar deyilmiş.
Misri qılınc kəsmək üçün əyilmiş,
Nahaq qana çəksən bir də, əyilməz.

Hasil olsun elədiyim diləklər,
Əsməsin bağına acı küləklər.
Salsın sayəsini üstə mələklər,
O cavan şairdi dərdə əyilməz.

Təbi daşqın çaya, ümmana bənzər,
Şəmşirin dilində olubdur əzbər.
Bu səhər muştuluq gətirdi yellər,
Onu sağaldıbdı Bərdə, əyilməz.

1972
Seçilmiş əsərləri –
Azərnəşr, 1973, s. 130

## LAÇINDA

O Laçın yurduna güzarım düşə,
Keşkə qanadlanıb uçam Laçında.
Deməli sözlərim pünhan qalmaya,
Qəlbimin sirrini açam Laçında.

Boz atı göndərə o Qaçaq Nəbi,
Oynada ruhumu cavanlıq təbi.
Gözümdə qalmaya könül mətləbi,
Dostların boynunu qucam Laçında.

Görsəm zövq alardım gözəl diyardan,
Güneydə lalədən, quzeydə qardan.
Suyu şərbət olan buz bulaqlardan
Vəfalı dostunan içəm Laçında.

Fəxr edirəm Kürdoğlunun adıyla,
Qohum qardaşımla, cəm övladıyla.
Odlanmayam bu həsrətin oduyla,
Bir görüş süfrəsi açam Laçında.

Şəmşir, tərlan kimi bir pərin ola,
Sözündə ovxarın, kəsərin ola.
Alınan mətahın, gövhərin ola,
Satam sərraflara, saçam Laçında.

1974
«Dağ havası», –
Bakı, «Gənclik», 1978

## ARASINDA

*Şair Hüseyn Kürdoğluya*

Kəlmələrin mirvaridən süzülüb,
Doğrudan əsəldir şan arasında.
Yaqutdan, yəməndən, ləldən düzülüb,
Şəfəqli ulduzsan dan arasında.

Gün üfüqdən çıxır səri qırmızı,
Nur düşəndə olur pəri qırmızı.
Biri ağ dolanır, biri qırmızı,
Ürəksən cismimin qan arasında.

Kəlamın dilimdə deyəsim mənim,
Vəsfindi şənində həvəsim mənim.
Ciyərdən alınan nəfəsim mənim,
Sənsən gəşt eyləyən can arasında.

Kürdoğlu, kamalda, sözdə dərinsən,
Bir kamil qəvvassan, bəhri-bərinsən.
Ləhzədə, ləhcədə elə şirinsən,
Dürlü bir nemətsən nan arasında.

Qurtardım əlindən dərdin-azarın,
Əyilməz Murovdu sənin ilqarın.
Laçında istəkli var qohumların,
Şəmşiri onların san arasında.

22.08.1974

## SİZƏ GÜVƏNDİM

*Hüseyn Kürdoğluya*

Əzizim Kürdoğlu, Mərdəkandayam,
Qarlı qış günləri od salır cana.
Kim bilir, bəlkə də laməkandayam,
Loğmanlar əlində mən yana-yana.

Dərd basqın eylədi, bağrım qanadı,
Taqətim, qüvvətim, narım qalmadı.
Qırıldı, tükəndi, arım qalmadı,
Sızlaya-sızlaya nə çəkim şana?!

Canımı yüz yerdən iynələr deşir,
Bir fayda verərmi bu haray-həşir?!
Axır günlərində biçarə Şəmşir,
Bir sənə güvəndi, bir Zəlimxana.*

1974

## KİMİ

*Hüseyn Kürdoğluya*

Səsin gəldi qəlbim gör nəyə döndü,
Çəmənli-çiçəkli novbahar kimi.
Elə bildim Dəli dağdı səslənən,
Ürəyim ucaldı o dağlar kimi.

Ürpənib üyüşür bədənim tək-tək,
Yerinə yetişdi etdiyim dilək.
Könlümdə açıldı qırmızı çiçək,
Yazda qönçələnən təzə nar kimi.

Gəlsin öpüm Şirindilin gözünü,
Şəmşir arzuladı görsün üzünü.
Qoy söyləsin Kürdoğlunun sözünü,
Bizi şad eləsin bəxtəvər kimi.

1977

* Şair Zəlimxan Yaqub

## GƏLSƏ KÜRDOĞLU

Əzrayıl dayanıb başımın üstə,
Çatar harayıma bilsə Kürdoğlu.
Arxayın ölərəm axır nəfəsdə,
Alnımın tərini silsə Kürdoğlu.

Bakıya gəlməyim bəlkə hədərdi,
Loğmanlar bilmədi çəkdiyim dərdi.
Ölüm də hələlik çıxıb gedərdi,
Mənimlə danışıb gülsə Kürdoğlu.

Neyləyim gen dünya başıma darsa,
Azarın zəhmindən dilim qabarsa.
Sevincim olardı, nə dərdi varsa,
Öz qoca dostuyla bölsə Kürdoğlu.

Ruhum qanadlanar bir şahbaz kimi,
Şəmşirəm, qışım da keçər yaz kimi.
Baş daşım dil açar telli saz kimi,
Haçan qəbrim üstə gəlsə Kürdoğlu.

Bakı, 1978
«Ədəbiyyat qəzeti»,
1994, 18 fevral

# İŞIQLI

*Hüseyn Kürdoğluya*

Gəldim İşıqlıya işıqlı gündə,
Burda işıq içən işığı geyir.
Çiçək yallı gedir küləkdöyəndə,
Arı bal ayını bayram eyləyir.

Gəldim İşıqlıya – heydən düşmədim,
Könül can sazını çalha-çaldadı.
Qartal qova-qova bir döyüşkəni,
Qaya qıyıldadı, daş vıyıldadı.

İstədim əl atam dağ buluduna,
Mən qalxdım qəlbiyə – göy qalxdı göyə.
Ağ çınqıl bənzədi şor quruduna,
Sağıldı süd yağış güllü güneyə.

Gəldim İşıqlıya – gəldim bu yurda,
Burda qaranlığı zirvə dığırlar.
Günəş də arxayın batar ki, burda,
Onun arxasında işıq dağı var.

Dərələr gecəylə mürgü döyəndə,
Dan yeri gündüzü kürüyür bəri.
Üzür aydınlıqda – üzür gəyəndə,
Bizim İşıqlının şiş təpələri.

Şıdırğı ildırım burda şığıyır,
Tonqala toxuyur bu dağ qarı da.
Balalı bildirçin burda oxuyur,
Oxudur oxumaz qonaqları da.

Budur, Ay közərdib işıq tığını,
Ulduzlar çil töküb buzun çinində.
Dirəksiz Tavanın çil-çırağını,
Saxlamış İşıqlı bəyaz çiynində.

Dağ dağı qucubdu, dərə dərəni,
Aşağı qap-qara, yuxarı büllur.
Qaldıra-qaldıra biri-birini,
Zirvələr beləcə işıqlı olur…*

1970

---

* Şerin ilk variantı Ağa Laçınlının «Torpağın gücü» (Bakı, 1973) kitabında (səh. 53) çap olunub.

## KÜRDOĞLUYA MƏKTUB

Dəlidağın nə dərdi var, ay qağa,
Nər igiddir, səsi düşüb aləmə!
Dərd mənimdi: öz ömrümü çürütdüm,
İndi düşüb can gəzirəm sələmə.

Xeyir gələ, dolanmaya iş nəsə,
Torpaq doyar – sağır göylər kişnəsə.
Göl quruyar – sahilləri təşnəsə,
Yamacları, irmaqları göl əmə.

Nanə kimi könlüm əsim-əsimdi,
Meh əsəndə bil ki, mənim səsimdi.
Dostlarımla cansağlığı bəsimdi,
Mən qaneyəm öz bezimə, şiləmə.

Valeh oldum sellər kimi coşmana,
Kükrəmənə, sahilləri aşmana.
Çox çətindi cavab yazım qoşmana,
Qafiyəni bir də belə ələmə.

Bu dağlardan soruşursan hal-əhval,
Kallaqlaşıb, indi olub xətti çal.
Qış zirvədə qulun salır dalbadal,
Ora-bura qar sovurur çiləmə.

Bir sevdaya bağlamışam meylimi,
Qoşun çəkib, zəbt eləyib köylümü.
Misralarda axtarıram Leylimi,
Kaş sərv ola becərdiyim qələmə.

Uşaqlarçün əlləşirəm nə vaxtdan,
Soyulmuşam, lap çıxmışam qabıqdan.

Xoşun gələr bir baxasan qıraqdan:
Ceyranıma, dovşanıma, dələmə.

Bir oyana, yatan bəxtim eşidə,
Bala bata barmağımın beşi də.
Sözlərimi əyirərdim teşidə,
Hansı namərd qəzil qatdı piləmə?!

Qalmayıbdı ürəyimin aramı,
Bal səbrimi yaman basdı haramı.
«Cələ» dedin, lap qanatdın yaramı,
Ta mənim də çaqqal düşür tələmə.

Məmməd görüb hər cür yaxşı-yamanı,
Güc-bəlayla saxlamışam imanı.
Ömür çata, doğruldaydım gümanı,
Sən ki belə çay baxırsan giləmə.

30.09.1969
Kəlbəcər

## NƏRGİZ İÇİNDƏ

*(Hüseyn Kürdoğluya nəzirə)*

Nə gözəl çiçəklər göndərdin mənə:
Laləni təklikdə, nərgizi çində.
Yuxuma girmişdi, «çin olsun» – dedim,
Yaxşı ki, tapmışam nərgizi çində.

Məhəbbət mayası aşkar oddandı,
Yaxdı, yaxdığını aşkar od dandı!
Lalə aşkar yandı, aşkar oddandı,
Çəkdi öz qəmini nərgiz içində.

Qəlbimi yanında həmdəm qoymuşam,
Həsrətli gözləri həm dəm qoymuşam…
Dərman çiçəyindən həm dəm qoymuşam:
Bənövşə için də, nərgiz için də!

*Əzizim Hüseyn! Salamlar, salamlar!*

*Təcnis dolu məktubun yenə bizim kütləvi oxu məktubumuzdur. Nərgiz barədə təcnisin isə mənə çox sirli gəldi. Poçtdan Qəmbərlə birlikdə aldıq. Oxuduq, məəttəl qaldıq ki, bu kəlmələrdən də cinas çıxarmış. Səhər isə mənə qəribə bir anın hökmü oldu: külləmə biçilmiş kövşəndə başaq yığmaq eşqinə düşdüm. Təcnisinə hörmət əlaməti olaraq bir daraq da mən hördüm. Allah elə etsin ki, az da olsa xoşuna gəlsin. Sizin A.Məmməd.*

28.04.1970
Kəlbəcər

*Rəşid Acalov*

## QAR YAĞA-YAĞA

*Hüseyn Kürdoğluya*

Kürdoğlu, gəl duraq isti yataqdan,
Alışaq sazağa, qar yağa-yağa.
Enək mərtəbədən, qaçaq otaqdan,
Bir qədər uzağa, qar yağa-yağa.

Havada fırlanır pərvanələr tək,
Göyümsov görünür tər nanələr tək.
Nəğmə zümzüməli təranələr tək,
Sığınar yarpağa, qar yağa-yağa.

Göydə qoşun çəkər, düşər torpağa,
Yarpızlı bulağa, meyvəli bağa.
Ağ kəpənək kimi enər aşağa,
Qonar al yanağa, qar yağa-yağa.

Gəl tutaq şaxtanın buz əllərindən,
Söz açaq dünyanın gözəllərindən.
Zövq alaq Vaqifin qəzəllərindən,
Çəkilək qırağa, qar yağa-yağa.

Geyək ov paltarı, gəzək çölləri,
Eşidək nəğməli, şirin dilləri.
Vurğunun iziylə keçək elləri,
Yetişək Qazağa, qar yağa-yağa.

Yataqdan dan üzü oyanaq hərdən,
Ciyər öz payını əmsin səhərdən.
Aləmə baxmayaq pəncərələrdən,
Söykənək budağa, qar yağa-yağa.

Açaq pəncərəni, dəyişsin hava,
Ağrını-azarı qovsun uzağa.
Nə həkim axtaraq, nə dərman-dava,
Nə girək otağa, qar yağa-yağa.

Göylərə baş vuraq dan qaranlığı,
Səfərdə söndürək son qaranlığı.
Günəşdə qazanaq qəhrəmanlığı,
Enməyək aşağa, qar yağa-yağa.

Bizə həmdəm olan qoltuq ağacı,
İndi mənə gendən baxır qıyqacı.
Əlimdən yapışıb bir əl ağacı,
Sürüyür qabağa, qar yağa-yağa.

Canımın ağrılı, acılı vaxtı,
Bircə yol qələmim sözümə baxdı.
Ürəkdən nəğmələr, şerlər axdı,
Köçürdüm varağa, qar yağa-yağa.

12.01.1978

## HÜSEYN KÜRDOĞLUYA MƏKTUB

Sabiri möhnətə məhkum
«arizi-qəm» elədi,
Füzuli «qamu-qəmi»
«can evinə» cəm elədi.
İstədim eşq ola Qəm,
eşq də dönüb qəm oldu,
Məni bimarlığa –
naməhrəmə məhrəm elədi.
Ciyərindən qayaya
pərçim idi yunanlı,*
ürəyim daşda nədir,
balışda çəm-xəm elədi.
Dəymədi zərbə mənə
qəzadan, ya əğyardan,
Min illik mehribanım
mehri mənə kəm elədi.
Gəlmədi nə görüşə,
nə… vidaya (!) Kürdoğlu.
Dərdimə ayrılığı,
həsrəti məlhəm elədi.

*9 sentyabr, 1999. İnfarktımın altıncı günü… Reanimasiyada, çarpayıda, böyrü üstə, «Xəstəlik dəftəri»ndən xəlvətcə cırılmış nimdaş kağızda… Ürək dostuma yaralı ürəyimdən küsü və giley sızıltıları.*

---

* Prometey

*Atif Zeynallı*

## SON EŞQİM

*Şair dostum Hüseyn Kürdoğluya*

Məni Məcnun edib «Məcnun bulağı»,
Onu gecə-gündüz anıram, Hüseyn!
İçimdə bir oda dönüb fərağı,
O gündən alışıb yanıram, Hüseyn!

Həsrət ürəyimi gör necə didib,
Qanı lalə-lalə köksümdə bitib.
Dünyada hər nə var gözümdən itib,
Hərdən özümü də danıram, Hüseyn!

Hanı o uca dağ, o dibsiz dərə?
Hissimi duman tək qoynuna sərə.
Bu sözüm toxunmaz oğlum Xəzərə,
Laçını son eşqim sanıram, Hüseyn!

1979
«Əbədilik» – Bakı,
Gənclik, 1979, s. 21.

*Abbasəli Sarovlu*

## BƏYAZ BƏNÖVŞƏ

*(Hüseyn Kürdoğlunun*
*«Ay ağ bənövşə» şerinə cavab)*

Ömrü qısalıqda taysan laləyə,
Nisgilli aşiqlər çəkən naləyə.
Dözmədin, göz yaşın döndü jaləyə,
Səbrinin kasası dayaz bənövşə,
bəyaz bənövşə!

Gəldim görüşünə yarla qol-qola,
Utanıb-yaşınıb qısıldın kola.
Hayıfsan, qıymaram naşılar yola,
Görmə qaba əllər, dəryaz bənövşə,
bəyaz bənövşə!

Gözəllər saçına çətir eyləyər,
Ellər səni sevər, xətir eyləyər.
Çəmənlər qoynuna ətir eyləyər,
Camalın görməsin ayaz, bənövşə,
bəyaz bənövşə!

Hüsnün çox oxşayır şöləvər şama,
O inci şehlərin tökülsə cama.
Aşiqlər nuş edib gələr ilhama,
Dil açar köksündə bu saz bənövşə,
bəyaz bənövşə!

Sevənlər küsəndə yanağın solar,
Nərgizə oxşayan gözlərin dolar.
Aşiqin töhfəsi gül-çiçək olar,
Yarı sənlə eylər pişvaz, bənövşə,
bəyaz bənövşə!

Şəhər həsrət qoydu min-min nələrə,
Yoluma göz tikib hər dağ, hər dərə.
Dönəydim quşlara, pərvanələrə,
Edəydim dövrəndə pərvaz, bənövşə,
bəyaz bənövşə!

Küsəyən qız kimi, bükmə boynunu,
Təbiət doldurub dürrlə qoynunu.
Xallı kəpənəklə gördüm oynunu,
Yaraşır hüsnünə hər naz, bənövşə,
bəyaz bənövşə!

Əcəl gözlərimi bağlayan zaman,
Sadiq ürəkləri dağlayan zaman.
Bahar buludları ağlayan zaman,
Açıl qəbrim üstə hər yaz, bənövşə!
bəyaz bənövşə!

20.09.1971

## «AĞ BƏNÖVŞƏ» ŞAİRİNƏ

Ağ atın üstündə düşdün dağlara,
Qoşdun neçə nəğmə o gözəl yara.
Bənövşə, şairin düşübdür dara,
Quzeydən əsəndə bir küləklə gəl,
O xoş rayihənlə, ağ çiçəklə gəl!

Yenə dilindədir sözün, sorağın,
Vəsfinə söz qoşur qönçə dodağın.
Sən yandın döşündə İşıqlı dağın,
O yandı həsrətli bir ürəklə gəl,
Bir şən təbəssümlə, xoş diləklə gəl!

Sən dağlar gözəli, indi hardasan,
Bəlkə də çovğunda, buzda, qardasan?!
Yurddan ayrı düşmək deyildir asan,
Gəl ey dağlar qızı, ağ ləçəklə gəl,
Məhəbbətinlə gəl, duz-çörəklə gəl!

Səni sevdi Şair Əli titrədi,
Eşqinlə qəlbinin teli titrədi.
Ürəyi söz qoşdu, dili titrədi,
Sən də ey Kürdoğlu, o mələklə gəl,
Coşub şahə qalxan bir ürəklə gəl!

1972

## MƏNİM ARZUM

*Hüseyn Kürdoğluya*

Bildir şəkər oldun damağımızda,
İstərəm şan bala dönəsən bu il!
Olmasın canında azar-bezarın,
Səhhətə, vüsala dönəsən bu il!

Qağa, «Yurd yeri»ndə heç nə qoymadın,
Tərtərlə dillərdə dolanır adın.
Şer meydanında qılınc qurşadın,
Belə, Rüstəm-Zala dönəsən bu il!

Daha kamil olsun bu kamil peşə,
Qəlbə fərəh versin, ürəyə nəşə!
Şer dünyasında təzə günəşə,
Həm təzə hilala dönəsən bu il!

Keytidə, Məndildə görək barını,
Açasan, tökəsən bizə varını.
Daha gen gərəsən qanadlarını,
Dağlarda qartala dönəsən bu il!

Çiçəklər şerindən sətir istəyə,
Təzə rəng istəyə, ətir istəyə.
Bənövşə başına çətir istəyə,
Elə pürkamala dönəsən bu il!

1.01.1976
Kəlbəcər

# A DAĞLAR

*Hüseyn Kürdoğluya*

Uçum qaranquş tək başınız üstə,
Açılsın qanadım, qolum, a dağlar.
Çapım köhlənimi yamaclar boyu,
Qalxsın zirvələrə yolum, a dağlar.

Kövrək bulud qəmli-qəmli baxanda,
İldırımlar nərə çəkib çaxanda.
İlham bulaqlar tək şır-şır axanda,
Sızım qəlbinizə dolum, a dağlar.

Xınalı kəkliklər ötür səs-səsə,
Hədsiz fərəh gəlir eşqə, həvəsə.
Yaşayım sizinlə nəfəs-nəfəsə,
Zirvənizdə qartal olum, a dağlar.

Şerim rövnəq versin təzə güllərə,
Dəstə-dəstə çiçək olum əllərə.
Qoy qarışım bahar çağı sellərə,
Köksünüzdən axar salım, a dağlar.

Sinəniz üstündə bir daş olum mən,
Sizə bir yaxın dost, sirdaş olum mən.
Bir kiçik təpə tək kaş ucalım mən,
Düzülsün sağıma, soluma dağlar.

16.03.1974
Laçın, Əhmədli kəndi

## QALMIŞ

*Hüseyn Kürdoğlunun*
*«Yurd yeri» şerinə cavab*

Payız düşüb, yaylaqların,
Nə yurdunda eli qalmış.
Nə gülü yox oylaqların,
Nə də incə beli qalmış.

Gedib gəzdim Uzunyalı,
Yurd yerindən oldum halı.
Yamacında bir at nalı,
Köhnə, cındır çulu qalmış.

Xarımında lillənib su,
Daş yaylaqda göllənib su.
Uşaqların gil qutusu,
Topa-topa gili qalmış.

Mətə yeri, torpaq tığı,
Dirələrin dar cızığı.
Gön qayışın bir qırığı,
Sınıq-salxaq dili qalmış.

Neçə-neçə evcik yeri,
«Dəyirman»ın lülpər pəri.
Bozarıbdır cib dəftəri,
İçi yoxdur, çölü qalmış.

Qırıq çiling, sümük aşıq,
Qolsuz çömçə, sapsız qaşıq.
Gözəllərə yar-yaraşıq,
Kəmərin bir dili qalmış.

Şamil baxdı uzaqlara,
Həzin axan bulaqlara.
Yenə gələr bu dağlara,
El-obanın yolu qalmış.

1975

## HÜSEYN KÜRDOĞLUYA MƏKTUB

Aldım göndərdiyin təzə gülləri,
Elə bil Murova çıxıb qayıtdım.
Dəlidağı, Uzunyalı, Tərtəri,
Tutub, hərarətlə sıxıb qayıtdım.

Gəzib yal-yamacı, dolandım düzü,
Dağın zirvəsində gördüm ov izi.
Dərin dərədəki duman dənizi,
Doyunca seyr edib baxıb qayıtdım.

Xəyal Qırat, mənsə dağın Rövşəni,
Aşıb gədikləri, keçdim meşəni.
Novruzu, nərgizi, tər bənövşəni,
Bir qızın döşünə taxıb qayıtdım.

Özgə məna vermə bu təmənnaya,
Demə Şamil qışı döndərdi yaya.
Çox gəzib yenidən xəstəxanaya,
Suların qoynunda axıb qayıtdım.

27.02.1966.
Bakı

## QARDAŞ

Hüseyn Kürdoğlu! Bilmirəm nədən,
Hər kim xalqı sevdi, o yandı qardaş.
İndi nə toxumam, nə sünbül, nə dən,
Hər şey məndən uzaq – oyandı, qardaş.

Qənim mənə deyir: «yat ağ içində!»,
Biz niyə dərd-qəmin yataq içində?
Səni qoyub gəldim yataq içində,
Bu dərdlər sinəmi oyandı, qardaş.

Şamiləm, əzəldən elə bağlıyam,
Heç kəs aça bilməz – elə bağlıyam!
Elə bağçalıyam, elə bağlıyam,
İçində qəm yatıb, oyandı qardaş.

13.06.1979

## YOXDUR

*Hüseyn Kürdoğlunun yeddisi*

Yeddi gündür daha görünmür gözə,
Hüseyn Kürdoğlum dünyada yoxdur.
Ürəyim bacarmır bu dərdə dözə,
Gəlişindən soraq, səda da yoxdur.

Bu gediş çox böyük müsibət oldu,
Gör ona axırda nə qismət oldu?!..
Bu necə səfərdi, bu necə yoldu,
Fəryad qoparmaqdan fayda da yoxdur.

Danışdıq ölümdən on saat qabaq,
Bəxtdən gileyləndi, danladım ancaq.

Bilməzdim əcəl tez bəla olacaq,
Daha bir yetişən dada da, yoxdur.

Bir şer mülkümüz olubdu tarac,
Ona olacağıq həyatda möhtac.
Şamil Dəlidağam, dərdinə əlac,
Atılsam alova, oda da, yoxdur.

18.07.2003

## ŞİRİNDİL

*13 gündür ki, əziz dost-qardaşım, böyük şair Hüseyn Kürdoğlu dünyasını dəyişib. Dərdi dağlardan ağır olan qardaşı Şirindil Alışanlıya aşağıdakı şeri yazdım*

İnana bilmirəm köçüb dünyadan,
Hüseyn Kürdoğlu yoxdu, Şirindil?
Dözmürəm, gözlərim qan ağlayır, qan,
Dərd məni yandırıb yaxdı, Şirindil!

Ürəyimdə coşub selləndi kədər,
Məni qərq eylədi daşan qəm, qəhər.
Hüseynin haqqında yayılan xəbər,
Qəlbimə sancılan oxdu, Şirindil!

Daha necə deyim dərd əlacıyam,
Şirinliyim gedib, hədsiz acıyam.
Çoxunu itirdim – dostun acıyam,
Ürəyim qüssədən toxdu, Şirindil!

Kürdoğlum görünmür günlərdən bəri,
Sanıram içirəm ən tünd zəhəri.
Şamiləm qəlbimdə dərdin qədəri,
Min dağ çəkisindən çoxdu, Şirindil!

Bakı, 24.08.2003

## UNUDURAM ÖZÜMÜ
## SƏNİ YADA SALANDA

*Əziz dostum, qüdrətli şair, Hüseyn Kürdoğlunun dünyasını dəyişməsini bir an da yaddan çıxara bilmirəm. Ürəyimi ağ kağız üzərinə boşaldıb təskinlik tapmaq istəyirəm. Lakin…*

Ey Hüseyn Kürdoğlum, hardasan, yet haraya,
Unuduram özümü, səni yada salanda.
Çətin dərman tapılar qəlbimdəki yaraya,
Həsrətini çəkən vaxt, gözüm yaşla dolanda,
Unuduram özümü, səni yada salanda.

Dostluq etdik əlli il, döndük doğma qardaşa,
Cilalayıb sözləri, bənzədin bir nəqqaşa.
Çapdın sənət köhləni, minmədin bir alaşa,
Yoxluğunu düşünüb xəyallara dalanda,
Unuduram özümü, səni yada salanda.

Hər kitabın, hər şerin oldu hünər zəfərin,
Sözdən, sözü seçməkdə az olardı bənzərin.
Dağlar çəkib sinəmə son mənzilə səfərin,
Kürdoğlusuz könlümün rübabı bəm çalanda,
Unuduram özümü, səni yada salanda.

Əziz tutur adını müdrik qoca, cavan da,
Fəhlə, kəndli, ziyalı, naxırçı da, çoban da.
Hüseynsiz qalmışam yetim kimi cahanda,
Ağlayıram aşkarda, sızlayıram pünhanda,
Unuduram özümü, səni yada salanda.

Xalq vurğunu olmaqda sayılırdın nadir sən,
Hər kitabın yaşayır, sözsüz, ölməz şairsən.
Ürəklərdə yerin var, el-obaya canbirsən,
Can Kürdoğlum, qəlbimi dərd dövrəyə alanda,
Unuduram özümü, səni yada salanda.

Bakı, 03.09.2003

# UNUTMAQ OLARMI UNUDULMAZI?

*Qəlbimin qüruru, gözümün nuru, əzizim Hüseyn Kürdoğlunun dünyasının dəyiş-məsinə inanmaq istəməyib nəsə yaz-maqla özümü ələ almağa çalışıram.*

Kim deyir Kürdoğlu yaddaşdan itər,
Unutmaq olarmı unudulmazı?
Onun arzuları qəlblərdə bitər,
Solmaz güllər açar azı, ən azı,
Unutmaq olarmı unudulmazı?

Olan həqiqətdir, deyirəm bunu,
Xəyala dalanda görürəm onu.
Yalvarıram yetsin hicranın sonu,
Lazımsa paylayaq nəzir-niyazı,
Unutmaq olarmı unudulmazı?

«Qatlaşdım zəhmətə, ağır əməyə,
qələmim yetişdi mənə köməyə.
Sözə keşik çəkdim» – belə deməyə,
Hüseynin hər vaxt var imtiyazı,
Unutmaq olarmı unudulmazı?

Onsuz söz incisi zərgərsiz qalar,
Hikmətlər bağçası saralıb-solar,
Şamilin qəlbinə qəm seli dolar.
Çəkilər qəlbinə dağın çarpazı,
Unutmaq olarmı unudulmazı?

Qax rayonu,
Qaşqaçay kəndi
2003-cü il

## BİLMƏDİM

*Unudulmaz dost-qardaşım*
*Hüseyn Kürdoğlunun ilində*
*müqəddəs ruhuna müraciətim*

Hüseyn Kürdoğlu – əziz qardaşım,
Bağışla, ilinə gələ bilmədim.
Gözümdən üzümə axsa da yaşım,
Məzarına səcdə edə bilmədim.

Nə deyim, nə edim zalım azara,
Ürəyimə vurdu sağalmaz yara.
Önündə üzümü eylədi qara,
Heç təqsirim oldu nədə, bilmədim.

Sənsiz günüm olub zülmətli axşam.
Olmuşam günbəgün əriyən bir şam.
Adını bir an da unutmamışam,
Sanma təsibini güdə bilmədim.

Kim qalıb, qalacaq dünyada bəyəm?
Əvvəldən hər işə mən tələsiyəm.
Darıxma, yanına tez gələsiyəm,
Nə vaxt sönəcəkdi didə, bilmirəm.

Dağlar əbədinin bir guşəsidir,
Orda ruhlarımız görüşəsidir.
Doğma qardaş kimi öpüşəsidir,
Nə qalıb o vaxta, vədə, bilmirəm.

Qəti qənaətim belədir, belə:
Tarix qiymətini verməyib hələ.
Bir xalq şairisən obaya-elə,
Bundan başqa özgə müjdə bilmirəm.

Şamilin qəlbisən, can-ciyərisən.
Sənət aləminin saf gövhərisən.
Beş ulu şairin inan, birisən,
De, mən nə vaxt səni dədə bilmədim?

Bakı,
12/VII-2004

## HÜSEYN KÜRDOĞLUYA

Koroğlusan, Kürdoğlusan,
Ən qeyrətli türk oğlusan.
Qaşlarından asılıb
Zəngəzurun dərd yükü,
Saçlarında Dəlidağın qəm köçü.
Gözlərində Qarabağın ahları
Bulud olub axıdır göz yaşları.
Ürəyinin damarında Həkəri,
Sinirində Zamanın qan təkəri.
Nələr oldu Vətənə
Köçdü bir-bir bədənə
Dözülməz acıların,
ağrıların toplumu.
Hüseyn kişi,
Dəyərmi bu yaşama
Dəyərmi bu ölümə?!
Bir qar dəydi əlimə,
Mələklərin nəfəsi.
Görən isidəcəkmi
Hayqıran yetim səsi?!
Fələklərə yüksələn Qarabağ bağırtısı
Şəhidlik uğultusu.
Yığılar varlığına həsrətin yığıntısı
İlhama gəl ulu can,
Allah bizimlə hər an.
Şirin-şirin açılan yaraların yanğısı
Qırış-qırış düyülən alnıma od vuracaq.
Qarış-qarış alınan Uca Çölün Tanrısı
Turan heykəllərinin yanında od quracaq.
Onda rahat yatacam ruhumun beşiyində,
Məhəbbətlə duracam Vətənin keşiyində.
Duyacaq türkü sevən hər kəs məni o gündən,

Toylar payı verəcəm Ana Yurda sevgimdən.
Qeyrəti, kişiliyi ucaldıb ənginliyə,
Allaha qovuşacam can Vətən deyə-deyə.
«Edəməm tərki Füzuli, səri-kuyin yarın,
Vətənimdir, Vətənimdir, Vətənimdir, Vətənim».

12.VII.2004

## DÜNYADAN KÜSÜBDÜR QUBA GÖZƏLİ

*(Unudulmaz şairimiz Hüseyn Kürdoğlu*
*və onun əbədi məhəbbəti Fəridə xanıma)*

Gözaltı eləyib çox qızlar səni,
Məhəbbət oduna gizli yanıblar.
Quba gözəlini sevib seçəli,
Kürdün gözəlləri incik qalıblar.

Bir ömür yaşadı məhəbbətiniz
Saralıb-solmayan çiçəklər kimi.
Birgə döyünərdi ürəkləriniz
Təzə eşqə düşən ürəklər kimi.

Sən getdin, o qaldı sinəsi dağlı,
Gözündən aramsız leysanlar yağır...
Saçının düzümü qaralı-ağlı,
Baxışı kədərli, yerişi ağır...

Yoxluğun içində axtarır səni,
Bir vaxt varlığınla ucalan xanım,
Ömrünə xəyal tək qaytarır səni,
Xəyallar içində qocalan xanım.

Ağzında söz donur danışa bilmir,
Söhbəti məzəli, sözü məzəli.
Heç cür sənsizliyə alışa bilmir,
Dünyadan küsübdür Quba gözəli.

## ŞAİR HÜSEYN KÜRDOĞLUYA

Ey üzü gün munisim, kaş yar ola Quran sənə,
Göstərər nurun dəmadəm xurşidi-dövran sənə.

Sərraf oldum şerivin dürdanə nisbət qədrinə,
Sünbülündən bəxş edib min danə bu xırman sənə.

Surətindən hasil oldu, sən nəciblər şahisən,
Batinində töhfə etmiş hikməti-ürfan sənə.

Sən həqiqət kəlməsindən bəhrələndin daima,
Cansa həqqin zərrəsi qurbandı bişək can sənə.

Səndə Heydər rəhmi vardır, qəlbi kövrəksən yaman,
Qəm verir məzlum gözündən damcılanmış qan sənə.

Sən ki, peyğəmbər kəlamın daim üstün tutmusan,
Zülfiqarilə olar qalxan Şəhi-mərdan sənə.

Sən Hüseyn Kürdoğlu tək girdin hünər meydanına,
Kərbəla eşqin var isə həq verər imkan sənə.

Möhtərəmsən, əhli-halsan, var yeri Soltan yaza,
Hər gözəl xasiyyətinçün tazə bir dastan sənə.

«Allah eşqi, insan eşqi, söz eşqi» –
Bakı, «Ozan», 2003, s. 294.

*Seyid Əyyub Ağa*

## GÖNDƏRDİM

*Dostum, şair-alim*
*Hüseyn Kürdoğluya*
*ithaf edirəm.*

Sən bir nur çeşməsi işıq saçırsan,
Şerdən, sənətdən söhbət açırsan.
Bir qonaq gəl bizə əgər bacarsan,
Dəvətə, təklifə adam göndərdim,
Dili şəkər, noğul, badam göndərdim.

Oğluma əzizsən, bizə mötəbər,
Qulluğunda dayanarıq sərbəsər.
Vurğunam doğrusu sizə, müxtəsər,
Xatirəmdən sizə varaq göndərdim,
Qəlbimdən elə bil soraq göndərdim.

Töhfənə müqabil varım olmadı,
Nə də ki, yaylaqda arım olmadı,
Aranda nübardı, qarım olmadı,
Sənə Qarabağdan salam göndərdim,
Muğamdan, mahnıdan ilham göndərdim.

«Nəsihət və vəsiyyət» –
Bakı, «Sabah», 2001, s. 71.

*Mir Cəfər*

## LAÇINDA

Yamacları al yaşıla bürünər,
«Laçın dağ»da qar çalma tək görünər.
Duman gəlib xəlvət-xəlvət sürünər,
Yorğun-yorğun düzə çıxar Laçında.

«Turşsu»yunda qonaq qaldım ay ilə,
Keçdi günüm bayram ilə, toy ilə.
Qayaları saymaq olmaz say ilə,
Laçın gözlü qayalar var Laçında.

Dərələrdə bulaq kimi duruldum,
Neçə döngə, neçə küçə buruldum.
Dörd dolandım, bir demədim yoruldum,
Dərə keçdim, gədik aşdım Laçında.

Hoçaz qaya papaq saldı başımdan,
Qara Göldə kəklik uçdu qarşımdan,
Bu yerləri görməmişdim yaşımdan,
O dağlara bir də baxdım Laçında.

Gördüm burda at çapmağın fəndini,
Tapdım burda ürəklərin səmtini.
Kürdoğlunun, Şirindilin kəndini,
Dağ döşündə şəhər bildim Laçında.

1985
«Göylərə çəkilmiş ümid» –
Bakı, «Sabah», 1993, s. 13.

## YAZ GƏLİB

*Hüseyn Kürdoğluya*

Torpağın oyanan vaxtıdı yenə,
Dağların gözündən yuxusu qaçıb.
Ağaclar sığalı verib telinə,
Yaşıllıq çəməndə süfrədi, açıb…

Çeşmənin gurluğu çoxalıb bir az,
Daşlardan buz kimi axıb gəlir su.
Bir evli-eşikli olubdu bu yaz,
İllərin yan-yana binə qonşusu.

Bir yandan buzlar da əriyib gedir,
Havalı günlərin çal-çağırında.
Qış daha yoldadı, yır-yığış edir,
Quşlar dəstələnib çay qırağında.

Gözəllik önündə dincəlir gözüm…
Hər yanda torpağın min bir rəngi var.
Budaqdan sallanır su düzüm-düzüm,
Onun da səsinin öz ahəngi var.

Qartalı vurdular yoxsa indicə?
Hər daşdan bir səda… haray yüksəlir.
Payız da dönəndi, yaz da beləcə,
Bircə yaş…
Baxıram, hayıfım gəlir.

Baxıram – düzlərdə od qalanıbdı,
Bir az da boy verib laləli güllər.
Təbiət şer tək misralanıbdı,
Burda gün keçirir bəxtəvər ellər!

## KEÇİR

… Bunları o zaman demişdim, ustad,
İndi ürəyimdən gör nələr keçir.
Dəlidağ, Nərdivan, Mıxtökən, Novlu,
İmanlar, Kürdhacı, Hətəmlər keçir.

Dərə bilmədiyim min gül, min çiçək,
Sevə bilmədiyim bir qız, bir mələk.
Yeyə bilmədiyim yarpız, çiyələk,
İçə bilmədiyim çeşmələr keçir.

Dağların baharı-yazı varıydı!..
Ellərin söhbəti-sözü varıydı!..
Məclisin aşığı-sazı varıydı!..
Gəlir xəyalımdan o günlər keçir!..

Barını verdimi Salmanın bağı?
Gülünü açdımı Keşikçi dağı?
Yaddan çıxarmı heç Laçın torpağı –
Könlümdən hər axşam, hər səhər keçir.

O yanda cəlallı el-elat qalıb,
Dastanlı-nağıllı bir həyat qalıb.
Qapıda yəhərli kəhər at qalıb,
Kövrək ürəyimdən bir qəhər keçir…

Yağının bu yerlə nə idi işi,
Olsa diş qıcayan, düşərdi dişi!
Hardasan Sultan bəy, Xaspolad kişi,
Torpağın nər oğlu nərdi, nər keçir!

Kəsilib dağlardan harayım-hayım,
Kədərdi, qüssədi hər günüm, ayım.
Orda günlər xoşdu… Hansını sayım,
Burdasa ömür-gün birtəhər keçir.

Ayrıldığım neçə aydı, neçə il,
Daha Kamandar da Kamandar deyil.
Laçın da, Şuşa da, Kəlbəcər də bil,
Qəlbimdən hər zaman bərabər keçir.

1996

«Möhlət ver, ürəyim…»
– Bakı, «Şur», 2001, s. 33–34.

## QARDAŞIMSAN

*Hüseyn Kürdoğluya*

Hüseyn, sənsə də bir axtar məni,
Ocaq qardaşımsan, od qardaşımsan.
Ağlasan ağlaram, gülərəm gülsən,
Sevinc qardaşımsan, dərd qardaşımsan.

Polad təsir etməz iradəmizə,
Koroğlu nəslini sarsıtmaz nizə.
Anamız Həcərdir süd verib bizə,
Atamız Nəbidir, yurd qardaşımsan.

Hiss olunur qırışlarda, alında,
Hörmət üçün dövlətində-malında.
Vəfalı qardaşın-dostun yolunda,
Candan da keçərsən, mərd qardaşımsan.

Rütbən uca olsun, özün çox sadə,
Əhli-hal adama canımdır əda.
Elə bilirəm ki, bütün dünyada,
Yoxdur bərabərin, fərd qardaşımsan.

Qardaş mənim baharımdı, yazımdı,
Əsil insan bəbəyimdi, gözümdü.
Dəmirçiyəm, sidqi ürək sözümdü,
Tək bilmə özünü, dörd qardaşımsan.

## QARDAŞIM HÜSEYNƏ

Qardaşım Hüseyn, aldım şerini,
Titrədim lalənin ləçəyi kimi.
Könlüm qəribsədi köçən durnanın,
Yol üstünə düşən lələyi kimi.

Yüz il qayım dursun ömür dirəyin,
Qana bulanmasın halal çörəyin.
Çimnazın dərdinə yanıb ürəyin,
Dədəmiz Şəmşirin ürəyi kimi.

Hələ bağlısa da dağların yolu,
İntiqam tüfəngi doludur, dolu!
Koroğlu nəslinin güclüdür qolu,
Pələngin, aslanın biləyi kimi.

Biz ki çox düşmüşük borana-qara,
Ümid bağlamışıq yenə bahara.
Səsin bu dar gündə gəlsin dağlara,
Yayılsın ilk bahar küləyi kimi.

Həddini aşmağa qoymarıq yadı,
Qayadan yoğrulub dağlar övladı.
Şəmşiroğlu deyər: intiqam odu,
Çaxar Dəlidağın şimşəyi kimi.

Kəlbəcər, Ağdaban kəndi, 1991
«Qala» qəzeti, 1991, 2 aprel.

## HÜSEYN KÜRDOĞLUYA

Yaşamısan sazla, sözlə qoşa sən,
El şəninə daim şer qoşasan,
Əzəmətdə Dəli dağla qoşasan,
Xəfif külək qamətini əyməsin.

Şair, təbin dil-dil ötən söz olub,
Tərlan könlün zirvələrdən söz alıb,
Gül yanaqlar həsrətindən sozalıb.
İlham pərin qüssədən don geyməsin.

İşıqlını həsrət qoyma qartala,
Ərimiz dağ saxlar sənə qar tala,
Baldırqanlar az qalıbdır qartala,
Unutdunmu bənövşənin düyməsin.

İşıqlı dağ olub sənə bir ana,
Deyir oğlum gəlib məni bir ana.
Leysan kimi təbin bənddir bir ana,
Hər çisəngi sinəsinə döyməsin.

Eyvaz deyər gözəlliyi göz elə,
Göz yaranıb baxmaq üçün gözələ.
Al kamını, qoy baxmasın göz ələ,
Nadan sözü xatirinə dəyməsin.

14.07.1976

## SİNƏMƏ

*Xalqımızın sevimli, azman*
*şairi Hüseyn Kürdoğlunun*
*xatirəsinə*

Ölüm xəbərini eşidəndə mən,
İkinci qaçqınlıq köçdü sinəmə.
Dolmuş bulud kimi göz yaşlarını,
Dağlar zirvəsindən tökdü sinəmə.

Laçın qara geyib, qara bağladı,
Dəli dağ matəmə matəm saxladı.
Göz bulağı göz-göz olub ağladı,
Qartal caynağını çəkdi sinəmə.

Əhmədlidə ana-bala ağladı,
Səngərli qayalar - qala ağladı.
Nərgiz ağı dedi, lala ağladı,
Bənövşə boynunu bükdü sinəmə.

Bədirxan, inanma bir də oyana,
«Aynalı tüfəngi çəkə dabana».
İlahi, qalmışam bax yana-yana,
Yer döşəkdi, göy köynəkdi sinəmə.

2004

***T. Nəcib***

## MƏNİM

*Hörmətli şairimiz Hüseyn Kürdoğlu! «Kiçik töhfə» adlandırdığınız ikinci şerlər kitabınızı aldım. «Çox sözün kərpictək qiyməti olmaz». Bu doğrudan da belədir. Şerlərinizdəki şirinlik müasirlərimizin çoxunda yoxdur. Bunu mən elə-belə «xoşuna gəlmək üçün» demirəm. Əsl şair gərək sözlə şəkil çəkməyi, daha doğrusu, lövhə yaratmağı bacarsın. Bunu da siz məharətlə bacarırınız.*

*Bəli, kitabınızdan aldığım təəssüratı şerlə ifadə etməyə çalışmışam.*

«Kiçik töhfə»nizi alıb oxudum,
Gözümdə canlandı Mil, Muğan mənim.
Dalmışdım xəyala, özümdə yoxdum,
Xoşuma gəlmişdi «ərməğan» mənim.

At çapıb gəlmişdim «yaylaq toyu»na,
Baxırdım gəlinin şümşad boyuna.
Özüm də bilmədən düşdüm oyuna,
Adımı qoydular «oynağan» mənim.

«Yazın yağışından» islandım yaman,
Gün açdı, üstümdən çəkildi duman.
Qurudub əynimi mən oldum haman,
Alışdı könlümdə çıraqban mənim.

Eşitdim Vaqifin məğrur səsini,
Duydum «Süsən qızın» süd nəfəsini.
Dinlədim Müşfiqin söz xəznəsini,
Göz önümdə durdu Natəvan mənim.

Yadımdan çıxmayır «ocaq daşları»,
Görürəm üzüşən «yaşılbaşları».
«Yalquzaq» gizlənən sıx qamışları,
Yarır kəhər üstə Xançoban mənim.

Durnalar gözümün önündə uçur,
«Ağ göl» ana kimi onları qucur.
Seyrinə dalmışam, baxıram bu cür,
Keçir xəyalımdan nə zaman mənim.

Aşır sərhədləri səyyar xəyalın,
Artıb dərinləşir əqlin, kamalın.
Sevindirir bizi sənin bu halın,
Hasil oldu ilqar və iman mənim.

12.V.1968
Laçın

## GƏRƏK

*Hüseyn Kürdoğluya*

Talantlar çıxmayır meydana asan,
Güclü rəqibləri yıxasan gərək.
Qəlbən paxıl olur nədənsə insan,
Həyata dərindən baxasan gərək.

Çox doğru demisən: «namərd dosta» sən,
«Ağır yumruğunu» möhkəm düyəsən.
Düşmənlərin xəbis qəddin əyəsən,
Sonadək yandırıb-yaxasan gərək.

Söz qılıncın həmişə çək sova sən,
Rəqiblərlə eylə cəngi, dava sən.
Söz mülkündən çıxart qova-qova sən,
Döyüşlərdən qalib çıxasan gərək.

Nəcibdən qoy qalsın sizə nəsihət,
Ədəbi döyüşdə verməyin fürsət.
Qalib gələcəkdir axır həqiqət,
Həqiqət əlini sıxasan gərək.

12.V.1968.
Laçın

## SUAL

*Hüseyn Kürdoğluya*

Körpə bülbül, niyə susdun,
Şaqraq səsin nədən gəlməz?
Niyə eynin açılmayır,
Gülər üzün nədən gülməz?

Qanad çalıb İşıqlıya,
Qartal kimi qonmadınmı?
Qız ovcundan buz su içib,
Bulaq üstə yanmadınmı?

Qatar daşdan boylanıban,
Kəndimizə baxmadınmı?
Güneylərdə gəvən yığıb
Böyük tonqal yaxmadınmı?

Gəzmədinmi at belində,
Ürəkaçan bu dağları?
Görmədinmi tuti dilli,
Xoş nəğməli bulaqları?

Körpə bülbül, niyə susdun,
Şaqraq səsin nədən gəlməz?
Niyə eynin açılmayır,
Gülər üzün nədən gülməz?

5.IX.1972

## GÖRÜRƏM İNDİ

Kürdoğlu, meylimə düşmüsən yaman,
Xəyalən çöhrəni görürəm indi.
Yaddan çıxdığımı etmirəm güman,
Əksini çiçəkdən hörürəm indi.

Gəzdiyin meşədən, aşdığın dağdan,
Suyundan içdiyin buzlu bulaqdan,
Seyrinə daldığın yaxın, uzaqdan,
Sevimli adını soruram indi.

Artıq adlayıbdır cavanlıq çağım,
Hərdən xatirələr olur qonağım,
Qalıb bir tərəfdə «telim, darağım»
Ayrıca bir «aləm» qururam indi.

Gözəllər gözəli qalmır bir üzdə,
Az-çox təravəti duyulur gözdə,
İfadə eləmək çətindir sözdə,
Mizrabı «sarıya» vururam indi.

Nəcib aşiqidir gülən gözlərin,
Mənalı sözlərin, şirin sözlərin.
Yaşıl yamacların, yaşıl düzlərin,
Tutub əllərini sıxıram indi.

Qarşımıza gələn şən gülən yazın,
Bahar nəsimindən tellənən sazın,
Deməmiş dərdini bir bilən qızın
Füsünkar önündə dururam indi.

Əslinə baxsanız çox quru yazdır,
İsti külək əsir, yaşıllıq azdır.
Çaylar dum-durudur, üzdür, dayazdır,
Atımı hey çapıb yoruram indi.

29 mart 1962-ci il.Laçın

## SÖHBƏTƏ GƏLDİ

*Hüseyn Kürdoğluya*

Nəhayət yazdınız ətirli məktub,
Oxuduq qəlbimiz riqqətə gəldi.
İncədən də incə sətirli məktub,
Döndü başdan-başa hörmətə gəldi.

Yaxşı yadındadı dağların hüsnü,
İldırımın səsi, qayanın ünü.
Gözümüz önündə yazın bir günü
Elə bil çevrilib cənnətə, gəldi.

Bizim bu dağların hüsnü, camalı,
Uçan «boz bulud»un o şıltaq halı,
Arının yığdığı əvəzsiz balı-
İlhamlı şairə minnətə gəldi.

Yenə də gözəldir «o çeyilli yurd»,
Görən kəsə deyir: dərd-qəmi unut.
Vətən torpağını candan əziz tut,
O sənin əlinlə nemətə gəldi.

Ürəkdə yaşayır kədər də, qəm də,
Bir tarda çalınır çox zil də, bəm də.
Nəcib Kürdoğlunu yad edən dəmdə-
O könül saz ilə söhbətə gəldi.

22.04.1969
Laçın

## GÖRÜŞƏ BİR DƏ

*Hüseyn Kürdoğluya*

Sənsizləyib yenə bizim bu dağlar,
İstəyir gələsən görüşə bir də.
Qar tutub şaxtadan donub budaqlar,
Baharda gələcək cünbüşə bir də.

Qaragöl üzünə çəkib buz rübənd,
Dağların qoynunda görünməz olub.
Qulaq sırğalıdır, qollar bazu-bənd
Gözəllik bu yerdən tükənməz olub.

Şır-şır bulaqların dili bağlanıb,
Kəsib şərqisini oxuya bilmir.
Gizlənib qar altda, yolu bağlanıb,
Güllər ətir saçıb qoxuya bilmir.

Sallanıb qayadan buz nizələri,
Su damır ucundan bir şərbət kimi.
Bulaqdan doldurur qız kuzələri,
Keçir qabağımdan bir afət kimi.

Ah, necə gözəldir bu dağlar qızı,
Yerişi, duruşu dünyaya dəyər.
Sanki yeni doğub o dan ulduzu,
Biganə dayanmaq olarmı məgər?

Sənsizləyib yenə bizim bu dağlar,
İstəyir gələsən görüşə bir də.
Qar tutub, şaxtadan donub budaqlar,
Baharda gələcək cünbüşə bir də.

5.01.1974
Laçın

## ZİYARƏT OLAR

*Hüseyn Kürdoğluya*

Eşitdim, səssizcə çıxıb getmisən,
Deməmisən, bəs Nəcibim hardadı?
Çox şadam ki, Baş bulaqdan içmisən,
Şəfa verən qaynaq bu diyardadı.

Yaxşı olub, doğma yurda gəlmisən,
Bənövşənin ətri olsun məlhəmin.
Dostlar görüb, danışmısan, gülmüsən,
Qoy olmasın bu dünyada bir qəmin.

Ab-havası səni vursun Heriyin,
Aranın ağrısı qalmasın canda.
Göy çəmən üstündə durun, yeriyin,
Tərpənin, durğunluq qalmasın qanda.

Təbiəti qarış-qarış dolan gəz,
Ürəyinə ağrı-acı dolmasın.
O qaynar təbinə tapılmaz əvəz,
Söz mülkündə bircə çiçək solmasın.

Könül məni çəkir sənlə görüşə,
Görüşümüz böyük ziyarət olar.
Baxaq dağ başından doğan günəşə,
Baharda bu görüş qiyamət olar.

1977. Laçın

# MƏN

*(Əzizim Hüseyn Kürdoğluya)*

Yarı yolda, yarı çöldə qalmışam,
Şahi-mərdan mübtəlası olmuşam.
İşim çatağ, günüm yatağ solmuşam,
İllər keçir, ahıl yaşa dolmuşam.

Ay bəxtəvər, bir gün məni yoxla – gəl,
Qoca məni əlim üstə yoxla – gəl.
Deməsinlər Məs'uddur o kəsi yox,
Özü nəhəng bir kötükdür, səsi yox.

Səsimə səs verən yoxsa, lalam mən,
Canım sulu can verməröm, kalam mən.
Dağ deyiləm zirvələrdə, yalam mən,
Dost yolunda düşmən – çəpər, salam mən.

11.XII.1979.
Daşkənd

***Maqsud Kəlbalıyev***

## QARDAŞIM

*Həmyerlim və uşaqlıq illərimin*
*sirdaşı Hüseyn Kürdoğluya*

Böyüdün sən yurdunu
Vüqarla gəzə-gəzə.
Hikmətli sözlərinlə
Dağı, aranı bəzə.

Şən, təravətli şe’rin,
Dağlarda səda versin.
Hər bir qoşman, rübain,
Ellərə əda versin.

Tərənnüm et Vətəni,
Səsin ellərə düşsün.
Gözəl tərcümələrin
Dildən dillərə düşsün.

Əməlin çiçək açsın,
Arzun həqiqət olsun.
Sözdən çələnglər bəzə,
Nə saralsın, nə solsun.

Silinməyib izlərin,
Yenə bulaq üstədir.
Şerinin hər misrası,
Dildə, dodaq üstədir.

Dağlarımız ucadır,
Ucal sən də, qardaşım!
Ulu dağlarımız tək,
Yaşa, ucal qardaşım!

27.III.1970.
Laçın, Əhmədli kəndi

## HÜSEYN KÜRDOĞLUYA

Könlümün viran olan gör necə kaşanəsi var,
İtirib cah-cəlalın yamanca viranəsi var.

Pozulub əqli-rəvanım, olmuşam çaşqınrəvan,
Şübhə yox viranənin mən kimi divanəsi var.

Müztərib halim görən aşiq duyar əhvalımı,
Nə bilər şəm, onun yanmağa pərvanəsi var.

Aləmi-eşqdə yox, mən kimi giryan kimsə,
Gör ki, dillərdə gəzən Leylinin əfsanəsi var.

Sən qəzəl dünyasının, Kamil, kiçik sultanısan,
Xəstə Kürdoğlu kimi şairi-şahanəsi var.

30.08.1995

*Rəfayıl Mayıl*

## HƏMİŞƏ

*Qüdrətli qələm sahibi, adlı-*
*sanlı şair Hüseyn Kürdoğluya*

Hüseyn Kürdoğlu, ey böyük şair,
Çağla, çaylar kimi çağla həmişə.
Bir dastan da yazsam mən sənə dair,
Az olar, qələmi zağla həmişə.

Ey işğal Laçının igidi, mərdi,
Bilirəm çəkirsən Qarabağ dərdi.
Sözün əsgər kimi hünər göstərdi,
Düşmənin qəlbini dağla həmişə.

Amandır, amandır xəstəyəm demə,
Ağrın mənə gəlsin, sağal, qəm yemə.
Əzəldən dönmüsən xalqla həmdəmə,
Laçının dərdinə ağla həmişə.

Sözünü döndərib oxa, tüfəngə,
Girmisən meydanda düşmənlə cəngə.
Şamil Dəlidağla – dostunla birgə,
Qənimləri topa bağla həmişə.

Sən ey Rəfayılın fəxri, qüruru,
Dilinin əzbəri, gözünün nuru.
Hikmət çeşməsinin olmusan guru,
Yanaşısan uca dağla həmişə.

«Vətən haraylayıb çağırır bizi» –
Bakı, Nərgiz, 2002, s. 42.

***Sabir Eyvazov***

*Çox hörmətli Hüseyn Kürdoğlunun «Yaralı torpağım, yaralı sevgim» kitabını oxuyurkən…*

*Laçın dağları dustaq*
*Dərdi sinəmdə dağ-dağ…*

*H.Kürdoğlu*

I

Laçın dağları dustaq,
Eh! Özü də nə sayaq!
Çıxıb dərd məhvərindən
Dayanıbdır baş-ayaq.
Satqınların əliylə
Necə də düşdük işə –
Bənövşə, ay bənövşə!

Harda qalıb yiyəsi,
Ya düzə, ya əyəsi.
Axtarırsan tapılmır
Nə sapı, nə tiyəsi
Yüz il od qoy altına
Bu çiylik çətin bişə –
Bənövşə, ay bənövşə!

Çözəldikcə sözümüz,
Qan ağlayır düzümüz.
Yaddan kömək umuruq
Bəs hardayıq özümüz?!
Üstünə yağdıqca qar
Axı paslanır tişə –
Bənövşə, ay bənövşə!

Bükülən boynuna bax,
Düşdüyü oyuna bax.
Didərgin salanların
Kökünə, soyuna bax.
Gör kimlərin əlindən
Ürəyimi dərd deşə?! –
Bənövşə, ay bənövşə!

Üzüb məni həsrətin,
Vüsal bu qədər çətin?!
Vallah qabağa düşsə
Baş biləni millətin
Səni öz əlimizlə
Dərib taxarıq döşə –
Bənövşə, ay bənövşə!

Hey səni soraqlaram,
İçin-için ağlaram.
Bir quru ləçək üçün
Min kitab varaqlaram,
Tapmasam, naləyə bax
Ünüm yetişər ərşə –
Bənövşə, ay bənövşə!

Haram yıxıb halalı
Qurub cahi-cəlalı.
Dərdindən xəstə düşmüş
Mənəm başı bəlalı.
Qıyma Laçın oğlunu
Dərd öldürə, dərd eşə –
Bənövşə, ay bənövşə!

Tamarzıyam ətrinə,
Gir şerimin sətrinə.
Ölüm ondan yaxşıdır
Yad dəydikcə xətrinə.

Deyirəm ləçəyindən
Kaş qəbrimə pay düşə –
Bənövşə, ay bənövşə!

Qobustan qəsəbəsi
09-11 oktyabr, 2002-ci il

II

*Gör nə qədər diləklərin pöhrədir,*
*Qara günlər pöhrə kəsən dəhrədir.*
*Qonşu sənə yer belləmək öyrədir,*
*Bel bağladın sən də belə, Kürdoğlu!*

*H.Kürdoğlu*

Bir zaman çapsan da yorğa köhləni
Axır ilişmisən belə, Kürdoğlu!
Anma çox həsrətlə olub keçəni
Yapış beldən indən belə, Kürdoğlu!

Bel tutan əllərə etmə şəbədə,
Beldi bu torpağı dirildən, dədə!
Kiminki nə vaxtsa gətirməsə də
Suçunu tökməsin belə, Kürdoğlu!

Səni bu qəlibdə görən şad olar,
Beli şair tutsa gör nə dad olar!
Bel tutmayan əllər xəstəhal olar
Nə yaxşı cummusan belə, Kürdoğlu!

Yetmişində, səksənində, yüzündə,
Alma da ək, heyva da ək, üzüm də.
Bel götürsən Qobustanın düzündə,
Bar yeyərsən ildən-ilə, Kürdoğlu!

Az de Koroğludan, Nəbidən, qağa!
«Dövran söz əhlini salmış ayağa»
«Belsiz»lər başlayıb at oynatmağa
«Belli»lər həsrətdir belə, Kürdoğlu!

Arzum budur beli əyən bel olsun,
Birin dönüb oba olsun, el olsun.
Qaçqın sözü ötüb keçən yel olsun,
Bərk yapışsın şair belə, Kürdoğlu!
Dönək Laçın kimi elə, Kürdoğlu!

Qobustan qəsəbəsi
20-21 iyun 2002-ciil

*Möhbalı Quliyev*

## A KÜRDOĞLU

Vədəsində yada saldın,
Bu mahalı, a Kürdoğlu.
Öz əziz, doğma elindən,
Oldun halı, a Kürdoğlu.

Sahibisən həqiqətin,
Namusun, arın, qeyrətin.
Tükənməz şerin, sənətin,
Dağ qartalı, a Kürdoğlu.

Sənsiz düşərik təşvişə,
Hər il gəl bizlə görüşə.
Yollarına el həmişə,
Sərsin xalı, a Kürdoğlu.

Gözəldir Həkəri çayı,
Meşədir o tay bu tayı.
Gəl bir içək moruq çayı,
Beçə balı, a Kürdoğlu.

Səni gördü lap dolaşdı,
Sevinci həddini aşdı.
Bir neçə gün cavanlaşdı,
Kürd Möhbalı, a Kürdoğlu.

23 avqust, 1988
Laçın, Şeylanlı kəndi

## ƏHMƏDLİDƏ

*Hüseyn Kürdoğluya*

Cavanı da, yaşlısı da şairdir,
Deyim, fitri ilham var Əhmədlidə.
Hamının qırmızı var yanağında,
Gənclərimiz sevə yar Əhmədlidə.

Xəstələr dərmanı şəfalı sular,
Hər kəs içsə könlü eyləməz qubar.
Təzə çıxan balı qonağa nübar,
Geniş süfrə deyil dar Əhmədlidə.

Sinəmdə tab edə səbrlə dözüm,
Kürdoğlu Hüseynə söylərəm sözüm.
Dinləyə dərindən, nurlana gözüm,
Tökülsə üstümə tar Əhmədlidə.

Səyyaham, gəzirəm aranı, dağı,
Sevirəm vətəni, ana torpağı.
Saz sinəmdə, çalam hər sübhün çağı,
Ovçuyam, kar etməz qar Əhmədlidə.

12.10.1966

## ƏZİZİM

*Hüseyn Kürdoğluya*

Xəstə düşdün, qəm-qüssəni çəkənəm,
Özgə təhər yoxdu çaram, əzizim!
Köməyinə bu dağları çağırdın,
Eşitmişəm, sanma karam, əzizim!

Xəyalların möhnətini daşıdı,
Məktubunla qəlbim yaman üşüdü.
Bilmirəm ki, bu nə müşkül iş idi,
Ağrılara yoxmu aram, əzizim?!

Şeş tulladın taleyinin nərdinə,
Şöhrət oldun mahalına, yurduna.
Dərd çəksəm də, dərman nədi dərdinə?!
Hüzurunda günahkaram, əzizim!

Pənah deyir, neçə mətləb diləyəm,
Əhvalını nəşələrə bələyəm.
O gün olsun, ellərə car eləyəm!
Şad gününə məclis quram, əzizim!

8.03.1976,
Qoşasu kəndi

***İlyas Allahverdiyev***
***(Qəmgin)***

## BİR DƏ, BİR DƏ

*Böyük şair Hüseyn Kürdoğluya*
*və qardaşı Şirindilə ithaf edirəm.*

Aşiq, Röyam? Səs gəlir hey təkrar bir də,
Ərz edirsən sahil boyu bir gəl Güləbirdə.[1]

Ruhum sənlə gəzir, ey yar yəqin bilirsən,
Görrəm bülbüllər necə dolanır gülə bir də.

Yaxşı bax, yaxşı! Bahar çağı açıb güllər,
Gəl-gəl gülüm, güllər içində seyr elə bir də.

Bilməm, nə üçün coşub-çağlayıb Həkəri,
Nə ola, seyr edə, bülbül tək dilə gələ bir də.

Boyanır günəş dağ qaşında, oyan ey yar,
Aşiq ilə gəlsin, Muğam üstə zilə bir də.

Əsdi xəzan yeli, tökülür yenə xəzəl,
Gəlməsin zavala gül, bağda belə bir də.

Zaman şahiddi o qəmli illərə Aşiq,
Gəlməsin o qara yellər bu elə bir də.

Yağı cəhd edib, bir də rəm atsa bu ellərə,
Qərq olar düşmən, o coşğun sellərdə bir də.

---

[1] Güləbird – Sarı Aşığın vətəni

Əsən külək əsib, gəl aşiq qəm etmə bir də,
Elə et ki, Həkəri düçar olmasın yelə bir də.

Ahu-nalə ərşə dirənib, ay Sarı Baba[1],
Al məşəli, yandır onu, döndər külə bir də.

Zəfər gələr İlyas şad-xürrəm Güləbirddə,
Ziyarət edərik sizi ellə, birdə-birdə…

«Laçın qaşında, qəzəllər və…» –
Bakı, «Təfəkkür», 2005, s. 86.

---

[1] Sarı baba – Kirs silsiləsində dağ

# ŞAİRLƏR

*Hüseyn Kürdoğluya*

İldırımlar gurlar məğrur səsində,
Mavi dəniz kimi coşar şairlər.
Tufan ürəyində, günəş köksündə
Beləcə ömr edər, yaşar şairlər.

O qartal vüsətli, zirvə xəyallı,
Vətənin vurğunu, büllur amallı.
Yolları qayalı, şəfəqlə dolu,
Zirvədən-zirvəyə aşar şairlər.

Çiçəklərə həmdəm, nərlərə həmdəm,
Şeri pay ummayır yetən gözəldən.
Sevgisi bir aləm, şeri bir aləm,
Məhəbbətə dastan qoşar şairlər.

Xalqın ürəyidir mənim şairim,
Arzu-diləyidir mənim şairim.
Düşünən beynidir mənim şairim,
Arazım, Kürüm tək daşar şairlər.

23.05.1997

## HÜSEYN KÜRDOĞLU KÖÇDÜ DÜNYADAN

Dedilər elimin bülbül şairi,
Hüseyn Kürdoğlu köçdü dünyadan!
Yaşayır qəlbimdə sözü, şeriylə,
İlham aldı qarlı dağdan, qayadan,
Hüseyn Kürdoğlu köçdü dünyadan!

Bu xəbər sinəmi edibdir dağ-dağ,
Kirs dağı, İşıqlı çəkəcək fəraq.
Küləklər dağlara aparsın soraq,
Onu olmayacaq bir də oyadan,
Hüseyn Kürdoğlu köçdü dünyadan!

Ölməz şah əsəri təbiət idi,
Qəlbində vətənə məhəbbət idi.
Damarında axan sədaqət idi,
Yarandı qeyrətli bir mərd soyaddan,
Hüseyn Kürdoğlu köçdü dünyadan!

Yazmışdı «Vətəndə vətənsizəm mən»,
Dardaydı gəzdiyi cənnət çöl-çəmən.
Laçınsız sızladı, saça düşdü dən,
Bizi kim ayırdı nurlu ziyadan?!
Hüseyn Kürdoğlu köçdü dünyadan!

Azər deyər, ruhun uçdu dağlara,
Baxmaq üçün viran olan bağlara.
Əl yetməyir, əfsus ötən çağlara,
Ruhun da yazacaq dərddən, yaradan,
Hüseyn Kürdoğlu köçdü dünyadan!

25.07.2003

*Mürvət Qədimoğlu*
*Həkəri*

## İTKİ

*(Şair dostum Şamil Əsgərov mənə zəng eləyib gözəl insan, tanınmış şair Hüseyn Kürdoğlunun dünyasını dəyişdiyini bildirdi, axırda da göz yaşı içərisində: «Hüseyni də belə itirdik!» – dedi…)*

Hüseyni də belə itirdik – dedin,
Qəfil ildırım tək çaxdı bu itki.
Ürəyimi dəlib, yandırıb-yaxan,
Ağrılı-acılı oxdu bu itki.

Yandım bu itkinin yandım odunda,
Döndü yanğısına dostun, yadın da.
Qubadlı adında, Laçın adında,
Dağılmış evimi yıxdı bu itki.

Bir şair itirdik Kürdoğlu adda,
Kürdlüyü qədər də Türkoğlu adda.
Bütöv Azərbaycan yandı bu odda,
Fəryaddı, amandı, ahdı bu itki!

Bu dərd sağalacaq haçana sənsiz,
Dən düşər İlhamın saçına sənsiz.
Daha necə gedək Laçına sənsiz,
Bütün arzuları yıxdı bu itki!..

Yolları bağlayıb yağı dağlara,
Kim çatdırsın bu cür ahı dağlara?!
Biz sənsiz nə deyək axı dağlara,
Elləri yandırıb-yaxdı bu itki?!

Mürvət də yaş tökür üzü dağlara,
On ildir yetişmir sözü dağlara.
Apara bilmədik Sizi dağlara,
Başımızı yerə soxdu bu itki!..

18.07.2003

*Firudin Şimşək*

## GÖYNƏTDİ

*Məhşər imiş dünya, gördüm gözümlə,*
*Öz dünyamı aparıram özümlə.*
*Əzizlərim, ağlamayın mənimçin,*
*Mən özümü ağlamışam sözümlə.*

*Bu misralar Azərbaycanın qüdrətli şairi, filoloq alimi Hüseyn Kürdoğlunun məzar daşına həkk olunub. Həmin misraların təsiri altında mənim bu qoşmam yarandı.*

Hüseyn Kürdoğlunun ölüm xəbəri,
Obanı göynətdi, eli göynətdi.
Bu ağır itkinin qəmi, kədəri,
Şah pərdə üstündə zili göynətdi.

Dözmədi ürəyi qoşa dərdinə,
Laçın həsrətinə, Şuşa dərdinə.
Yazılsın qayaya, daşa dərdi nə?
Bilinsin zirvəni, tili göynətdi.

Matəm donu geyib Laçın qayası,
Qeyb olub qartalı, boşdu yuvası.
Dəlidağ zirvədə tutanda yası,
Tərtərin harayı seli göynətdi.

Əcəli yetməmiş getdi dünyadan,
Gör nələr eylədi, gərdişi-dövran.
Şair yaratmışdı onu Yaradan,
Cinaslı şerində dili göynətdi.

Mən şair Şimşəyəm, demirəm belə,
Qələm dilə gəldi, götürdüm ələ.
Yazdım ki, yayılsın obaya-elə,
İki min üçüncü ili göynətdi.

20 avqust, 2003
«Azad Azərbaycan» qəzeti,
22 avqust, 2003-cü il

# MÜNDƏRİCAT

## *M ə q a l ə l ə r*

***Bəxtiyar Vahabzadə***
Yaradıcılıq yollarında...............................................5
Gənc poeziya............................................................6

***Qasım Qasımzadə***
Mətanət və zəriflik ...................................................7

***Yaşar Qarayev***
Təbiət: poeziya və ekologiya.....................................11
Karvan Laçından keçəcək..........................................23

***Bəkir Nəbiyev***
Meydan kiçik olsa da…..............................................28
Yurduma qurbandır sözüm.........................................38

***Camal Mustafayev***
Dağlar duruluq bağışlar..............................................46

***Tofiq Hacıyev***
Yeni ədəbiyyat yaranır...............................................48

***Şamil Salmanov***
Nəslin bir yarpağı da düşdü .......................................55

***Nadir Cabbarlı***
Yaralı torpaq ağrısıyla…............................................60

***Nəriman Həsənzadə***
Ruhlar yaşayır ...........................................................67

***Məmməd Aslan***
Qaya çiçəklərindən biri..............................................70

*İlyas Tapdıq*
Təbiət nəğməkarı........................................................75

*Teymur Kərimli*
Dağ çiçəyinin təbəssümü...........................................78
Dördlüklər..................................................................81

*Əli Saləddin*
Azərbaycan sovet poeziyasının
bəzi inkişaf xüsusiyyətləri ..........................................84

*Cavanşir Yusifli*
Ömür yolu, karvan yolu .............................................86

*Qurban Bayramov*
Aydınların aydınlığı… ................................................92

*Aqil Abbas*
Şair Hüseyn Kürdoğluya ağı .......................................100

*Nazim Əhmədli*
Hüseyn Kürdoğlu haqqında söz .................................101

*Əbülfət Mədətoğlu*
Sözü torpağını öpən şair.............................................103

*Adil Cəmil*
Xalq ruhunun tərcümanı.............................................105

*Salman Şəlvədərəli*
Vətənə sədaqət, milli əzəmət
və fəlsəfi hikmətlər poeziyası....................................108

*Zümrüd Şəfiyeva (Rəhimova)*
Abdulla Qoran poeziyasının tədqiqi ...........................114
Alimin monoqrafiyası ................................................117

*Bünyad Əhmədov*
Alim-şair ..................................................................119

***Fəxrəddin Əzimov***
«Qaya çiçəkləri» ........................................................123

***Hörmətəli Kərimov***
Çiçək təbəssümlü şair ................................................125

***Zakir Məmmədov***
Toy karvanı ...............................................................128

***Əli Aslanoğlu***
Qızıl balıq gəlişi.........................................................130

***Rəfael Güləliyev***
Ölümüylə vüsala çatan şair ........................................138

***Fariz Çobanoğlu***
Şairin ölümünə mən inanmıram,
siz də inanmayın .......................................................150

***Mir Cəfər***
Sənətkar və şəxsiyyət bütövlüyü...............................157

***Cəvahir***
İslami dəyərlərdən bəhs edən kitablar........................160

***Ağayar***
«Cəsarət sərçəyə də qüvvət verir…» .........................161

Hüseyn Kürdoğlu – 50 ................................................167
Yaralı torpağın şairi....................................................168
Hüseyn Kürdoğlu (nekroloq) .....................................170
Gəlimli-gedimli dünya...............................................172

## *X a t i r ə l ə r*

***Teymur Bünyadov***
Gözləri yol çəkərdi ....................................................175

***Ağa Laçınlı***
Hüseyn Kürdoğlu haqqında xatirələrim.....................182

***Şamil Əsgər Dəlidağ***
İnana bilmirəm, inanım necə?....................................198

***Əli Qurban Dastançı***
Hüseyn Kürdoğlu ilə deyişmə....................................226

***Zümrüd Şəfiyeva (Rəhimova)***
İlham çeşməsi...........................................................247

***Ahmədе Həpo***
Ürək zərbəsi..............................................................253

***Əbil Şükürov***
Unudulmaz, heç vaxt yaddan çıxmayan
əziz dostum, ustad şair H.Kürdoğlu haqqında
xatirələrim.................................................................265

***Südabə Şükür***
Nəmli gözlərinə baxa bilmədim ................................271

***Fəridə Alışanlı***
Keçən günlərimi qaytaraydılar…...............................274

## *Ş e r l ə r*

***Aşıq Şəmşir***
Bizə qonaq gəl .........................................................285
İndicə.........................................................................286
Sən ............................................................................287
Gəlmədin...................................................................288
Məni ..........................................................................289
Hüseyn Kürdoğluya məktub .......................................289
Tanıdar ellərə ............................................................290
Əyilməz.....................................................................291
Laçında......................................................................292
Arasında ...................................................................293
Sizə güvəndim ..........................................................293
Kimi...........................................................................294
Gəlsə Kürdoğlu .........................................................295

*Ağa Laçınlı*
İşıqlı...............................................................296

*Məmməd Aslan*
Kürdoğluya məktub ...............................................298
Nərgiz içində...........................................................299

*Rəşid Acalov*
Qar yağa-yağa.........................................................301

*Yaşar Qarayev*
Hüseyn Kürdoğluya məktub ....................................303

*Atif Zeynallı*
Son eşqim................................................................304

*Abbasəli Sarovlu*
Bəyaz bənövşə..........................................................305

*Əli Qurban Dastançı*
«Ağ bənövşə» şairinə ..............................................307
Mənim arzum...........................................................307

*Nazim Əhmədli*
A dağlar...................................................................309

*Şamil Əsgər Dəlidağ*
Qalmış ....................................................................310
Hüseyn Kürdoğluya məktub ....................................311
Qardaş ....................................................................312
Yoxdur....................................................................312
Şirindil....................................................................313
Unuduram özümü, səni yada salanda.........................314
Unutmaq olarmı unudulmazı?...................................315
Bilmədim................................................................316

*Mirsədi Mirlər*
Hüseyn Kürdoğluya .................................................318

***Rəfiqə Nuray***
Dünyadan küsübdür Quba gözəli ................................320

***Axund Hacı Soltan Əlizadə***
Şair Hüseyn Kürdoğluya ............................................321

***Seyid Əyyub Ağa***
Göndərdim ................................................................322

***Mir Cəfər***
Laçında.....................................................................323

***Kamandar Eyvazlı***
Yaz gəlib ...................................................................324
Keçir.........................................................................325

***Dəmirçi Abbas***
Qardaşımsan..............................................................327

***Şabər Şəmşiroğlu***
Qardaşım Hüseynə .....................................................328

***Eyvaz Yusifov***
Hüseyn Kürdoğluya ...................................................329

***Bədirxan Laçınlı***
Sinəmə .....................................................................330

***T.Nəcib***
Mənim.......................................................................331
Gərək.........................................................................332
Sual...........................................................................333
Görürəm indi.............................................................334
Söhbətə gəldi ............................................................335
Görüşə bir də.............................................................336
Ziyarət olar................................................................337

***Məs'udi Dövran***
Mən ..........................................................................338

*Maqsud Kəlbalıyev*
Qardaşım ................................................................339

*E.Kamil*
Hüseyn Kürdoğluya ..................................................340

*Rəfayıl Mayıl*
Həmişə ...................................................................341

*Sabir Eyvazov*
«Laçın dağları dustaq» ...............................................342
«Bir zaman çapsan da yorğa köhləni» ........................344

*Möhbalı Quliyev*
A Kürdoğlu...............................................................346

*Məhəmməd Səyyah*
Əhmədlidə................................................................347

*Pənah Mikayılov*
Əzizim .....................................................................348

*İlyas Qəmgin*
Bir də, bir də ............................................................349

*Arif Qızılqaya*
Şairlər......................................................................351

*Azər Güləliyev*
Hüseyn Kürdoğlu köçdü dünyadan ............................352

*Mürvət Qədimoğlu Həkəri*
İtki ...........................................................................353

*Firudin Şimşək*
Göynətdi..................................................................355

# «BİR ŞER BULAĞIYDIM…»

***(Şair Hüseyn Kürdoğlu haqqında məqalələr, xatirələr, şerlər)***

*Bakı – «Sabah» - 2005*

Kompüter tərtibçisi: **Nasir Alışanlı**

Formatı: 84x108 1/32. Həcmi 22,75 ç.v.
Tirajı Sifariş №
Qiyməti müqavilə əsasında.

«ELM» RNPM–nin mətbəəsində çap olunmuşdur
(İstiqlaliyyət, 8).